Azərbaycan Respublikasının Prezidenti
yanında Elmin İnkişafı Fondunun qrant
layihəsi çərçivəsində nəşr olunmuşdur.

# NAXÇIVAN
# UŞAQ FOLKLORUNDAN
# ÖRNƏKLƏR

BAKI – ELMİN İNKİŞAFI FONDU – 2017

*Tərtib edənlər:*
**Rafiq Babayev**
**Əkrəm Hüseynzadə**
**Şölə Əliyeva**

*Redaktorlar:*
**Rafiq Babayev**
**Əli Həşimli**

*Rəyçilər:*
**İsmayıl Hacıyev**
*AMEA-nın həqiqi üzvü*

**Əbülfəz Quliyev**
*AMEA-nın müxbir üzvü*

**Naxçıvan uşaq folklorundan örnəklər.** – Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2017. – 368 səh.

Naxçıvan folklor mühitində uşaq folkloru mətnləri özünəməxsus yer tutur. Kitabda böyüklərin uşaqlar üçün yaratdıqları örnəklərdən-laylalar, oxşamalar, mərasimlər, yanıltmaclar, deyimlər, tapmacalar, nağıllardan və s. bəhs edilir.

Kitabda həm də uşaqlar üçün yaradılan örnəklərə diqqət yetirilir, andlar, inamlar, advermələr və s. də önə çıxarılır. Bütövlükdə ilk dəfədir ki, Naxçıvan bölgəsinə məxsus uşaq folkloru örnəkləri toplu şəklində təqdim olunur.

**Kitab Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun qrant layihəsi çərçivəsində çap olunmuşdur: Qrant № EİF-2012-2(6)-39/29/5.**

**Bu əsər 27 avqust 2012-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu tərəfindən Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyində qeydiyyatdan keçirilmiş və əsərin qeydiyyatı haqqında 7297 nömrəli Şəhadətnamə (qeydiyyat nömrəsi: 04/C-6472-12) verilmişdir.**

*Üz qabığındakı rəsm əsərinin müəllifi Naxçıvan Muxtar Respublikasının əməkdar rəssamı Əli Səfərovdur.*

**ISBN: 978-9952-516-10-4**

© Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2017
© R.Babayev, Ə.Hüseynzadə, Ş.Əliyeva 2017

***"Uşaqlar gözəldir. Azərbaycan prezidenti kimi mənim üçün də respublikamızda hər bir uşaq gözəldir. Mən Azərbaycanda uşaqların hər birini gözəl, hər birini istedadlı hesab edirəm. Azərbaycanın hər bir uşağını öz doğma övladım hesab edirəm."***

**Heydər Əliyev**

*Azərbaycan xalqının ümummilli lideri*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN

# S Ə R Ə N C A M I

## Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında

Hər bir xalqın tarixində xalq yaradıcılığı onun milli-mənəvi dəyərlərinin və dünyagörüşünün, təşəbbüskarlıq və novatorluğunun təzahür formalarından biridir. Tarixi-mədəni və bədii irsimizin daşıyıcısı olan Azərbaycan xalq yaradıcılığı əsrlər boyu formalaşaraq və inkişaf edərək günümüzədək gəlib çatmışdır.

Azərbaycanın qədim Naxçıvan torpağında yayılmış el sənəti nümunələri böyük və zəngin bir tarixi mərhələni, mədəni inkişaf dövrünü əhatə edir. Qədim sivilizasiyaya və müasir mədəni inkişafa layiqli töhfə olan bu yaradıcılıq nümunələri xalqımıza xas milli xüsusiyyətləri və xarakteri, adət-ənənələri, həyat və məişət tərzini özündə cəmləşdirərək müasir dövrdə parlaq şəkildə nümayiş etdirir.

Xalq yaradıcılığımız öz kökünü ən qədim dövrlərdən götürür. Naxçıvan Muxtar Respublikası ərazisində aparılmış arxeoloji qazıntılar xalq yaradıcılığının mühüm qolu olan el sənətkarlığının 5-7 min illik inkişaf dövrü keçdiyini sübuta yetirir. Qədim xalq sənəti sahələri olan dulusçuluq və daşişləmə Neolit, metalişləmə isə Eneolit dövründən məlum idi. Naxçıvanda əkinçiliyin və maldarlığın intensiv inkişafı sənətkarlığın da inkişafına təsir göstərmiş, mədəni tələbatın artması müxtəlif bəzək əşyalarının düzəldilməsi, hətta əmək alətlərinin, məişət avadanlıqlarının, silahların müəyyən hissələrinin gözəl bədii tərtibatla hazırlanması ilə nəticələnmişdir. Naxçıvan Muxtar Respublikasının indiki və tarixi ərazilərində yaşamış əcdadlarımızın sosial həyat tərzi, dini – ideoloji baxışları, inamları və adət-ənənələri bu dövrün sənətkarlığında öz əksini tapmışdır.

Qədim xalq sənətkarlığının mühüm sahələrindən olan dulusçuluq Naxçıvan ərazisində eradan əvvəl 7-ci – 6-cı minilliklərdə yaranmış, Eneolit dövründən başlayaraq dulus çarxlarında gil qab hazırlanması və xüsusi kürələrdə bişirilməsi geniş yayılmışdır.

Naxçıvan, eyni zamanda dünyanın ilk metalişləmə ocaqlarından biri olmuşdur. I Kültəpənin ən qədim mədəni təbəqəsindən müxtəlif mismərgümüş, nikel-mərgümüş qatışığı olan alətlər və bəzək nümunələri əldə edilmişdir. Ordubad rayonunun Plovdağ nekropolundan tuncdan hazırlanmış sancaqlar, I Kültəpədən isə tunc dövrünə aid bıçaq və sancaqlar tapılmışdır. Arxeoloji qazıntılar nəticəsində əldə olunmuş materiallar Naxçıvanın qədim sakinlərinin sümükdən və daşdan da əmək və bəzək alətləri hazırladıqlarını göstərir. Sonrakı dövrlərdə sənətkarlıq daha da inkişaf etmiş, xalq sənətinin ağacişləmə, misgərlik, zərgərlik, ipəkçilik, boyaqçılıq, papaqçılıq, dabbaqlıq, dülgərlik, toxuculuq, xüsusilə də xalçaçılıq kimi sahələri genişlənmiş, Naxçıvanın zövqlə hazırlanmış müxtəlif məişət əşyaları və zərgərlik məmulatları böyük şöhrət qazanmışdır.

Naxçıvanda toxuculuğun, boyaqçılığın və ipəkçiliyin inkişafı tarixən milli geyim mədəniyyətinin də formalaşmasına şərait yaratmışdır. Milli geyim və milli mətbəx xalq yaradıcılığının ən mühüm sahələrindən biridir. Naxçıvanda bu sahələr daha qədim dövrlərdən yaranmış, təbii-coğrafi şəraitə uyğun olaraq formalaşmış, inkişaf etmiş, hər əsrdə özünəməxsus milli cəhətlərlə daha da zənginləşmişdir. Xalqın tarixini, etnoqrafik və bədii xüsusiyyətlərini özündə cəmləşdirən milli geyimlər və mətbəx nümunələri bu gün maddi və mənəvi mədəniyyətimizin qaynaqları kimi qorunur və inkişaf etdirilir. Təkrarsız milli yaradıcılığımızın nəticəsi olan Azərbaycan geyimlərini muzeylərimizdə, ayrı-ayrı tarixi teatr tamaşalarında və filmlərdə görə bilirik. Müxtəlif folklor ansambl və qrupları da bu gün milli geyimlərimizi yaşadır və təbliğ edirlər.

Xalq yaradıcılığının ən qədim sahələrindən biri də şifahi poetik yaradıcılıq kimi dəyərləndirilən folklordur. Azərbaycan ərazisində folklorun tarixi ilk insan məskənlərinin meydana gəlməsi dövrü ilə bağlıdır. Xalqımızın həyatında elə bir əhəmiyyətli hadisə yoxdur ki, o, şifahi yaradıcılıqda, aşıq poeziyasında, xalq musiqisində bu və ya digər şəkildə öz əksini tapmasın. Dünyanın qədim və mədəni xalqlarından olan Azərbaycan

xalqı ən qədim dövrlərdən başlayaraq xalq yaradıcılığında öz tarixini bu və ya digər şəkildə əks etdirmişdir. Xalqımızın mifoloji-bədii dünyagörüşünün izləri indi də folklorda özünü büruzə verməkdədir. Müxtəlif ayin, mərasim və əmək proseslərinin nəticəsi olaraq meydana gələn Azərbaycan folkloru ilk növbədə canr baxımından rəngarəngliyi ilə diqqəti cəlb edir. Xalqımızın yaradıcı düşüncəsinin məhsulu olan miflər, əfsanələr, nağıl və rəvayətlər, zərb-məsəllər, tapmacalar, dastanlar, aşıq yaradıcılığı, meydan tamaşaları, xalq musiqi və rəqsləri nəsildən-nəslə, əsrdən-əsrə Azərbaycan türklərinin ruhunu yaşadaraq zəmanəmizə qədər gətirib çıxartmışdır.

Ənənəvi xalq bayramları, Novruz və Xıdır Nəbi mərasimləri Azərbaycan folklorunun zənginliyini nümayiş etdirir. Yurdumuzun qədim sakinlərinin, əcdadlarımızın dünyagörüşünün, bədii-estetik təfəkkürünün təzahür forması olan folklorun, musiqi və rəqs sənətinin ən qədim qaynaqları eramızdan əvvəl 4-cü – 1-ci minilliklərə aid Gəmiqaya təsvirlərində, "Avesta" və "Kitabi-Dədə Qorqud" kimi qədim qaynaqlarda öz əksini tapmışdır. Dünyanın ən qədim kollektiv ifa növlərindən olan Azərbaycan xalq yallıları xoreoqrafiya, instrumental və vokal musiqisini özündə birləşdirən nadir yaradıcılıq nümunəsidir.

Qədim rəqs və musiqi mədəniyyəti ilə sıx bağlı olan, vaxtilə geniş yayılmış qədim çalğı alətlərimizin də bu gün geniş təbliğinə və gənc nəslə, eləcə də beynəlxalq ictimaiyyətə tanıdılmasına ciddi ehtiyac vardır. Cəng, ud, təbil, tənbur, qanun, qopuz, rübab, tulum, kərənay, ney, zurna, balaban kimi çalğı alətlərimizin adlarına musiqi tarixinə dair mənbələrdə, "Kitabi-Dədə Qorqud", "Koroğlu" dastanlarında, eləcə də klassik şairlərimizin əsərlərində rast gəlinir. Qədim çalğı alətlərinin bir çoxu bərpa olunmuş və yenidən musiqi alətlərinin sırasına daxil edilmişdir.

Xalqımızın müstəqillik yoluna qədəm qoyduğu indiki şəraitdə xalq yaradıcılığının, əsrlər boyu yaranan mənəvi və maddi-mədəniyyət nümunələrinin öyrənilməsi, ənənəvi sənət sahələrinin dirçəldilməsi, onların geniş şəkildə tətbiq və təbliğ olunması mühüm əhəmiyyət kəsb edir.

Naxçıvan Muxtar Respublikasında xalq yaradıcılığının inkişafı və qorunub saxlanması istiqamətində bir sıra işlər görülmüş, folklor kollektivlərinin və xalq teatrlarının fəaliyyəti gücləndirilmiş, onlar milli geyim

dəstləri ilə təmin olunmuşlar. Hal-hazırda muxtar respublikada mövcud olan 50 folklor kollektivinin 600-ə yaxın üzvü xalq yaradıcılığının bu və ya digər sahələrini qoruyub yaşatmaqdadır.

Xalqların, ölkələrin bir-birinə daha çox inteqrasiya olunduğu, dərin qloballaşma proseslərinin getdiyi indiki şəraitdə azərbaycanlıların milli kimlik pasportu olan xalq yaradıcılığının qorunub saxlanması və inkişaf etdirilməsi, xalq sənəti nümunələrinin, milli mətbəxin, folklorun, milli rəqs və mahnı sənətinin daha geniş, sistemli şəkildə təbliğ olunması, böyüməkdə olan gənc nəslə milli-mənəvi dəyərlərin aşılanması məqsədi ilə **qərara alıram:**

1. "Novruz bayramı" şənliklərində Xalq yaradıcılığı günləri keçirilsin.

2. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi:

2.1. Naxçıvan Muxtar Respublikası ərazisində mövcud olan etnoqrafik və folklor materiallarının yenidən toplanması, sistemləşdirilməsi və elmi tədqiqatlara cəlb olunması üçün tədbirlər görsün, əldə olunmuş materiallar əsasında "Naxçıvan folkloru antologiyası"nı hazırlayıb nəşr etdirsin;

2.2. Naxçıvan folkloru atlasını işləyib hazırlasın;

2.3. Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə xalq yaradıcılığı nümunələrinin sistemli şəkildə təbliği üçün təsirli tədbirlər görsün;

3. Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Bəstəkarlar Təşkilatı xalq mahnı və rəqslərinin, Naxçıvanla bağlı saz havalarının tədqiqinə və təbliğinə, qədim çalğı alətlərinin tətbiqinə diqqəti artırsınlar.

4. Muxtar Respublikada mövcud olan xalq teatrlarının və folklor ansamblların fəaliyyətinə hərtərəfli köməklik göstərilsin.

5. Bu sərəncam dərc olunduğu gündən qüvvəyə minir.

**Vasif Talıbov**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri

*Naxçıvan şəhəri, 07 fevral 2009-cu il*

*“Uşaq ədəbiyyatı uşağın formalaşmasında mühüm rola malikdir. Bu ədəbiyyat böyüməkdə olan gənc nəslin etik və estetik tərbiyəsinə istiqamət verməli, onları xalqımızın malik olduğu milli dəyərlər, qəhrəmanlıq, düzlük, əməksevərlik və vətənpərvərlik ruhunda tərbiyə etməlidir.”*

**Vasif Talıbov**

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri*

# ÖN SÖZ

Zəngin, qədim və çoxşaxəli Azərbaycan şifahi xalq ədəbiyyatının, o cümlədən uşaq folklorunun toplanılması, nəşri və tədqiqi sahəsində indiyədək bir sıra mühüm işlər görülmüş, çoxsaylı kitablar nəşr olunmuş, dəyərli araşdırmalar aparılmış, samballı elmi əsərlər yazılmışdır.

Naxçıvan Muxtar Respublikasında da bu istiqamətdə mühüm tədbirlər həyata keçirilmiş və keçirilməkdədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun ardıcıl və möhtəşəm qayğısı sayəsində bütün sahələrlə yanaşı, şifahi söz sənətimizin toplanılması, nəşri və tədqiqi üçün də hərtərəfli şərait yaradılmışdır. Xüsusən Ali Məclis Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 07 fevral 2009-cu il tarixli Sərəncamı milli-mənəvi dəyərlər sistemində xüsusi yeri olan folklorumuza diqqət və marağın daha da artmasına, onun çağdaş elmi prinsiplər səviyyəsində təqdimi və tədqiqinə böyük təsir göstərmişdir.

Göstərilən böyük qayğının nəticədir ki, son illərdə Naxçıvan regionunda toplanılmış folklor nümunələrindən ibarət bir sıra kitablar çap olunmuşdur ki, onların sırasında üç cildlik "Naxçıvan folkloru antologiyası" adlı fundamental nəşrin xüsusi yeri vardır. Eyni zamanda, bu regionda toplanılmış şifahi xalq ədəbiyyatı nümunələrinin sistemli şəkildə araşdırılması sahəsində də diqqətəlayiq işlər görülmüş, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində, Naxçıvan Dövlət Universitetində, "Naxçıvan" Universitetində və Naxçıvan Müəllimlər İnstitutunda çalışan alimlər və gənc tədqiqatçılar tərəfindən dissertasiyalar müdafiə edilmiş, bir çox məqalələr və kitablar nəşr olunmuşdur. Ayrıca vurğulamaq lazımdır ki, görülmüş işlər təkcə Naxçıvan bölgəsində folklor materiallarının toplanılması, nəşri və tədqiqi üçün faydalı olmaqla məhdudlaşmır, bütövlükdə Azərbaycan folklorşünaslığı üçün əhəmiyyətlidir.

Azərbaycan şifahi xalq ədəbiyyatının, o cümlədən uşaq folklorunun regionlar üzrə toplanılması və tədqiqi müxtəlif ərazilərdə qeydə alınan, bu və ya digər dərəcədə bir-birindən fərqlənən folklor nümunələrinin ayrı-ayrı variantlarının aşkarlanması, həmin istiqamətdə müqayisəli təhlillərin aparılması, ortaq və fərqli məqamların üzə çıxarılıb dəyərləndirilməsi həm də yekun elmi qənaətlərin sistematikliyi, konseptuallığı və dolğunluğu baxımından ciddi əhəmiyyət daşıyır. Bütün bunlar isə bütövlükdə Azərbaycan folklorunun daha əhatəli və hərtərəfli öyrənilməsinə xidmət göstərir.

Bu baxımdan oxuculara təqdim olunan "Naxçıvan uşaq folklorundan örnəklər" adlı yeni nəşr də özünəməxsus dəyərə malikdir. Hər şeydən öncə, xatırlatmaq yerinə düşər ki, bu kitab Azərbaycan folklorşünaslığında hər hansı bir bölgədə yayılmış uşaq folklorunun sistemli şəkildə toplanılması və nəşri sahəsində ilk təşəbbüsdür. Digər tərəfdən, bu kitab tədqiqatlar üçün qiymətli və etibarlı mənbə rolunu oynayacaq, Naxçıvan regionundan toplanılmış uşaq folkloru nümunələrinin mövzu dairəsi, ideya-estetik səciyyəsi, milli-mənəvi dəyərlər sistemində mövqeyi, əsas poetik-üslubi özəllikləri barədə əhatəli şəkildə araşdırma aparmağa imkan verəcəkdir.

Uşaq folklorunun cəmləşdiyi bu toplu zəngin söz sənətimizin unudulmaması, gələcək nəsillərə çatdırılması işinə də uğurla xidmət göstərmək səviyyəsindədir. Çoxsaylı və rəngarəng xarakterli uşaq folkloru materiallarının yer aldığı bu kitab geniş didaktik imkanlara da malikdir. Başqa sözlə desək, bağça yaşlı uşaqların, eləcə də kiçik yaşlı məktəblilərin təlim-tərbiyəsi prosesində, onların asudə vaxtlarının səmərəli təşkilində folklor materiallarına hərtərəfli istinad üçün də "Naxçıvan uşaq folklorundan örnəklər"ə müraciət çox faydalı olacaqdır.

Təqdim olunan folklor örnəklərinin geniş əhatəsini və zəngin mündəricəsini də xüsusi qeyd etmək gərəkdir. Belə ki, burada ayrı-ayrı bölmələrdə verilən laylalar, oxşamalar, nazlamalar, dindirmələr, düzgülər, acıtmalar, öcəşmələr, mərasimlər, yanıltmaclar, azdırmalar, deyimlər, tapmacalar, qorxutmalar, sanamalar, inamlar, advermələr, həmçinin nağıllar, uşaq oyunları Naxçıvan regionunda toplanılmış uşaq folklorunun poetika və tematika zənginliyini, dolğunluğunu, bütövlükdə ümumtürk

folklor sistemində böyük önəm daşıdığını əyani şəkildə bir daha nümayiş eütdirir.

Naxçıvan Muxtar Respublikasının müxtəlif şəhər, qəsəbə və kəndlərindən toplanılmış müxtəlif səpkili uşaq folkloru nümunələrinin bir qismində variant fərqləri də qeydə alınır. Bu cəhətə də diqqət yetirən toplayıcı və tərtibçilər ayrı-ayrı folklor materiallarının bir-birindən müəyyən qədər fərqlənən variantlarını da verməklə daha dolğun təsəvvür yaratmağa səy göstərmişlər.

Kitabda uşaq folkloru örnəklərinin söyləyiciləri və toplayıcıları haqqında konkret məlumatların verilməsi, həmçinin uşaq folklorunun xəritəsinin təqdim olunması da çağdaş folklorşünaslığın prinsiplərinə uyğundur.

Muxtar respublikamızda bütün sahələrlə yanaşı, tarixi keçmişə, ədəbi-mədəni irsə, milli-mənəvi dəyərlərə göstərilən möhtəşəm dövlət qayğısının parlaq işığında ərsəyə gələn, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin alimləri və tədqiqatçıları ilə birlikdə hazırladığımız bu dəyərli kitab bütövlükdə Azərbaycan folklorşünaslığına ən layiqli töhfədir.

***Şölə Əliyeva***

# BÖYÜKLƏRİN UŞAQLAR ÜÇÜN YARATDIQLARI ÖRNƏKLƏR

## I.
## LAYLALAR

Lay-lay quzum, ağlama,
Ürəyimi dağlama,
Yat, yuxun şirin olsun,
Yuxuma daş bağlama

❁❁❁

Lay-lay dedim adına,
Haqq yetişmiş dadına.
Boya-başa çatanda,
Məni də sal yadına.

❁❁❁

Laylayım el başına,
Yaraşsın tel başına,
Səni kim istəməsə,
Qalmasın il başına.

❁❁❁

Balam yatır beşikdə,
Bülbül oxur eşikdə,
Sən yat, yuxun alginən,
Mən dürmüşam keşikdə.

❁❁❁

Evində, eşiyində,
Yat quzum, beşiyində,
Dan ulduzu, bir də mən
Durmuşuq keşiyində.

❁❁❁

A lay-lay, yenə lay-lay,
Can deyim sənə lay-lay,
Sənə gələn dərd, bəla,
Qoy gəlsin, mənə lay-lay

❁❁❁

Lay-lay, a balam lay-lay,
Alınmaz qalam, lay-lay,
Sənə kəc baxanları,
Yandırsın nalam, lay-lay.

❁❁❁

Lay-lay, maralım, lay-lay,
Səbrim, qərarım, lay-lay,
Böyü, bir qoç igid ol,
Sənə yar alım, lay-lay.

❁❁❁

Lay-lay, balam, gül balam
Sən mənim sünbül balam,
Laylayımla yatasan,
Oyatsın, bülbül, balam.

❁❁❁

Nərgizi üzüm, lay-lay,
Yaxana düzüm, lay-lay,
Sən böyü, mən qocalım,
Toyunda süzüm, lay-lay.

❁❁❁

Lay-lay, dedim, can dedim,
Yuxudan oyan dedim,
Sən yuxudan durunca,
Canımı qurban dedim.

❁❁❁

Lay-lay mənim bəbəyim,
Bir arzum, bir diləyim,
Bəd gündə, bəd ayaqda,
Sənsən mənim köməyim.
Lay-lay dedim ürəkdən,
Qolum düşdü biləkdən,
Boy at, igid, cavan ol,
Məni salma diləkdən.

❁❁❁

Laylayım, sözüm qurban,
Ağlasan gözüm qurban,
Böyü, boya-başa çat,
Boyuna özüm qurban.

❁❁❁

Lay-lay deyim carçı mən,
Harayçı mən, carçı mən.
Toy günündə olaydım,
Küçələrdə carçı mən

❁❁❁

Lay-lay dedim, yatasan,
Dərdi, qəmi atasan,
Qızılgül bağın olsun,
Gül-çiçəyə batasan.

❁❁❁

Bala, ömrün çox olsun,
Könlün, gözün tox olsun,
Sənə layla çalırım,
Düşmənlərin yox olsun.

❁❁❁

Balam oynur, yatmayın,
Sözünə söz qatmayın.
Layla deyin balama
Qoy yatsın, oyatmayın.

❁❁❁

Qoxusu güldən gəlir,
Güldən, bülbüldən gəlir.
Balamın gül beşikdə
Yuxusu birdən gəlir.

❁❁❁

Ay qara şalvar balam,
Üzündə xal var balam.
Yad yalana əl açma,
Tanrıya yalvar, balam.

❁❁❁

Anamın özü gözəl,
Laylası, sözü gözəl.
Sığınanda qucağı,
Baş qoysan, dizi gözəl.
Lay-lay dedim biləsən,
Düşməyəsən dilə sən.
Boya, buxuna çatıb
Oynayasan, güləsən.

❁❁❁

Layla dedim adıva,
Əli yetsin daduva.
Əli daduva yetəndə
Məni də sal yaduva.

❁❁❁

Laylay canım qurbanı,
El laylayın heyranı.
Sən get şirin yuxuya.
Olum canın qurbanı.

❁❁❁

Laylan birdən-birdən,
Beşiyi inci, dürdən.
Layla de balam yatsın,
Yuxusu qızılgüldən.

❁❁❁

Ağlama cırtdan bala,
Ağır yoğurtdan bala.
Gedim unu ələyim,
Gəlim səni bələyim,
Laylay, bala, a laylay.

❁❁❁

Laylası var balamın,
Laylay balam, a laylay.
İlləsi var balamın,
Laylay balam, a laylay.
Uzaq, uzaq ellərdə
Əmisi var, dayısı var balamın,
Balam laylay, a laylay.

❁❁❁

Oyaq qallam yatınca,
Gözlərəm ay batınca.
Qolumu yastıq edərəm.
Sən hasilə çatınca.
Layla balam, a layla
Layla gülüm, a layla

❁❁❁

Laylay dedim, can balam,
Mən sənə qurban balam.
Bir belə yatmaq olmaz,
Açılır səhər balam.
Laylay, bala, a laylay.
Ömrə yaraşıq balam,
Laylama aşıq balam,
Gözümə işıq balam,
Laylay, balam, a laylay,
Şirin dillim, a laylay.

❁❁❁

Qızıl gülə batmısan,
Hər gün bir boy atmısan,
Bir yaşına çatmısan,
Laylay, balam, a laylay,
Şirin dilim, a laylay.

❁❁❁

Laylay balam, gül balam,
Sən mənim sünbül balam.

Laylayımla yatasan.
Oyatsın bülbül balam.

❅❅❅

Laylay dedim, can balam,
Mən sənə qurban, balam.
Bir belə yatmaq olmaz,
Dur açılır dan, balam.

❅❅❅

Laylay balam, can balam,
Mən sənə qurban, balam.
Ağlayıban könlümü
Gəl eyləmə qan, balam.

❅❅❅

Laylay, hər kəsim, laylay,
Sənə nər kəsim, laylay.
Yat yuxun şirin olsun,
Ucalsın səsin, laylay.

❅❅❅

Laylay, bəyim, laylay,
Gözəl-göyçəyim, laylay.
Qürbət ölkə, yad eldə
Arxam, köməyim, lay-lay.

❅❅❅

Layla, layla edərəm,
Laylanı haxtan diləråm.
Səni verən xudadan
Can sağlığı diləråm.
Laylay, balam, a laylay,
Şirin dilim, a laylay.

❅❅❅

Sən ömrümün gülüsən,
Baxçamın sünbülüsən.
Gül dodağın güləndə
Neyləyirsən gülü sən.
Laylay, balam a laylay.

❅❅❅

Layla dadı, bal dadı,
Layla məni aldadır.
Nə balda, nə şəkərdə
Tapılmaz layla dadı.

❅❅❅

Laylay, laylay deyərəm,
Laylayı haqdan diləråm.
Səni verən Allahdan
Can sağlığı diləråm

❅❅❅

Laylay deyim adına,
Əli yetsin dadına.

Əli dadına yetəndə,
Nənəni sal yadına.

❁❁❁

Laylay, bülbülüm, laylay,
Sarı sünbülüm, laylay.
Bağçalarda gül çoxdur,
Bir qızıl gülüm, laylay.

❁❁❁

Laylay dedim yatasan,
Dərdi, qəmi atasan.
Qızıl gül bağın olsun,
Gül-çiçəyə batasan.

❁❁❁

Laylay toyun qurbanı,
Kəsim qoyun qurbanı.
Sən yeri, bir mən baxım,
Olum boyun qurbanı.

❁❁❁

Laylay dedim doyunca,
Baş yasdığa qoyunca.
Pardaxlan, qızıl gülüm,
Bir iyliyim doyunca.

❁❁❁

Laylayım quşdar olsun,
Dağda dərvişlər olsun.
Zərgərin çoxlu gəlsin,
Otağın gümüşdən olsun.

❁❁❁

Layalay dərdin alım, yat,
Ürəyimə salım, yat.
Sən bat şirin yuxuya,
Mənsə oyaq qalım, yat.

❁❁❁

Laylay dedim ürəkdən,
Əlin çıxır bələkdən.
Sinəm ilə saxlaram
Səni qardan, küləkdən.

❁❁❁

Laylay, dil aç, söz danış.
Gözlərəm mən tez danış.
Boy at, eli, obanı
Kişi kişi gəz, danış.

❁❁❁

Laylay mənim, bal balam,
Tütək götür çal, balam.
Sən hamıdan gözəlsən,
Yanağında xal balam.

Göyçək balam, a laylay
Çiçək balam, a laylay
Qönçə dolu butasan,
Hər kamına çatasan.

❁❁❁

Qızılı şah budağın
Kölgəsində yatasan.
Ay bala, bəndim, laylay
Şəkərim, qəndim, laylay.

❁❁❁

Gül dolu taxtın olsun,
Qızıldan baxtın olsun,
Qardaşının toyunda,
Oynayan vaxtın olsun.
Laylay, göyçəyim laylay
Gülüm-çiçəyim laylay.

❁❁❁

Bala, ömrün çox olsun,
Könlün, gözün tox olsun,
Sənə layla çalırım,
Düşmənlərin yox olsun.

## II.
## OXŞAMALAR, NAZLAMALAR

Balama can demişəm,
Ağlama, can demişəm,
Balam dil açan günə
Quzu, qurban demişəm

❁❁❁

Balam gəlib yatmağa,
Böyüyüb boy atmağa,
Sabah yuxusu şirin,
Qıymaram oyatmağa.

❁❁❁

Oxunur, əzan, bala,
Dur geyin, bəzən, bala,
Boyuna anan qurban,
Beləcə gəzən bala.

❁❁❁

Əlində var hanası,
Qulağında tanası,
Bir toyunu görəydim,
Olaydım bəy anası

❁❁❁

Qızılgül bitib suda,
Birin kəs, birin buda,
Mən durum keşiyində,
Sən yat şirin yuxuda.
Bir gül əkdim boyunca,
İyləmədim doyunca,
Ömrüm, günüm uzansın,
Bu balamın toyunca.

❁❁❁

Şan bağlayan arılar,
Qonar gülə, sarılar,
Balama qurban olsun,
Yaşı ötmüş qarılar.

❁❁❁

Dağ başında qalam var,
Ürəyimdə nalam var.
Xalxın dövləti, varı,
Mənim də bir balam var.

❁❁❁

Qoxsun güldən gəlir,
Güldən, bülbüldən gəlir,
Balamın gül beşikdə,
Yuxusu birdən gəlir.

❁❁❁

Dərya, dibin dərindir,
Suyun necə sərindir,
Ata-ana əzizdir,
Bala candan şirindir.

❁❁❁

Mən gördüm haçan günü
Dağlardan qaçan günü,
Yeddi qurban kəsərəm,
Balam dil açan günü.

❁❁❁

Bağda bülbül oxuyur.
Saça sünbül toxuyur,
Balamı iyləyirəm,
Elə bil gül qoxuyur.

❁❁❁

Tükəndi ahım.
Yoxdur günahım,
Balam böyüsün,
Odur pənahım.
Dağdakı atlar,
Quyruğun qatlar,
Göyçək arvadlar
Bu balama qurban.

❁❁❁

Çaydır, dənizdir,
Quldur, kənizdir,
Balam hər nədir,
Mənə əzizdir.

❁❁❁

Mən bu dərddən ölmərəm,
Dərdi dərdə bölmərəm,
Əziz canımdan dönsəm,
Bir balamdan dönmərəm.

❁❁❁

Qərənfiləm, qalxaram,
Açılmağa qorxaram,
Gecə cınqırın çıxsa,
Yerimdən dik qalxaram.

❁❁❁

Min tümən azdır,
Qızdır, o nazdır
Verin balamı,
Halı nasazdır.

❁❁❁

Qoçaqdı, şirdi balam.
Qiblədi, pirdi balam,
Gəl fələk, qıyma mənə.
Yazığam, birdi balam.

❁❁❁

Bayram, bayramın olsun,
Ellər heyranın olsun.
Niyə belə çox yatdın?
Anam qurbanın olsun.

❁❁❁

Bala demə, qan olar,
Yel əsər, tufan olar,
Bala gəzən yerlərə
Analar qurban olar.

❁❁❁

Xırdacasan, məzəsən,
Sən hər güldən təzəsən,
Qurban olum o günə,
Ayaq tuyub gəzəsən.
Yeni gül-çiçək olsun,
Yarpağı ləçək olsun,
Bir bala göstərin ki,
Balamdan göyçək olsun.

❁❁❁

Məni oyaq qoyan sən,
Qızılgülə boyan sən,
Öpüm qara gözündən,
Bəsdir yatdın, oyan sən.

❁❁❁

Hacılar hacısı,
Şəhərin qazısı,
Balaca bacısı,
Bu balama qurban.

❁❁❁

Xalalar xalısı,
Göllərin sonası,
Gəlinimin anası,
Bu balama qurban.

❁❁❁

Bazarda qazlar,
Ördəklər, qazlar,
Nişanlı qızlar,
Bu balama qurban.

❁❁❁

Hanalar hanası,
Əllərin xınası,
Balamın xalası,
Bu balama qurban.

❁❁❁

Yumurtanın sarısı,
Meşələrin ayısı,
Balaca dayısı,
Bu balama qurban.

❁❁❁

Buğda zəmisi,
Ellərin dəlisi,
Balaca əmisi,
Bu balama qurban.

❁❁❁

Sözümün əzəli,
Dilimin qəzəli,
Qızların gözəli,
Bu balama qurban.
Bostanda sarmaşıq,
Bostana yaraşıq,
Məclisdəki aşıq,
Bu balama qurban.

❁❁❁

Hacı qıcıdal yarpağı,
Astanalar torpağı,
Hər kəs balamı istəmir,
Gözünə bibər yarpağı.

❁❁❁

Ay tanrı-tanrı, haqq tanrı,
Gəl baxçadan bax, tanrı,
Hər kəs balamı istəmir,
Get onun evini yıx, tanrı.

❁❁❁

Kərdi-kərdi çağlaram,
Nehrə-nehrə çalxaram,
Hər kəs balamı istəmir,
Onun dilin, gözün bağlaram.

❁❁❁

Ay saçaq, saçaq, saçaq,
Balam balalardan qoçaq,
Hər kəs balamı istəmir,
Onun gözünə olsun bıçaq.

❁❁❁

A dağdağannar,
Bülbül boğannar,
Oğlan doğannar,
Bu balama qurban.

❁❁❁

Çaydakı qazdar,
Tükün tarazdar,
Nişannı qızdar,
Bu balama qurban,

❁❁❁

Sudan sel iyi gəlir,
Daşdan gil iyi gəlir.
Ay mənim bircə balam,
Səndən gül iyi gəlir.

❁❁❁

Nar budağın əyəndə,
Ucu yerə dəyəndə.
Bir qoç qurban kəsəcəm,
Balam – ana – deyəndə.
Laylası dərin bala,
Yuxusu sərin bala,
Tanrıdan əhdim budur
Toyunu görüm, bala.

❅❅❅

Balamın balasına,
Odunu yığar şələsinə.
Gətirər verər nənəsinə,
Nənəsi qoyar ocağına,
Balasın alar qucağına.

❅❅❅

Əvlərdə beş-beş olsun,
Bizim əvdə on beş olsun.
Biz də xalxa paylıyax,
Xalxın xətri xoş olsun.

❅❅❅

Ay nazdara, nazdara,
Dən səpirəm qazdara.
Qazdar dənin yeyincə,
Sataşıram qızdara.

❅❅❅

Ay mənim çiçək balam,
Çiçəyində ləçək balam.
Hamıdan göyçək balam,
Naz çiçəyim, nar çiçəyim, yaz çiçəyim.

❅❅❅

Bostanda sarmaşıx,
Bostana yaraşıx,
Məclisdəki aşıx,
Bu balama qurban.

❅❅❅

Hacılar hacısı,
Şəhərin qazısı,
Balaca bacısı
Bu balama qurban.

❅❅❅

Balam-balam bal kimi
Balam şəkər bal kimi.

❅❅❅

Dağda meşəlik,
Gül, bənövşəlik.
Mən həmişəlik
Bu balama qurban.

❅❅❅

Balama qurban atası
Açsın gəlin fatası.
Balama qurban nənəsi
Balam inci dənəsi.
Ay qara milçək
Balamdan əl çək
Dağın maralı,
Gözüm qaralı,
Dünyanın malı
Bu balama qurban.

❁❁❁

Tükəndi ahım,
Yoxdur günahım.
Balam böyüsə
Odur pənahım.

❁❁❁

Min tümən azdı,
Qızdır, o nazdı.
Verin balamı
Halı nasazdı.

❁❁❁

Dərdin alım,
Dördün alım,
Qızdarın sa
Dördün alım.

❁❁❁

Dınqılı-dınqılı darıdı,
Dınqılı gözü sarıdı.
Gəzər əvdə, həyətdə
Dokkuz ayın barıdı.
Balama qurban qocalar,
Balam nə vaxt ucalar?

❀❀❀

Atdılar atın çapanda,
Balam da bir dayça.
Xaxlar qız götürüb qaçanda,
Balam da bir dulça.

❀❀❀

Dodağı gül qaymağı,
Yığıb yeməyim gəlir.
Burnu Xorasan fındığı,
Sındırıb yeməyim gəlir.

❀❀❀

Gözləri qəynər bulax,
Əyilib içməyim gəlir.
Qaşları qara qələm,
Götürüb yazmağım gəlir.
Nəvəmə kim qurban?

❀❀❀

Hüseynalı xan qurban,
Arvadı Zalxa qurban,

Qızı Züleyxa qurban,
Bacısı Teyfə qurban,
Gəlini Zübeydə qurban,

❁❁❁

Bülbül balam, gül balam,
Qənd balam, şəkər balam,
Gəl kənarda durum,
Gəl üzümdən öp, balam.

❁❁❁

Buralardı qəmxana,
Həyətimiz seyranxana,
Tökülə gilas yarpağı,
Balam gələ yayxana,
Balam gələ yayxana.

❁❁❁

Adam adamı,
Oğlan adamı,
Qoy elçi gəlsin,
Alsın qadamı.

❁❁❁

Dağda inəklər,
Otlar, iməklər,
Xonçalı bəylər,
Bu balama qurban.

❁❁❁

Bir çay vardır Həkəri,
Bir el vardır köçəri.
Yarəb, balam böyüsün,
Olsun düşmən çəpəri.

❁❁❁

Gözümün qarasısan,
Qəlbimin parasısan.
Boy at, boyuna qurban,
Balamın balasısan.

❁❁❁

Yurd yox, taladan savay,
Gül yox, laladan savay.
Anaya nə əzizdir
Körpə baladan savay?

❁❁❁

Anan tel düzər sənə,
Bacın gül bəzər sənə.
Tanrıdan əhdim budur,
Dəyməsin nəzər sənə.

❁❁❁

Gördüm nalasın,
Çəkdim bəlasın.
Balam da istər
Körpə balasın.

❁❁❁

Bu kimdi gələn,
Turp ilə kələm.
Anandı gələn?
Bacındı gələn?

❁❁❁

Balam yatar axşamdan,
Yuxudan durar o başdan.
Balam oturar qucaqda,
İşimiz qalar bucaqda.
Balama dil demişəm,
Ağlama, gül demişəm.
Balam dil açan günə,
Quzu qurban demişəm.

❁❁❁

Tarı bundan beşini ver,
Beşini ver, on beşini ver.
Hamıya on beşin verəndə
Bizə iyirmi beşini ver.
Şəki şamaması,
Xorasan alması,
Süd doğraması,
camış xaması
Bu balama qurban.

❁❁❁

Ay tarı,
Gəl bacadan bax barı.

Hər kəs balamı istəməsə
Evini tez yıx barı.

❁❁❁

Oğlan ürəkdi,
Qız dirəkdi.

❁❁❁

Yatmışdım oyanmışam,
Yastığa dayanmışam.
O qədər layla deyib
Yorulub dayanmışam.

❁❁❁

Əlində qəçi,
Kürəkdə saçı,
İtdən qaraçı
Mənim balamdı.

❁❁❁

Əlində sülü,
Sülü, bülbülü,
Qızların gülü,
Mənim balamdı.

❁❁❁

Əlində tikə,
Dayandı yükə.

Bir burnu yekə
Mənim balamdı.

❁❁❁

Tanrı bunun tayını ver,
Oxunu gizlət, yayını ver.
Olanlarınkın saxla,
Olmayanların payını ver.

❁❁❁

Başımın al yaylığı,
Ortası zər yaylığı.
Hərə bir kərə desin
Balama can sağlığı.

❁❁❁

Ay tarı, ayanda saxla,
Yerini qayanda saxla.
Havıya bulud gələndə
Al qanadın atda saxla.

❁❁❁

Qızım qızlar içində,
Əyrisi var qıçında.
Qızıma elçi gələcək,
Açılan ay içində.
Qız bir maraldır,
Gözlər qaraldır.

Həsrət çəkənin
Rəngin saraldır.

❁❁❁

Badam badamı,
Oğlan adamı.
Qoy elçi gəlsin,
Verim balamı.

❁❁❁

İşim iş olsun,
Göydə uçan quş olsun.
Məleykələr yoldaşım,
Hurilər bacım olsun.

❁❁❁

Atıban tutum səni,
Əcəb ovutdum səni.
Ömür üzdüm, cəfa çəkdim.
Şükür böyütdüm səni.

❁❁❁

Qızım, qızım,
Muncuğun düzüm.
O gün olsun gəlin olasan,
Toyunda süzüm.

❁❁❁

Güzgüdə düymə,
Tozunu silmə.
Xonçada tirmə,
Kəmər qızımçün.

❁❁❁

Altında xalça,
Çalır kamança.
On dənə xonça
Gələr qızımçün.
Qızıma qurban olum mən,
Qızım nə vaxt yekələcək,
Nənəsinə su gətirəcək?

❁❁❁

Nənəm layla eləsin,
Layla bilməz neyləsin?
Əgər layla bilməsə
Beşik desin, bələsin.

❁❁❁

Laylanın adı nədir?
Şəkərdən dadı nədir?
Çağırıram səs verməz,
Bilmirəm dərdi nədir?

❁❁❁

Balam bulaqdan gəlir,
Əl-üzün yumaqdan gəlir.

Balama söz deməyin
Telin daramaqdan gəlir.

❅❅❅

Balam gəlir ellərdən,
Ətəyi dolu güllərdən.
Allah balamı saxla.
Yaman gözdən, dillərdən.

❅❅❅

Dağların qarı mənəm,
Gün vursa əriмənəm.
Balama layla deməkdən,
Ölüncə yorulmanam.

❅❅❅

Bala şirin,
Kim qatıb bala şirin.
Can hər şeydən şirindi,
Candan da bala şirin.

❅❅❅

Qonağımsan, qonağım,
Çıraxta yanar yağım.
Ona xeyir gün deyəllər
Sən olasan mənim qonağım.

❅❅❅

Əziziyəm yonqarı,
Dülgər yonar yonqarı.
Bu balama qurban olsun,
Doqquz qoca, on qarı.

❁❁❁

Lay-lay de, dolan ölməz,
Hər rəngi solan ölməz.
Sonsuzluq yaman şeydir
Balası olan, ölməz.

❁❁❁

Obalar obamız olsun,
Nəticə, nəvəmiz olsun.
Sizin də mənim kimi,
Bir belə balanız olsun.

❁❁❁

Balam yatır beşikdə,
Bülbül oxur eşikdə.
Balam yuxusun alsın,
Anan durub keşikdə.

❁❁❁

Dağda dağannar
Sümbülü sağannar
Oğlan doğannar
Bı balama qurban.

❁❁❁

Dərya ollam bulannam
Axbur ollam sulannam
Sağ gözüm sənə qurban
Mən sol gözümnən də dolannam.

❁❁❁

Göydə ulduz naşıdı,
Kim balamın yaşıdı?
Qız gözümün qarası,
Oğlan ürək başıdı.
Heyvası, narı,
Bağların barı.
Bir düz ilqarlı
Gələr qızımçün.

# III.
# DİNDİRMƏLƏR

– Kirlənmisən? Çimdirim,
Can nənə qurban sənə,
– Ağlamısan? Güldürüm,
Can nənə qurban sənə,
– Səni vuranı öldürüm,
Can nənə qurban sənə.

❁❁❁

Bı kimdi, kimdi,
Telləri büküm, bükümdü,
Oo...oy telləri büküm-bükümdü.

❁❁❁

Başaa dönüm baş başı.
Lalaların yoldaşı.
O qızlar əvcih quracax haa,
Onda sən get onnara daş daşı.

❁❁❁

Bunu dedim biləsən,
Düşməyəsən dilə sən,
Boya-buxuna çatıb,
Oynayasan, güləsən.

❁❁❁

Balamsan sən, nəyimsən?
Arxamsan, köməyimsən,
Sən babanın, nənənin
Ürəyisən könlüsən.

❁❁❁

Anan tel düzər sənə,
Bacın gül bəzər sənə,
Tanrıdan əhdim budur,
Dəyməsin nəzər sənə.

❁❁❁

Nazlasın dilim səni,
Böyütsün elim səni,
Meydanda at oynadan
Bir igid bilim səni.

❁❁❁

Atıban tutum səni,
Belə ovutdum səni.
Ömr üzüm, cəfa çəkim,
Şükür, böyüdüm səni.
Atın, tutun bu balanı,
Şəkərə qatın bu balanı,
Şəkərdən acı olsa,
Götürüm, atın bu balanı.

❁❁❁

Canım bala, gül bala
Anam qədrin, bil, bala,

Yaman günün gərəyi,
Çağıranda gəl, bala.

❁❁❁

Ay Elşad oğlan,
Bazarda fırlan,
Qoy qızlar görsün,
Dərdindən ölsün.

❁❁❁

Şələsi şəkər, ay oğlan,
Nənəsinə nökər, ay oğlan.
Nənən boyuna qurban
Tez böyü yekəl, ay oğlan

❁❁❁

Cınqılı qızım, cınqılı qızım,
Bulaqların yarpızı qızım.
Bu gün sabah nişan gələr,
Hər dərədən bir xan gələr,
Ənniyinən kirşan gələr,
Aparmağa soltan gələr.

❁❁❁

Qızım, qızım,
Muncuğun düzüm.
O gün olsun
Toyunda süzüm.
Evim-eşiyimsən,
Son beşiyimsən,

Dinim, imanımsan.
Ümid yerimsən,
Qafıl qonağımsan.

❁❁❁

Balamı dindirməh olmaz,
Dindirip güldürməh olmaz.
Balamın bu nənələri,
Şirin-şirin dilləri.

❁❁❁

Bir cüt çəmən gülləri,
Qurban kəsdi əmiləri,
Yaşıllaşdı zəmiləri.
Balamı dindirməh olmaz,
Dindirip güldürməh olmaz.
Balam girip bucağa,
Örgənipdi qucağa.
Babası maşın göndərsin,
Balam gedir ocağa.
Balam quzu otarır,
Gedənnəri qaytarır.
Babası maşın yollasın,
Balam nəzir aparır.

# IV.
# DÜZGÜLƏR

Gedirdim bağa,
Cahanı axtarmağa.
Dərə-təpə düz getdim,
Bir oğlana rast gəldim,
Oğlana bir miz atdım,
Təpik atdım, söz atdım,
Bıçağımı çıxartdım,
Qulağını xırtdadım.
İndi cahan gələcək,
Əsgərləri sayacaq,
Sən də çəkil qırağa.

❁❁❁

Zoya-zoya
Mindi xoruza.
Bir təpik vurdum
Düşdü hovuza,
Hovuzun suyu sərindi,
Zoya bizə gəlindi.

❁❁❁

Ova gedən,
Ovun tuş.
Ovun olsun
Maral, quş.

❁❁❁

Əl-əl əpənək,
Əldən çıxdı kəpənək.
Kəpənəyin yarısı,
Yumurtanın sarısı,
Tülkü hara gedirsən,
Ala dağa gedirəm.
Ala dağda nəyin var?
Muncuq düzən qızım var,
Tülkü bir oğlan doğdu,
Adın qoydu Süleyman!

❁❁❁

Qəcələ, xan qəcələ,
Quyruğu əlvan qəcələ.
Get xoş xəbər gətir,
Kəsim qurban, qəcələ.
Məşədə məşəd, ay Həbib,
Quşlara daş at, ay Həbib.

❁❁❁

Əxrəb-əxrəb ahına,
Əxrəblərin şahına.
Əxrəb oldu bir kişi,
Daladı qurdu quşu,

Həzrət Əli torpağı,
Mən də onun yarpağı,
Dəymə mənə, dəyməyim sənə.

❁❁❁

Qalalar, ay qalalar,
Qalaya yol salalar.
Qaladan üç quş uçdu
Biri dedi: ax vay,
Biri dedi: ox vay,
Biri dedi: nə ax vay, nə ox vay…

❁❁❁

Ağ bala geydirdilər,
Ağ bala saçaq-saçaq.
İncili bıçaq-bıçaq.
İncili vur açılsın,
Mərcanları saçılsın.
Mərcanlar pilə-pilə,
Gəl oxu bizim dillə.
Bizim dil qumru dili,
Qumrudan gələn atdır,
Heyva çiçəyi otdur.
Gəlin gedək gətirək,
Ömürbaxa yetirək.
Ömürbaxın xoruzu,
Quqquldar arpa istər,
Arpanı kimdən istər?
Kişi Vəlidən istər.

İçində bülbül oxur,
Bülbüllər hazar-hazar,
Kərtən köynək fil qazar.

❁❁❁

Ekidi bekidi aş,
Axşama bozbaş!
Dal qapıdan girməlisən,
Müdirə salam verməlisən.
Ka-ran-daş!
Seç özünə bir yoldaş!

❁❁❁

Gedirdi Yuska,
Əlində soska.
Yıxıldı Yuska,
Cırıldı soska.
Ağlama, Yuska,
Alaram soska.
Ağladı Yuska,
Vermədim soska.
Gedirdi Firuzə,
Əlində kuzə.
Yıxıldı Firuzə,
Qırıldı kuzə.
Ağlama Firuzə,
Alaram kuzə.
Ağladı Firuzə,
Almadım kuzə.

❁❁❁

Gedirdi Anka,
Əlində banka,
Yıxıldı Anka,
Qırıldı banka.
Ağlama, Anka,
Alaram banka,
Ağladı Anka,
Almadım banka.

❁❁❁

Gedirdi Arıx,
Ayaqda çarıx.
Yıxıldı Arıx,
Cırıldı çarıx.

❁❁❁

Gedirdi Gonbul,
Əlində donbul,
Yıxıldı Gonbul,
Partladı donbul.
Ağlama, Gonbul,
Alaram donbul.
Ağladı Gonbul,
Almadım donbul.

❁❁❁

Ağlama, Arıx,
Alaram çarıx,
Ağladı Arıx,
Almadım çarıx.

❁❁❁

Doldu yarağa,
Mindi ulağa,
Sürdü bağa.
Bir quş vurdu,

O da qurbağa,
Verdi qonağa,
Qonax yemədi.
Saldı yağa,
Özü tællədi,
Bizə vermədi.
Yedi qurbağa,
Düşdü yatağa.

❁❁❁

Nanay-nanay, nananı,
Geydi güllü tumanı,
Tumanı al qırmızı,
Özü qələndər qızı.
At gətirin mindirəh,
Göy çəməndə endirəh.
Çəməndə bitib mərzi,
Xalatı biçsin dərzi.
Abbası verim xərclə,
Mahmudun toyun eylə.

❁❁❁

Tülkü-tülkü tümbəki,
Quyruğ üstə lümbəki,
Lümbəkini açsana,
Kal armudu satsana.
Kal armudu dərmişəm,

Dərib yerə sərmişəm.
Yer dolusu gümüşdü,
Gümüş nədi, qəmişdi.
Qəmiş verim getginən,
Gözlərimnən itginən.

❁❁❁

Gəl sənə hannan deyim,
Köhnə zamannan deyim,
Xəlbir samannan deyim,
Sandıx sandıx məkanı,
Yanı baqqal dükanı,
Dükan demə, yatırdı,
Müştərisi qatırdı.
Qatır qamış otdayır,
Qıçlarını qatdıyır,
Qıç demə, nizə kimi,

Burdan Təbrizə kimi,
Təbriz deyil, Sərabdı,
Çeşmələri gülabdı.
Sərabın hampaları,
Tamam başdan xarapdı!

❁❁❁

Fatma, Fatma, a Fatma,
Yerində şıllax atma.
Şıllax dəvənin işi,
Yemi türkman kişmişi.

Türkmanın xan atdarı,
Xoşlamaz xamutdarı.
Xamut vurub buğura,
Qatın getsin naxıra.
Naxıra gedən Vəlidir,
Yaxası düyməlidir.
Düyməsini cütdəsin,
Bəndini kiliddəsin.
Kilid babam belində,
Babam Urum yolunda.
Urum yolu zər kimi,
Gülləri məxmər kimi.
Məxmər gülü dərərəm,
Qapımıza sərərəm.

❁❁❁

Lülü-lülü şorba,
At başında torba.
Torba noxud dolusu,
Çöldə durub oğrusu.
Oğru saman içində,
Saman – hamam içində.
Hamamı alışdırın,
Suyunu qarışdırın.
Bu su nəyin suyuymuş,
Hər tərəfi quyuymuş.
Quyunu qazan gəlsin,
Oxuyub yazan gəlsin.
Yazan gəldi gəmiynən,
Beş arşın qələmiynən.

Qələm də nizə kimi,
Burdan Təbrizə kimi.
Təbriz üstü Sərabdı,
Sərabın suyu gülabdı.

❁❁❁

İki dona ha, iki dona,
İki dona bir quş idi.
Bağçaya qonmuş idi.
Bəy oğlu görmüş idi.
Ox ilə vurmuş idi.
Ox bizdən, aza bizdən,
Kərtənkələ filfili,
Gəl oxu bizim dili,
Bizim dil uyim dili,
Uyimdən gələn atdar,
Heyva çiçəyi otdar,
Heyva çiçəyi beş atdı,
Beşi də kəhər atdı,
Birinin adı Tələtdi,
Birinin adı Cəbrayıl,
Cəbrayılın danası,
Ölüb qalıb dərədə,
Gəlin gedəh gətirəh,
Ordubada yetirəh,
Ordubadın quşdarı,
Qaqqıldaşır dən üstə,
Mən dəni hardan tapım,
Qavalçı qəlyan topu,
İçində bülbül oxu.

❁❁❁

Anlın nədi? Möhürdü, düzdü...
Qaşın nədi? Qələm qüdrəti.
Ayağın nədi? Qüvvə, qüdrət...
Çiynin nədi? Cüt məlayikə.
Getdim cənnət qapısına,
Çağırdım: Ya Əli,

Səs vermədi.
Çağırdım: Vəfadar Əli,
Çıxdı ağayi-qənbər,
Çıxdı mövlayi-qənbər.
Dedi: Kimsən? Kimi axtarırsan?
Dedim: Ağam Əli hardadı?
Dedi: Ağam Əli dəstəmazlı,
Namazdadı.
Ağzı həzin duvada,
Göyün ərşindədi,
Yerin tərkindədi,
Hər kəs onu yadına salsa
Cəhənnəm odunnan kənardadı.
Onun bir ağacı var,
Yarpağı ərşi Quran
Onu gündə üç dəfə desən.
Cəhənnəm odunda yanmazsan
Ya Əli, sənsən Vəli,
Külli aləmin rəhbəri
Beşihdə böldün əcdəri
Ya Əli, ya Məhəmməd, ya Əli,

❁❁❁

Üşdübüdü ha üşdübüdü,
O kişi mənim dostumudu,

Getdi Gilana gəlmədi,
Yaylığım aldı vermədi,
Yaylığımın ucu qara,
Yolladım heykəl yara,
Heykəl yarı öldürəllər,
Ağbalaya geydirəllər,
Ağbalanın saçağı,

Gümüşdəndi bıçağı,
Vırdım sandıx açıldı,
İncili mərcan seçildi,
İncili mərcan filfili,
Gəl oxu bizim dili,
Bizim dil urmu dili,
Urmudan gələn atdar,
Heyva dənəsin çırtdar,
Heyvanı ötürəydim,
Nəzərə yetirəydim,
Nəzərin qız-gəlini.
Şahmara yetirəydim,
Şahım Şirvan içində,
Qılıncı qan içində,

❁❁❁

Ağ atın ağaşdarı,
Bar gətirməz başdarı,
Yel topun olsun, qardaş,
Gül topun olsun, qardaş.

❁❁❁

Taxçadan baxan dəmbələngöz,
Birisi kəhər, birisi boz.
Mindim bozun boynuna,
Sürdüm Şirvan yoluna.
Şirvan yolu dərbədər,
İçində meymun gəzər.
Meymunu vırdım ağlatdım,
Başına göy bağlatdım.

Tumanı pulu-pulu,
Çırpası qodux tulu.

❁❁❁

İynə-iynə,
Ucu düymə.
Bal ballıca,
Ballı keçi.
Şam ağacı,
Şatır keçi.
Qoz ağacı,
Qotur keçi.
Hoppan, hoppan,
Yırtıl, yurtul,
Su iç, qurtul.

❁❁❁

Motal, motal,
Tərsə motal.
Qol atar,
Qaymaq tutar.
Ağ quşum,

Ağarcınım,
Göy quşum,
Göyərçinim.
Çilәmә çilik,
Çәmbәr çarıx.
Vur nağara,
Çıx qirağa.

❁❁❁

– Adın nәdi?
– Balqabax.
– Evlәnirsәn?
– Gәlәn yox.
– Dillәnirsәn?
– Dilim yox.
– İstәyirsәn?
– Verәn yox.
– Oynayırsan?
– Çalan yox.

❁❁❁

Fatma, Zübeyda,
İkisi bir boyda.
Fatma dalaşdı,
Zübeyda qaşdı.
Divardan aşdı.
İpә dolaşdı,
Tәndirә düşdü.
Yaylığımın ucu qara,
Göndәrdim Peykan yara.
Peykan yarı öldürdülәr,

Ağ balanı geydirdilər.
Ağ balanın saçağı,
Gümüşdəndir bıçağı.
Vırın sandıq açılsın,
İncil mərcan saçılsın.
Qan getdi, qada düşdü,
Çaydan göyərçin uşdu.
Göyərçin ala taxta
Yuvanın qəlbi taxta.

❁❁❁

Nərgizə bax, nərgizə,
Qurd gəlib boynun üzə,
Götürə qaça Təbrizə.
Təbrizin ağacları,
Bar gətirib ucları,
Ağadayının quşları,
Tökülüb qabaq dişləri.
Təkəm gəlir havadan,
Bir donu var yavadan,
Təkəmə arxalıq ver,
Xanım, evin abadan.
Yaxşı sultanlığı var.
Bu gələn xan yanında,
Beş tümən donluğu var...

❁❁❁

Bibiliqoz, ay bibiliqoz,
Bibim gətdi iki qoz,
Biri ala, biri boz.
Mindim bozun boynuna,

Yürdüm Urmu yoluna.
Urmu yolu dərbədər,
İçində meymun gəzər.
Meymunun balaları
Min oyun elədilər,
Meymunun toyun elədilər.

❁❁❁

Qavalı çala-çala getdim bağa,
Bağdakı qızlar ilə oynamağa,
Əl atdım balaca qızın çənəsinə,

Böyük qız harayladı nənəsini,
Nənəsi çıxdı dama,
Bir daş vurdu qabırğama.
Qabırğamı tuta-tuta,
Getdim xana şikayətə.
Xan dedi: – Qaşı qara, gözü qara,
Nə düşmüsən bu çöllərə?
Verrəm səni igidlərə,
Yedirtdirrəm ağ itlərə.
Uzun-uzun uzatdılar,
Qabırğamı düzəltdilər.
Dedilər, altına həsir salın, şeh keçməsin,
Üstünə çadır salın, gün düşməsin.

❁❁❁

Atına saman tökün, kişnəməsin,
İtinə sümük tökün, dişləməsin.

❁❁❁

Təkəm, təkəm, axta təkəm,
Boynunda var noxta, təkəm.
Tükləri biz-biz olub,
Qışda yeyib taxta təkəm,
Təkəm getdi xanlığa,
Üz qoydu yaşıllığa.
Təkəmi öldürdülər,
Atdılar samanlığa.
Təkəm getdi Mərəndə,
Tamaşadır gələndə.
Yaxşı insan çox yaşar,
Vay, pisdir o öləndə.

Bu təkəmin qəndi var,
Çox kəsəkli kəndi var.
Hər qapıda oynasa,
Bir nəlbəki qəndi var.

❁❁❁

Turşunu aşı içmərəm,
Darvazadan keçmənəm.
Darvaza mənim olsun,
Qırmızı donum olsun,
Geyim gedim Təbrizə,
Təbrizdə toyum olsun.
Qızlar gəlsin toyuma,
Qurban olsun boyuma.

❁❁❁

Havalan, ha havalan,
Havalandıq uşmağa,

Haqq qapısın aşmağa.
Qanadımız üzüldü,
El yaylağa düzüldü.
El yaylaqdan gəlincə,
Bu dağları dərincə,
“Qoca başı” əkdilər,
Qıldırqadan asdılar.
Qıldır da qalıq tacı,
İçində qurd-quş yağı,
Qurd-quş yağı dərmandı,
Canım sənə qurbandı.

Yoldaşlar hamı getdi,
Oyunlar burda bitdi.

❁❁❁

Bağdan baxdım işıxdı,
Çəngə dolu qaşıxdı.
Qız süpürər toz eylər,
Oğlan qıza göz eylər.
Qız oğlanın xatını,
Boynunda yüz altını.
Yüz altın bir quş imiş,
Dəryaya qonmuş imiş.
Şahın oğlu görmüşdü,
Oxunan onu vurmuşdu.
Ox mənnən hazar-bezar,
Kətan köynəklər yazar.
Kətan köynək mil-mili,
Gəl, oxu bizim dili.
Bizim dil «urmu» dili,
Urmudan gələn atdar,

Arpanı yeyib çatdar.
Arpanın kütün yedim,
Şahına Şirvan dedim.
Şahım Şirvan içində,
Qılıncı qan içində
Məndən kiçik qardaşlar,
Oynar meydan içində.

❁❁❁

Dambudumbul məhləsi
Divar uçub səhləsi,

Xanım, bəyin nəvəsi,
Nar ağacın yıxdılar,
Qoymadılar biz baxaq.
Yüklədilər kəhliyə,
Yeri, yeri, asta kəhlik,
Quyruğu dəstə kəhlik.
Ətini kabab eylərəm,
Verərəm dosta kəhlik.

***(I mətn)***

Üşüdüm a üşüdüm,
Dağdan alma daşıdım,
Almacığım aldılar,
Mənə curum saldılar,
Mən curumnan bezərəm,
Dərin quyu qazaram.
Dərin quyu beş keçi,
Hanı bunun erkəci?
Erkəc qəya başında,
Çiyid verdim yemədi.

Çiyid qazanda qəynər
Qənbər bıcaxda oynər.
Qəmbər qaya qəmişdi,
Beş barmağı gümüşdü.
Gümüşü verdim tata,
Tat mənə darı verdi,
Darını sapdim quşa,
Quş mənə qanad verdi,
Həqq qapısın açmağa
Həqq qapısı kiliddi,
Kilid babam belində
Babam Şirvan yolunda
Şirvan yolu dərbədər

İçində meymun gəzər.
Meymunları öldürüm
Qulaqların qırpıtdım.
Nəzər bəyin nəyi var?
Göyə çıxan atı var.
Gözü çıxan iti var,

***(II mətn)***

Üşüdüm, ha üşüdüm,
Dağdan alma daşıdım.
Almacığımı aldılar,
Məni zülmə saldılar.
Mən zülümdən bezaram,
Dərin quyu qazaram,
Dərin quyu beş keçi,
Hanı bunun erkəci.
Erkəc qazanda qaynar,
Qənbər bucaqda oynar.
Qənbər deyil qəmişdi
Beş barmağı gümüşdü.

Gümüşü verdim tata,
Tat mənə darı verdi,
Darını vedim quşa,
Quş mənə qanad verdi,
Qanadlandım uçmağa,
Haqq qapısın açmağa
Haqq qapısı kilidli,
Kilid babam belində,
Babam Gilan elində.
Gilan yolu sərbəsər
Yolunda düşmən gəzər,
Mən haqladım babamı,
Qurtarmaqçün atamı,
Bir səs gəldi uzaqdan,
Alov qalxdı ocaqdan.

***(III mətn)***

Üşüdüm, ay üşüdüm,
Dağdan alma daşıdım.
Almaları yedilər,
Mənə zulum verdilər.
Mən zulumdan bezərəm,
Dərin quyu qazaram,
Dərin quyu beş keçi
Hanı bunun erkəci?
Erkəc qaya başında.
Eyqaladım gəlmədi.
Çiyid verdim yemədi.
Çiyid qazanda qaynar,
Qəmbər bıçaxla oynar.
Qənbər getdi oduna,
Qarğı batdı buduna.
Qarğı deyil, qəmişdi,
Beş barmağı gümüşdü.

Gümüşü verdim tata,
Tat mənə darı verdi.
Darını verdim quşa,
Quş mənə qanad verdi.
Qanadlandım uşmağa,
Haqq qapışın aşmağa.
Haqq qapısı kilidli,
Kilidi babam belində,
Babam Şirvan yolunda.
Şirvan yolu dərbədər,
İçində meymun gəzər.
– Ay meymun, haralısan?
– Ala dağlıyam.
– Ala dağın nəyi var?
– Çakkır-çukkur suyu var,
At oynadan oğlu var,
Muncuq düzən qızı var.
Muncuğu düzə-düzə,
Gedib çıxıb Təbrizə.
Təbriz xarab olubdu,
Dəmir daraq olubdu.
Dəmir daraq çilçili,
Gəl oxu bizim dili,
Bizim dil urum dili.
Urumnan gələn attı
Qılıncı qana battı.
Qılıncı qan içində,
Ağac meydan içində,
Bar gətirməz başları.
Hər kəs balamı istəmir.
Qırılsın qardaşları.

## V.
## ACITMALAR, ÖCƏŞMƏLƏR

❋ Fatma xala,
Təndiri qala
Kəsövü götür,
Məni qavala.

❋ Çaynik nədir?
Nəlbəki,
Qum-qum içib
Püflə ki...
Kəmərli stəkan,
Qarınqulu oğlan.
Sor, desin,
Halın mərdan,

❋ Abuzər, damda gəzər,
Hamını bəzər, özü lüt gəzər.

❋ Hacı, Hacı, Armud ağacı,
Armudun yedim qaldı ağacı.

❋ Tağı tağı, tuman bağı,
Göydə vurar mayallağı.

❋ Hayıl-mayıl, İsmayıl,
Yuxudan ayil, İsmayıl.

❋ Əfruz, Əfruz, sazanda,
Aş bişirir qazanda.
Əfruz ərə gedəcək
Ayı dağı aşanda.

❋ Zəhrə-Zübeydə,
İkisi bir boyda.
Zübeydə qaşdı, barıdan aşdı,
Simə dolaşdı.

❋ Ay Asiya, Asiya,
Xəmir qoydu kasıya.
Mən istədim vermədi.
Satdı bir abbasıya.

❋ Ramazan
Təpəsi qazan.
Elə bilmə anlayar,
Gecə-gündüz banlayar.

❋ Həsən ağa,
Girdi bağa.
Bir quş vurdu,
O da qurbağa.
Verdi qonağa
Qonaq yemədi.
Saldı yağa,
Bizə vermədi,
Özü yedi,
Oldu qurbağa.

✵ Sənin adın Tağıdı,
Yediyin inək yağıdı.
Al başına, kül başına,
Ət taxtasın vur başına.

✵✵✵

– Deyinən yüz.
– Yüz.
– Əlini hər şeydən üz.

✵✵✵

– Deyinən ula.
– Ula.
– Kəs səsini, tula.

✵✵✵

– Deyinən mitil.
– Mitil.
– Dur burdan itil.

✵✵✵

– Deyinən buz.
– Buz.
– Ağzına doldurum duz.

✵✵✵

– Deyinən Vəli.
– Vəli.
– Adını qoyum dəli.

❁❁❁

– Deyinən bibər.
– Bibər.
– Bibər ye, gəbər.

❁❁❁

– Deyinən ayna.
– Ayna.
– Mən çalım, sən oyna.

❁❁❁

– Deyinən bir.
– Bir.
– Birə qabına gir.

❁❁❁

– Deyinən doxsan.
– Doxsan.
– Bir gün varsan, bir gün yoxsan.

❁❁❁

– Deyinən sarımsax,
– Sarımsax.
– Kəs səsini qurumsax.

❁❁❁

– Deyinən yonca.
– Yonca.
– Yemək ye doyunca.

# VI.
# MƏRASİMLƏR

## Orucun on beşi

Orucun on beşinə qabaxcadan hazırlıx görülür, müxtəlif şirniyyatlar bişirilir. Ən çox sevinənnər uşaxlar olur.

İftardan sora uşaxlar əllərinə torba alıb, qapı-qapı dolaşır, oxuyullar:

Orucun on beşidir, gəldik sizə,
Orucun niyazın verin bizə,
Xanım, ayağa dursana,
Boşqabı doldursana.
Rəbbi gəlir, dinmə gəlir,
Boşqabı doldurub gəlir.
Verənin oğlu olsun.
Verməyənin son beşiyi qız olsun.

Evin yiyəsi də şirniyatdardan uşaxlara paylıyır. Uşaxlar gecə yarısına kimi qapı-qapı dolaşıb, bayram paylarını yığıllar.

## Çömçəxatun

Uşaqlar bir yerə toplanır. Bir-birindən yapışırlar, guya ki, quzudurlar. Quraqlıq keçəndə taxta çömçə götürürlər, üstünə qara salırlar, bir- bir qapıları döyürlər. Kim qapıdan çıxırsa, ondan pay istəyib, həmin qapıda bu mahnını oxuyurlar:

Çömçəxatun nə istər?
Tanrıdan yağış istər.
Qoyunlara ot istər.
Quzulara süd istər, mə – ə – ə.

Çömçəxatun nə istər?
Tanrıdan bol su istər,
Ağaclara bar – bəhər,
Çobana quzu istər, mə – ə – ə.

Əlincənin buludu,
Yetimlərin umudu,
Tanrı bir yağış yetir,
Demilərim qurudu, mə – ə –ə.
Çömçəxatun dağ ist

Qoyuna yaylaq istər,
Mal – qaraya çoxlu süd,
Dağlarda bol ot istər, mə – ə – ə.

Uşaqlar mələyir. Bu zaman pay gətirirlər. Çömçəxatuna pay gətirib deyillər:

Çömçəxatun nə istər?
Quzulara pay istər,
Çobanlara bolca ot,
Cavanlara toy istər, mə – ə – ə.
Çömçəxatun pay istər,
Dolu – dolu çay istər,
Quzusu bol çobanlar
Pəniri lay – lay istər, mə – ə – ə.

Çömçəxatun duz istər,
Çiçək dolu düz istər.
Havaları buluddu,
Bol yağışlı yaz istər, mə – ə – ə.
Bundan sonra yağış yağır.

## Xıdır Nəbi

Naxçıvanda ən çox sevilən bayramlardan biri də Xıdır Nəbi bayramıdır. Hər il fevral ayının təxminən ikinci həftəsinin ilk cümə axşamı qeyd olunur.

Xıdırın gəlişi münasibətilə yerli camaat qovud və qovurğa hazırlayar, oğlanlar evlərə torba ataralar.

Üydülmüş qovudu bayram axşamı gecəsi çöldə teştin içində saxlayardılar. Rəvayətə görə, dan üzü açılanda Xıdır Nəbi atı ilə gəlib bütün evlərədə qoyulmuş qovudlara xeyir-duasını veririmiş. Mən bir neçə dəfə nənəmin üzündə sevinc görmüşəm. O, çox məmnun bir tərzdə deyərdi ki, gecə qurban olduğum gəlib, atının nalı qovudun üstündə açıq-aydın görünürdü. Şübhəsiz ki, biz bunun nə demək olduğunu o qədər də başa düşmürdük və qovudun gülab tökülmüş şərbətlə ovulmasını, lavaş dürməyi kimi sinilərə yığılmasını gözləyərdik. Bayram günü isə mütləq qovurğa qovrular ki, onun da içinə ailənin vəziyyətinə görə cəviz, fındıq, badam, küncüt, çətənə, buğda, yemiş və qarpız tumu, kişmiş əlavə edərdilər. Yəni qovurğasız ev olmazdı. Yası düşən və bu səbəbdən bayram edə bilməyənə qohum-əqraba, qonşular pay göndərərdilər. Baxmayaraq ki, hər evdə bu mərasim mütləq qeyd olunur. Bununla belə oğlanlar əllərinə dəyənək və torba götürüb, qapı-qapı gəzər və Xıdır Nəbiyə xalqın illərlə qəlbində yaşatdığı ən səmimi istəklərini bildirərdilər:

Xıdıra Xıdır deyəllər,
Xıdıra çörək verəllər.
Mən Xıdırın nəyiyəm?

Ayağının nalıyam,
Xanım, ayağa dursana,
Yükün dalın açsana.
Torbanı doldursana,
Qonağı yola salsana.
Qara toyuğun qanadı,
Kim vurdu, kim sanadı?
Məhlənizə gələndə
İtlər bizi taladı.

Yalnız bu parçanı dedikdən sonra qapılar açılar və uşaqlara bayram payı verilərdi. Qovurğadan həyətdəki toyuq-cücəyə atardılar ki, qışdan çıxmış toyuqlar tezliklə yumurta versinlər. Müqəddəs bir bayram olduğundan qovurğanın yerə dağılmasına və ayaqlanmasına imkan verməmək olmaz.

# VII.
# YANILTMACLAR

❋ Getdim gördüm bir dərədə yeddi qara, qaşqa təpəl səkil keçi var.

Dedim: Ay yeddi qara, qaşqa, təpəl, səkil keçi, mənim yeddi qara, qaşqa, təpəl, səkil keçimi gördünmü?

Dedi: Sənin o yeddi qara, qaşqa, təpəl, səkil keçin mənim yeddi qara, qaşqa, təpəl, səkil keçimin yeddi qara, qaşqa, təpəl, səkil balasıdır.

❋ Bir tarlaya iki kürkü cırıq, keçəl kor kirpi dadanmış. Biri kürkü cırıq, erkək, keçəl kor kirpi, digəri kürkü cırıq, keçəl, dişi kor kirpi. Kürkü cırıq, kişi, keçəl, kor kirpinin kürkünü kürkü cırıq dişi keçəl kor kirpinin kürkünə; kürkü cırıq dişi keçəl kor kirpinin kürkünü də kürkü cırıq, erkək, keçəl, kor kirpinin kürkünə əlavə etmişdir.

❋ Çağatayda çarmıxa çaxılan çarın çavuşu palçıqlı çanağı çayda çalxalayarkən çantasından paltarlarını oğurlatdı.

❋ Cücüləri cücələrə tapşırdılar, cücüləri bircə -bircə aşırdılar cücələr.

❋ Sizin damda var beş boz başlı, beş boz ördək, bizim damda var beş boz başlı beş boz ördək. Sizin damdakı beş boz başlı beş boz ödrək bizim damdakı beş boz başlı beş boz ördəyə: – siz də bizim kimi beş boz başlı beş boz ördəksiniz, – demiş.

❋ Keçilər köçürdülər, küçədən keçirdilər, küçük qaçdı küçəyə, keçilərin kiçiyi keçi dedi küçüyə.

❋ Haqqı haqqıya getmiş. Haqqı haqqıdan haqqını istəmiş, Haqqı haqqının haqqını verməyincə Haqqı da haqqının haqqından gəlmiş.

❋ Biz onlara dərd deyərkən onlar da bizə dərs vermişlər, indi gedib onlara bir dərs daha verək ki, biz onlara dərs verərkən gəlib bizə dərs vermək nəymiş görsünlər.

❋ Ay göy ala qarğa mənimlə qardaşda olsan da səninlə qardaş olacağam,olmasan da səninlə ay göy-ala qarğa, qardaş olacağam.

❋ Sizin allı ballı bayquşunuz bizim allı-ballı bayquşumuza necə allı-ballı bayquş demiş.

❋ Görəsən sarımsaqlasaq bir dəmi saxlasaq samanı sarımsaqlamasaq da gəlirmi zamanı. Sarımsaqlamasaq da gəlirsə zamanı niyə sarımsaqlayalım o zaman samanı?

❋ Bir bərbər bir bərbərə "Ey bərbər, gəl qardaş, biz birlikdə bərbəristanda bir bərbər dükkanı açaq"-demiş.

❋ Çəp keçi çəp keçidi çəpəki keçib çəpərə keçər.

❋ Cüt cücə, cüt-cüt cücə, üç cüt cücə.

❋ Boz atın boz torbasını boş as başından, islat gətir yaş as başından.

❋ Yarğana yorğul yorğun.

❋ Küp qulpu, xub küp qulpu.

❋ Qırx küp qulpu, xub küp qulpu.

❋ Ay axsax aşpaz Həsən, aşpazlar aş bişirir, sən də gəl aş bişir, ay axsax aşpaz Həsən!

❋ Çəp keçi çəp keçidi çəpəki keçib gedər, çəp keçi çəp keçidi çəpəki keçib, çəpəri keçər.

❋ Ay Fatalı, huy Fatalı, çatı gətir, çay içində tay çatax.

❋ Qığılcımı qıcıxlandırma, qıcıxlandıracaxsansa, qığılcımlanacax.

❋ Qatığı sarımsaxlasan da yemək olar, sarımsaxlamasan da.

❋ Ocağı qığılcımlandırma, sən qığılcımlandırsan da, qığılcımlanacax, qığılcımlandırmasan da qığılcımlanacax.

❋ Dadaş dayı dəmirin danaların damın dalında döydü.

Dadaş dayı, danaları damın dalında döymə.

Dadaş dayı dedi:

– Dəmirin danaları damın dalındakı darıları dağıtdığı üçün danaları döyəcəyəm.

❋ Bağ başqa, bağça başqa,
İş aşırar çullu axça.

# VIII.
# AZDIRMALAR

❋ Toyuq ayda neçə dəfə yumutrdayar? Deyirlər ki, toyuq aya çıxa bilməz.

❋ Bir ulağım var, üstündə iki səbət, birində daş, birində saman. Xoruz hansında yumurtlayacaq?

❋ Dörd bucaqdı, hər bucaqda bir pişihdi, hər pişiyin qabağında üç pişihdi. Burda neçə pişih var?

❋ Altı qara qoyunun neçə qıçı var?

❋ Altı qız ıdıx,
Yol ilə gedirdih,
Yolda altı dənə gül vardı.
Hərə birini qırdı, yerdə necəsi qaldı?

❋ Beş, beş, beş on beş, üç on səkkiz, iki iyirmi. Elədi neçə?

❋ İki dovşan balası, üç anası, dörd atası. Elədi neçə.

❋ Bir atlı olur. Bı gəlib bir yerə çatır. Bırda hər tərəf sıldırım qayalıxlar olur. Bir dənə də körpü olur-bı qayadan o biri qayaya. Atlı çıxır korpünün usdünə ki, geşsin o yana, birdən baxır ki, qarşı tərəf yanır. Çönür ki getsin görür ki, arxa tərəf də yanır. Bə bı atlı hansı yolnan getsin?

# IX.
# DEYİMLƏR

Əlində nizə,
Gəl gedək bizə.
Anam qoymasa,
Gələrik sizə

Əlində üzüm,
Məhləni gəzim.
Belə yalana,
Mən necə dözüm?

Əlində qəmə,
Gəl belə yemə.
Mənim gözlərim,
Çıxıb təpəmə.

# X.
# TAPMACALAR

Qızıl qaya yırğalandı, qızılları sallandı.
*(həmərsun, itburnu)*

❋❋❋

Qırmızı divar üstündə ağca qayalar.
*(ağızdakı dişlər)*

❋❋❋

Bizdə dörd gəlin var, dördü də bir boydadı.
*(otağın bucaqları)*

❋❋❋

Bizdə dörd gəlin var, dördü də bir vannada başını yuyur.
(*inəyin döşləri)*

❋❋❋

Yol üstə qazan qaynar.
*(qarışqa yuvası)*

❋❋❋

Altı qoyun, üstü keçi,
Başı fındıq, quyruğu qayçı.
*(qəcələ, sığırçın)*

❋❋❋

Göydən bir dəri düşdü, toyuq ona yürüşdü.

*(tut)*

❁❁❁

Ağ qız çiməndə uzanır.

*(düyü)*

❁❁❁

Qara toyuq qapıda yatar.

*(süpürgə)*

❁❁❁

Quyum qızıl, buğda ağ.

*(həməsir)*

❁❁❁

Yağış yağar, yer yaş olar.
Çatı qırılar dörd baş olar.
Onu bilməyən eşşək olar.

*(torpaq)*

❁❁❁

Göy öküz yoldan baxır.

*(qarpız)*

❁❁❁

Ay halalar, ay halalar,
İçi qırmızı, üstü yaşıl halalar.
Ağıllılar açıq eyləyib tapallar
Ağılsızlar mat-mat durub baxallar.

*(qarpız)*

❁❁❁

Tut-tut tubluğu
Tutda bitər tubluğu.
Tutdan bir şülə kəsdim
Nə tutdu, nə də tubluğu.

*(qatır)*

❁❁❁

Biz yüz qız idik,
Qıran gəldi qırıldıq.
Allah verdi dirildik.

*(yonca)*

❁❁❁

Axşam doğular,
Səhər yer ovar,
Axşam yığılar,
Səhər dağılar.

*(cücə)*

❁❁❁

Yer altında qıllı baş.

*(soğan)*

❁❁❁

Bir qara öküzüm var,
Hər yetən çullayır.

*(saç)*

❁❁❁

Başı darağı,
Quyruğu orağı.

*(xoruz)*

❁❁❁

Ha gedər Hüseynxan,
Hey gedər Hüseynxan,
Heç yorulmaz Hüseynxan.

*(su)*

❁❁❁

Acı yarpaq odda yanar,
Közünü yandırıb yaxar.
Bir ucundan duman qalxar,
Bir ucundan atəş baxar.

*(papiros)*

❁❁❁

Atılıb düşər
Duzsuz, susuz.
Qırmızı pişər.

*(qovurqa)*

❁❁❁

Beldə qurşaq göy olar,
Diksən daşdan ay olar.
O hansı ağacdır ki,
Hər fəsildə göy olar.

*(şam ağacı)*

❁❁❁

Gedər, gedər ayağı yox,
Adam öldürər, əli yox.
Köynəyi var, tikişi yox,
Yumurta salır, tükü yox.

*(ilan)*

❁❁❁

Allahdan istə sən,
Sağ olsun bədən,
Gündə üç dəfə ödəməlisən.

*(namaz və oruc tutmaq)*

❁❁❁

Hər ağacda bir rəng var,
İki rəngli gül açar.
Biri ağdır, biri qara
Şəfa verir insanlara.

*(gecə və gündüz)*

❁❁❁

Tap tapış, yerə tapış.

*(xalça)*

❁❁❁

Dilbər zindanda, saçı eyvanda.

*(çuğundur)*

❁❁❁

Üstü yaşıl məxmərdir
İçi şirin şəkərdir.

*(qarpız)*

❁❁❁

Özü on ikidir
Yeri edən ikidir.
Fırlanmaz tərsinə
İki dəfə atdırsan.
Görərsən ola nə…

*(saatın əqrəbləri)*

❁❁❁

Quruda gedər, suda getməz,
Tüstü çıxmasa xoda getməz.

*(maşın)*

❅❅❅

Onlar ikidirlər,
Biri didər, biri udar.
Hər tərəfə toz səpələnər.

*(dəyirman daşı)*

❅❅❅

O nədir ki, qızıl öküz yatar durmaz?
Qara öküz gedər gəlməz?

*(köz, tüstü)*

❅❅❅

O yana çapar, bu yana çapar,
Qapından atlı çapar.

*(tulum)*

❅❅❅

Ay var şənləndirər,
Ay var qəmləndirər.
Dünyanın yarısı bilir, yarısı bilmir.

*(novruz bayramı və məhərrəmlik)*

❅❅❅

Yüz iyirmi dörd min kərpicdən bir ev tikilibdi.
On iki pəncərəsi, bir qapısı var.
Dünya onlarla olub bərqərar.

*(yüz iyirmi dörd min peyğəmbər, on iki imam, bir allah)*

❅❅❅

Bu necə sirrdir,
Görəsən o nədir,
Biri öldürür, biri dirildir.

*(qışda ağaclar ölür, yazda dirilir)*

❅❅❅

Dağa qonar, bağa qonar,
İsti soyuğa dayanar,
Əyəsinə ruzi qazanar.

*(bal arısı)*

❅❅❅

Hər an bizi izləyər,
Ancaq vaxtını gözləyər.

*(əcəl, ölüm)*

❅❅❅

Görüblər çox qərinələr,
Dünyada gör olur nələr,
Biri gedər, biri gələr.

*(Günəş, Ay)*

❅❅❅

Biri gedər, biri gələr.
Biri sevinc gətirər, biri kədər.

*(uşağın doğulması və ölüm)*

❅❅❅

Bir cüt rəqəmim var,
Yerini dəyişəndə otuz üç artır.
Tap görək, hansıdır onlar?

(*66 rəqəmdir, tərsinə çevirəndə 99 alınır)*

❅❅❅

Çoxları həsrət çəkər,
Ağlayar göz yaşı tökər.
Gəzər çoxlu ölkələr,
Axırda təngə gələr.

*(sonsuzluq, uşağı olmayan)*

❁❁❁

Gah əyilər, gah qalxar,
Həmişə bizi qabaqlar.

(*kölgə)*

❁❁❁

Nə özü doğulub
Nə də balası.
Anasından süd əmməz
Öz-özünə yekələr,
Yaxşı baxsan kökələr.

*(toyuq və cücə)*

❁❁❁

Bir bulağın dörd gözü var,
Hər suyunun bir dadı var.
Biri turşdu, biri şor,
Biri şirin, biri acı.

*(göz, burun, ağız və qulaq)*

❁❁❁

O yan qaya, bu yan qaya,
Hoppandım mindim boz daya.

*(cütçü)*

❁❁❁

Başı kələm bağlayır,
Balalarını yığır başına,
Zülüm-zülüm ağlayır.

*(samovar, çaynik, stəkan)*

❁❁❁

Fərq qoymaz dünyanın
Dərəsinə, düzünə.
Əgər baxsan üzünə,
Xətər yetirər gözünə.

*(Günəş)*

❁❁❁

Bu dərə uzun dərə,
Əsli nədəndir?
Göy əkdim qırmızı bitir,
Nəsli nədəndir?

*(xına)*

❁❁❁

Nə yerdədi, nə göydə,
Nə göydədi, nə yerdə.

*(pəncərə)*

❁❁❁

Tap tapı götürər.

*(ağaclar)*

❁❁❁

Daşdan, dəmirdən,
Gözləri var xəmirdən.

*(dəyirman)*

❁❁❁

Hacılar hacıdı,
Başmağı narıncıdı.
Yarpaq açmır, qol atmır,
Tap görüm nə ağacıdı?

*(maral buynuzu)*

❁❁❁

Tap oğlunu götürər.

*(divar)*

❁❁❁

Başı kələm bağlar,
Qarnı vərəm bağlar.
Balaların yığar başa
Zırın-zırın ağlar.

*(samavar)*

❁❁❁

Nə dəyirmandır, nə dəstərdi,
Ancaq onlara oxşar.
Gah kortalar, gah itilər.
Hər nə versən üydər.

*(ağız və dişlər)*

❁❁❁

Kəklik daşda gəzər,
Qələm qaşda gəzər.
Görəsən o nədir ki,
Həmişə başda gəzər?

*(ağıl və fikir)*

❁❁❁

Bir öküzüm var mıx yüklü.

*(kirpi)*

❁❁❁

Üstü taxta, altı daş,
Səkkiz ayaq, iki baş.

*(vəl)*

❁❁❁

Tut, tut tuburqu,
Tutdan bir şiv ayrılıb,
Nə tutdu, nə tuburqu.

*(qatır)*

❁❁❁

Kip bağlanar qapılar,
Başqa adam aça bilməz,
Özü bağlanar, özü açılar

*(göz və qapaqları)*

❁❁❁

İstisi var, tüstüsü yox,
Şəfəq saçar, istisi yox

*(Günəş və Ay)*

❁❁❁

Üç yüz altmış beş yaşı var,
Ancaq ikicə qardaşı var.
Bir adam görmüşəm mən,
Əlli iki dörd qolu,
On iki başı var.

*(il, ay, fəsil, həftə, günəş, ay)*

❁❁❁

Mən aşiqəm azalmaz,
Xotkar payın az almaz.
Aşıq bir şam görübdü,
Yanar yağı azalmaz.

*(Günəş)*

❁❁❁

Bu dünyada üç şey kəsirdi:
Dəryadı dibsiz,
Qatırdı qulansız,
Göydü dirəksiz.

Əzizim qara nədir?
Qaş üstə qara nədir?
Gönü göy, ət qırmızı,
Sümüyü qara nədir?

*(qarpız)*

❁❁❁

Əzizim mən çoxusu,
Yəqin bilir çoxusu.
Aşıq bir bağa çıxdı,
Azı quru, çoxu su.

*(Yer kürəsi)*

❁❁❁

Mən aşiqəm üç ata,
Üç oğuldur, üç ata.
Ət dirəyin başında
Dəmir deşikli papaq.

*(üskük)*

❁❁❁

Qat qalası,
Can piyalası.
Uçdu anası,
Qaldı balası.

*(saman–buğda)*

❅❅❅

Qatar-qatar uçarlar,
Şəhid olub qaçarlar.
Gündüzləri otlayıb
Gecələri uçarlar.

*(durna)*

❅❅❅

Toxumsuz bitər, dünyaya yetər

*(tor)*

❅❅❅

Bir damım var
Tək dirəkdi.

*(göbələk)*

❅❅❅

Gündüzlər dolanar,
Gecələr ağzı açıq yatar.

*(ayaqqabı)*

❅❅❅

Aşıq bir sərbaz gördü,
Suvar olub üç ata.

*(qoca, iki qılça və bir çəlik)*

❅❅❅

Qardaş, dur gedəh,
İlxıları sür gedəh.
Min bir iki qapını,
Bir kilidə vur gedəh.

*(Ay, il)*

❁❁❁

Bir öküzüm var mıx yüklü.

*(kirpi)*

❁❁❁

Üstü pulcuq,
İçi qılcıq.

*(balıq)*

❁❁❁

Altı taxta, üstü taxta,
Ortasında dəmir balta.

*(xəncər)*

❁❁❁

Sürü-sürü qazlar,
Sürməli qızlar,
Əlini vursan,
Əllərin sızlar.

*(kirpi)*

❁❁❁

Ağ tas, qızıl tas,
Birini götür, birini as.

*(Ay və Günəş)*

❁❁❁

Zər-zər üstə,
Zər tufar üstə.
Zər oğlan gəlməsə,
Zər tufardan yenməz.

*(açar, qıfil)*

❁❁❁

Əl ilə tutmax olmaz,
Göz ilə görməyh olmaz

*(külək)*

❁❁❁

O nədi ki, başı kəsilir, əti atılır, dərisi satılır

*(timsah)*

❁❁❁

Ay hənərdi hənərdi,
Bel qurşağın kəmərdi.
Sənnən xəbər alıram,
Bı çay neçə səhəngdi.

*(çayın qabağın saxlamaq olmaz ki görəsən neçə səhəngdi)*

❁❁❁

Bizdə bir kişi var,
Hər gələnə əl veer

*(qapının dəstəyi)*

❁❁❁

Həftədə bir dəfə başın kəsərəm,
Nə qanı çıxmaz, nə canı

*(dırnax)*

❁❁❁

O nədi ki, altı cəhənnəm.
Üstü su.

*(səmavar)*

❁❁❁

Dəyirmanın altı çiçəh,
Orax götür gəl biçəh.
Sən kəkil qoy mən bilçəh,
Görək hansımız göyçəh.

*(çaşır)*

❁❁❁

Dağdan atırsan sımmır,
Daşdan atırsan sımmır,
O nədir ki, çəyhdihcə gödələr?

*(papiros)*

❁❁❁

Əlin ilə vırırsan sınır.

*(soğan)*

❁❁❁

Əmim oğlu usdadır,
Beli kəmər üstədir.
Sudan bir körpü salıb
Gəl gör necə usdadır

*(buz)*

❁❁❁

O, nədi ki, göydən yerə sallanır

*(qar)*

❁❁❁

Sarıdır zəfəran deyil
Yazılıdır Quran deyil

*(qızıl)*

❁❁❁

Bir güzgüm var qapaxlı,
Altı, üstü saçaxlı

*(göz və kirpiyhlər)*

❁❁❁

Ağ uzatdım,
Qırmızı toxudum,
Qara kəsdim

*(böyürtkən)*

❁❁❁

Qat-qat qalası,
Qan piyaləsi

*(nar)*

❁❁❁

Suya girir, susur,
Çölə çıxır, danışır

*(qurbağa)*

❁❁❁

Həsdədi, hüsdədi,
Əlim kitab üsdədi.
Bı yemiş necə yemişdi,
Çərdeyi də üsdədi

*(çiyələk)*

❁❁❁

O nədi ki, qırx köynəyi var, qırxı da düyməsiz

*(kələm)*

❁❁❁

Tərəziyə qoyulub satılmır, nə də
bazarda tapılmır, Hər şeyə də lazımdı.

*(od)*

❁❁❁

Qışda sevillər, yayda bezillər.

*(isti)*

❁❁❁

Hallanır, hullanır,
Qızıllanır, sallanır.

*(zoğal)*

❁❁❁

O nədi ki, yetmiş iki dil bilir

*(saz)*

❁❁❁

O nədi ki, yaşıyarax çürüyür

*(diş)*

❁❁❁

O nədi ki, soyux-soyux əriyir

*(buz)*

❁❁❁

O nədi ki, billur-billur halı var

*(yaz)*

❁❁❁

O nədi ki, əyaxları narıncı
O nədi ki, yarpaxlamır bıdağı

*(maral)*

❁❁❁

O tayda kim var?
Kimi qaldır kim var?
Diridən diri törüyür?
Ölüdən nə törüyür?

*(cücə)*

❁❁❁

Əzizim mən çoxusu,
Yəqin bilir çoxusu.
Aşıx bir bağa çıxdı,
Azı quru, çoxu su.

*(Yer kürəsi)*

❁❁❁

Ovun alsan, mırıldar,
Sığallasan, xoruldar.

*(pişik)*

❁❁❁

Şirin-şirin meyvələrin gözüyəm,
Uşaxların söhbətiyəm, sözüyəm.
Salxım-salxım, dəstə-dəstə üzüyəm,
Enni-enni yarpaxlarım var mənim,
Məsgənimdir tənəlyhi bağlar mənim.

*(üzüm)*

❁❁❁

Səhər durdum, haçaya mindim

*(şalvar)*

❁❁❁

O nədi ki, yanağında xalı var.

*(kəpənək)*

❁❁❁

O hansı bağdı ki, otu biçilməz

*(cənnət bağı)*

❁❁❁

Başı darağı,
Quyruğu orağı.

*(xoruz)*

❁❁❁

Kolları gəzər pısa-pısa,
Qışdarı uzun, qolları qıssa.

*(dovşan)*

❁❁❁

Meşəyə getsə qudurar,
Evə gəlsə, oturar.

*(balta)*

❁❁❁

O nədi dəvə deyil,
Dəvəyə oxşar bir az?
Qanatdarı var onun
Amma göylərdə uşmaz.

*(dəvəquşu)*

❁❁❁

Qara toyux yuvasında,
Quyruğu var odasında,

*(göz)*

❁❁❁

Bir balaca mil başı
Yandırdı dağı-daşı.

*(kibrit)*

❁❁❁

Əlsiz-əyaxsız qapı açar.

*(yel)*

❁❁❁

Sağsağannar qakqıldaşar,
Sapı mənim əlimdə.

*(sazın simi)*

❁❁❁

Nəmni-nəmni zəmilərdə gəzərəm,
Dində düşüb qabağımı əzərəm,
Məylisləri hər yerdə mən bəzərəm.
Çörəyhlərə çəkib məni yeyəllər,
Ağızdardan dadım getməz deyəllər.

*(düyü)*

❁❁❁

Yağış yağsa, süzülər,
Gün çıxanda büzülər,
Çəyhsən bağrı üzülər.

*(çarıx)*

❁❁❁

Dolu gedər, boş gələr.

*(qaşıq)*

❁❁❁

İçi qızıl, çölü yaşıl

*(qarpız)*

❁❁❁

Yoxladım belindəkin,
Annadım konnündəkin.

*(kitab)*

❁❁❁

Yumru-yumaq yuvası
Yüz əllidi balası.

*(nar)*

❁❁❁

Nə əli, nə əyağı var,
Gedər əkin başına

*(su)*

❁❁❁

Sıra-sıra pətəyhlər,
Bir-birini kötəyhlər

*(dişlər)*

❁❁❁

Çox dişi var dişdəməz,
Heş kimsəni incitməz,
Əllərdən yerə düşməz.

*(darax)*

❁❁❁

Can, can üstündə
Can da dəmir üstündə.

*(adam, at, nal)*

❁❁❁

Axşam gələr, sabah gedər

*(yuxu)*

❁❁❁

O nədi ki, bədəni var, qanı yox.

*(arı)*

❁❁❁

Yol üstdə yorğun qatır,
Heş durmaz, hər gün yatır.

*(körpü)*

❁❁❁

Tüyhlücə ağzın açar,
Lüt tez oraya qaçar.

*(corap, əyax)*

❁❁❁

Bir balaca özüdür,
Səyhsən səkgiz gözdüdür.

*(üsgüyh)*

❁❁❁

Qoca baba körpü tiyhdi,
Cavan gəlin onu yıxdı.

*(şaxta, yaz)*

❁❁❁

İçini kabab etdim,
Çölünü corab etdim,
İldə bir dəfə kəsdim
Böyüyh bir səvab etdim.

*(qurbannıx qoyun)*

❁❁❁

Nəqqaş deyiləm, rəngim var,
Nəccar deyiləm, taxtam var,
Dəyirmançı deyiləm, unum var

*(iydə)*

❁❁❁

Kitap kitab içində,
Kitap bir qab içində.
Nə axund bilir, nə molla,
O da bir qab içində.

*(pul kisəsi)*

❁❁❁

Hər yan ələyh-vələyhdir
İşi tamam kələyhdir.
Dəyirmana can verər,
Xırmana da gərəyhdir.

*(yel)*

❁❁❁

Mal etsən malın olar,
Şanında balın olar.
Yazda, yayda çullanır,
Qış fəsli yalın olar.

*(torpax)*

❁❁❁

Əli əlində, quyruğu belində

*(tərəzi)*

❁❁❁

Yol gedir, kəyhlih didir

*(üzüm)*

❁❁❁

O nədi ki, nəfəsi var, canı yox.

*(kürə)*

❁❁❁

Ayağınnan aldırmaz,
Ağza yüyən vırdırmaz

*(yel)*

❁❁❁

Altı daş, üstə daş-arasında çəmənim,
Qazanda bişən düzənə aşımdı mənim.

*(səməni halvası)*

❁❁❁

Yağar yağış, qaçar qış,
Əlində cürbəcür iş.
Yaşıllaşar, boy atar,
Fəsillərə naz satar.

*(yaz)*

❁❁❁

Evdən-evə qızıl yaylıx

*(od)*

❁❁❁

Biri gəlir,
Biri oturur,
Biri yatır.

*(çay, ağaş, torpax)*

❁❁❁

Qabaxda yeli gözəl,
Dalınca seli gözəl,
Yaxasında sümbülü,
Əzasında teli gözəl.

(*yel, sel, torpax, günəş)*

❁❁❁

Göydə körpü var,
Yeddi rəngi var.

*(göy qurşağı)*

❁❁❁

Ata otdandı, qəyış qatdandı,
Qumu ələndi, suya bələndi.

*(un)*

❁❁❁

Alçacıx eşşəyh, yumşacıx döşəyh.

*(qoyun)*

❁❁❁

Hansı meyvədi ki,
Kallıxda da şirin
Yetkinliyhdə də şirin

*(uşax)*

❁❁❁

Kərbəlayi Məşədi, mən Hacıyam,
Bir cüt qoşa xalın möhtacıyam,
İkimiz bir ağacın meyvəsiyik,
Niyə bəs sən şirin, mən acıyam.

*(üzüm, şərap)*

❅❅❅

Bir qızıl öküzüm var,
Harda yatsa ot bitməz.

*(od)*

❅❅❅

Qara oğlanı qulağınnan asırlar.

*qazan)*

❅❅❅

İkini üç eləmişəm,
Otuz ikini heç eləmişəm,
Uzağı yaxın eləmişəm.

*(qocalıx)*

❅❅❅

Göydə döğular,
Yerdə boğular.

*(yağış)*

❅❅❅

Ağzın açar zəhər saçar,
Onu görən geri qaçar.

*(ilan)*

❅❅❅

Çölü günnən, içi unnan.

*(iydə)*

❋❋❋

Adam əlində,
Şeytan felində.
Təkər əyaxlı
Quyruğu belində.

*(tərəzi)*

❋❋❋

Biri gedər gəlməz,
Biri yatar durmaz

*(tüstü, kül)*

❋❋❋

Gündüz yatar yuvada,
Gecə gəzər obada.

*(yarasa)*

❋❋❋

Balaca quyu,
İçində suyu.
Ağcadan ağdı,
Sarıdan sarı.

*(yumurta)*

❋❋❋

Qəndə oxşar, dadı yox,
Göydə gedər, qanadı yox.

*(qar)*

❋❋❋

Sac üstündə çatdıyır,
Ovuşdan-ovuca addıyır.

*(qovurğa)*

❁❁❁

İki kürküm var,
On qardaşa çatar
Bını kim tapar?

*(əlcəyh)*

❁❁❁

Əziziyəm buz bağlar,
Qışda çaylar buz bağlar.
Deyin görək o nədi?
Od içində buz bağlar.

*(qəymax)*

❁❁❁

O nədi ki, özü özünə qəbir qazır.

*(damcı)*

❁❁❁

Qaşıxda oturar, ayağını sallıyar.

*(əriştə)*

❁❁❁

Mən aşığam bir bəndi,
Qızdar bağlar bir bəndi.
Bir bağa bağban oldum,
Yüz arxı var, yüz bəndi.

*(bulax)*

❁❁❁

Uzun-uzun dərvişdər
Gecə bizə gəlmişlər.
O qədər oynamışlar,
Xurd-xəşil olmuşlar.

*(yağış)*

❁❁❁

Uzun-uzun üləma,
Qız saçına dolama.
Gündüz gəzər xan bağını,
Gecə gələr salama.

*(yuxu)*

❁❁❁

Kiçik məzar
Dünyanı gəzər

*(əyaxqabı)*

❁❁❁

Axşama qədər bir əyax üsdə durur,
Axşam olar əlini uzadar.

*(qapı və halqası)*

❁❁❁

Qızıl araba, gümüş təkər,
Nanə, şəkər, noxud tökər.

*(buğda)*

❁❁❁

Haqq bilər, xalq bilməz

*(əcəl)*

❁❁❁

Yeddi qat keçə,
Mən onnan keçə.
Bircə qat dəri,
Mən onnan geri.

*(soyuq hava)*

❁❁❁

Qaradı keçi kimi,
Adamı dalar, sıçan təki.

*(qarışqa)*

❁❁❁

Kağıza sarıdım samanı,
Ağzımdan çıxdı dumanı.

*(siqaret)*

❁❁❁

Təp-təzə qabdı,
Deşiyh-deşiyhdi.

*(aşsüzən)*

❁❁❁

Evimizdə iki gəlin var,
İkisi də bir boyda.

*(qapının tayları)*

❁❁❁

Bir ağıl malım var,
Hamısı qaşqa.

*(lobya)*

❁❁❁

Mən baxıram, o yan qaçır.

*(qulax)*

❁❁❁

Ayparanı bir atın
Ayağı altda gördüm.

*(nal)*

❁❁❁

Bir körpü atda iki yol.

*(bırın)*

❁❁❁

Qulaq üstə quş yatar.

*(sırğa)*

❁❁❁

Dəvədən böyüyh, sərçədən kiçiyh, acıdan acı, baldan daddı.

*(cəviz)*

❁❁❁

O nədi ki, hap-hapa, qızıl təpə, ceyran gələ, çiçəyh səpə.

*(təndir–çörəyh)*

❁❁❁

Bağrım başı zədəndi,
Zərdəndi, zəbərdəndi.
Yaşıl əyhdim, al töyhdü
Görən əsli nədəndi.

*(sumax)*

❁❁❁

Carçısı çox, bazarı yox.
Gedəni çox, gələni yox.

*(o dünya)*

❁❁❁

Bir balaca boyu var,
Qırmızıdan donu var.

*(zoğal)*

❁❁❁

Qızıl ağaş yırğalandı,
Sırğaları sallandı.

*(zoğal)*

❁❁❁

Qat–qalası,
Can piyalası.
Uşdu anası,
Qaldı balası.

*(saman, buğda)*

❁❁❁

Bir atım var, sakit durmaz.
Hey yol gedər, heş yorulmaz.

*(çay)*

❁❁❁

Çiçəyh açır, gül deyil,
Ağdı, amma qar deyil.
İstisi var, yun deyil.

*(pambıx)*

❁❁❁

Bir güzgüm var qapalı,
Dörd dövrəsi də saçaxlı.

*(göz)*

❁❁❁

Dörd qardaş var,
Ha ötüşüllər,
Bir–birinə
Çata bilmillər.

*(arabanın təkərləri)*

❁❁❁

Dostum ma nar göndərdi
Yox demədi var göndərdi.
Çalımmamış süd qatıxdan,
Çalxammamış yağ göndərdi.

*(qoyun quyruğu)*

❁❁❁

Gündüzdər dolanar,
Gecələr ağzı açıx yatar.

*(əyaxqabı)*

❁❁❁

Yupyumuru fincan,
İçi dolu mərcan

*(nar)*

❁❁❁

Evdən evə qızıl yaylıx.

*(od)*

❁❁❁

Bədəni var, başı yox,
Qolları var, ayağı yox,
Qarnını yırt, qanı yox.

*(kofta)*

❋❋❋

Yuvası var dərində,
Qanatdarı sərində.
Gecə–gündüz yol gedər,
Yenə durar yerində.

*(dəniz)*

❋❋❋

Dərya qırağı düzdü,
Sanırsan əlli, yüzdü.
Yaşıl əkdim, al bitdi,
Görən əsli nə düzdü.

*(xına)*

❋❋❋

Nənə, bizə yağ gətir,
İnəyhləri sağ gətir.
Çalxanmamış nehrədən,
Ərimməmiş yağ gətir.

*(bal)*

❋❋❋

Bir ağacım var,
Bir gövdəsi, beş budağı,
Hər budaxda bir sədəf.

*(əl)*

❋❋❋

Altı inci mirvari,
Üstü inci mirvari,
Arasında bir yarpax.

*(dişlər və dil)*

❁❁❁

Balaca baqqal,
Nə versən udar.

*(ağız)*

❁❁❁

Bir küpüm var saçaxlı,
Yeddicə deşiyi var,
Üçü cütdü, biri təh.

*(baş)*

❁❁❁

Ağzı birdi, dili mindi,
Gah belə deyir, gah elə.

*(qələm)*

❁❁❁

İrəlidən dörd qardaş gəlir,
Birinin beli bükülü,
Birinin əli bükülü,
Birinin əli güllü,
Biri də dilli-felli.

*(qış, yaz, yay, payız)*

❁❁❁

Qara oğlanı qulağından asallar.

*(qazan)*

❁❁❁

Deyə bilməz sözünü,
Tez yandırar özünü.

*(qovurğa)*

❁❁❁

Qapı bir qonşudullar,
Bir-birini görmüllər.

*(göz)*

❁❁❁

Ağacım var dəvədən böyüh,
Meyvəsi var sərçədən kiçih.

*(qoz)*

❁❁❁

Qırmızı nar,
Hər evdə var.

*(od)*

❁❁❁

Nağaraçı nağara çalar,
Nə nağarası var, nə çubuğu.

*(ağacdələn)*

❁❁❁

Ata atdandı,
Qayış qatdandı.
Qumu ələndi,
Suya bələndi.

*(un)*

❁❁❁

Yekə zağada otuz iki döyüşçünün
bir neçə sərkərdəsi var.

*(ağız, dil, diş)*

❁❁❁

Bir quşum var tağ üstə,
Dimdiyi yarpağ üstə.

*(badımcan)*

❁❁❁

Qabığı yaşıl, içi sarı,
Gəl tap bunu, qoca qarı.

*(yemiş)*

❁❁❁

Bir çörəyim var, nə təzədi, nə bayatdı. Babam yedi, qutarmadı. Dədəm yedi qutarmadı, mən yeyirəm qutarmır, nəvə-nəticələrimə də bəsdi.

*(bayatı)*

❁❁❁

O nədir ki, əti çöldə, dərisi içəridə.

*(pətənə)*

❁❁❁

Qapısız xana, qübləsiz hamam.

*(dünya, dəniz)*

❁❁❁

Yeyər öz cismi ətin,
Çəhməz qəssab minnətin.

*(şam)*

❁❁❁

Suya salıram lillənir,
Çıxardıram dillənir.

*(zəncir)*

❁❁❁

O nədi ki, səhər durdum dirədim sənə.

*(göz)*

❁❁❁

Əziziyəm o başdan,
Mən deyirəm bu başdan,
Heç kəs ayıra bilmədi,
O nədir qardaşı ayırdı qardaşdan?

*(ölüm, əcəl)*

❁❁❁

Qara qatır, küncdə yatır.

*(süpürgə)*

❁❁❁

Düz yolumla gedərəm,
Nə istəsən edərəm.

*(qələm)*

❁❁❁

Quran gəlməyincə ötürməz.

*(tələ)*

❁❁❁

Bağlasan gedər
Açsan durar.

*(ayaqqabı)*

❁❁❁

Rəngi həm ağ olur, həm sarı
Boynunda var muncuxları,
Səs salar, oyadar yatannarı.

*(xoruz)*

✵✵✵

Suda yaşar, quruda yaşar,
Uyqunlaşıb qalar diri,
Bataqlıqdır onun yeri.

*(qurbağa)*

✵✵✵

Muncux kimi düzülübdür,
Əzilibdir, süzülübdür,
Rəngi ağ idi oldu sarı,
Doldurar boş qabları.

*(doşab)*

✵✵✵

Açarı yox, xoddamağa.
O, çıxa bilməz dağa.
Benzin, yağ tökməzlər,
Hara istəsələr minib gedərlər.

*(velosibet)*

✵✵✵

Dövrə vurar yeriyər,
İstər ağ olsun, istər qara,
Orda nə var biçər tökər.

*(daş maşını)*

✵✵✵

O nədir ki, heç kəs içinə girə bilməz,
Nə qədər götürsələr əskilməz.

*(dəniz və suyu)*

❁❁❁

O nədir ki xoda getməz,
Quruda gedər, suda getməz.
Tək bir adam aparar
Evinə tez çatdırar.

*(velosibet)*

❁❁❁

Nə yuxu görsən yozaram,
Hiylə işlə olmaz aram.
Səhv yazsan, mən pozaram.

*(yazı pozan)*

❁❁❁

Nazik çöp üstündə
Düzülüb incə yarpaxlar,
Ətirlidir, daddıdır.
Dağlıx yer məkanıdır,
Çox dərdin dərmanıdır.

*(kəklik otu)*

❁❁❁

Gözəl adı var.
Gözəl dadı var,
Ondan çox yesən
Təzyiqini salar.

*(gilənar)*

❁❁❁

Uzun yoğun çöp üstə durar,
Uzunsov kiçik yarpaxları var.
O dərman bitkisidir,
Onun suyundan içən
Tez şəfa tapar, sağalar.

*(dağ nanəsi)*

❁❁❁

Gündə eşidilər səsi
O hansı məkandır ki,
Yüzdən çoxdur pilləsi.

*(Məkkənin minarəsi)*

❁❁❁

Şəfəq saçar üzümə
Əgərki ona baxsan
Zərər verər gözünə.

*(günəş)*

❁❁❁

Yanında var cücəsi
Cücə səsin çıxarmaz
Başqadır onun səsi.

*(samovar və stəkanlar)*

❁❁❁

Nə qədər yesəm doymaram,
Hamısını yeyərəm
Birin də qabda qoymaram.

*(tum)*

❁❁❁

Bir belə midili, vurdu yıxdı güdülü.
*(güllə)*

❁❁❁

Danışanda yaxşı danış,
Eşidənnər desinlər,
Əhsən, sənə min alqış.
*(natiq adam)*

❁❁❁

Bacası, tüstüsü yox,
O hansı məkandır ki,
Soyuqdur, istısi yox.
*(qəbir)*

❁❁❁

Yerin altınnan çıxar
Onu içənnərin
Çoxları şəfa tapar.
*(sirab)*

❁❁❁

Dağın başı ucadı
Üstündə gəzmək olmaz.
Çünki ucu haçadı.
*(Haça dağ)*

❁❁❁

Sənə hamıdan əziz kimdir
Əgər ki, bilirsən,
İncitmə onu, xoş dindir.
*(validеyn)*

❁❁❁

Dərdlərə çarə edər,
Onu çox adam tanımaz,
Əl çatmaz yerdə bitər.

*(dərman otu)*

❁❁❁

Safdır inci kimi
Onsuz yaşamağ olmaz.
Odur yaşadan səni.

*(su)*

❁❁❁

Bilmək olmaz nə qədərdir,
Çırax kimi yanır o,
Tapın görək nədir, o.

*(ulduzlar)*

❁❁❁

İki ayağ üstə gəzər,
Qorxulu heyvan deyil,
Balasın qoynunda gəzdirər.

*(zürafə)*

❁❁❁

İldə bir dəfə olar,
Çoxları bilməz onu.
Qədrin bilənlər tutar.

*(orucluq)*

❁❁❁

O nədi ki, özü-özünü dəstəyhləyir

*(kitab)*

❁❁❁

Gətiririh uzax məkannan,
Xəstələrə şəfa verər,
İçəndə onun suyunnan.

*(Zəmzəm suyu)*

❁❁❁

Hər həyətdə bir gül var,
O olmasa yaşamağ olmaz,
Gündüz açar, gecə solar.

*(günəş)*

❁❁❁

Xırda olar yekələr,
İşıq saçar istisi yox,
Gündüz gedər, gecə gələr.

*(ay)*

❁❁❁

Çoxları boynunnan asar,
Ümid gətiribdir ona
Çoxu onnan şəfa tapar.

*(göz muncuğu)*

❁❁❁

Nərə çəkər səs salar o,
Rezin kimi yığılar uzanar,
Adamı parçalar o.

*(pələng)*

❁❁❁

Boyun şənbədir, yadımıza düşən nədir?
Odsuz, susuz bitən nədir?

*(bal)*

❁❁❁

Lazım olar çox şeyə,
Bala qatıb yeyəndə,
Xeyirlidir mədəyə.

*(cəviz)*

❁❁❁

Hər tərəfi yarpaxdır.
Yoğun kök üstə durub.
Rəngi ağappaxdır...

*(kələm)*

❁❁❁

Gah uzanar, gah qıssalar,
Əvvəldən belə yaranıb
Gah da barabar olar.

*(gecə, gündüz)*

❁❁❁

Hava ilə gələr
Hava ilə gedər,
Çox sürətlə gedər,
Heç şey ona çata bilməz,
Həm də uzaxdan görünər.

*(təyyarə)*

❁❁❁

Gələr o başdan alar,
O nədir ki insanın
Ağlını başdan alar.

*(şərab)*

❁❁❁

Dörd tərəfi taxta,
İki qardaş üz-üzə
Oturub bir otaxda.

*(cəviz)*

❁❁❁

Görənnər belə deyir:
İki qardaş oturub bir evdə,
Ancax onnar bir-birin görmür.

*(göz)*

❁❁❁

Qarğayıblar nəsi çox olmaz,
O hansı heyvandır ki,
Doğulubdur, özü doğmaz.

*(qatır)*

❁❁❁

Siftəsi göy olar,
Sonrası qırmızı
Yeyəndə ləzzət verər,
Üstünə səpəndə duzu.

*(pamidor)*

❁❁❁

Sürü ilə yaşayallar
Hər tərəfi örtülüdür,
Havadan nəfəs almaz yaşayar.

*(balıq)*

❁❁❁

Başında gəzdirər şaxı
Qaçanda onu tutmaq olmaz.
Odur dağların şahı.

*(maral)*

❁❁❁

Bu heyvanın adı nədi,
Məskəni çöldü, meşədi
Buynuzu burnunun üstündədi.

*(qaban)*

❁❁❁

Dolanır ayın içində
Bilin yeddidir onlar,
Onu biz görürük gündə.

*(həftənin günnəri)*

❁❁❁

Gəzib bütün dünyanı,
Bəyənib bizim yeri,
Məskən edib Naxçıvanı.

*(duz)*

❁❁❁

# XI.
# QORXUTMALAR

❋ Dinmə, damdabaca gəldi.

❋ Şeytan gəldi, dəvə gəldi, səni yedi, yedi, yedi.

❋ Yat, qapıda xuxan var.

❋ Quleybani gəlib səni aparar.

❋ Hedivar gəldi, slxo gəldi.

❋ Bay ağlama, gur-gur baba gələr.

❋ Uşaqları qorxudan Abbas kişi deyirdi, bir sumka qulax gətirmişəm, biri kəsirdi. Səninkimi də kəsərəm. Sakit ol.

❋ Ağlasan uşaxyığan gəlib səni aparar.

# XII.
# SANAMALAR

❋ Bir-iki bizimki,
Üç dörd qapını ört,
Beş-altı daşaltı,
Yeddi-səkkiz Firəngiz,
Qoqquz-on qırmızı don...
Sələmə sələlli-qırx doqquz əlli
Altmış-başı batmış,
Yetmiş-yetişmiş,
Toyux-cücə hin, min...

❋ Əlibala ilə Gülbala
Gedirdilər futbola,
Əlibala dalda qaldı,
Gülbala arvad aldı,
Bir vurdu ikiyə,
İki vurdu üçə,
Üç vurdu dördə,
Dörd vurdu beşə,
Beş vurdu altıya,
Altı vurdu yeddiyə,
Yeddi vurdu səkkizə,
Səkkiz vurdu doqquza,
Doqquz vurdu ona,
On vurdu Petkaya,
Petka vurdu setkaya,
Odin nol, çistıy qol!!!

# XIII.
# NAĞILLAR

## Sehirli don

Bir gün bir çoban olur. Çoban dirsəyin verib yerə tamaşa eliyirdi. Görür bir dənə heyvan gəlir, ancaq bu heyvan insan kimi yeriyir. Çoban təccüb elədi. Dedi mən bu yaşa çatmışam, belə bir şeyə rast gəlməmişəm. gözdədi, gözdədi, gördü bu gəldi. Gəlib oturan kimi donunu çıxardı, oldu bir insan. Çoban dedi:

– Ey bəşər, insan, sənin o tüklü donun nədi, bu nə sirrdi, məni agah eylə.

Oğlan dedi:

– Soruşmasan yaxşıdı.

– Niyə?

– Başım bəlalıdı. O qədər şeyə ehtiyacım var ki, başıma belə bəlalar iş gılib.

– De görüm.

Oğlan dedi:

– Mən bir atanın, bir ananın övladıydım. O qədər ləzzətli günlər keçirirdim, o qədər yaxşı yaşayırdım, atam-anam o qədər yaxşıydı ki, bilməzdim yoxsulluq nədir, varrılıx nədir. Ancax gün oldu, atam öldü, anam öldü, mal-dövlət dağıldı, mən düşdüm bu hala. Yəni o qədər çörəyə ehtiyacım oldu ki, indi mənim günüm-güzəranım belədir. Mən bu hala düşüb heyvan da tuturam, çoban da döyürəm. Elə bilirlər mən vəhşi heyvanam, ancax vəhşi heyvan dəyiləm.

Çoban dedi:

– Oğlan, de görüm, birinci müsibətin haradan başlayıb?

– Mənim müsibətim ordan başlayıb ki, mən evimdə yatdığım yerdə bir səs gəldi. Çıxdım səsə ki, görüm kimdir, məni tutdular. Apardılar atdılar bir qarannıx dama. Mən o qədər çox əziyyətlər çəkdim, o qədər fəlakətlər gördüm. Allahımdan əhd elədim ki, İlahi-Pərvərdigara, ya məni öldür, ya bu əzabdan qurtar, ya mənə bir urza qapısı aç, ya məni vəhşi heyvan elə. Vallah, mən gəldim düşdüm bu halətə. Allah tərəfindən mənə bu kürk nəsib olub. İndi mən dağı, dərəni, biyabanı, çölü gəzirəm, hamı məni vəhşi hesab eliyir. Ancax mən vəhşi dəyiləm. mən bir atanın-ananın oğluyam. Çoban, bu sirri heç kəsə aşma.

Çoban dedi:

– Yox, mən hamıya dəcəm ki, səni tanısın, sənnən qorxullar, sənnən xof eliyillər, bu nədi.

– Çoban, sən insaf elə, gəl mənim sirrimi aşma. Çünki olan Allahdandır. Allah bu çörəyi qismət eliyib, mən də belə dolanıram.

Çoban dedi, oğlan dedi, çoban gördü vallah qeybdən 2 dənə göyərçin gəldi, qondu çobanın çiyninə dedi:

– Ay coban, biz Allahın elçiləriyik. Çoban, buna əl tut, yanında saxla, namərdlik eləmə, eləsən iki gözlərini çıxaracıyıq.

Çoban xof elədi, oğlanı götürdü yanına, oğlan o gündən çobanın yanında yaşadı.

## Murtuzun nağılı

Murtuz bir yetim uşax idi. Bu uşağın dolanışığı meşədən odun yığıb gətirməkdəndi. Gətirərdi, o zaman "şəhər bazarı" deyilən yerdə odunu çörəyə dəyiştirərdi, uçux daxmanın bir küncündə qısılıb qalardı.

Bir gün meşəyə gedəndə o, yaralı tülkünü gördü. Gedib tülküyə yaxınlaşdı. Gördü ki, tülkü sızıldıyır. Tülküyə yazığı gəldi. Getdi yaxına, gördü ki, onun ayağına qələm batıb, yəni ki, yonulmuş çöp. Bunu çəkib çıxarır, sığallayır ki, çirki də getsin. Tülkü çıxıb gedir. Oğlan da odunu yığıb qayıtdı, gəldi. Hər gün Murtuz buraya gəldikcə tülkü də gəlir, oğlana ehtiram göstərir. Bir gün Murtuz şələ çiynində yeridiyi yerdə

görür ki, yerdə bir şey parıldayır. Yaxınlaşıb bunu götürür. Görür ki, toyuq yumurtası boyda daşdı. Bunu cibinə qoyur, gəlir qaldığı daxmaya. Odun şələsini qoyur yerə, fikirləşir ki, tapdığı daşı oralarda qoymasın. Bu fikirlə daşı şələnin altına qoyur. Necə olursa oğlan huşlanır, yuxu tutur. Ayılanda görür ki, şələ yanır. Gözünə inanmır, şələni tərpədir, baxır ki, şələ yanmır, daşın parıltısıdı. Bu, daşın işığıdı. Bu daşı götürür, fikirləşir ki, odunla bərabər aparsın bazara, göstərsin görsün bu nədir axı.

Bazarda Murtuzun şələsinə şəhərin qazısı müştəri durur. Oğlan deyir:

– Qazı ağa, odunun pulunu verdin ama məndə bir daş var, o da işıq saçır.

Qazı deyir:

– Ver görüm, bala, daş işıq saçmaz, görüm nədir?

Qazı baxıb, dedi:

– Eh, elə-belə daşdı.

Qazı uşağı aldadıb ləli uşağın əlindən çıxardı. Murtuz gəldi evə, çörəyini yedi, yenə meşəyə üz tutdu. Tülküylə rastlaşdı. Tülkü oğlanı görcək başıyla həmin yerə işarə etdi, daşı qoyduğu yeri göstərdi. Ancaq oğlan heç nə başa düşmədi. Qayıdıb gəldi, fikirləşdi ki, tülkü niyə mən daşı götürdüyüm yeri göstərdi, niyə sevindi, əllərin qaldırıb oynadı. Fikirləşdi ki, getsin şəhərin kasıblara kömək edən bir şəxsi var, ondan soruşsun. Gəlib soruşur. Həmin şəxs deyir:

– Sənin gətdiyin daş nə idi?

– Yumruydu, işıq saçırdı.

– Qazı səni aldadıb, o ləldi.

Həmin şəxs Qazıdan ləli almaq üçün Murtuza heç bir yol göstərə bilmədi. Çünki Qazı şəhərin hakimidi, onun əlinin üstündə əl yoxdu.

Oğlan fikirləşdi, yenidən tülkünün yanına gəldi. Bu dəfə tülkü dil açıb danışdı:

– Neynədin mən verdiyim daşı?

– Qazı əlimnən aldı.

– Qazının əlinnən ləli almaq üçün mən gedəcəm. Ancax sən mənə zəfəran gətir. Qazı arvadını çox istəyir. Qazının arvadının üzünə zəfəran yaxacam quyruğumla, hamı onu xəstə biləcək. Sənə həkim paltarı ge-

yindirib göndərəcəm, beləliklə daşı onun əlindən çıxaracağıq, başqa yolu yoxdu.

Tülkü dediyi kimi də elədi. Şəhərə hay düşdü. Kim gəlib baxdısa da, dedilər bu arvad ölür. Dedilər ki, bir uşaq var, o sağalda bilər. Uşaq gəlir, baxıb eliyir. Qazıya deyir ki, bunun sağalması üçün bir uşaxdan daş almısan, onu qaytarsan, bəlkə Allahın sənə rəhmi gələ, arvadın sağala.

Qazı daşı gətirib deyir:

– Mən uşağı hardan tapım?

Oğlan deyir:

– Sən ver mənə, mən uşaxlarınan oynuyuram, gizlincə tapıb verəcəm.

Oğlan qazıdan daşı alıb deyir:

– Arvadın getsin çeşmədə əlin-üzün möhkəm yusun, sağalar.

Beləliklə, Murtuz daşı alıb qayıtdı.

## Bənövşənin nağılı

Bənövşə adlı bir qız öz yaşıdların yığıb gedir meşəyə. Yaz aylarıymış. Birazı gül, birazı göbələk yığmaq üçün gedir. Beləcə xurcunlarını doldururlar. Deyirlər ki, bir az da yığaq. Analarının xurcunlarına qoyduğu yeməyi yeyirlər, qurtaranda baxıllar ki, Bənövşə yoxdur. Deyirlər ki, Bənövşəni tapmaq üçün gərək dağılaq meşəyə. Meşəni ələk-vələk eliyirlər Bənövşəni tapammırlar ki, tapammırlar. Axşam toran düşəndə qayıdıb gəlirlər. Bənövşənin də atasına xəbər verirlər ki, Bənövşə getdi gül yığmağamı, göbələk yığmağamı bilmirik, ancax gəlmədi.

Bənövşə görür ki, qarannıx düşür. Baxır ki, uzaxdan bir dənə çıraq işığı gəlir. Deyir ki, ora evdir, gedəcəm ora. Gəlir baxır ki, bir mağara. İçəri girəndə görür ki, üç dənə kötük qoyulub. Bunlardan ikisi böyük, biri balacadır. Baxır ki, böyük kötüklərin üstündə böyük çaydanda çay var, xırda kötüyün üstündəki isə stəkanda çay var. Çayı içir. Görür bir otaq da var. Durub keçir o otağa. Görür ki, üç qabda plov var, ikisi çox doludu, biri yarımçıq. Burda da yarımçıq plovu yeyir. Baxır ki, bir otaq da var.

Deyir keçim görüm orada nə var. Baxır ki, burda heyvanlar özləri üçün yataq yeri düzəldiblər. Bunların da ikisi böyük, biri balacadır. Xırda yatağa uzanıb yatır. Bir də görür ki, ayıların səsi gəlir:

Adam-madam iyisi gəlir,
Çaqqala-badam iyisi gəlir.

Ayılar tapbatapnan gəlib girirlər içəri. Çayların içəndə xırda ayı ağlayır. Deyirlər niyə ağlayırsan. Deyir ki, bə mənim çayımı içiblər. Yekə ayılar hərəsi bir az öz çayından tökür onun stəkanına, o içir. Deyirlər ki, indi duraq yemək yeyək. O biri mağaraya keçirlər. Yenə xırda ayı başlıyır ağlamağa. Yekə ayı deyir:

– Sa nolub axı, lap zəhləmizi tökdün, bayaq çay içəndə ağladın, indi də yemək yeyəndə ağlıyırsan.

Deyir:

– Bə mənim yeməyimi yeyiblər.

Ayılar deyirlər ki, burda bir insan vardır. Bu vaxt Bənövşə bu səsi eşidir. Mağaranın bir yerindən düşüb qaçır. Ayılar girir yataq yerinə. Xırda ayı genə başlayır ağlamağa. Deyir ki, mənim yerimdə nəsə yatıbmış, bura istidi. Böyük ayılar gəlib baxır ki, həqiqətən istidi. Baxırlar ki, uzaqdan bir qız qaçır. Səhərə yaxınıymış. Elə bu vaxt Bənövşənin atası kəndin camaatı ilə qızının dalınca gəlirmiş. Baxıllar ki, üç dənə ayı gəlir, onların qabağınca da qız. Atası ayıları vurur. Ayılar insanlara cumsalar da, al-qan içində yıxılıb ölürlər. Bənövşə balaca ayını vurmağa qoymur. Deyirlər niyə qoymursan, bu da onların balasıdır da. Deyir yox, onun mən çayın işmişəm, yeməyin yemişəm, yatağında yatmışam, onu vurmayın.

Beləcə balaca ayını buraxırlar gedir meşəyə.

# Şah oğlu Şah Abbasın həyatı

Şah vaxtıydı. Şah gecə olanda evləri, həyətləri, qapıları gəzirdi, ki, görsün kim neyniyir, kim neynəmir. Şəhər isə çox ağır şəhər imiş. Bir gün bir naxırçının belə qapısından keçəndə qulaq asır ki, üç qızı var. Şah deyir ki, qoy görüm bu qızlar nə danışırlar. Köhnə uçuq bir damda olurlar. Qızlardan böyük bacı deyir ki, ay qızlar, istəyirəm bir söz deyəm, kaş o gün olaydı məni o vəzir alaydı. Bilirsən neyniyərdim, o biri qızlar deyir neyniyərdin? Ona bir xəli toxuyardım bütün millət oturardı üstündə, hələ xəlinin yarısı da boş qalardı. Ortancıl bacı deyir, onda məni də vəkil alaydı. Mən də ona yumurtanın qabığında yemək bişirərdim, şəhər əhli yeyərdi, qalanı da qalardı. Xırda bacı da deyir ki, ay allah, kaş məni də padşah alardı. Şah olub Şah Abbasdı. Bir oğlan doğaydım, bir birçəyi qızıl olaydı, bir birçəyi gümüş. Şah qayıdır gəlir. Səhərisi çıxır taxta. Əmr edir ki, naxırçının qızlarını gətirin taxta. Naxırçının qızlarını gətirirlər. Şah deyir axşam nə danışıbsız hammısını deyəcəksiniz. Qızlar deyir:

– Şah sağ olsun, boynumuzu vurdurarsan, biz bilmirik, biz saray görməmişik, adam görməmişik. Deer, yox e deyəcəksiniz. Bunnar nə deyibdilər hammısını padşaha deyirlər. Bunnar toy eliyirlər. Böyügü alırlar vəzirə, ortancılı da alırlar vəkilə, xırdanı da padşah özünə alır. Beş gün, üş gün vaxt tamam olur. Vaxt tamam olanda bunun bir uşağı olur. Anası görür ki, uşağın bir birçəyi qızıldı, bir birçəyi gümüşdü. Bacılar uşağı götürüb yerinə bir it küçüyü qoyurlar. Ana görür ki, belədir, oturur. Durun neyniyirsiz? Padşah it küçüyün görüb deyir ki, belə eləyin, bunun başını kəsin, asın bunun boynuna ötürün eşiyə. Şəhərdən də çıxardın. Bə bu belə demişdi. Qoydu getdi. Bunu ötürdülər. Bir bəri biyabana üz tutdu getdi, gördü bir meşəlik var. Girdi meşəyə, az baxdı, çox baxdı dedi qurda-quşa yem olacağam. Bu nə qurma idi mənim başıma gətirdi. Padşah da padşahlığını eliyir. Meşədə az getdi, çox getdi, gördü bir su çığırı gəlir. Dedi hər halda bu bulağ olar. Əyaq qoydu, getdi bulağın başına, gördü bir gözəl bulaqdır. Əl-ayağını yudu, otdu, dincəldi, bir xortum işdi, dedi məni burda qurd-quş yeyər, bə mən necolacam. Bir az gəzdi-dolandı,

gördü üstdə böyük bir daş var. Getdi o daşın qırağından baxdı ki, bının içi bir zağa kimidi. Daşı bir az helləyən kimi, qıraxdan girdi içəriyə. Gördü burda şam zad var, az var, çox var. Dedi pahoo, gecə burda gecəliyərəm, ottu uşağı da qoydu yanına, nəbilsin. Yatdı yuxu da gördü. Orda yatdı. Durdu gördü ki, uşaq yoxdur. Bir parça əppəhdi. Çox fikirləşdi, az fikirləşdi, bir də başın qoydu yerə yatdı. Səhər durdu, dedi belə olmaz e, bir paltar geyindi əyninə, kişi paltarı, dərviş libası oldu, düşdü cahanın canına. Gəldi genə öz şəhərlərinə. O vaxtdan bizdə qəsidə qalıb da. Dərviş qəsidə oxuyur. Gəlir padşahın qapısına gəzə-gəzə, gəzə-gəzə oxuyur. Padşahın elə gözəl buna ürəyi yanır, elə yanır, elə yanır. Gündə vəzirə deyir ki, xəzinədən ona bir qızıl ver getsin. Bir qızıl verir, gedir. Beş gün, üş gün, görür bu burdan əl çəkmir, öz-özünə darbınır. Bir gün vəzir düşür bının dalına. Qarabaqara gedir o mağaraya. Bilirmiş da dalınca gəlir. Belə dönür görür dalınca gəlir. Der utanmadın düşdün mənim dalıma gəldin? Gördü pahoo, bu nədi. Girdilər içəri. Dedi otu, otdular.

Qız dedi: – Bə nə yaxcı gəldin?

Vəzir dedi: Sən bir dərviş olasan, xəzinədən gündə bir qızıl gətirəsən. Mən də vəzir olam, beləcə baxam. Bu nə söz söhbətdi, mənə də de da.

Qız dedi:

– Yaxcı niyə demirəm. Dedi, ama şərtim var. Şərtimə əməl eləsən deyəcəyəm, eləməsən demiyəcəyəm. Dedi :

– Başımı qoyuram dizivin üstünə yatıram. Məni oyada bilsən, oyatsan mən sənə sözümü deyəcəyəm. Oyatmasan bırdan səni, çıxardacam bu qayanın üstünnən elə tulluyacam ki, şəhərdə şahın həyətında neçə parça töküləcəksən yerə.

Vəzir dedi:

– Niyə

Qız dedi:

– Mən yatacağam da, məni oyatmalısan.

Başın qoydu bının dizinin üstünə, bı yatdı. Nə qədər çığırdı, nə qədər bağırdı, nə qədər dedi, baxdı yox. Heç bı durmur. Hava işıqlaşmağa yaxın olanda qız gözünü aşdı dedi oyatmadın?

Vəzir dedi:

– Yox.

Qız dedi:

– Gə bura.

Tutdu qolundan, çıxartdı ora. Allah talaa bını elə tulladı ki, şahın həyətində, qapısının ağzında neçə tikə parça töküldü yerə. Səhər duran gördü ki, baay, vəzir parçalanıbdı. Bunu götürdülər. Bu nə işdi, kim elədi, nooldu, bilən yoxdur. Sabahı vəkil getdi dalınca. Genə gəlib qəsidə deyirdi. Gördü ki, bunu dəfin-kəfin eliyirlər. Gəldi vəkil düşdü bının dalına getdi. Dedi gəl. Bu da getdi bunun dalında, genə bilirdi bu düşüb bunun dalına. Ora çatanda qız dedi heç utanmadın, buracan mənim dalımca nəyə gəlmisən?

Vəkil dedi: Mən vəkil ola-ola sən gündə xəzinədən bir kisə qızıl gətirirsən, neynirsən bir həylə qızılı, onnan maa da ver.

Qız dedi: Bə niyə verim. Padşah bını mənə verib da, mən də qoydum xurcunuma.

Vəkil dedi: Heç.

Qız dedi: Keç içəri.

Vəkil keçdi, gördü ki, şam-zad yanır. Bu qaydada vəkilə də dedi ki, mənim şərtim var. Məni üç dəfə oyatsan, deyəcəm niyə burda qalıram. Oyatmasan sarayın qapısında vəzirdən o yana səni neçə parça görəcəhlər.

Vəkil dedi: Oyadaram.

Qız başın qoydu bının dizinin üstünə yatdı.

Vəkil nə illah elədi, ay yandım, ay haray, ay dad durmadı. Səhərüzü işıqlaşanda, bunu durquzammadı. Bunu götürdü elə tulladı qayadan, xudabəndaləm tulluyurdu, bu tullamırdı. Naxırçı qızıdı, bına gör nə zulum elədilər. Getdi düşdü o yana. Səhər durdular ki, baay, vəkil vəzirdən də o yanda parçalanıbdı. Bilən olmadı. Bunu da dəfin kəfin eliyəndə qız özünü yetirdi ora. Gördülər ki, şəhərin o tərəfindən bu tərəfinə qəsidə deyən dərvişin səsi gəlir. Biri getdi qabağına, dedi, ay qardaş, getmə heç. Vəzir, vəkil öldü, padşahın da az qala bağrı çatdıya. Deyir ki, gəlir qəsidə deyir, ama ağzının qoxsu məni vırır. Ağzıvı bağlaginən. Deyir, boy niyə? Deyir, padşahın xoşuna gəlmir. Gəldi ağzını bağladı, qəsidəni dedi.

Padşah dedi:

– Ay dərviş, ağzıvı niyə bağlayırsan?

Qız dedi ki, nə bilim, bağlıyıram da. İki-üş dəfə bunu soruşduq, qız buna cavab vermədi. Yenə buna qızıl verdilər, bu qayıtdı getdi. Bu gecə özü düşdü bının dalına. Şah oğlu şah Abbas özü düşdü bının dalına getdi. Az getdi, çox getdi, qız gördü ki, elə dalıca gəlir. Şah gördü pahoo, şəhərdən çox uzağa çıxdı. Bir meşəyə girdi, meşədən çıxdı, gethaget, gethaget getdilər o mağaraya çatdılar. Qız çöndü ki, baay, qızılından ötəri gəldin, xəzinəndən ötəri gəldin, heç utanmadın? Dedi, yox, gəldim örgənəm görəm, harda qalırsan. Qız dedi onda gir içəri. Əyildi ki, burada şam yanır, qaranlıq bir yerdi. Girdilər içəri bunnar. Otdular. Dedi, bə de da. Dedi, yoox. Bə şərtim var axı. Dedi, nədi şərtin? Dedi, mən başımı qoyub sənin dizinin üztünə yatacağam. Məni üççə dəfə, heç olmasa bircə dəfə oyat, mən durum bu sirri sənə deyim. Ay haray, ay dad. Başını qoydu, yatdı. Az ottdu, çox ottdu, az danışdı, çox danışdı. Baxdı heç bunnan səda çıxmır. Dedi, şamdan, səə qurban olum. Sən bir söhbət elə, ağam qulaq assın. Şamdan dilə gəldi. Dedi ağa, şamdanda nə mərfət var, nə də nağıl eliyə, ağası qulaq asa. Ağa bir şey ki, dünyanın padşahıdır. Ağa söhbət eləsin, şam qulaq assın, deyə şamdan dilə gəldi.

Bu başdadı söhbət eləməyə. Dedi şam, ağan saa qurban olsun, gedirdi üş nəfər yoluynan. Qoy söhbət eliyim, səhər açılsın, gecə çoxdu. Üş nəfər gedirdi. Biri dərzi idi, biri gülgər idi, bir molla idi. Az getdilər, çox getdilər, qazanca gedirdilər. Bir də gördülər ki, bir xarabalıq kətdi. Heş kəs yoxdu. Kət xarabadı. Bir az gəzdilər, dolandılar, gördülər qarannıx düşdü, dedilər elə bırda da gecəliyək, səhər gedərik. O qabaxdan demişdi da üş dəfə oyat. Sora da dedi ki, bəlkə oyada bilmədim. Bu da dedi heç olmasa bir dəfə oyat. Ottular, gəzdilər, dedilər qurd-quşa yem olacayıx, bir daldalanacaq, kalafaların hansı yaxçıdı, orda gizdənəh da. Qabaxdan da bir çay axır. Gəldilər, böyük bir kalafaydı. Bının bir küncündə otdular, az fikirləşdilər, çox fikirləşdilər, bının ikisi yatar, biri qarovul çəkər. Qorxullar da xarabalıq yerdi. Bu naccar durdu ayağa. Dedi, mən oyaq qalım, siz yatın. Mən gözdüyüm. Naccar getdi oyaq qaldığına həcatını götürdü, ağaş çoxdu, hamısı quruyan, yıxılan, bir ağaşdan yondu bir zənan xaylağının şəklini düzəltdi, dayadı divara. Gəldi dur-

quzdu ki, ay qardaş, dur di mən də gözümün açısını alım da. O dərzini durquzdu. Dərzi durdu ayağa. Bu gəldi yatdı. Bu bilmədi da bu nəğayrıb, neyniyib, nə iş görüb da. Bu da gəzdi, dolandı, gördü. Gördü ki, burda bir arvad xaylağı var. Yaxına gedəndə gördü ki, bu ağaşdı. Dedi eyhh. Mən də elə günümü keçirtmək üçün maşınımı, dərziyəm da, paltaramı gətirim buna bir dəst libas tikim. Getdi gətirdi bir gözəl libas tihti, geydirdi ona. Başına da hicab attı. Obaş, sübh namazı yaxınlaşmışdı, gəldi mollanı durquzdu. Dedi, ay qardaş, dur bir az da sən dolan, namaz vaxtıdı. Durarıx namazı biz də sənnən qılarıq. Mən də gözümün acısını alım. Bu getdi əl-ayağını yudu, dəstamaz aldı, ora-bura baxdı. Kalafaya girəndə gördü ki, orda bir Zənan xaylağı dayanıb. Dedi xudabənd aləmi, hardan gəldi bu canlı bura. Yavaş-yavaş, yavaş-yavaş gördü ki, yox, bu ağaşdandı, bu libası da buna geydiriblər. Bu gəldi bunları durquzdu. Dedi durun dəstamaz alax, namaz qılayın. Durdular namaz qılmağa. İki rikət namaz qıldı molla, sübh namazı qılandan sonra, əl götürdü xudabənd aləminə. Dedi, xudaya xudabənd aləmi, bu yoldaşlarımın yanında məni sındırmagınan. Bu Zənanə nəfəs verginən. Həə, belə bu bilmir bı qayırıb, o bilmir ki, bı qayırıb, o bilmir o qayırıb. Bə padşah nə biləcək. Gəldi namaz qıldılar, gəzdilər, dolandılar, dedilər ki, orda bir zənan xəylağı var, oturub yerə. Onlar tikəndə, qayıranda ayağ üstə idi, əmma indi cana gəlib oturub yerə. Getdilər yanına ki, canlı bir insandı da, zənandı. Dedilər, ay bacı, gəl bura yanımıza da. Buu da gətdilər bu biri əvə. Bunların davısı düşdü. Naccar dedi ki, mən yonub qayırmışam. Dərzi də dedi, mən libasını tihmişəm. Molla dedi ki, mən iki rikət hacat namazı qılıb, Allah dərgahına əl qaldırmışam. İndi bu necə olan şeydi. Bu maa çatır, onnara çatmır. Birdən qız başın qaldırdı, dedi, o ağlın-huşun sahibi idin ki, o uşağı gizlicə götürdülər yerinə it küçüyü qoydular, məni ötürdün bura. İndi də bilmirsən zənan kimə çatacax...

Deyir, yox.

Deyir: Naccar alsın əl muzdunu.

Dülgər də alsın əl muzdunu.

Bu Allah dərgahına molla əl qaldırıb da. Mollaya çatır da. Pədşah qızı götürdü gəldi.Uşağı da tapdılar, nağıl da burda bitti.

# Şah oğlu Şah Abbas

Şah oğlu şah Abbas bir gün yattdı yuxuda gördü ki, bir bulağa gedibdir. Bulağın içində bir nazəni-sənəmin üzünü görübdü. Dedi, pahoo, bu nədi belə. Qayıtdı dala. Peyğəmbər vaxtı idi. Bir yəhudi o vilayətdə yaşıyırdı. Bircə övladı vardı. Özü də irəmdar idi, keşiş. O, o şəhərdə yaşıyırdı. Bu da bu şəhərdə yaşıyırdı. Gördü ki, elə gözəldi, elə gözəldi, qızın adı pəridi. Dedi bunu heç kəsə verməərəm. Pəri on beş yaşına çatmışdı. Atası onnan uzaxda çörək yemirdi da, bu keşiş. Əmə bunun anası ölmüşdü, dayə tutmuşdular. Bir gün ottdu fikirləşdi ki, Allah lənət eləsin, Allah genə lənət eləsin onlara. Dedi ki, yox belə olmaz. Mən gedəciyəm müsəlmanların mollasının yanına. Keşişdər düzün deməz. Gedəcəm müsəlmanların mollasının yanına. Gör bu dinsiz getdi müsəlman mollasının yanına, mollaya nə dedi: Dedi ki, mən gəlmişəm. Sən müsəlmanların mollasısan. Bir ağac bir meyvə gətirə, onu özün yeyərsən, yoxsa satarsan? Dedi, yox. Bir meyvənin nəyini satacam, onu yeyərəm da, bizim molla dedi. Deməh molladan ixtiyarı aldı. Bu qayıtdı əvə. Əvə qayıtdı dayəyə dedi ki, mən gedirəm Ərəbistana.

Dayə dedi niyə gedirsən?

Keşiş dedi: gedirəm toy zər-zibası almağa.

Dayə dedi ki, kimə alacaxsan?

Keşiş dedi: – Pəriyə.

Dayə dedi: bə Pərini kimə verirsən?

Keşiş dedi: özüm alacam.

Dayə Əstafullah, dedi.

Əmə Pəri bir tikə də olsun dədəsindən ayrı çörək yemirdi.

Səhər açıldı, bu dayə çörəyi gətirəndə Pəri yemədi.

Dayə dedi, bə niyə yemirsən?

Pəri dedi, bə atam hanı?

Dayə dedi, atan gec gələcək, uzağa gedib.

Pəri dedi, yemərəm.

Dayə nə illah elədisə, Pəri yemədi ki, yemədi.

Dayə qaldı kırıx.

Dayə günorta gəldi, axşam gəldi, nə vaxt gəldi, qız yemədi.

Dayə ikinci günü hirsləndi. Dedi, az, açınnan öləcəksən? Deyim atan hara gedib?

Pəri dedi, de.

Dayə dedi, gedib toy tədarükü, zər-zibası almağa. Hindistana, Ərəbistana – harda gözəl zər-zibalar var onnardan alacax.

Pəri dedi, kimə toy edir?

Dayə dedi, sənə.

Pəri dedi, bə məni kimə verir?

Dayə dedi bə özü alacax.

Pəri dəli oldu. Bu keşişin qızı dəli oldu.

Pəri dedi, xüdabəndaləmi mən nə eşidirəm, bu nədi belə...

Pəri gecənin bir aləmi dayəyə dedi ki, sən eşihdə ol mən özüm yatacağam. Qorxmuram ki.

Saray elə ucadı, elə ucadı, nətəri. Heç ordan düşmək olar? Xudabəndaləmi gör necə saxladı onu. Bütün paltarlarının gennərindən geyindi əyninə, ağam Həzrətabbası çağırdı, sarayın pəncərəsindən özünü attı. Özünü atanda fırlana-fırlana gəldi düşdü yerə. Durdu ki, heşpişey olmuyubdu. Üz qoydu saraydan çıxmağa. Sarayın qapısı bağlı idi. O yana tavlandı, bu yana tavlandı, bir qoca ana tapdı. Hava da işıxlanırdı. Qocıya dedi ki, bu qapını aş da. Gəldi qapını qoca aşdı. Qoca qapını aşdı, bu çıxdı qaşdı. Az getdi, çox getdi, gəldi bir meşəyə çıxdı. Dedi, ay Allah, məni qurd-quş yeyəcəh. Dedi, nətəri eliyim ki, mən burada gizdənim. Çıxdı bir ağaca, başını qoydu ağaca, dedi səhər açılar çıxıb gedərəm.

Bir Mirdamət ağa var idi. Elə bi ki, ağır seyid idi. Bu Damət də bu şəhərin padşahı idi. Bu keşiş də ramdar idi. Harda nə olurdu bilərdi ki, harda nə var. Bu Damət padşah camaatı apardı ova.

Səhər tezdən qız yuxudan durdu ki, oqqədər qoşun gəlir, ta nətəri. Dedi məni burda öldürəcəklər. Az qaldı, çox qaldı, elə bu Damət ağa gəldi bu ağacın altına, suya. Əyildi əl ayağını yuyanda, şəkili gördü. Bir gözəl pəri, bir gözəl sənəmdi nətəri. Başını qaldırıb yuxarı baxanda gördü ki, orda uzanıb ağacın üstünə. Dedi sən kimsən, burda niyə uzanmısan?

Dedi, biz ova gəlmişik. Bə sən hardan gəlibsən? Qız dedi, mən də bir vilayətdən gəlmişəm. Bir azdan çıxıb gedəcəyəm. Yendirdi aşağı, yendirdi, attı atın tərkinə, üstünü örtdü. Hamı oldu meşənin qırağında. Gördülər ki, bunun dalında bir şey var. Dedi, mən ov vurmuşam aparıram. Gəlin. Bir baş getdilər şəhərə. Getdilər şəhərə, yendirəndə gördülər ki, yooo, bu bir nazəni sənəmdi. Apardı içəri. Bına qırx gün, qırx gecə toy elədi özünə. Bir neçə gündən sonra bu keşiş gəldi. Gördü ki, qız yoxdu. Dayədən xəbər aldı ki, Pəri hanı? Dayə dedi, Pəri gecəynən gedib, yoxdur. Hardan gedib, heç onu da bilmirik. İki əli oldu, bir başı. Rəm atdı, gördü ki, filan şəhərdə, filan padşahın evindədir. Dedi, səbr elə, gəlib taparam səni. Az getdi, çox getdi, az getdi çox getdi, nəysə ee, getdi çatdı ora. Ora çatanda ottu qapının ağzında. Gördü ki, heş kəs buna baxmır. Ordakılara dedi ki, ay qardaş, məni də götürün burda iş güc görüm da. Mən buranın adamı dəyiləm. Gəlib qalmışam küçələrdə. Keşiş bunu deyir ki, qızı görməkdən ötəri. Padşah dedi ki, gətirin yanıvıza nə iş görürsünüz, bu da onnardan görsün da. Tay demədi ki, bu qənim gəlir mənə. Gəldi, gördü ki, gündə qızın yanına adam gedir gəlir. Bir gün birinin ətəyindən tutdu, dedi ki, orda nə var, kim var ki, ora nəyə gedib gəlirsiniz? Dedi, Padşahın arvadı yatıb, mən onun dayəsiyəm, gedirəm o uşağı bəliyəm. Keşiş dedi ki, məni ora apara bilərsən? Dayə dedi, pahoo, mən səni saraya çıxarda bilərəm? Keşiş dedi sən paltarlarından bir dəst gətir mən geyinim əynimə, hicab da gətir, çadra da gətir örtüm başıma. De xalamdı, gəlib bizə, əvdə tək qalmasın deyə gətirdim bura da, otsun yanımda. Buna qızıldan-zatdan verdi, işi pişirdi, sabah bunnan getdi içəri. Pəri dedi, bu kimdi gətirmisən içəri? Dedi, o da xalamdı da, tək qalmasın deyə gətirdim. Pəri dedi, nolar. Keşiş gördü ki, elə bir gözəl uşaxdı ki, nətəri. Uşağı bələdi qoydu beşiyinə. Axşam gəldi arıya. Axşam arıya gələndə bu durdu ayağa. Yavaş-yavaş getdi qapıya. Gördü qapılar da açıldı. Yavaşça girdi içəri, gördü uşaq öz otağındadır. Hamı öz otağındadır. Yavaşcana getdi uşağın başını kəsdi, nənnidə pıçağı da qoydu yastığının içinə. Çıxdı eşiyə. Xanım bilmədi. Gəldi eləcənə, otdu beləcənə. Səhər haray qopdu ki, uşağın başı kəsilib. Haray düşdü, ay haray, ad dad. Bə bu uşağın başını kim kəsib. Bə bu örtülü yer. Asıldılar dayənin yaxasına, dayə dedi, mən salamat bəliyib qoymuşam ora, getmişəm. Bu

keşiş dedi ki, mən bilirəm kim öldürüb. Dedilər, nə bilirsən? Dedi ki, mən rəm atıram. Dedilər, hələ bir at görək kim öldürübdü. İrəm atdı, dedi, elə xanımın özü öldürübdü. Dedilər, həylə şey olmaz axı. Dedi, olar. Padşaha xəbər apardılar ki, bu eşdəki kasıb adam irəm atdı, dedi, xanımın özü öldürüb. Dedi, ola bilməz. Dedi, olar. Dedi, nədən sübut edərsən ki, olar. Keşiş dedi, məni aparın ora deyim niyə kəsib başını. Bunu götdülər apardılar keçitdilər içəriyə. Dedi, ama hamıvız yanımda gəlin haa. Məni tək ötürməyin içəriyə. Getdi içəri. Keşiş dedi ki, bə özü öldürmüyüb kim öldürübdü? Bağlı qapıdı, gedin balıncın içinə baxın. Uşağı öldürüb, pıçağı da qoyub balıncın içinə. Çıxartdılar ki, elə düz deyir. Elə qannı pıçax ordadı. Dedi, bu uşağı da götürün bağlayın bunun dalına. Başını bir şeyə qoyun, özünü də bir şeyə ipinən bağlayın bunun boğazına, şəhərdən ötürün qırağa, qoyun hara gedir getsin. Onu da ötürdülər, bu da getdi. Keşiş arxayındı ki, tapacaq da bunu. Qız az getdi, çox getdi, qabağına bir karvan çıxdı. Qız soruşdu ki, a qardaş, hara gedirsiniz? Dedilər, ağa ziyarətgahına gedirik. Dedi, məni də aparın. Dedilər, gəl gedək. Dedilər, a bacı, nə günahın sahibisən ki, bu uşağın başını kəsib asıblar sənin boynua.

O boyda yolu bu da beləcənə uşağı qucaxlıyıb qalırdı. Dedi gedəciyəm ağa ziyarətinə, nolacax ki, Dedi gedib ağanın ayağının altında yatacam, qalacam, bu uşağı orda basdıracam. Allah məni neyniyər eliyər da. Əma atmıyacam. Öz balamdı. Ana səthinnən pay olar. Götdü getdi e. Elə bu karvannan getdi, çatdılar ağanın ziyarətinə. Ağanın ziyarətinə çatdılar, getdilər ağanı ziyarət elədilər, öpdü, durdu, qoydu, sonra da getdi üzünü tutdu daşa, uşağı da qoydu yanına. Gecənin bir vaxtı baxdı ki, uşax bını cırmaxlıyır. Gözün aşdı ki, uşax bının yanındadı, sağ-salamatdı. Az baxdı, çox baxdı, Allah səə çox şükür əhdə-vəfa, bu uşağı saxlıyıb burda yekəldəcəm. Bu zəvvarın əyağının altını süpürəcəm, eşiyi, içərini. Bir kalafada qalacam, bu uşağı bırda yekəldəcəm, qoy bırda əzan verən olsun. Əhd eliyirəm, getmiyəcəm heş yana. Ölüncə qalacam ağa ziyarətində. Gəldi bu uşağı saxladı da, beş gün, üş gün, bir il, iki il. O Damət ağa yeddi ildən bir ora ağa ziyarətinə gedirdi. Elə oldu ki, bu uşax beş yaşına çatanda bir il dediyi vaxtdan tez getdi Ağa ziyarətinə. Gedəndə bu uşax qanırdı da, başa salırdı, söz-sav deyirdi. Anası bunu mollanın yanına

aparmışdı, demişdi ki, ay qardaş, bını da apar yanıva qoy, bı da öyrənsin. Bının elə gözəl səsi var idi ki, mollanın səsini üstələyirdi. Damət ağa uzaxdan bu uşağın səsini eşidəndə bütün qoşununu saxladı da. Həə, saxladı. Deməynən o, ağa ziyarətə gələndə, orda o qədər oturur, o qədər qalır ki, ağa ziyarətə gələndə keşiş də ziyarətə gəlir. Bilir ki, ağa ziyarətindədir. Təh gələmməz axı. Allah ona yol verməzdi. Onnan gəldi. Gəldilər, həə. Ziyarət elədilər, ottdular, durdular. Bu uşağı çağırdılar yannarına ki, sən də öyrənmisən? Uşax dedi həə.

Ziyarətə gələnlər soruşdular: – Nə vaxtdan gəlmisən?

Uşaq dedi: – Nəbilim, anam bilir.

Ziyarətə gələnlər dedilər: Anan da var?

Uşaq dedi: Həə.

Damət bunnan söhbət eliyir.

Damət ağa deyir əviniz hardadı?

Uşaq deyir, ba, ordadı.

Əma keşiş bi irəm atmışdı, görmüşdü da ki, Pəri orda qalır. Getdi, uşağı da gördü, lap dəli oldu. Deməh, uşax, dirilipdi? Axşam olanda Damət ağa dedi ki, anan bizi qonax eliyər? Hamımız getmiyəh da, bir üş-dörd nəfər gedəh. Çox şüphə götürmüşdü Damət ağanı. Axşam getdilər bınnara. Damət ağa soruşdu ki, nə yaxşı sən burda qalmısan? Uşağı niyə bura qoyubsan? Hardan gəlibsən? Necə gəlibsən? Pəri də dedi ki, mən əhd eləmişəm. Pəri dedi, əmə bir şərtim var. Qapını-zadı yaxşı bağla mən sözümü sonra deyim. Keşiş də girib içəri. Damət ağa dedi, yaxşı. Dedi ki, sən Damət ağasan, gəlibsən ziyarətə, O da başını kəsdiyim uşaxdı. Mən başını kəsdiyim uşaxdı. Əmə uşağın başını mən kəsməmişəm. Atam kəsib. Bax odrahaa. Onu asın. Elə keşişi ordaca tikə-tikə doğradılar. Pəri də qaldı orda, uşaq da qaldı ziyarətdə. Xüdabəndaləmi bizə o qədər yol görsədir ki, deyir qaçan da Allah çağırır, qavan da Allahı çağırır.

Hə, nağıl da burda bitdi.

# Yeddi qardaş, bir bacı

Biri vardı, biri yoxdu. Bir arvat vardı. Bının yeddi oğlu olur, qızı olmur. Bir gün uşaxlardan böyüh oğlan başa düşür ki, anası boyludu. Oğlannar analarına der ki, ana, biz çıxırıx ova, sənin qızın olsa, qapıya ələh asarsan, oğlun olsa yay asarsan. Oğlun olsa, nənə, gəlmiyəcıyıx. Sizi qərdaşımız qoruyar. Əmə qızın olsa qeyidip gələceyıx. Gün o gün olur ki, ana yatır, bir qızı olur. Atası bına bir qurban deyir. Bir dana kəsir, paylıyır qonşulara. Əmə düşmənnarı ələyi çıxardıp yay asıllar. Qız yekəlir. Bir gün anası qərını verir qızına ki, apar çayda yu. Qız əğlıyır, deyir:

– Ay Allah, mənim də bircə qərdaşım oleydi, arzumu götüreydim.

İki qərqa qırıldaşa-qırıldaşa gəlir qızın yanına. Qərqalar görür ki, qız bərk əğlıyır. Deyir:

– Niyə əğlıyırsan?

Der:

– Kaş bir qərdaşım oleydi.

Der:

– Ay qız, sənin qərdaşların var.

Der ki, yoxumdu, olsa əmmizdə olar.

Qərqa der:

– Məm bəlalarım acdı. O qərını ver mən aparım balalarım yesin. Gəlim səni əparım çətdırım qərdaşlara. Qız bı sözə inanır. Qərını dorğiyir, atır, qərqalar yeyir. Bir azdan görür, bıdı, qərqalar gəldilər. İki qərqa bı qızı alır qənatının altına. Qərqalar bilirmiş ki, bının qərdaşı hansı meşədədi. Qızı düz əparır qərqalar çıxardır ora. Qız bəxır görür ki, bı məğarada bir oğlan yatipdi. Qız əvi yığışdırıp gizdənir. Əxşam düşür. Qərdaşları gəlir. Görür hər şey hazırriyiplər. Neçə gün keçir. Yeddi qərdaşın böyüü yətır əvdə, görür bir nuri- əla qız gəldi ki, oğlan orda özün vurdi yuxluğa. Qız hər işi gördi qutardi. Əxşamçağidi. Qız istir əvdən çıxsın. Oğlan qızı saxlir. Der:

– Qiyamətin günü sən mənə baci, mən sənə qərdəş. Kimsən? Özü mənə nişan ver.

Qızı oturtdurur yerə. Görür bıdı qərdaşları gəldi. Oğlanı tanır, əmə qızı tənımıllar əxi. Qız bı əhvalatı nəğıl elir. Oturullar yeyillər-içillər, qərdaşlar durullar günə bir mənzil ordan vuruplar düz gəliplər əvlərinə. Kişi şənnənip, arvat şənnənip, orda toy-bayram eliyiplər. Bırda nağıl qutardı. Göydən üç alma düşdü.

## Küzəçioğlunun nağılı

Biri varmış, biri yoxmuş, bir pədşah varmış. Bı pədşahın bir də bir vəziri varmış. Bılların heş birinin uşağı olmurmuş. Yolnan bir dərviş keçirmiş. Bı dərviş görür ki, pədşahnan vəziri çox bekaf oturup. Der ki, mən gedacam bılların dərdinə şərik olum, görüm bıllar niyə bekafdılar. Gedir, qapını çəkillər dellər ki, hara getməh istirsən. Der ki, pədşahın yanına getməx istirəm. Der:

– Pədşahı neynirsız?

Der:

– Pədşaha sözüm var.

Deyillər, pədşah sağ olsun sizi bir dərviş görməh istiyir. Der ki, gedin da, dərvişdi yəqin pay almağa, qismət almağa gəlip. Gedin payın verin çıxsın getsin. Dərvişə birəz qızıldan, puldan yığıllar. Dərviş der ki, yox, mən istəmirəm. Mən pədşahı görməh istirəm.

– Qibleyi-aləm sağ olsun, dərviş der ki, mən pədşahı görməh istirəm.

Der:

– Gedin çağırın gəlsin yanıma, görüm məni neynir.

Çağırıllar, dərviş gəlir yanına.

Der:

– Sən dərvişsən qismətivi al get. Sən neynirsən axı məni. Der ki, qibleyi-aləm sağ olsun, mən yolnan keçirdim, gördüm siz ikız da çox bekaf otumusuz dərddəşirsız.

Pədşah der:

– Sən məm dərdimə şərik olmuyassan, neynirsən.

Der:

– Gena olsun, bəlkə mən dərdıa şərik olaram. Der ki, belə, nə vəzirimin, nə də mənim uşağımız olmur. Biz ona gora bekaf oturup dərddəşirıx. Dərviş çıxardır cibinnən hərəsinə bir alma verir. Dərviş der ki, aparın bını hərəvız öz arvadıvızınan bölün, bir üzün arvadıvız yesin, bir üzün siz yeyin, sizin uşağız olacıx. Bıllar almanı qoyullar ciblərinə, dərvişin də qismətin verillər, dərviş çıxır gedir. Hərəsi öz arvadıynan almanı bölür yeyir. Vaxd o vaxt olur ki, hər ikisin də arvadı hamilə olur. Pədşahın bir oğlu olur, vəzirin də bir oğlu olur. Pədşahın oğlunun adını qoyullar İbrahim, vəzirin oğlunun adını qoyullar Küzəçioğlu. Vaxd o vaxd olur ay ötür, il dolanır, bıllar ikisi də yekəlillər. Bir yerdə böyümüş uşaxlar qəşəh, yaxın dost olullar. Sora bir gün pədşah vəziriynən çıxır səfərə, pədşahın qırx dənə otağı varıymış. Qırx otağın otuzdoqquzunun haçarını verir İbrahimə, qırxıncını vermir, der ki, mən gedib gəlincən gəzərsız. İndiyə qədər yekəlmısız, hələ bilmirsız da bı otaxlarda nə var. Bıllar gedillər otaxları gəzməyə, gedillər, baxıllar ki, otağın birində yazdı, birində payızdı. Birində quşdar, göylux, çəmənnıx... Otuz doqquz otağı gəzillər, qırxıncıya çatanda baxıllar ki, qırxıncı otağın haçarın vermiyip. İbrahim der ki, bırda nəsə bir sir var ki, atam bıran haçarın mənə vermiyip. Bı otağın kilidin qırıp içəri girməliyəm görüm bırda nə var. Küzəçioğlu der ki, əl çəh da, gəl gedəh, sora atan verər, baxarsan, verməz heç. Sən niyə onu qırırsan.

İbrahim nə qədər çalışır bı kilidi qırammır. Küzəçioğlu bir dəli nərə çəkir. Bı kilidi qırır. Girillər içəriyə, baxıllar ki, bı otaxda heş bir şey yoxdu. Otaxda bir dənə sandıx var. Bı sandığın da kilidin qırıllar. İbrahim əlin atır sandığın qapağın açır. İbrahim baxır ki, bı sandığın içində bir gözəl qız şəkili var. Bı qız da o qədər gözəldi ki, yemə-işmə, tamaşa elə. İbrahim bı qızın şəklin görür, ürəyi keçir yıxılır yerə. Bını heylə Küzəçioğlu alır qucağına, qolların üstünə apar evə. Pədşah səfərdən qayıdır ki, oğlu xəstədi. Dellər ki, qibleyi-aləm sağ olsun, heş bir şey olmuyup. Küzəçioğlu düzünü der:

– Belə otağı aşdı. Orda sandığın içində bir qız şəkli görüp. İndi der ki, mən o qıza aşiq olmuşam. Ya qızı atam mənə alacax, ya da mən əl çəkən dəyiləm.

Pədşah der ki, ay bala, o Qırxsaşdı Göhərin yeddi qardaşı var. Der:

– Ata, nolur olsun, ya bir qoşun qoş yanıma gedim onun dalıncan, ya da əl çəhmiyəcəm.

Pədşah vəzirə der ki, oğlum əl çəhmir. Gecə yatcax qoşunun yarısı hərdən biraz yox olsun, hərdən biraz gəlsin. Elə ki, üçuz qalassız. Sən denən ki, biz üçümüz Göhəri gətirə bilmənih. Bıllar durullar, yaraxlanıllar-yasaxlanıllar, gedillər. Yolda yatanda hərdən biraz qoşun yox olur. Axırda baxıllar ki, qalıblar üç. Vəzir deyip ki, ta biz üçümüz heş bir şey eliyəmmənih. Gedip onu gətirəmmənih. Qoşun da qorxusunnan qaçıb. Gəlin biz də qayıdax, İbrahim der ki, nolur olsun, istir təh də qalsam gedəcəm. İstirsən sən qayıt. Vəzir də qayıdır gedir. Küzəçioğlu da dostudu da, bını ötürmür. İkisi gedillər, az gedillər, çox gedillər, görüllər ki, iki dənə divdi, bir dənə quyudu. O quyunun başında ağzına dəyirman daşı salıblar. O dəyirman daşını iki dənə div istiyir qaldırsın qaldırammır, qaldırsın qaldırammır. Onnar gedillər, çatıllar yəxına, deyillər ki, salam verəcih, görəh hələ siftə salamımızı bı divlərin hansı alacax. Gedillər salam verillər. Divlərin biri qabaxda salam alır. Der:

– Siz bırda neynirsız?

Der ki, istirih bı dəyirman daşın qaldırax, bı quyudan su içəh, onu da qaldıra bilmirih. Küzəçioğlu bir dəli nərə çəkir. Əlin atır dəyirman daşını qaldırır atır. Divin biri istiyir ki, Küzəçioğlu bı daşı qaldıranda bını öldürsün. İbrahim bını görür, divi öldürür. İkincisi düşür bının əl-ayağına yalvarır ki, qardaş, qurban olum, başuva dönüm, mən səni öldürmürdüm. Sən məni öldürmə. Elə siznən üç qardaş olarıx. Hara da desəniz gedərəm. Bıllar dost olullar. Gethaget-gethaget bir şəhərə çatıllar. Baxıllar ki, bı şəhərdə elə gözəl, uca-uca binalar var. Ancax bı şəhərdə bir insan yaşamır. Heş bi şey yoxdu da, elə-belə quru şəhərdi. Bıllar gedillər bir evdə qalıllar. Küzəçioğlu der ki, üş yoldaş gündə birimiz evdə qalacıyıx. Yeməyə, çaya-çörəyə baxax. İkimiz gedəcih Qırxsaşdı Gohəri axtarmağa. Siftə günü div qalır evdə. Bıllar iki qardaş İbrahiminən Küzəçioğlu gedir. Bıllar axtarmaxda olsun. Sizə kimnən deyim, divdən. Div durur çörəyi, yeməyi, hər şey hazırrıyır. Qəşəh bir pilov süzür ki, indi qardaşdarım gələcəh, yiyəcih. Baxır ki, cıır qapı açıldı. Bir çıkqılı, özü bir qəriş sakqalı beş qəriş bir şey içəriyə girdi. Salam, əleykəsalam. Qardaş, acınnan

ölürəm, nəyin var yeməyə. Der, qəşəh pilov süzmüşəm gəl yiyəh. Bı girir. Div bir qab pilov çəkir. Bı yer-içir. Onnan sohra der bir qab da çəh. İkinci qabı çəkir. Üçüncü qabı çəkəndə der:

– Əşşi, dur cəhənnəm ol. Sən yedin qutardın. Qardaşdarım gəb ac qalacax. Hə, özü bir qəriş, sakqalı beş qəriş bına bir qəşəh yumrux ilişdirir. Divin ürəyi keçir, yıxılır yerə. Qazanda nə ki, pilov vardı yeb çıxıb gedir. Div bir zaman ayılır ki, gün batır, xorəh yox. Tər-təmiz yeb çıxıb gedib. Durur əyağa, tələm-tələsih qazanı qor. Baxır qapı açıldı qardaşdar girdi içəriyə. Salam əleykəsalam, qardaş, nəyin var yeməyə? Acınnan ölürüh. Der ki, heş nəyim. Utanır da desin ki, bir qəriş şey vırdı ürəyim keşdi. Der ki, siz getmisız yatıb qalmışam yuxuya, heş bi şey bişirəmməmişəm. Dellər:

– Sənnən bizə qardaş çıxmaz.

Durullar, gətirillər Allah verənnən, yellər-içillər. Səhər İbrahim qalır. Küzəçioğluynan div gedir. İbrahim də hər şeyi hazırrıyannan sora baxır görür ki, qapı açıldı, içəriyə bir şey girdi. Özü bir qəriş, sakqalı beş qəriş. Axı bının da xəbəri olmur. Eyni şey İbrahimin başına gəlir.

– Qardaş, nəyin var yeməyə?

Der:

– Qəşəh xorəh hazırramışam. Genə bir qab, iki qab.

Der:

– Dur cəhənnəm ol. Dünən də ac qalmışıx. Xorəh pişirənimiz olmuyup. Qoy xorəyimiz qalsın qardaşdarim gəb ac qalacax. Bını da vırır. Ürəyi keçir, yıxılır yerə. Bı dönə nə var yer gedir. İbrahim bir zaman ayılır ki, gün batır, xorəh yox. Qardaşdar axşam gəlir. Dellər, yeməyə nə var?

Der:

– Qardaş, vallah heş nə pişirəmməmişəm. Yatıb yuxuya qalmışam.

Genə Allah verənnən yellər-içillər, yatıllar. Səhər Küzəçioğlu qalır evdə. İbrahiminən div gedir. Küzəçioğlu da hər şeyi hazırrıyır. Genə qapı açılır. Özü bir qəriş, sakqalı beş qəriş bir şey içəriyə girdi. Salam, əleykəsalam. Qardaş, nəyin var yeməyə? Der ki, qəşəh xorəyim var. Bına bir qab, iki qab qor yeməyə. Əlin qaldırır ki, bını vırsın. Küzəçioğlu qılıncı çəkir, özü bir qəriş, sakqalı beş qəricin başına bir qılınc. Bı ölür. Küzəçioğlu baxır ki, sakqalından bir tük ayrıldı. Yapışdı sakqalının ucunnan

bını sürüyə-sürüyə qapıdan çıxartdı. Bırda Küzəçioğlu barmağın dişdir. Der:

– Heyhat, deməh məm qardaşdarımın xorəyin bı yeyib. Bırda bir sir var. Düşəcəm bının dalına, gedim görüm bını hara aparacax. Gethaget-gethaget gedir. Bı tüh şəhərdən kənara çıxır. Küzəçioğlu baxır bir quyu var. Tük onun içinə girdi. Küzəçioğlu da bı quyunun içinə girir. Görür bı quyunun içi bağ-bağat, gözəl, geniş bir yerdi. Həm də otaxlar var. Bir otaxda gözəl qız oturup dizinin də üstə bir div yatıb. Qız der ki, ay cavan oğlan, sən bıra hardan gəldin, nə təvir gəldin? İndi div oyansa səni öldürəcəh, çıx get. Der:

– Sən işin yoxdu. Sən mənə de görüm bı divin canı nədədi? Der:

– Divin canı tifarda şüşəni görürsən? Onun içindəki sudadı. Küzəçioğlu divin ayağının altını qılıncınan qıdıxlıyır. Div qıza der ki, ayağımın altını milçəh yer, qoyma. Sora bir az keçir. Genə qılıncınan qurtdalıyır. Div bir də der. Üçüncüdə div qalxır, qıza bir şillə vırır.

– Sə demədim ayağımın altın milçəh yer, qoyma.

Baxır ki, yanında bir oğlan var. Dönür bınnan savaşır. Çox savaşıllar axırda oğlan tifardakı şüşüyə bir qılınc vırır, su tökülür. Div bir nərə çəkir, yıxılır yerə. Oğlan istiyir bını öldürsün, başın kəssin. Qız qışqırır ki, ağzına torpax doldur, başmax tayıynan ağzının üstən vır. Başını kəsmə, yoxsa hər damla qanı bir div olub səni öldürəcəh. Div yalvarır ki, sənə qurban olum mənim başımı kəs. Oğlan qız diyən kimi eliyir. Baxır ki, nə quyu, nə dam, nə bağ, heş nə yoxdu. Küzəçioğlu qızı götürür, öz olduxları evə gətirir. Qız divdən tilisim öyrənmişdi. Oğlana der:

– Mən bı sahat bir tilsim oxuyaram, oturduğumuz binanın hər tərəfində bir alov yanar binadan uca qalxar.

Oğlan der ki, oxu. Qız oxuyur. Oğlan der ki, yaxşı, sən bırda gözdə, mənim iki qardaşım var. Bir qız dalınca gedirih. O qızı axtarax tapax, gəlib səni apararam. Göydə o parlax ulduz mənimdi. Bırda gözdə, o ulduza bax. Gördün ki, o ulduz söndü, deməh mən yoxam, hara gedirsən get. Qız sehri oxuyan kimi binanın dörd tərəfində alov yanır. Oğlan da gedir.

Oğlan getcəh də qardaşdarı gəlir. Deyillər nə var yeməyə.

Der: – Məm xorəyim hazırdı. Bıllar yellər-içillər, durullar. Küzəçioğlu der ki, ta bırda qalmıyacıyıx gedəcih ayrı yeri axtarmağa. Gethaget-gethaget gedillər, çatıllar bir bulağın başına. Orda Küzəçioğlu der ki, üş qardaşıx oturmuşux. Düzəlin deyin görüm niyə xorəh bişirməmişdız. Siftə divə der ki, birinci sən qalmışdın evdə, de görüm niyə xorəh bişirməmişdin? Div der ki, qardaş yatıb yuxuya qalmışdım. Der bə Küzəçioğlun xəbəri yoxdu. Bir qılıncınan divi öldürür. Sora İbrahimə der:

– De görüm sən niyə pişirməmişdin?

Der ki, qardaş, Allahdan gizdin dəyil da, bəndədən nə gizdinim. Belənçi xorəyi hazırradım, özü bir qəriş, sakqalı beş qəriş bir şey qapını aşdı, girdi içəri xorəyi yedi. Dedim qardaşdarıma xorəh qalmadı, məni şilləynən vırdı, ürəyim keşdi, qaldım yerdə, bir zaman ayıldım ki, gün batıb. Der ki, hə indi sən düz dedin. Səni öldürmüyəcəm. Bıllar durullar. Gənə gedillər, gethaget, gethaget gedillər çatıllar bir böh meşiyə, orda baxıllar ki, gün batdı, qarannıx düşdü, acınnan da ölüllər. Küzəçioğlu bir quş vırır, der ki, bə yaxşı, indi quşu vırdıx, bə nəynən bını kabablıyax yeyəh. Qarannıx düşür. Baxıllar ki, gennən lap kənardan bir işıx gəlir. Küzəçioğlu İbrahimə der ki, sən get ordan od gətir, bı quşu kabablıyax yeyəh. İbrahim der ki, yox, mən qorxuram. Mən gedəmmərəm. Der ki, bə sən necə kişisən, sən gedirsən öza arvad gətirəsən, özün də dersən ki, mən qorxuram. Onda otur bırda, gözdə mən gedim alım gəlim. Der, yox genə qorxuram. Der, onda qalx otu ağacın başında. Mən gedim gətirim. İbrahimi qaldırır qoyur ağacın başına, gedir. Gedir qapıdan girir içəriyə, baxır ki, bırda bir gözəl qız oturub ki, ta yemə-işmə, bının xətti-xalına, gül camalına tamaşa elə. Demə, bı da Qırxsaşdı Gohərdi. Bı işıx da bının üzünün işığıdı düşürmüş pəncərədən. Hə, bı girir içəriyə der:

– Salam

– Əleykəssalam.

Qız der ki, siz kimsız, niyə gəlmisız. Der ki, biz acınnan ölürüh. Bir quş vırmışıx. Onu kabablamağa od tapbırıx. İstirih ki, od aparax. Bir də bir təndir olur. O təndirin içi teyxa od yanır. Qız der ki, o daşı heş mənim yeddi qardaşım götürəmmir. Sən necə götürə biləssən? Der ki, sən icazə ver. Mən götürərəm. Bırda oğlan barmağın dişdiyir ki, yeddi qardaşı var. Bı yəqin ki, Qırxsaşdı Göhərdi. Qız der ki, götürə bilirsən götür.

Bı dəli nərə çəkir. Daşı qaldırır, ordan od götürür gedir. İbrahimin yanına çatanda der ki, İbrahim, bə Qırxsaşdı Göhəri tappışam. İbrahim sevinir. Səhər qız baxır ki, həmən oğlan yanında ayrı bir oğlannan gəlir. Qız der ki, mənim yeddi qardaşımın yeddisi də gəlib görsə siz bırdasız sizin böyüh tikazı qulağız boyda eliyəcəh. Küzəçioğlu soruşur ki, de görəh sənin yeddi qardaşın hardadı? Qız der:

– Mənim qardaşımın yeddisi də o qabaxda görsənən dağın dalında divlərinən savaşır. Divlər istiyillər ki, məni aparsınnar, ollar imkan vermillər.

Bıllar az gedillər, çox gedillər, yolda Küzəçioğlu der:

– Salam verəh. Salamımızı qabaxda divlər alsa, divlərə köməh durax. Yox, yeddi qardaş alsa, ollara köməh durax. Yaxına çatanda dellər ki, salaməleykum. Siftə yeddi qardaş bılların salamın alır. Yeddi qardaşa deyillər ki, indi vırışıb yorulmusuz. Siz oturun yerə, divlərinən biz vırışacıyıx. Bıllar məhətdəl qalıllar, deyillər heylə şey olar. Biz yeddi qardaş savaşırıx divlərə güc gələ bilmirih.

Küzəçioğlu der:

– Sizin işız yoxdu. Özüm divlərinən təh vırışacam. Küzəçioğlu divlərinən vırışır. Öldürdüyün öldürür, öldürmədiyi qaçır. Deməh bı yeddi qardaşın yeddisi ürəyində fikirrəşir ki, biz neyniyəh ki, bı oğlanın hörmətinnən çıxax. Hamısın ürəyində olur ki, biz elə bacımızı verəh bına. Bınnan artıx oğlana vermiyəcih? Amma bir-birinin qorxusunnan deyə bilmir ki, bacımızı verəh bına. Evə çatanda biri der ki, qardaş, vallah istirəm bir söz deyim, amma sizdən qorxuram məni öldürəsız. Mənim fikrimdə var ki, elə bacımızı bınnan artıx oğlana vermiyəcih ki, elə verəh bına, hörmətinnən çıxax. O der elə mən də bı fikirdəyəm. Bı der elə mən də bı fikirdəyəm. Nəysə, qayıdıllar Küzəçioğlun çağırıllar, deyillər ki, bizim fikrimiz bıdı:

– İstiyirih bacımızı verəh sənə.

Küzəçioğlu der:

– Mən gəlmişəm bacınızı qardaşıma alım.

Nəysə, qızı İbrahimə verillər. Səhər deyillər ki, İbrahiminən Qırxsaşdı Göhəri evdə qoyax, biz gedəh gəzməyə. Bıllar durullar yeddi qardaş, bir də Küzəçioğlu gedillər gəzməyə. İbrahim otaxları gəzməyə baş-

dıyır. Bir otağa baxanda görür ki, bı otaxda bir quyu var. Bı quyunun içində hənirti səsi gəlir. Baxır ki, bı quyunun qıraxlarına mıx çalınıp, mıxların hər birinə bir zincir bağlanıp. Demə bı quyunun içində qara div var. Bı div hiss eliyir ki, nəysə qıraxda adam var. Ordan-quyudan qışqırır ki, ey bəni-adəm, hər kimsənsə quyunun qırağında bir kəküş var. O kəküşü götür, quyunun qırağındakı hər bir mıxın birinə kəküş vır. İbrahim götürür quyunun qırağındakı hər mıxa bir kəküş vırır. Tilsim sınır. Qara div quyudan qalxır. Qızı alır qanaddarın üstünə çıxır gedir. İbrahim bir başına, bir dizinə vırıb ağlıyır. Axşam düşür. Qardaşdar qayıdıb baxıllar ki, İbrahim oturub təhcənə həyətdə, ağlıyır. Dellər nolub, niyə ağlıyırsan. Der ki, bəs belə. Qardaşdar hamısı deyinir-dehlənir ki, bəs o qara dividi bacımızı aparmax istiyirdi. Biz onu tutup salmışdıx tilsimə. Küzəçioğlu der ki, sizin işız yoxdu. Mən gedib Qırxsaşdı Göhəri tapıb gətirəciyəm.

Qardaşdar der:

– Hardan tapassan?

Der:

– Sizin işız yoxdu. İbrahimi qoyuram sizin yanızda. Küzəçioğlu durur, atı minir gedir. Gethaget-gethaget, gedir görür bir böyüh meşədi. Bir kişi o meşənin içində xırtdəyinə qədər qaramalığa batıb. Atı sürür o yana keçəmmir, sürür bı yana keçəmmir, bı dəmdə kişi qışqırır. Der ki, ay cavan oğlan, qorhma, sür gə atıvı. Sən elə bilirsən bıra bataxlıxdı, amma bıra bataxlıx dəyil. Bıra qara divin tilsimidi. Heylə eliyip ki, heş kim tilsimnən keçə bilməsin.

Oğlan der:

– Aha qara divi tappışam. Atı sürür kişinin yanına.

Kişi der:

– Qara divdən qorhmursan. Der ki, bəs belə. Qara div qardaşımın nişannısın qaçırdıb. Kişi der ki, ala bilmiyəssən getmə.

Der:

– Ala bilərəm, sən mənə yolunu de. Siftə hasardan içəriyə girməssən. Div evə gələcəh. O qayıdıb çıxannan sohra sən gedərsən. Oğlan gedir atı gizdədir, özü gizdənir. Baxır ki, göy nərildədi, guruldadı, ağ buludun üstündə qara div yendi gəldi. Qıza nə dedi, nə demədi. Bir də

oturdu buludun üstə qalxdı getdi. Oğlan gedir tufardan aşır içəriyə girir. Qırxsaşdı Göhər bını görcəh tez ayağa qalxır. Der:

– Sən hardan, nə təvir gəldin?

Der:

– Sən işin yoxdu. De görüm öyrənmisən ki, qara divin ürəyi nədədi?

Qız der:

– O hovuzun içindəki balıxdadı.

Küzəçioğlu istir balığı tutsun. Qız der, tutma bilib gələcəh. Küzəçioğlu der:

– Sənin işin yoxdu. Əlin atıb balığı tutur. Bı dəmdə genə göy nərildiyir, guruldυyur, qara div ağ buludun üstündə yenir gəlir. Baxır ki, ürəh oğlanın əlindədi. Yalvarır ki, qurban olum, başuva dönüm, sənə nə desən verərəm. Səni dünya malınnan qəni eliyərəm. Balığı ötür. Der ki, yox ötürmənəm. Balıx öləndən sora bütün tilsimlər sınır. O meşədəki kişi də tilsimnən qutarır. Qızı da götürüb gedir. Qardaşdar gennən baxıllar ki, bıdı ha Küzəçioğlu Qırxsaşdı Gohər də tərkində gəlir. Görüşüllər, öpüşüllər. Küzəçioğlu qayıdır ki, atamgil bizdən niyarandılar. Biz getməliyih. Bıllar bacıların da xeyir-duvasın verillər, görüşüllər ayrılıllar. Üçü- İbrahim, Qırxsaşdı Gohər, Küzəçioğlu gedillər. Küzəçioğlu şəhərdən öz nişannısın da götürür. Gethaget-gethaget çatıllar öz vilayətdərinə. 40 gün, 40 gecə iki qardaşa, dosta toy vırıllar. İbrahim atasının yerinə keçir. Küzəçioğlu da vəzir olur. Nağıl da bırda qutarır. Göydən üç alma düşdü. Biri mənim, biri eşidənnərin, biri uşaxların.

## Tacirin nağılı

Biri vardı, biri yoxdu. Bir kişi varıydı, çox varlı, dövlətliydi. Zamanın hər üzü olur. Zaman elə gətirdi ki, bı elə kasıpladı, gün çörəyinə möhtac oldu. Hətta bir öynə yeməyə heç nə tapa bilmədilər. Günnərin birində yoldaşına dedi ki, ey mənim həyat yoldaşım, əxi bizim varımız, dəvlətimiz varıdı. Bınnardan heç əvin bucaxlarında-taxçanda, boxçanda

bir şeyimiz qalmıyıp. Heç olmasa bir günnüyə xəşdiyəy. Arvad bir qədər fikirrəşdi, dedi ki, orda bir təxça var. Nə zamansa sən mənə bir qutu vermişdin. Gərəh ki, o qutu qalsın.

Dedi:

– Gətir görüm.

Getdi tapdı gətirdi. Qutunu aşdı. Açan kimin gülümsədi. Arvadı dedi ki, nəyə gülümsədi. Bırda gülməli, şad olmalı nə var?

Dedi:

– Eh, bı qutunun içində olan bizim nəslimizə bəsdi. Biz elə yeyərıx, yaşıyarıx. Qutunun içində ləl varmış. O ləl onnarın bütün həyatına bəs eliyərmiş. Bəs bını harda xırda eliyəy. Dükan onu xırdalıya bilməz, çünki qiyməti çoxdu. Durur yavaş-yavaş dabanın bərkidir. Çəliyin alır əlinə, düşür yolun uzununa. Az gedir, çox gedir. Yolun yarısında bına dörd nəfər də yoldaş tapılır. Yol yoldaşı olullar. Ulaxlarınan, yuhlərinən gedirmişlər. Gecə qarannıx düşəndə bınnar bir mənzildə gecələməli olullar. Tacir bı ləlin həvəsinnən gecəni yatmır, o qədir sevinir. Gecə hərdən durur. Bını qutudan çıxardır bəxır. Yol yoldaşları görür ki, bında nəysə qəribə ləl-cavahirat var. Bı kişi səhərə yəxın yuxuya gedir. Yol yoldaşdarı ləli oğurruyub qutunu da kişinin cibinə qoyullar. Səhər açılır, bıllar düşüb yola gedillər. Eyni şəhərə gedəciydilər. Amma yolda yolları ayrılır. Bı kişi də gedirmiş şahın xəzinəsinə ki, orda xırdalasın. Kişi şahın hüzuruna gedir.

Şah deyir:

– Şikayətin nədir?

Kişi deyir:

– Şah sağ olsun, mən sənin üçün töhfə gətirmişəm.

Qutunu çıxardır uzadır şaha. Şah aşdı, belə başın qaldırdı bəxdı kişinin üzünə. Kişi nəysə gördü şahın baxışlarında, nəysə qəzəb-nifrət var.

Dedi:

– Əxi bı qutu boşdi.

Dedi:

– Ola bilməz.

Birdən yadına yoldakı dörd nəfər düşdü. Dedi:

– Onnar mənnən oğurruyuplar.

Onnar kimlərdi. Şah əmr elədi. Adamnarı tapdılar, amma heş biri boynuna almadı ki, kişi yalan deyir. Onnarı qatdırdı zindana. Bir neçə gün zindanda qaldılar. Vaxtaşırı gətirdilər, genə boyunnarına almırdılar. Şahın bir qızı varıdı. Yaxın şəhərə ərə getmişdi. Qız bir gün atasının görüşünə gəlmişdi. Gördü atası qəmgindi.

Dedi:

– Ata, niyə qəmginsən?

Dedi:

– Necə qəmgin olmuyum. Qoca kişinin əhvalatını danışdı.

Dedi:

– İndi mən bı qocanın dərdinə əlac eliyə bilmirəm.

Qızı dedi:

– Ata, icazə versən mən onu taparam.

Dedi:

– Ay qızım, mən neçə gündü bınnan ciddi-cəhd görsədirəm, heş bir şey hasil eliyə bilmirəm. Sən bını necə tapassan?

Dedi:

– Ver, taparam, heç. Tapammaram, elə bil, sənin kimi tapammamışam.

Şah qızı şah oğluna da ərə getmişdi. Əmr elir dustaqları iqamətgahına- bəğa-bəğçıya, hovuzların başına ötürüllər. Yaxşı yeyib-içmax, bınnarın hamısı əylənir, oyunnar keçirdir. Ta o vaxta kimi davam eliyir ki, adamlar özün günahkar hiss eləsin. Bir gün şah qızı gəlir dustaxların yanına. Amma bullar ta dustax yox, qonax kimiydilər. Qız deyir:

– Şah qızı rəfiqələriminən nəğıl, təppaca deyib cəvabını tapırıx. İndi mənə bir nəğıl deyiblər cəvabını tapammamışam. Siz dünyagörmüş adamlarsız. O təppacanı taparsız. Mən sabahı gün onnarınan qarşılaşanda xəcalət qalmıyım. Qız başlıyır təpbacanı deməyə:

– Bir şah varıydı. Şahın gözəl bağı varıdı. Yaşıllıxları, ağaşları. Amma orda bir yaraşıxsız təpəcih varıdı. Ora su çıxmırdı. Bəğ əmələ gətirəmmirdilər. Günnərin bir günündə şahın qızı çıxmışdı gülşən səyahətinə. Bəğa bəxdı, gördü ki, əmisi oğlu əlində də bir bel. Soruşdu ki, əmioğlu bırda neynirsən?

Dedi:

– Buranı suvarıram.

Dedi:

– Bura təpədi necə su çıxartdın?

Dedi:

– Bəğı belə görməh istəmirdim, odu ki, əmimin xeyrinə çıxartdım.

Qız dedi:

– Əmioğlu, sən ki, məm atama belə yəxşılıx eləmisən, əvəzində nə istirsən istə. Mən əsirgəmənəm.

Oğlan dedi:

– Əmiqızı, sən şah qızısan. Mən də şah oğluyam. Məm atamın dəvləti səninkinnən kəsir dəyil.

Oğlan çox dedi, qız çox dedi. Əxırda oğlan dedi ki, indi belə oldu. Sənin toyun olan günü mən harda olsam da gərəh gəlib mənnən vidalaşasan. Zaman gəldi, bı qızı nişannadılar. Toyu oldu. Gətirdilər ərinin əvinə. Qız oturdu bucəxda. Nə güldü, nə danışdı. Oğlan dedi:

– Əxi bu gün toy günüdi. Bizim hesabımıza hamı deyir, danışır, gülür, şənnənir. Bə sən niyə belə bekafsan?

Məm bir əhdim var. Onu icazə versən yerinə yetirərəm. Oğlan şah qızını çox istirdi, odu ki, dedi, get bir söz demirəm. Gecənin qarannığı düşmüşdü. Əhdə görə təh, piyada getməliydi. Yollar qorxulu, çay, daşlıx. Gecənin bir vəxti zərif qız tayfası düşdü bı yola getdi. Şəhərdə lotu Əhməd deyilən məşhur lotu vardı. O, çıxdı qızın qəbağına.

– Aha, yaxşı oldu, gecənin bı vəxtı özümə qənimət axtarırdım. Elə sənin bərin-bəzəyin mənim bəsimdi.

Qız yamanıdı.

Dedi:

– Əhməd, mən səni tanıyıram. Eşitmişəm ki, sən şəhərdə at oynadırsan, lotubaşısan. Əncax mənim bir əhdim var. Sən icazə ver gedim. Qəyidən baş hər nəyim var verərəm. Mən şah qızıyam, ayrı zinət əşyalarımı taxa bilərəm.

Dedi:

– İcazə verdim.

Əhməd orda gözdədi. Qız düşdü yola. Bir qədər meşədə getmişdi ki, şir çıxdı qabağına.

Şir dedi:

– Yaxşı oldu, indi mən səni yeyərəm.

Qız dedi:

– Şir məni yemə. Əmimoğluna söz vermişəm. Gərəh onnan vidalaşam. Qoy gedim əhdimi sındırım, sora məni ye.

Şir qızı burəxdı. Gecənin bir vəxtında qız əmisioğlunun qapısın tıkqıldatdı. Əmisioğlu dedi:

– Kimiydi?

Qız dedi:

– Mənəm, əmioğlu, gəlmişəm.

– Əmiqızı sən hara, bura hara? Gecənin bı vəxtı hansı fəlakət baş verib sən gəlmisən? Qız gördü ki, əmisioğlunun heç əhd, söz yadına düşmür. Yadına salanda oğlan güldü. Dedi:

– Əmiqızı, mən səni sınamışdım ki, görüm çətinlihdən qorxmursan?

Qız ordan qəyitdi. Bı tərəfdən şir gözdüyür, o tərəfdən lotu Əhməd. Gəldi şirin yanına. Şir dedi:

– Noldu?

Qız dedi:

– Heş, əmimoğlu məni sınıyırmış ki, görsün qorxağam, ya yox.

Şir bı sözdən sora dedi:

– Bıra bəx görüm, meşənin bütün heyvannarının şahı mən olum. Bir zərif qız tayfasın tutum bırda parçalıyım. O tülkü, çəkqal eşidər, sora mə nə deyəllər. Deyəllər, şirin gücü bir zəyif qıza çatdı. Elə yaxşısı ayrı heyvan tutaram yeyərəm. Şir qıza dedi:

– Mən səni bəğışdadım, çıx qoy get.

Qız gəldi lotu Əhmədin yanına çatdı. Lotu Əhməd soruşdu ki, noldu. Qız bütün başına gələnnəri danışdı. Lotu Əhməd fikirrəşdi ki, mən qarınqulu şircə yoxam. O, vəhşi, yırtıcı heyvandı. Sora boyul lotular eşitsinnər, hamısı salsınnar ağızlarına ki, Əhməd gecə qız uşağını soydu. Mən də səni bəğışdadım. Mən bı adı üstümə götürmənəm. Qız ordan da gəldi ərinin yanına. Şad-xürrəm yaşadılar. İndi tapmacanın mənası bınnan

ibarətdi ki, üç adamnan, yəni- əmisioğlu, lotu Əhməd, şir hansı səxavət əhlidi. Hansı ədalətli iş gördü. Biri dedi, elə öz əri yəxşi iş görüb. Şah qızı dedi:

– Bının boynunu elə vırın ki, yerə bir damcı qanı da düşməsin. Gecə vaxtı necə umud olur ki, arvadı yola tək düşsün. Biri dedi:

– Şir səxavətdidi.

Qız dedi:

– Bı qarınqulu adamdı, bir iş verin yanınızda işlədin.

Biri dedi:

– Lotu Əhməd səxavətdidi.

Şah qızı əmr elədi ki, oğru bıdı. Oğrunu sevən elə onnandı. Ləli alın. Səxavət əhli əmisinin bəğında işləyən əmioğludu. O qızı sınamışdı. Qocanın ləli xırdalanır verilir ki, qəyitsin qərisinin yanına. Şah da qızının ağlına əhsən deyir. Şad-xürrəm yaşadılar, yerə keşdilər.

## Toxmağın nağılı

Biri varmış, biri yoxmuş. Bir toxmax varmış. Gedirmiş cəviz oğurruğuna. Gedibdi yolda qabağına bir ilan çıxıb. Deyib:

– Ay toxmax qardaş, hara gedirsən?

Deyir:

– Gedirəm cəviz oğurruğuna.

Deyib:

– Məni də apar.

Deyib:

– Gəl gedəh.

Gedib qabağına bir çölməh çıxıb.

Deyib:

– Məni də apar.

Deyib:

– Gəl gedəh.

Gedib qabağına bir iynə çıxıb.

Deyib:
– Hara gedirsən?
Deyib:
– Cəviz oğurruğuna.
Deyib:
– Məni də apar.
Deyib:
– Gəl gedəh.
Gedib qabağına bir xoruz çıxıb.
Deyib:
– Hara gedirsən?
Deyib:
– Cəviz oğurruğuna.
Deyib:
– Məni də apar.

Xülasə, gedib giriblər bir əvə. İlanı qoyublar taxçıya, toxmağı atıblar qapının başına, iynəni sancıblar təndirin başına, bir də bir mal gedirmiş, onu da qoyublar damın üstünə. Xoruzu da basdırıblar külə. Cəvizi götürəndə arvad deyib:

– A kişi, dur cəvizi oğurradılar.

Durur kişi qaçır taxçıya, əlin atır, ilan əlini çalır. Qaçır qapının ağzına toxmax başınnan vırır. Durur qaçır təndirin başına, iynə batır ayağına, gedir ocağa sarı, xoruz gözünü külünən doldurur. Ordan cəvizi götürüllər, gəlillər. Burda nağıl qutarır. Göydən üç alma düşdü.

## İlanın nağılı

Biri varmış, biri yoxmuş. Bir kişi varmış. Bunun da yaxşı bağı, bağbanı, bircə də bir oğlu varmış. Bunun oğlu bir həftə yoxa çıxır. Tapılmır. Fikirləşirlər, ay allah, bu elə cavan deyil. Çox belə sədaqətli, etiqadlı, inamlı, insaflı, səxavətli, çox gözəl bir oğlandı. Nə təhər olub belə cavan yoxa çıxdı. Kişi dedi:

– İlahi, bu elə əyri yola gedən deyil. Nə dili azmaz, nə ayağı çəpməz, nə əli səpməz.

Bir həftədən sonra bağban gəldi, gördü ki, bir dənə ilan beləsinə dolanıb bu oğlanın hər yerinə. Başı yekə, çaynik kimi, gözünü dikib bunun gözünə. Nə vurmur, nə də düşüb getmir. Bunnar söhbət eliyir. Bağban baxdı-baxdı, dalı-dalı çəkildi. Gəldi oğlanın atasına dedi ki, insana tez şad xəbər də verməк pisdi, qara xəbər də verməк pisdi. Qorxma, özünü ələ al, sa bir yaxşı söz deyim, kişi dedi:

– Nədən qorxacam? Allahdan savayı heç nədən qorxmuram.

Bağban dedi:

– Bə oğlunu tapmışam. Sappasağdı, heç nə olmuyub. Oğlun bağda yatıb. Ansaq yuxuya gedib. Bilmirəm vergi verilib, nədisə, bir dənə ilan dolaşıb buna, qoymur ayağa qalxa. Kişi gəldi bağa, belə baxdı. Bağban çəkildi dala, kişi baxdı gördü ki, elə həqiqətən oğlu yatıb, irəngi özündə. Ancaq danışır. İlanın dilini bilir. Dedilər ki, soruş ki, məni niyə vurmursan? Vurursan vur get, xoşa gəlmirəm vur, ya da nə istiyirsən istə da, axı mən dura bilmirəm.

Oğlanın atası qayıtdı ki, ey allahın yaratdığı heyvan, səni də allah yaradıb, məni də allah yaradıb. Öz insafa, öz dinə görə səni yaradana and verirəm, nə sözün var de. Yeganə bir oğlum var, ver aparım. İlan dedi:

– A kişi, bir halda ki, məni yaradana and verirsən, oğlun cırıq paltar, cırıq çarıq geysin, bir də dağarcıq götürsün, yeddi kənddə dilənsin. Mən də onu ötürüm.

Kişi tutuldu. Dedi:

– Bə səni yaradana qurban olum, bə mənim malım, ilxım, heyvanım. Mənə nə deyərlər?

Dedi ki, yox, yeddi kəndi dilənməsə oğlunu ötürmərəm.

Kişinin əlacı kəsildi. Harda cırıq paltar varıdı, bunu geyindirdi. Ağlaya-ağlaya, qüssələnə-qüssələnə dedi:

– Sən yazmısan, sənin yazından çıxa bilmərəm.

Kişi oğluna dedi:

– Oğul, bu şəhər səni tanıyır, aş dağın o üzünə, orda bizi bəlkə heç kim tanımadı.

Bu oğlana biri buğda verirdi, biri əriştə, belə-belə yeddi kəndi dolandı. İlan da bədənində. Üstdən paltar geyinib. İlan dedi:

– Gedək bağa, indi atan gələcək.

Atası gəldi.

Dedi:

– Gətridin oğlumu?

Dedi:

– Gətirdim. Əvvəl Allahın yazısı yazılıbdı, bu bir. İkincisi, ata balasız, amma sənin bu oğlundan sənə oğul çıxmıyacaq.

Dedi:

– Niyə?

İlan dedi:

– Bunda o qədər sədaqət, o qədər üzündə pərdə vardı ki, ataya, anaya, amma mən ki, bunu dolandırdım, üzünün pərdəsi götürüldü. Allah heç kimi dilənçi eləməsin. İndi ki, üzünün pərdəsi götürüldü, sa layıq deyil, ma layıqdı. Oğlanın ayağından vurdu, qapqara qaralandan sonra canı çıxdı. İlan dedi:

– Oğlan bu dünyanın deyil. Mən aparıram, – dedi getdi.

Kişi ağlamadı. Oğlunun meyidini götürdü. Kor-peşman evə qayıtdı. Burda nağıl qurtardı.

## Pədşah qızı

Bir pədşah olur, bunun da bir qızı. Bir gün bir yel qalxır. Bu yel qızı götürür. İndi bir saat-iki saat qara buludların arasında qız bilmir yerlə gəldi, göylə gəldi. Yel gətirir bir daxmada qızı qoyur yerə. Qız baxır ki, kasıb bir yerdi. Qara divar. Bir arvad tumanın bu yana çəkir, o yana çəkir. Əyni-başı cındır. Arvad çıxır ki, bir gözəl-göyçək geyimli, aya bənzər qız durub. Deyir:

– Qızım, orda niyə durmusan?

Deyir:

– Vallah, yuxu tutub, köç gedirdi, köçdən düşmüşəm. İndi bilmirəm bura haradı? Dalımca gələn ola-olmaya, məni heç arayıb-axtaran yoxdu. İcazə verirsən nənə, mən gəlib sizdə bir havır dincəlim. İndi bəlkə bir günə, iki günə gələlər dalımca, onu da bilmirəm.

Deyir:

– Bıy, ay bala, qurban olum, gəl. Görür orda bir qazan var, daşıb-gedir, kasıb yer, cır-cındırın içində. Bir xeyli fikirləşir, deyir ta mən durum burdan hara gedim. Kimin qapısını açım, qız xeylağıyam. Pisin qabağına çıxaram. Bəlkə atam gəldi, məni tapdı.

Qız dedi:

– Nənə, bəlkə burda dükan ola.

Dedi:

– Var, niyə yoxdu.

Dedi:

– Məni apararsan?

Dedi:

– Niyə aparmıram.

Gedib görür yaxşı dükan var. Nağılçı dili yüyürək olar, nağıl söhbəti şirin olar. Gəlir siftə arvada bir dəst paltar götürür. Ayıbdı axı, qolu-ayağı görünür, yanınca gəzməyə utanır. Qız deyir:

– Nənə, nə götürürsən götür.

Deyir:

– Ay bala, mənim pulum yoxdu.

Qız deyir:

– Nənə, mən pulunu verəciyəm.

Qız qolbağını açır, evə nə lazımdı alıb gətirir. Görür kişi yatıb. Baxır biri beş inək qatıb qabağına aparır. Biri iki inək qatıb aparır. Soruşur ki, naxırçı yoxdu?

Arvad deyir:

– Yox.

Deyir:

– Niyə, nolar qatın bu kişinin qabağına, aparsın. Aparıb otara bilməz?

– Deyir ki, mənə demirlər axı.

Qız deyir:

– A kişi sən demiyincə xalxın nə işinə qalıb? Dur, əmi, sən o malları apar. Haqqını da al. Niyə getmirsən burda ac-acına oturmusan. İşləməyin dərdindən yeməyə həsrət qalmısan.

Qız kişini göndərir. On evin inəyini aparır otarmağa. Axşam hərə bir əppək gətirir. Bir inəyi olan bir əppək, iki inəyi olan iki əppək. İl başına da bir pud buğda verirlər. Görür hərə üç-dörd quzu qatıb qabağına aparır. Nənə, niyə siz gedirsiniz? Bir uşaq tapıb yollayın. Arvad deyir:

– Vallah, gedən yoxdu. Bir gün nobata qoyuruq o gedir, bir gün bu gedir.

Qız deyir:

– Oğlun yatıb onu oyat getsin.

Beləliklə, oğlanı da quzuya göndərir. Gözləyirlər ki, qızın dalınca gələn olar. Bir ay, iki ay keçir, heç kim gəlmir.

Qız car çəkdirir. Biri bir manat verəndə, mən beş manat verəcəyəm, deyir. Qız bir dam-daş saldırır, adam deyir xan dam-daşıdı. Qızı belə görəndə, ordan istiyirlər, burdan istiyirlər. Qız deyir:

– Ana, hər kişdənin daşı da var, divarı da var. Yarı dindir özün gör, ev yıxar ara sözü. Nənə, hazır sənin oğlun ola-ola, daşımız-divarımız ola-ola mən niyə gedim xalxa? Cəfa çəkib əziyyət görmüşəm.

Arvad deyir:

– Nə bilim axı, qağa demisən...

Deyir:

– Sən anam, o da atam, razıyam.

Gedirlər bu qızın kəbinini kəsdirirlər oğlana. Dil yüyrək olar. Bir il keçir, bunun bir uşağı olur. Bunun adın kim qoysun, kim qoymasın, əşi qərib qızdı elə uşağın adını da o qoysun, deyirlər. Deyir:

– Uşağın adını qoyun "Haragetdi".

Qızın atası çox əzab əziyyət çəkirdi, sıxılırdı amma açıb ağartmırdı. Bir gün yatanda buna yuxuda dedilər ki, başına tas qoy, əlinə dəmir əsa al, ayağına dəmir çarıq gey. Çarığın ucu yeyiləndə, əsanın qırağı yeyiləndə, tasın yanları yeyiləndə qızı taparsan.

Pədşah bunu nə açmadı, nə ağartmadı. Başladı diyarbadiyar gəzməyə. Allah gətirdi bu qıza bir oğul da verdi. Biri dedi Sicimqulu qoyaq,

biri dedi Örkənqulu qoyaq. Hərə bir ad deyəndən sonra, bunun da adını qoydular "Hardaqaldı". Nağıl dili yüyrək olar. Gününüz xoş olsun. Bir il də keçdi, allah-tala gətdi, kəráminə xoş getdi, bir oğul da verdi. Bunun adını da qoydular "Necəoldu".

Bunlar irilmişdi. Qız uşaqlara dedi:

– Gördünüz ki, bir adam gəlir, kimsəsi yoxdu, qonaqçısı yoxdu, gəlib babandan icazə alarsınız, onu gətirərsiniz evə.

Pədşah çox yorulmuşdu. Göz gəzdirdi, bir bulaq gördü. Əyilib sərin sudan içəndə belə baxdı ki, çarığın ucu yeyilib, tası başından götürdü ki, qıraqları yeyilib, əsaya baxdı ki, yanı yeyilib, dedi:

– İlahi, alan da sənsən, verən də sənsən. Gah verərsən, gah alarsan, gah bəzərsən, gah pozarsan.

Kişi gəldi, çıxdı uşaqlar oynuyan yerə. Gördü uşaqlar aşıq oynuyur, biri aşığın birini götürdü qaçdı. O biri uşaq dedi:

– Qardaşına öyüd ver!

Uşaq soruşdu:

– Nə olub?

Dedi:

– Necəoldu aşığı götürdü qaçdı.

Kişi bu qəribə adlardan duruxdu qaldı. Fikirləşdi ki, belə adları mən tarixdə eşitməmişəm. Heykəl kimi durdu. Günortadan keçirdi. Uşaqlar da baxırdı. Adam azalırdı axı, bu kişi elə əlin qoydu üzünə necə nə təhər oynuyurlar, baxdı. Dedilər:

– Babacan, qonaqçın var?

Dedi:

– Xeyr.

Dedilər ki, onda qoy gedək icazə alaq, səni aparaq.

Uşax gəldi babasına dedi ki, babacan, orda bir dərviş durubdu, kimsəsi yoxdu. Soruşdu ki, qəsidə deyir? Dedilər:

– Yox elə deyir: "Alan da sənsən, verən də sənsən, gah alarsan, gah verərsən, gah bəzərsən, gah pozarsan". Belə-belə sözlər oxuyur.

Qız barmağını dişlədi. Getdilər gətirdilər. Gələn kimi qız tanıdı. Ata tanımadı. Yaxşı hörmət qoydular. Hardan gəlmisən, hara gedirsən. Kişi dərin bir köks ötürdü. Dedi:

– Nə bilim. Elə-belə cəlayivətənəm.

Soruşdular:

– Evin-eşiyin, məmləkətin?

Dedi:

– Məmləkətim də var, adım-sanım da var. Allahın yazısı, fələyin qəzasıynan gəzirəm. Kişi başına gələnləri nağıl elədi ki, ta bunu gizlətməyin mənası yoxdu.

Qız içəridən çıxdı. Allah cəmi həsrətliləri qovuşdursun. İtkinləri yetirsin. Cəmi cavanların qəddin yerə vurmasın. Qız dedi:

– Ata, qızın mənəm, nə ölməmişəm, nə itməmişəm, nə sənin başını aşağı eləməmişəm. O üçü də sənin nəvələrindi. Kişi uşaqları da götürdü, qızı da götürdü apardı məmləkətinə. Allah cəmi həsrətliləri qovuşdursun.

Göydən üç alma düşdü. Hamısı nağıla qulaq asanların.

## Daşbəyin nağılı

Biri varıdı, biri yoxudu, şeytannar, yerdə çoxudu. Elə bına görə də zalımlıxlar, qorxaxlıxlar varıdı. Onda nə hax varıdı, nə də xeyir, bərəkət varıdı. Belə bir vaxda bir də bir Qarasan məmləkəti varıdı ki, bırda adamlar çox zülüm çəkərdilər. Tez-tez bu torpağa düşmənnər gəlip adamnarı qırıp, var-dəvlətdərin də aparardılar.

Bə niyə bu ölkə belə bədbaxtıdı, qoy deyim, eşidin. Bu adamnar bir olmazdılar, düşman gələn kimi hərəsi bir yana qaçardı. Düşman da onnarı irahatca tutub, nələri var əllərinnən alardı. Onnar təh-təh vırışsa da bınnan bir şey çıxmazdı.

Bir gün Tanrının bı adamlara yazığı gəldi. Bı məmləkətdə bir gəlinə bir oğlan uşağı verdi. Heş kim səvinmirdi. Düşman gəlsə onu da öldürəcəhdi. Bu uşağın Nargül addı bir nənəsi də varıdı. Bir gün nənə yuxuda gördü ki, bir ağ paltarrı, ağ saşdı qoca gəldi. Dedi bəs bı uşağın adını Daşbəy qoydum. Onu 14 yaşına kimi gizlət. O bı camahatı ölümnən qurtaracax. Onu qorumasaz hələ çox əziyyət çəkəssiz.

Elə ki sabah açıldı, üzuza xeyirri sabahlar açılsın, hamı yuxudan durdu. Nargül nənə vəğyəsini danışdı. Uşağın adın Daşbəy qoydular. İllər ayları, günnəri cəmniyib gedirdi. Daşbəy gəlib 14 yaşına çatmışdı. O, çöldə qoyun otaranda bir daşın üstundə oturdu. Birdən daşdan bir səs gəldi. Ey Daşbəy, sən yarı daş, yarı adamsan. Hər düşman gələndə biz səni altımızda gizdədiy. İndi vax tamam oldu. Məni qaldır, altımdakı qılıncı götür. Qorhma, biz saa köməhy edəcəyih. Bu qılış düşmannarı qırıb qavacax. Ancax sən heş vaxt düşmənə arxa çevirmə. Yoxsa qılış küsər, saa kömək eləməz. Daşbəy daşı qaldırıp qılıncı götürdü. Onu öpüb belinə bağladı. Ancax dodaxlarınnan qan axırdı. Qan onun dizinə düşsə ayaxları, sinəsinə düşsə sinəsi daş kimi mökkəm olurdu. Birdən göydən səs gəldi. Ey Daşbəy qana dilini vırma ki, dilin daş olar. Bir qoluna, bir çiyninə sürt. Daşbəy qannan qoluna, çiyninə də sürtdu. Qan dayandı.

Daşbəy bu sirri heş kimə demədi. Təkcə nənəsi Nargül onu öpəndə hər şey ona ağah oldu.

Gün gəlib çatdı, düşmənnər gənə Qarasana hücum cəhdilər. Gənə hamı qaşmax isdiyəndə Daşbəy qışqırdı. Qaşmayın, mən sizi qoruyacağam. Onun səsinnən hamı qorxdu. Daşbəy qışqırdı ki, arvad-uşağı gizdədin yanıma gəlin. Hamı onun dediyi kimi elədi.

Elə ki Daşbəy atını minib düşmana çatdı. Hər qılış yendirəndə yeddı baş yerə düşürdü. Düşman çoxudu. Daşbəy yoruldu. Birdən daşın sözü yadına düşdü. Düşman ona çatmamış atdan sıçrıyıb bir daşın üstündə oturdu. O saat qüvvətdəndı. Atına minib yenə düşmanı qırmağa başdadı. Axır düşmən qaşdı. Daşbəy yanına baxanda gördü ki Qarasan camahatı onu qoyub hərəsi bir yana qaçıb. Çox peşman oldu. Var səsıylə onnarı yanına çağırdı. Hamı onun yanına gəlib başdarın yerə dikdi. Daşbəy dedi ki, tez bütün meyitdəri basırın. Adamnar Daşbəyin sözünə əməl etdilər və evlərinə dağıldılar.

Daşbəy yenə bir daşın üstə oturub duva elədi. Sora göyə, daşdara üz tutub bu adamnarın niyə belə olduxlarını soruşdu. Ona cavab verən olmadı. Ancax birdən bir göy daş onu səsdiyib dedi. Ey Daşbəy, məni evinə aparıb un kimi döy. Sora yeddi gün saxla, sənin səsinnən hamı qorxur. Odu ki, onnarı çağır bir yerə yığışsınnar. Uşaxdan böyüyə, qocadan cavana hər kəsin ağzına o ağ unnan bir çımdih at. Sorasın biz

bilərih. Daşbəy göy daşı götürüb evlərinə gəldi. Onu belindəki qılışla xırdaladı. Nənəsi Nargül də onu dəsdər daşına salıb üyütdü. Göy daş ununu 7 gün qarannıxda saxladılar.

Elə ki, səkkizinci gün oldu, unu nənəsi Nargüllə meydana gətirdilər. Daşbəy bir nərə çəkən oldu ki, hamı ora yığışdı. O bütün Qarasan elinin camahatının ağzına bir çımdiy un atdı. Elə ki, iş tamam oldu birdən hamı bir-birin qucaxlıyıb öpdü, ağlaşdılar. Daşbəyin əlinnən öpdülər. Daşbəy bı işə matı-məttəl qaldı. O, camahatdan ayrılıb dağa çıxdı. Bir daşın üstdə oturub duva elədi. Sohra daşa yalvarıp bı sirdən onu agah etməsin dilədi. Daşdan bir səs gəldi. Ey Daşbəy, sənin un elədiyin göy daş duzdu. Yadda saxla ki, duz kəsən düz kəsər. Duz kəsən namərt olmaz, şeytana uymaz. Duza dönüy çıxan mırada çatmaz. Camahat duz kəsdiyinnən bir oldu. Qoy onnar tez-tez duz kəsinnər. Bax bı dağı da saa duz dağı elədiyh. İndi get Qarasan camahatı səni gözdüyür.

Daşbəy geri döndü. Daşdan eşitdiylərini hamıya söylədi. Onnar Daşbəyi şah seçdilər. Heç kəs onun dediyinnən çıxmırdı. Düşmənnər də bu birriyi görüb qorxdular. Bir də Qarasana gəlmədilər. O vaxtan camahat da bir-biriynən duz kəsir, işdəri də düz gedirdi.

Bırda nağıl bitdi, şeytannar, zalımnar getdi, xeyir-bərəkət bitdi.

Göydən də üç alma düşdu, hamıya da çatdı.

## İnsaf qalmadı

Şahlıx dövrüydü. İki tacir səfərə gedirdi. Onların kasıb bir yerlisi onu da özləri ilə aparmalarını istəyir. Tacirlər soruşur: – Sənin heç nəyin yoxdu, sən nə aparacaxsan? Kasıb kişi bir az fikirləşib deyir: – Gedib duzdağdan bir ulaq yükü duz götürrəm. Onnar razılaşdılar. Kişi duzu yüklədihdən sonra, onlar yola düşdülər.

Getdihləri yerə çatmamış tacirlər kişini bir bəhanə ilə özlərinnən ayırdılar. Tacirlər gedənnən sonra, kasıb kişi yemək yeməy üçün bir yer axtarırdı. Biri ona yaxınlıxdakı yeməkxananı göstərdi. Kişi içəri girib yeməy istədi. Kişi gördü yemək dadsızdır, gedib yükdən bir az duz gətirib

yeməyinə səpdi, iştahla yeməyə başladı. Aşbaz gördü ki, kişi yeməyi iştahla yeyir… Gedib kişinin yeməyindən bir qaşıq götürdü. Gördü ki, yemək çox dadlı olub. Aşbaz kişidən soruşdu ki, bu yeməyə nə qatmısan. Bu cür dadlı olub? Ona yeməyə duz atdığını dedi. – Aşbaz kişidən bir az duz alıb getdi. O, öz yeməyinə səpip yeməyə başladı.

Sən demə, bu aşbaz şahın öz aşbazı imiş. O, şaha yeməh bişirəndə, içinə bir çimdih duz atır.

Şah yeməyi yiyəndə görür ki, bu əvvəlkinnən dadlıdır. Fikirləşdi ki, görəsən yeməyə nə qatıblar? Şah tez aşbazı yanına gətirmələrini əmr elədi. Aşbaz gəldihdən sonra əmr elədi ki, onun boynunu vursunnar. Aşbaz səbəbini soruşdu. Şah dedi:

– Qırx ildir aşbazlıx edirsən, bu cür yeməh bişirə bilirdinsə, bəs niyə bişirmirdin?

O dedi: – Şah sağ olsun, o nədisə indiyə qədər bizdə olmayıb. O duzun necə olduğunu şaha danışır.

Şah əmr elədi ki, o adamı onun yanına gətirsinnər. Şah kişidən soruşdu ki, bu nədir, bunu haradan almısan?

Kişi duzu özü ilə gətirdiyini deyir.

Şah soruşur:

– Bunnan səndə nə qədər var? Kişi bir ulax yükü olduğunu deyir. Şah əmr elədi ki, yükün ağırlığı qədər ona qızıl verib, duzun hamısını alsınnar.

Qızılları ulağa yühlədilər. Kişi tacirlərlə sözləşdikləri yerə gəldi, orda uzanıb yoldaşlarını gözlədi. Tacirlər gəldikdə görüllər ki, kişi yatıb. Çuvallarına baxdılar, onun çuvallarındakı qızılı gördükdə paxıllıx etməyə başladılar. Kişini öldürməh qərarına gəldilər. Kişini öldürərkən o vəsiyyət elədi.

– Mənim arvadım hamilədir, əgər mənim qızım olarsa ona köməhlik edin ki, o uşağı böyütsün, ancaq oğlum olarsa onun adını «İnsafqalmadı» qoysunlar.

Tacirlər kişini öldürüb bir dərədə basdırıb getdilər.

Onnar öz yerlərinə çatıllar. Kişinin arvadının evinə gedillər. Onnar kişinin arvadına yolda kişinin öldüyünü deyillər. Sonra isə kişinin vəsiyyətini arvada deyib, ona bir az xərclik verib gedillər.

Vaxt gəlib çatdı, bu arvadın bir oğlu oldu. Uşağın adını «İnsafqalmadı» qoydular.

Bir gün uşax küçədə oynuyarkən birdən onu çağırıllar. Bu dəmdə şah həmin küçədən keçirmiş. Şah onun adını eşidib soruşdu ki, bu uşax kimdir. Uşaq cavabında atasının öldüyünü, anasının isə evlərində olduğunu dedi.

Şah uşağın anasını çağırtdırıb ondan bu adı nəyə görə qoyduğunu soruşur.

Arvad necə olduğunu şaha danışdı. Şahın vəziri çox ağıllı olduğunnan burda nə isə bir hiylə olduğunu başa düşdü. Tacirləri çağırtdırıb hadisənin necə olduğunu soruşdu. Tacirlər kişini öldürdühlərini boyunnarına aldılar. Şah onların boyunnarını vurdurdu.

## Yadigarın nağılı

Biri varıdı, biri yoxudu, keçmiş zamanlarda xalqın qayğısına qalan bir padşah vardı. Bu padşahın gözəl bir malikanəsi və cahcəlalı vardı. Bir gün padşah öz adamları ilə səfərə çıxır. Padşahın da həm gözəl, həm də ağıllı bir arvadı vardı. O, hamilə idi. Padşah səfərdən qayıdandan sonra bərk xəstələndi, ölüm yorğan-döşəyinə düşdü. Padşah vəzirini yanına çağırıb vəsiyyət elədi ki, mən artıq ölürəm. Neçə illərdi ki, sən mənim yanımda vəzirlik eliyirsən, səndən bir pislik görməmişəm. Həmişə də mənə sadiq qalmısan. Mən öləndən sonra taxtıma sən çıxarsan. Ancaq bilirəm ki, mənim bir oğlum olacaq. Onun adını Yadigar qoyarsan. O böyüyəndən sonra padşahlığı ona verərsən. Padşah bu sözləri deyib dünyasını dəyişdi. Sizə kimdən deyim, vəzirdən. Vəzir taxta çıxan kimi başladı öz pis əməllərini büruzə verməyə. O, özünə vəzir tutdu. Bir gün vəzirini yanına çağırıb əmr etdi ki, padşahın oğlu anadan olmamış onu aradan götürsünlər. Vəzir buna razı olmasa da, qorxusundan dinmədi. Vəzir padşahın arvadını meşəyə apardı. Onun arvada yazığı gəldi. Ona görə də arvadı öldürmədi, meşəyə qoyub gəldi. Gələrkən bir quş vurdu, arvadın yaylığını quşun qanına buladı. Padşaha verdi ki, arvadı öldürdüm.

Padşah başladı arxayın ədalətsizliklərini eləməyə. Bir neçə gün keçəndən sonra vəzir meşəyə getdi, görək arvad necə oldu. O, gəlib nə görsə yaxşıdı: bir uşaq ağlayır, yanına gəlib gördü ki, arvad dünyasını dəyişib. O, uşağı bir əsgiyə büküb, bir parça kağız yazıb, içinə də bir ləl qoyub, uşağı gətirib yolun kənarına qoyub getdi. İndi sizə kimdən deyim, uzaq məmləkətlərdən birində yaşayan bir şahdan. Şah ağıllı və ədalətli idi. O, bəzi vaxtlarda öz vəzirini də götürüb səyahətə çıxardı. Belə vaxtların birində şahla vəzir gəlib yoldan keçərkən bir də görürlər ki, yolun kənarında bir uşaq ağlayır. Onu da deyim ki, şahın övladı yox idi. Allah-tala ona övlad verməmişdi. Şahla arvadı neçə illərdi ki, övlad həsrəti çəkirdilər. Şah uşağı görcək fikirləşdi ki, elə Allah-taala bu uşağı mənə göndərib. Onlar uşağı da götürüb saraya qayıtdılar. Şahın arvadı buna çox sevindi. Onlar uşağı göz bəbəkləri kimi saxladılar. Uşağın qucağındakı kağıza yazılanlara görə uşağı Yadigar deyə çağırırdılar. Aylar keçdi, illər ötdü, Yadigar böyük bir oğlan oldu. Öz igidliyi, qoçaqlığı, mərdliyi ilə saraydakı bütün oğlanları ötüb keçdi. Hələ onun atını heç bir at keçməmişdi, qılınc oynatmaqda, güləşməkdə heç kim ona çatmazdı. Tezliklə onun söhbəti bütün məmləkətlərə yayıldı. Yadigarı istəyənlərlə yanaşı onun düşmənləri də peyda oldu. Bir gün Yadigar öz yoldaşları ilə ova çıxanda biri onu uçurumun başından qəflətən itələdi. Xoşbəxtlikdən o bir ağaca ilişib qaldı. Ancaq kiçik ağac bu canlı-cüssəli oğlanın ağırlığına tab gətirmədi. Onu özü ilə bərabər uçurumun dibinə apardı. Yadigarın yoldaşları gedib şaha dedilər ki, oğlun uçurumdan helləndi, meyidini də qarğa-quzğun yedi. Şah sarayında Yadigara yas saxlamaqda olsun, indi sizə kimdən deyim, Yadigardan. Yadigar çox güclü olduğundan, sağ qalmışdı. O vaxt gözlərini açdı ki, uçurumun dibindədi. Sürünə-sürünə gəlib gəlib yolun kənarına çıxdı. Elə bu vaxt yoldan bir karvan gəlib keçirdi.

Karvanbaşı karvanı saxlatdırıb Yadigarı da özü ilə apardı. Sən demə, bu karvan Yadigarın doğma atasının vaxtı ilə şahlıq etdiyi məmləkətə gedir. Karvanbaşı da elə Yadigarın yaşamasına səbəb olan, onun anasını öldürməyən vəzir idi. Şahın zülmlərinə dözə bilməyib, vəzirlikdən çıxıb. Nə isə. Yadigar sağalandan sonra şəhərə çıxdı, başladı özünə iş axtarmağa. Şaha da nökər lazım idi. Onu şahın yanına apardılar. Şah

Yadigarı görən kimi gözləri çıxdı kəlləsinə. Bu oğlan əvvəlki şaha necə də oxşayır. Şahın sümüyü sızıldadı. Fikirləşdi ki, yəqin vəzir bu uşağı oldürməyib. O, əmr etdi ki keçmiş vəziri mənim yanıma çağırtdırın. Vəzir indiyə kimi Yadigara fikir verməmişdi. Özü də çox qocalmışdı. Gördü ki, bu oğlan doğurdan da əvvəlki şaha çox oxşayır. Vəzir olanları açıb danışdı. Şah onların ikisini də zindana saldı ki, üç gündən sonra boyunları vurulacaq. Vəzir sarayda çox qalmışdı. Sarayın bütün yollarını bilirdi. Yadigar bir-iki gün əlləşdikdən sonra zindanın qapısını qıra bildi. Onlar keşikçiləri öldürə-öldürə gəlib çıxdılar şahın otağına. Yadigar şahı öldürdü. Sonra keçmiş vəzir camaatı topladı. Bütün əhvalatı onlara danışdı. Camaat Yadigarı özünə şah seçdi. Vəzirin qızı ilə evləndi. Onlar başladılar xoşbəxt ömür sürməyə.

## Vətən və Cəlayvətən

Biri varmış, biri yoxmuş, Heydər adlı bir kişi varmış. Bu kişi pəhlivan kimiymiş. Ancaq nə faydası, iş yox, güc çox. Bilmirmiş neyləsin. Bir gün arvadına deyir:

– Mən iş axtarmaq üçün səfərə gedirəm. Oğlum olsa, evdəki polad bilərziyimi böyüyəndə bağla qoluna. Qoy gəlib məni tapsın. Heydər sözünü tamamlayıb yola düşdü. Az getdi, çox getdi, gəlib bir quyuya rast oldu. Quyunun ağzında iri bir dəyirman daşı varıydı. O, əlini daşa atdı, nə qədər güc verdi, onu yerinnən üzəmmədi. Məcbur qalıb daşın yanından bir oyuq açıb quyuya düşdü. Gördü quyunun içindən bir lağım açılıb. Heydər lağımınan gəlib bir bağa çıxdı. Ağzımda sənə bağ deyirəm ha, elə öl, qal burda. Bax bağ həylə bağdı. Can dərmanı axtarsaydın, o bağda tapardın. Bağdan bir ağac aralıda bir otaq varıydı. Heydər otağa girəndə gördü ki, qoca dev pambığın içində xəşəllənib uzanıb. Heydəri görcək dedi:

– Anava qurban olasan, bura quş gəlsə, qanad salar, qatır gəlsə, dırnaq. Oğlum ağ dev indi harda olsa gələcək, qaç canıvı qurtar.

Qoca devin ağzından söz qurtarmağıynan ağ divin gəlməyi bir oldu. Onlar bir xeyli tutaqlaşdılar. Axırda ağ dev onu üstələyib öldürdü. İndi sənə kimnən deyim, Heydərin arvadından. O, bir oğlan doğmuşdu. Atası vətəndən didərgin düşdüyünə görə uşağın adını Cəlayvətən qoymuşdu. Cəlayvətən 17-18 yaşına dolanda anası polad bazubəndi onun qoluna bağlayıb ərinin dediklərini oğluna danışdı. Cəlayvətən yola düşdü. Gəlib həmən quyunun yanına çatdı.Əlini daşa atan, həmən bayaq ha daşı dik qaldırıb kənara tulladı. Quyunun içinə girib eyzən atası kimi həmin lağıma gəldi. Bağı görüb ağlı başından oynadı. Birdən gözləri otağa sataşdı. Bayaq ha qapısını təpiklə açıb içəri girdi. Qoca dev pambığın içindən başını qaldırdı:

– Anan ölsün, indi oğlum ağ dev dəmhadəmdi gələ, vaxtıykən qaç canıvı qurtar. Neçə il bundan əvvəl sənin kimi bir pəhlivan da gəlmişdi, sözümə qulaq asmadı. Ağ dev gəlib onu param-parça elədi. Gəlsə səni də tikə-qulaq eliyəcək. Cəlayvətən ürəyində fikirləşdi ki, sən ölməyəsən, ağ devin öldürdüyü pəhlivan elə mənim atam imiş. Elə bu vaxt ağ dev nərildəyə-nərildəyə özünü yetirdi. Onlar tutaşdılar. Ağ dev nə qədər nərildədi, nə qədər guruldadı, Cəlayvətənə üstün gələmmədi. Cəlayvətən dartıb onun sağ qulağını xartıltıyla çıxartdı. Ağ dev bayaq ha tireymeş yerə yıxıldı. Cəlayvətən onun başını bədənindən qopartdı. Cəlayvətən ürəyində götür-qoy elədi ki,bura çox yaxşı yerdi, gedib anamı da götürüb gətirim. Cəlayvətən dev qalan otağın qapısını bağlayıb anasının yanına qayıtdı. Nağılçı dili yüyrək olar, deyirlər. Oğlan anasını da götürüb gəldi. Anası da bağı görüb hayıl-mayıl oldu. Cəlayvətən devin qaldığı otağın qapısını açıb onu anasına göstərdi. Onlar kef-damağnan ömür sürüb, gün keçirdilər. Siz də xoş günlər görüb, uzun ömür sürəsiniz.

## Tacirbaşı Hüseynin nağılı

Biri vardı, biri yoxdu, qədim əyyamlarda bir padşah vardı. Bu padşah üzdən xoşsifət olsa da, batindən çox zülmkar, qisascıl və əzazil idi,

onun ipinin üstünə odun yığmaq olmazdı. Hirsi tutanda padşahı dindirmək olmurdu. O çox kinli adam idi.

Günlərin bir günü padşah dəlləyi yanına çağırır. Dəllək onun başını qırxır. Padşah aynaya baxıb görür ki, başında bir neçə ağ tük var. Ağ tüklərin görünməsini qocalıq əlaməti sayan padşah dərindən köks ötürüb qüssələnir. Bunu hiss edən baş vəzir soruşur:

– Qibleyi-aləm sağ olsun, bu qədər var-dövlət, cah-cəlal ki, səndə var, sən dünyanın ən xoşbəxt adamısan, heç sənin kimi adama da qəmgin olmaq yaraşar?

Padşah deyir:

– Vəzir, mənim xoşbəxtliyimdən dəm vurursan, amma heç bir demirsən ki, bu gün - sabah ömrümü bağışlayacam, onda mənim çırağımı kim yandıracaq? Kim məndən sonra bu var dövlətə sahib olacaq? Bu dərd məni çox düşündürür, mən qüssələnməyim nə edim?

Baş vəzir deyir:

– Qibleyi-aləm acların qarnını doydursa, yetim-yesirə pay versə, o bir olan Allah payını ondan əsirgəməz.

Bu fikir padşahın beyninə batır. O, vəzirə deyir ki, aç xəzinənin qapısını, yetim-yesirə pay ver, yeddi yol ayrıcında qazan asdır, bəlkə Allah-tala mənə üz tuta, bir şirin pay verə. Baş vəzir padşahın dediyi kimi də edir. O, yeddi yol ayrıcında qazan asdırır, ac-yalavacın qarnını doyurur, xəzinədən kasıb və kimsəsizlərə pay verdirir. Padşah qırx günün hər birini hərəmxanadakı arvadların biri ilə keçirir. Aradan xeyli vaxt keçir, amma padşahın övladı olmur ki, olmur. Padşah baş vəzirin məsləhəti ilə gördüyü işlərə peşimançılıq çəkir, onu lənətləyir. Baş vəzirlə arası olmayan ikinci vəzir bu fürsəti əldən vermir. O, özünü padşahın yanına salıb deyir:

– Qibleyi – aləm, bilin və agah olun ki, baş vəzir sizin fərmanınızı yerinə yetirməyib. O, xəzinənin çox az bir hissəsini camaata paylayıb, qalanını isə özü mənimsəyib. Baş vəzir qocaldığınızı görüb özünə var – dövlət toplayır ki, sizin yerinizə keçsin.

Padşah bu sözlərə inanıb cin atına minir. O, baş vəziri yanına çağırıb deyir:

– Vəzir, mən səni namuslu adam bilirdim. Amma indi görürəm ki, sən mənim fərmanımdan istifadə edib, xəzinəni əlində toplamısan, fikrin də mənim yerimə keçməkdir. Özün gördün ki, Allah-tala da məni sevindirmədi. İndi ya sənin boynunu vurduracağam, ya da xəzinəni necə dağıtmısan, eləcə də yerinə toplamalısan.

Bu sözləri eşidən baş vəzirin ürəyindən qara qanlar axmağa başlayır. O çox deyir padşah az eşidir. Vəzir kor-peşiman evinə gedir, gümanı gəldiyi tacirləri yığıb məsələni onlara deyir. Tacirlər deyirlər ki, hamımızın pulu padşahın xəzinəsinin onda biri qədər eləməz. Bu qədər pulu heç vaxt düzəldə bilmərik. Bu pulu düzəltsə-düzəltsə, ancaq Yəmən şəhərindəki tacirbaşı Hüseyn düzəldə bilər. Baş vəzir tacirlərin sözünə baxıb padşahın yanına gəlir, ondan qırx gün rüsxət alıb, yol hazırlığı görür və Yəmən şəhərinə üz tutur. Gecə-gündüz yol gedib axırda Yəmən şəhərinə varid olur. Karvansaraya girib tacirbaşı Hüseynin evini soruşur. Evi ona nişan verirlər. Baş vəzir atını düz Hüseynin evinə sürür. Nökər onu içəri dəvət edir, tez Hüseynin dalınca adam göndərir. Hüseyn evə gəlib qonağa xoşgəldin deyir, görür ki, ədəb-ərkanından, görkəmindən bu qonaq hər qonağa bənzəmir. Tacirbaşı Hüseyn süfrə açdırır, çay-çörək yeyilib içildikdən sonra vəzir deyir:

– Hüseyn qardaş, kimliyimi soruşmursan, niyə gəldiyimi bilmirsən? Amma mənə elə hörmət edirsən ki, adam xəcalət çəkir.

Hüseyn deyir:

– Bu nə sözdür, qonaq qardaş? Xəcalət düşmənin olsun. Sən mənim qonağımsan. Hüseyn elə adam deyil ki, başını qonağından əsirgəsin.

Bundan sonra vəzir başına gələn əhvalatı tacirbaşı Hüseynə danışır. Hüseyn bir az fikirləşəndən sonra deyir:

– Bayaqdan deyirəm niyə fikirlisən, niyə qanın belə qaradır. O nə puldur ki, padşah onun üstündə sənin boynunu vurdurur. Sənə on elə xəzinə verərəm. Heç kişi də var-dövlət, pul üstə çörək kəsdiyi kişini basar? Fikir eləmə, on gün mənim qonağımsan, bu evdə yeyib-içib dincələcəksən. Sonra səni yola salacağam.

Baş vəzir burda qalır. Tacirbaşı Hüseyn hər gün onun başına adamlar yığıb qonaqlıq verir. Yəmən şəhərinin görməli yerlərini gəzdirir. Aradan doqquz gün keçir, onuncu gün tacirbaşı Hüseyn vəzirə deyir:

– Sizin yol tədarükünüz görülüb, ləl-cəvahirat, qızıl-gümüş dəvələrə yüklənib. Aparıb padşaha verin və elə adamla əlaqəni üzün. Bu pulları mən sənə bağışlayıram, onu qaytarmaq haqqında da fikir eləmə.

Baş vəzir tacirbaşı Hüseynlə sağollaşıb yola düşür və gəlib öz şəhərinə çatır. Yəməndən gəlmiş qonaqları hörmət-izzətlə yola salıb, padşahın yanına gəlir. Əhvalatı ona danışır. Padşah xəzinəyə gəlib gözlərinə inanmır. O bu pulları gördükdən sonra inanır ki, doğrudan da baş vəzir xəzinəni oğurlayıbmış. Yoxsa, bu qədər pulu o haradan tapa bilərdi? Padşah baş vəzirə deyir:

– Sən bu qədər pulu ala bilməzsən, düzünü de görüm, bu xəzinəni harada gizlətmişdin?

Baş vəzir and-aman eyləyir, amma padşah inadından dönmür ki, dönmür. O, vəzirə deyir:

– Vəzir, bu olası iş deyil. Sən məni aldadırsan. Mən elə bir adam tanımıram ki, onun bu qədər pulu olsun. Sən mənə kələk gəlmisən, bu xəzinə elə mənim xəzinəmdir. Mən sənin uydurmalarına inana bilmərəm. Gərək o adamı bura gətirəsən. O boynuna alsa ki, bu xəzinəni o verib, onda sənin günahından keçərəm. Yox, boynuna almasa, sənin boynunu vurduracam.

Çarəsiz qalan baş vəzir yenə tacirbaşı Hüseynin yanına gedib, əhvalatı ona danışır. Tacirbaşı Hüseyn deyir:

– Vəzir qardaş, mən qırx nəfər tacirin başçısıyam. Mənim onlarla alverim var. Bir azına pul verməliyəm, bir azında da alacağım var. Gərək mən onlarla haqq-hesab kəsəm. Uzun yoldur, gedərəm başıma bir iş gələr, onlardan halallıq ala bilmərəm. Sən razılıq ver, mən yerlərə adamlar göndərim, tacirlər gəlsin, onlarla haqq-hesab kəsim, sonra gedək.

Vəzir razı olmayıb nə edə bilərdi. O, tacirbaşının dediyi vaxtı gözləyir. Tacirbaşı dediyi kimi də edir. O, tacirlərdən alasını alır, verəsini verib vəzirlə yola düşür. Onlar gəlib vəzirin şəhərinə çatırlar. Vəzir Hüseyni evinə aparır, yeyib-içib dincəldikdən sonra padşahın yanına gəlirlər. Padşah Hüseyndən soruşur:

– Bu pulları vəzirə sən vermisən?

Tacirbaşı Hüseyn deyir:

– Bəli, mən vermişəm.

Padşah deyir:

– Hüseyn, mən inana bilmirəm ki, sənin bu qədər pulun olsun. Əgər varsa, bunları hardan almısan?

Tacirbaşı Hüseyn deyir:

– Padşah sağ olsun, icazə versəydiniz, başıma gələn əhvalatı sizə nağıl edərdim. Onda siz bilərdiniz ki, bu pulları hardan almışam.

Padşah deyir:

– Buyur.

Tacirbaşı Hüseyn söhbətə başlayır:

– Qibleyi-aləm, məlumunuz olsun ki, bir vaxt Yəmən padşahlığı ilə Çin padşahlığı arasında dava düşür. Davada Yəmən padşahlığından çoxlu adam, o cümlədən mənim atam, anam da ölür. Xeyli adam, Çin tərəfə əsir düşür, mən də onların içində. O zaman mənim altı yaşım olur. Mən sifətdən bir az gözəl, suyuşirin olduğumdan Çin padşahının qızı məni özünə buyruqçu götürür. Bu qız məndən bir neçə yaş böyük olardı. Onun öz qulluqçuları vardı. Mən də kimsəsiz olduğumdan o qulluqçuların yanında qalır, onların buyruqlarını yerinə yetirirdim. Vaxt gəlib o vədə oldu ki, mənim on beş yaşım tamam oldu. Cavanlıq, yetkinlik eşqi beynimə vurdu. Bir könüldən min gönülə padşah qızına vuruldum. Qız isə məni qul sifətində işlədirdi. Bir gün qız məndən su istədi. Mən iri mis parçı su ilə doldurub, qıza apardım. O, tək idi, mən cürətlənib qıza yaxınlaşmaq istədim. Qız əlindəki parçla başıma elə vurdu ki, fırlanıb yerə düşdüm, qan məni apardı. Qulluqçular tökülüb məni apardılar. Xəcalətimdən heç yerə çıxa bilmirdim. Bir neçə gündən sonra qız məni çağırıb dedi:

– Hüseyn, yəmənlilərlə bizim davamız çoxdan qurtarıb. İndi az – maz gediş-gəliş var. Get bazara yəmənli tacirlərdən birini tap bura gətir.

Mən dinməz-söyləməz bazara getdim. Soraqlaşıb bir yəmənli tacir tapdım. Tacir saraya gəldi. Padşah qızı bu tacirdən soruşdu ki, Yəmən elinə nə vaxt gedəcəksən? Tacir də cavabında bildirdi ki, on gündən sonra. Qız dedi ki, gedəndə mənim yanıma gələrsən. Yəmən elinə bir amanatım var. Bəli, aradan on gün keçdi. Həmin tacir gəlib baş əydi. Bu qız tacirin kimliyini öyrəndi. Tapşırdı tövlədən bir at gətirdilər. O, atı mənə verdi, məni də tacirə tapşırdı, üstəlik də tacirə bir az qızıl verib dedi:

– Bu oğlanı sağ-salamat ata-anasına, ya da qohumlarına verərsən. Bunun başından bir tük əskik olsa, özünü ölmüş bil. Sonra qız mənə dedi:

– Hüseyn atın tərkindəki xurcunda əmanət var, onu da məndən pay kimi qəbul elə.

Mən xəcalətimdən danışa bilmirdim. Yola düşəndə də qıza deyə bilmədim ki, çörəyini mənə halal elə. Xülasə, tacirlə yoldaş olub, nəhayət ki, gəlib Yəmənə çatdıq. Tacir çox soraqlaşdı, mənim heç bir qohum – əqrabam tapılmadı. Axırda bir ev tutub orada yaşamalı oldum. Hər gün səhər bazara çıxır, gəzib dolaşır, axşam da evə qayıdırdım. Bu minvalla çox dolandım, axırda Əhməd adlı bir tacirlə sövdələşdim ki, birlikdə alver edək. Əhməd mənim kimsəsizliyimi görüb razılıq verdi. Bir müddət Əhmədlə alış-veriş etdik. Onunla diyarbadiyar gəzdik, mal alıb, mal satdıq, var-dövlət aşıb daşdı. Bir gün tacir Əhməd mənə dedi:

Ay Hüseyn, bilirsən ki, bu gen dünyada Allah mənə bir övlad qismət eləmədi. Sənin də heç kimin yoxdu, gəl səni oğulluğa götürüm. Ata-bala olaq. Mən razı oldum. O, sevincək məni evlərinə apardı, arvadını yanına çağırıb dedi:

– Arvad, bu gündən Hüseyn bizim oğlumuzdu. Aç köynəyinin yaxasını, Hüseyni köynəyindən keçirt, olsun bizim oğlumuz.

Elə bil ki, dünyanı arvada bağışladın. O vaxtdan mən oldum onların övladı. Əhmədin oğlu kimi qırx tacirin işini də ələ aldım. Vaxt o vaxt oldu ki, bir gün Əhməd ömrünü bağışladı. Aradan bir az keçəndən sonra arvadı da vəfat etdi. Bütün mülk, var-dövlət qaldı mənə. Məni hər yerdə tacirbaşı kimi tanıdılar. O vaxt mən yetkinlik yaşına çatmışdım. Bu zaman yenə Yəmən padşahlığı ilə Çin padşahlığı arasında dava başlamışdı. Bu davada Yəmənlilər qalib gəldi, çinlilərdən çoxlu əsir aldılar, şəhərlər, kəndlər tutdular. Mən də maraqlandım, əsirlərin yanına getdim, görüm ki, Çin padşahı və onun vəzirinin qızları da bunların içindədir. Mən onların hər ikisini tanıdım, amma onlar məni tanımadılar. Tez o qızların ikisini də satın alıb evə apardım. Onlara dayə tutub yemək- içməklərini qaydaya saldım. Hər ikisinə ipək, qumaşdan paltar aldım, naz-nemət içərisində saxladım. Fikrim bu idi ki, Çin padşahının qızı ilə evlənim. Bunu mənə Allah qismət eləmişdi. Aradan bir müddət keçdi. Bir gün gördüm ki, Çinin keçmiş padşahı vəziri ilə dərviş libas olub qəsidə

deyirlər. Maraq məni götürdü. Həyatın qəribəliyinə təəccüb elədim. Onları dükanıma gətirdim. Qəfə-qəlyan, çay gətirtdim, bir az söhbətdən sonra soruşdum:

– Baba dərviş, bura adamına oxşamırsınız, siz hara əhlisiniz, hardan gəlib hara gedirsiniz?

Padşah dedi:

– Ay oğul, haralı olduğumuzu neynirsən? Bir Allah qonağıyıq.

Dedim:

– Qonaqsınız, gözümüz üstə yeriniz var, mən tacirbaşı da qulluğunuzda hazır. Ancaq sizin kimliyinizi tanısam pis olmaz.

Vəzir dedi:

– Nə qədər yer gəzmişiksə, bizdən bir söz soruşan olmayıb, sən yaxşı adama oxşayırsan. Ona görə dərdimizi sənə açacağıq, ancaq kimliyimizi deməyəcəyik. Ay oğul, biz elə bir dərdə düşmüşük ki, Allahdan başqa heç kim bu dərdə əlac eyləyə bilməz. Neçə vaxtdır gözlərimizin yaşı pırçın-pırçın tökülür. Ürəyimizdən qara qanlar axır. Dərdimizə dərman tapa bilmirik ki, bilmirik.

Mən həyəcanla soruşdum:

– Baba dərviş, o nə dərddir ki, siz belə yanıqlı – yanıqlı danışırsınız? Bir dərdinizi deyin, mən də bilim, bəlkə bir əlac tapıla.

Padşah dedi:

– Biz ona görə belə cəlayi vətən olmuşuq ki, bizim itiyimiz var. Yəni Çin – Yəmən müharibəsində bizim qızlarımız əsir düşüb. Onların öldüsü, qaldısı bizə məlum deyil. Ona görə belə dərviş – libas olmuşuq. Sən yerli adamsan, bir soraqlaş, o bir gözəgörünməz Allahın xatirinə nə bacarırsansa bizə kömək elə.

Padşahın belə danışmağı mənə yaman təsir elədi. Axı mən bilirdim ki, padşah qızını necə istəyir. Bir tərəfdən də bu padşah mənə nələr yaxşılıq eləməmişdi? Axı mənim yaşamağımın səbəbkarı da padşahla qızı olmuşdu. Mən bu mənsəbə də onların hesabına çatmışam. Onun evində kəsdiyim duz-çörəyi heç zaman yadımdan çıxarmaram. Ona görə padşahı çox nigaran saxlamayıb dedim:

– Baba dərviş, mən elə bir adamam ki, başımdan keçərəm, qonağımdan yox. Nə qədər ki, burdasınız mən sizin qulluğunuzdayam. Mənim

evim sizin evinizdir. Ancaq onu deyə bilərəm ki, mən də iki nəfər zənən almışam, gedək onlarla görüşün, hal-əhval tutun, bəlkə bir xəbər tuta bildiniz.

Bəli, bunları apardım qızların yanına. Onlar bir-birini tanıdılar. Bu ata-balalar bir bayatı deyib ağlayırdılar ki, ürək lazımıdı buna dözə. Mən də bunlara qoşulub ağlayırdım. Padşahın qızı ağlaya-ağlaya atasına dedi:

– Ata, Allah bu tacirdən razı qalsın. Görürsən bizi necə saxlayır? Elə bil ki, qul sifəti ilə satılan biz deyilik. Bu nə işdirsə baş açmırıq. Tacirdən bu sirri öyrən, bizi də tezliklə evimizə apar.

Padşahın göz yaşları hələ qurumamışdı. O, qızları sağ-salamat tapdıqlarına və qul adı ilə alınıb belə cah-cəlal içində saxlanmalarına məəttəl qalmışdı. Onlar bilmirdilər ki, mənə necə minnətdarlıq eləsinlər. Bu sirri necə öyrənsinlər ki, mən bu qızları niyə belə naz-nemət içərisində saxlamışam.

Padşah mənə dedi:

– Tacir, nə vaxtdan axtardığımız bu qızları sağ-salamat tapmağımız bir möcüzədir. Bu Allah-talanın qismətiymiş. Amma qızları qul kimi alıb, belə saxlamağın sirrini səndən başqa heç kəs bilmir. Biz ömrü boyu sənin bu xəcalətindən çıxa bilmərik. Səndən təvəqqə edirəm ki, bu sirri mənə açasan.

Mən dedim:

– Baba dərviş, burda heç bir sirr yoxdu, mən bilirdim ki, bu qızların sahibi harda olsa, soraqlaşıb tapacaq, ona görə onları şaha layiq saxlamışdım. Elə etmişəm ki, onlar özlərini uşaqlıqdan böyüdükləri saraydakı kimi hiss etsinlər.

Çin padşahını təəccüb bürüdü:

– Sən nə danışırsan? Nə saray, nə şah qızı, bu nə sözdür? Mən ağlaya-ağlaya padşahın əllərindən öpüb onun ayaqlarına düşdüm. Üzümü ona tutub dedim:

– Başına dolanım, qurbanın olum, ay padşah, bil və agah ol ki, mən qul Hüseynəm. Sənin çörəyini yeyib bu mənsəbə çatmışam. Qızları da, sizi də görən kimi tanıdım.

Qəhər məni boğdu, danışa bilmədim. Hamı qupquru qurumuşdu. Nə edəcəklərini bilmirdilər. Padşah qızının gözlərindən yaş sel kimi

axırdı. O, mənə yaxınlaşıb başıma mis parçla vurduğu yeri tapdı və məni bağrına basdı. Sonra atasına dedi:

– Atayi-mehriban, sən bir allahın işinə bax, Çin hara, Yəmən hara? Gərək mən orada əsir düşəydim, məni heç kim yox, Hüseyn əsirlikdən alaydı?

Padşah bir az fikrə gedib qızına dedi:

– Qızım, qismət beləymiş, qismətdən artıq yemək olmaz. Hüseyn çox halal adammış ki, sən ona qismət olmusan. Allah mübarək eləsin, oğullu-qızlı olasınız, qoşa qarıyısınız, övladlarınız halal süd əmsin. Hüseyn kimi duz- çörəyi itirməsin.

Padşah toy edib qızını mənə verdi. Özü isə vəziri və vəzirin qızını da götürüb evlərinə qayıtdılar. Vaxt gəlib keçdi, mənim iki oğlum oldu. Bir gün mənə namə gəldi ki, qaynatan vəfat edib. Arvadı və iki oğlumu da götürüb Çinə getdim. Qaynatama ehsan verdim. Bir müddət orada yaşadım. Mən arvadıma dedim ki, gedim ev-eşiyi satım qayıdım. Arvad narazılığını bildirdi:

– Hüseyn, kişi olan bəndə arvad qoltuğuna qısılmaz.

Mən arvadın bu sözündən sonra qaynatamın mülkünü satıb, onun bütün var – dövlətini də götürüb Yəmənə gəldim.

Tacirbaşı Hüseyn bu söhbəti qurtarandan sonra üzünü padşaha tutub dedi:

– Padşah sağ olsun, indi gör Çin padşahının var-dövləti, Əhməd tacirin qırx ildə qazandığı varidat, bir də mənim qırx tacirimin qazandığı ləl-cəvahirat ola-ola sənin xəzinənin bir hissəsini verə bilərəm, ya yox?!

Padşah gördü ki, tacirbaşı Hüseyn düz deyir. Vəzir xəzinəyə qızıl-gümüşün hamısını Hüseyndən alıb. Ona görə ədalətsiz iş gördüyünü başa düşdü və üzünü Hüseynə tutub dedi:

– İndi mən sənə və baş vəzirə inandım. Allah şeytana lənət eləsin. Verdiyin xəzinəni özünə qaytarıram və izn verirəm ki, gəlib mənim vilayətimdə yaşayasan, burada tacirliyini eləyəsən.

Tacirbaşı Hüseyn dedi:

– Padşah sağ olsun, yerə tokülən su bir də qaba dolmaz. Hüseyn o varidatı geri almaq üçün verməyib. Sənin baş vəzirin çox halal adamdı. Buna görə onu özümə böyük qardaş hesab edir və səndən rica edirəm ki,

vəziri buraxasan mənimlə Yəmənə getsin. O ki, qaldı mənim bura köçüb gəlməyim, o baş tutası iş deyil.

Padşah üzünü baş vəzirə tutdu:

– Vəzir, doğrudan da sənə böyük zülm etmişəm. Allah şeytana lənət eləsin. Bu gündən yenə mənim baş vəzirimsən.

Vəzir dedi:

– Qibleyi-aləm sağ olsun, mən dostluqda, yoldaşlıqda hər cür imtahandan çıxdım. İndiyə qədər sənə baş vəzirlik edib qulluğunda durdum. Axırda da mənə elədiyini elədin, daha sənə etibar yoxdur. Mən bu gundən Hüseynlə qardaş olacağam.

Padşah çox xahiş elədi, amma vəzir razı olmadı. O, ev-eşiyini satıb Hüseynlə Yəmənə getdi. Onlar kefi kök, damağı çağ dolandılar. Sizin də kefiniz kök, damağınız çağ olsun. Hər səhər halal süd əmmiş, xeyirxah adamlar urcahınıza çıxsın. Allah-tala həmişə sizi şər işdən uzaq eləsin.

## Murad qapısı

Biri varmış, biri yoxmuş, keçmiş zamanlarda bir padşah varmış. Bu padşahın övladdan-uşaqdan gözünün ağı-qarası bircə oğlu varmış. Günlərin bir günü padşah vəfat edir. Camaat yığışıb onu dəfn edir və oğlunu padşah seçirlər.

Aradan bir müddət keçir, padşah vəziri də götürüb xəzinəyə baş çəkir. Vəzir otaqların birində al qumaşa bürünmüş sandığı göstərib deyir ki, bu sənin atanın ən qiymətli varidatıdır. Padşah sandığı açdırır. Görür ki, sandığın içində çox qiymətli bir mücrü və onun içində də ipək yaylığa bükülü bir buğda dənəsi var. Amma bu buğda dənəsi adi buğda dənəsindən çox-çox böyükdür. Padşah fikirləşir ki, bu buğda dənəsi nə olan şeydir ki, atam onu bu cür saxlayıb. Atamın bu qədər var-dövləti ola-ola niyə bir buğda dənəsi onun ən qiymətli varidatı hesab olunur. Burda nə isə bir sirr var. Vəzir onu mənə demir. Padşah üzünü vəzirə tutub deyir:

– Sən atamın baş vəziri kimi bu buğda dənəsinin nə olduğunu bilməlisən. Burada nə isə bir sirr var. Sənə möhlət verirəm, gərək bu sirri açasan. Əgər aça bilməsən boynunu vurduracam.

Vəzir nə qədər and-aman edirsə, mümkün olmur. O, kor-peşman evinə qayıdır, yaxın dostları ilə məsləhətləşir. Onlardan biri deyir:

– Bu çox müşkül məsələyə oxşayır, biz bundan baş aça bilmərik. Bunu bilsə, ancaq, filan kənddə yaşayan yaşı yüzü ötmüş filan qoca bilər.

Vəzir həmin dostu ilə qocanın yanına gedir. Görür ki, qocanın əməli-saleh övladları onu yun mahlıc içində böyrək yağı kimi bəsləyirlər. Amma buna baxmayaraq, kişi əpriyib, əldən düşüb, heç durub yeriməyə də taqəti yoxdur. Qocalıq o qədər üz verib ki, kişi ancaq danışır. Vəzir qoca ilə hal-əhval tutur, sonra soruşur ki, padşahın xəzinəsindəki sandıqda bir buğda dənəsi var, bəlkə sən biləsən bu dənəni padşah niyə belə əziz saxlayıb. Qoca deyir ki, mən belə şeylərdən baş aça bilmərəm. Məndən yeddi ağac aralıda məndən böyük qardaşım yaşayır, bu məsələni ondan öyrən. Vəzir həmin kəndə gedir. Görür ki, bu qardaş da çox qocalıb, amma kiçik qardaşına nisbətən bir az diribaşdır, özü yeriyir, oturub-durur. Vəzir xoş-beşdən sonra məsələni bu qardaşdan da soruşur. O deyir ki, mənim böyük qardaşım doqquz ağac aralıda, filan kənddə yaşayır. Buğda dənəsi haqda bilsə o biləcək, bilməsə bu məsələni açan çətin tapılar. Əlacçız qalan vəzir böyük qardaşın yanına gedir. Görür ki, bu qardaşın özü gəzib dolanır, at minir, qoyun-quzu dalınca qaçır. Vəzir ondan soruşur ki, sən o biri qardaşlarından böyüksən, amma onlardan yaxşı qalmısan, bunun səbəbi nədir? Böyük qardaş cavab verir:

– Qardaşlarım düz deyir, mən onlardan böyüyəm. Biz ata-anamızdan sonra bir az bənəgüzarlıq edib, yaşayırdıq. Dolanışığımız da pis deyildi. Amma di gəl ki, kiçik qardaşımız dolanışığından hey gileyli olurdu. Az da olanda ax-vay edirdi, çox da olanda. Evdə ailə ilə rəftarlığı da yox idi. Mən isə az da olsaydı, çox da olsaydı, ona min şükür edirdim. Deyirdim ki, qismət nədirsə, o da olacaq. Bax ona görə də kiçik qardaşımızın ah-vayı onu, o günə salıb. Ortancıl qardaşımız bir az şükürlü olduğuna görə gəzib dolana bilir. Məni isə bu gundə saxlayan səbirli, şükürlü olmağımdır.

Bu söhbətdən sonra o, vəzirdən soruşdu:

- İndi de görüm, məramın nədir? Mənim bu komama nə məqsədlə gəlmisən?

Vəzir başına gələn əhvalatı nağıl elədi. Böyük qardaş dedi:

– Vəzir, sənin ki, başına bu işlər gəlib, o padşahın cavanlığından, dəliqanlı olmasındandır. Heç bir ağıllı padşah bir buğda dənəsi üstə ölüm hökmü verməz. O dənə ki, deyirsən mən gərək onu görüm. Dənəyə baxmamış heç nə deyə bilmərəm.

Vəzir həmin qardaşı saraya gətirib buğda dənəsini ona göstərir. Böyük qardaş dənəni diqqətlə nəzərdən keçirib vəzirə deyir:

– Vəzir, sənin baxtın gətirdi. Bu dənə padşahın ulu babasından qalır. Bu haqda çox maraqlı bir hekayət var. Onu mənə babam nağıl edib. İndi mən deyim sən də bil ki, bu dənəni padşah niyə belə əziz saxlayırmış.

Vəzir qonağı evinə gətirdi, ləziz yeməklərlə süfrə açdı. Yemək içməkdən sonra böyük qardaş söhbətə başladı:

– Çox qədim zamanlarda Təbrizdə Həsən adlı bir nəfər varlı kişi varmış. O, hər il torpaqlarını əkdirər, becərdər və həmin gəlirlə də dolanarmış. Həsən ağa çox halal-hümmət adam imiş, həmişə haqq hesabına düz olar, yetim-yesirə əl tutarmış. Bir yaz günü o, yerini əkdirmək üçün Murad adlı bir rəncbərlə sövdələşir, onunla belə şərt kəsir ki, ona cüt, öküz, toxum versin, taxılın daşınıb döyülməsi üçün şərait yaratsın. Məhsul hasilə yetdikdən sonra onu bölsünlər. Hər ikisi bu şərtə razılaşır.

Murad əkcəyi yerin yanına gəlir, cütü qoşub «Ya Allah, məndən hərəkət, səndən bərəkət», – deyib işə başlayır. Bir neçə gün belə işləyir. Bir gün cüt iri bir daşa ilişir. Murad nə qədər haylayırsa, öküzlər daşı çıxara bilmir. O, daşın ətrafını qazmağa başlayır ki, ilişmiş cütü çıxarsın. Bu vaxt daşın altından bir deşik açılır. Murad oranı eşələyəndə içi qızılla dolu üç küp tapır. O, fikirləşir ki, gör bu Həsən ağanın varı – varidatı nə qədərdir ki, bu qədər qızılı burada basdırıb. Murad küplərin üstünü torpaqlayıb, öküzləri otlağa buraxır və gəlir məsələni Həsən ağaya danışır. Həsən ağa tez əkin yerinə gəlir, Muradla birlikdə küpləri evə gətirir. Həsən ağa öz-özünə fikirləşir ki, Murad çox halal adamdı, o bir öynə çörəyə möhtac ola-ola bu qədər qızıla əl vurmayıb. Demək, bu qızıl onun

qismətinə çıxıb. Yoxsa, illər uzunu bu yer şumlanır, tapılsaydı, indiyə qədər tapılardı. Çox fikirdən sonra o, Murada deyir:

– Murad, qızıllar mənim deyil, onu mən basdırmamışam. Bunlar sənin qismətinə çıxıb, indi fikrin nədir?

Murad deyir:

- Ağa, yer sənindi, mal da sənindi, mənim qarışacağım yoxdu.

Həsən ağa çox çək-çevir edir, amma Murad razılaşmır. O, Muraddan soruşur ki, oğul-uşaqdan nəyin var? Murad da cavab verir ki, bir qızım var.

Həsən ağa deyir:

– Murad, sən çox halal adamsan, özgə malında gözün yoxdu. Allah-tala da bu varı bizə qismət eləyib. Deməli, bu qızıllar hər ikimizindi, onu qardaş malı kimi bölməliyik. Bu varidat da bizə halal olsun deyə, məsləhətdir ki, sən qızını mənim oğluma verəsən.

Hər ikisi razılaşır. Onlar toy edib övladlarını evləndirir, qızılların bir hissəsini onlara verib, qalmışını da yarı bölürlər.

Murad da rəncbərliyindən əl çəkməyib Həsən ağanın yerini şumlayıb buğda səpir. Səpindən sonra Murad Həsən ağaya deyir:

– Ağa, mənim ürəyimdə iki arzum var idi, onun biri qızımın xoşbəxt olmasını görmək idi. Çox şükür olsun Allaha ki, o, halal bir evə düşdü. İkinci arzum isə Xorasanı ziyarət etməkdir. Mən istəyirəm ki, Xorasanda ağanın kümbəzinə bir qapı düzəltdirib qoyduram. Qoy ellərə car olsun ki, bu dünyada Murad adında da bir rəncbər varmış. İndi məsləhətin nədir?

Həsən ağanın məsləhəti ilə Murad qiymətli bir qapı düzəltdirib, Xorasanı ziyarətə gedir. Ziyarətdən qayıdan Murad buğda zəmisinə qulluq edir. Vaxt o vaxt olur ki, buğda zəmisi at üstündə adamın qurşağına çıxır. Sünbüllər saralıb dənə dolur. Sünbüldə hər buğda dənəsinin biri ərik dənəsi boyda olur. Hamı bu işə məəttəl qalır.

Həsən ağa Muraddan soruşur:

– Murad, mən bu böyüklükdə buğda dənəsi görməmişəm. Sən dünya görmüş adamsan, buğda dənələrinin bu böyüklükdə olmasına nə deyirsən?

Murad deyir:

– Həsən ağa, bu Allah-talanın bizə verdiyi nemətdir. Hər ikimizin halallığının timsalıdır. Ürəyimizdə olan doğruluğun, düzgünlüyün haqqıdır. Onu müqəddəs pay kimi saxla, o, bərəkət nümunəsidir. İnsanlar arasında halallıq olduqca, bu buğda dənəsi belə qalacaq, haramı halala qatdıqca o kiçiləcək.

Muradın bu sözündən sonra Həsən ağa həmin buğda dənələrindən bir az aparıb padşaha verir. Padşahı təəccüb bürüyür. O, buğda dənələrini nə qədər əkirsə o bitmir, hər əkəndə də buğda dənələri çürüyüb yox olur. Padşah Muradı yanına çağırıb buğda dənəsinin sirrini soruşur. Murad deyir:

– Padşah sağ olsun, bu buğda dənələrini əkdirmə, nə qədər ki, yer üzündə haqq-ədalət yoxdursa, bunlar göyərməyəcək. İllər ötəcək, vaxt gələcək ki, haqsızlıq hər tərəfi bürüyəcək. Onda bu buğda dənələri əriyib-əriyib lap kiçiləcək. Yaxşı olar ki, sən onları gələcək nəslə saxla, qoy bizdən sonra gələn insanlar görsünlər ki, halallıq doğruluq, düzgünlük nə demək imiş.

Padşah Muradın məsləhəti ilə buğda dənələrini mücrüyə qoyub həmin sandıqda saxlayır. Hər yaz açılanda dənələrdən birini əkdirir, ancaq onlar bitməyir. Aradan xeyli müddət keçir. Həsən ağa da, Murad da, həmin padşah da ömürlərini bağışlayır. Sonra gələn padşahlar da buğdanı nə qədər əkirlərsə, o bitmir. Ona görə hər gələn padşah da dənəni qiymətli varidat kimi özlərindən sonrakı padşahlara saxlayırlar.

Burada söhbətini sona yetirən böyük qardaş vəzirə deyir:

– Bil və agah ol ki, bu buğda həmin dənələrdən biridir. Axtarsan yer üzündə ikisi-üçü ancaq qalar. O, dənədən kimdə varsa, o, muradına tez çatır, bütün arzuları həyata keçir. Buna görə ona “Murad buğdası” da deyirlər.

Bu söhbətdən sonra vəzir rahatlanır. O, əhvalatı olduğu kimi padşaha danışır. Padşah da buğda dənəsinin sirrini öyrəndikdən sonra onu atasının sandığına qoyub ulu babalarından qiymətli yadigar kimi saxlayır və vilayəti ədalətli idarə edir. Vəzir də şad-xürrəm yaşayaraq həmin qardaşlarla dostluğunu davam etdirir və Xorasana “Murad qapısı”nı ziyarətə gedir.

# Halal çörək

Belə rəvayət edirlər ki, keçmiş zamanlarda bir kişi varmış. Bu kişinin külfəti çox olur. Özü isə çox kasıb olur. Bir gün arvadı deyir:

– A kişi, bəsdir evdə oturdun. Get bir az da işlə, pul qazan. Ancaq qazandığın pul gərək halal olsun.

Kişi gedir-gedir, günə bir mənzil, gəlib çatır bir vilayətə. Bu vilayətdə qabağına bir əkinçi çıxır. Kişi əkinçiyə deyir:

– Mənə bir iş ver, ancaq halal olsun.

Əkinçi deyir:

– Yox, qardaş, məndə halal iş yoxdur. Mən zəmini suvaranda qonşunun arxından zəmimə su axıb… Get, mənim filan kənddə qardaşım var, naxırçıdır. Bəlkə onda sənə görə bir iş oldu.

Kişi gedir çatır həmin kəndə. Naxırçını tapır, ondan özünə görə bir iş istəyir. Naxırçı deyir:

– Yox, qardaş, mən öküz otaranda zəmisindən bir ağız ot yeyib. Get filan şəhərə, mənim orada bir tacir qardaşım var. Bəlkə onda sənə görə bir iş oldu.

Kişi gedir həmin şəhərə. Taciri tapır, deyir:

– Mənə bir iş ver, ancaq halal olsun. Tacir deyir:

– Sənə bir iş verərəm. Amma ildə bir abbası pul verəcəyəm.

Kişi buna razı olur.

Qalır tacirin yanında işləməyə. Vaxt dolanır, il keçir, bir il tamam olur. Tacir kişiyə bir abbası verib deyir:

– Get bazardan nə istəyirsən al, göndər evinə.

Kişi gedir bazara, görür bazarda nardan başqa heç nə satmırlar. Soruşur ki, nar neçəyədir. Deyirlər: – Bir abbasıya.

Kişi tacir verdiyi bir abbasını verir bir dənə nar alır. Eşidir ki, onların şəhərinə bir karvan gedir. Narı gətirir verir karvanbaşıya deyir:

– Filan vilayətdə mənim ailəm var. Bu narı verərsən mənim arvadıma. Karvanbaşı da narı gətirir verir kişinin arvadına. Arvad narı gətirir evə,

istəyir kəssin, görür ki, bıçaq kəsmir. Bir təhər narı kəsir, görür ki, içi doludur qızıl ilə. Arvad bu qızılları yığır. Fikirləşir ki, bir ev tikdirim.

Arvad burada bir ev tikdirməkdə olsun, al xəbəri ərindən.

Yenə də bir il tamam olur. Tacir kişiyə bir abbası da verir.

Deyir:

– Get nə istəyirsən al göndər evinə.

Kişi gedir bazara, görür ki, bazarda balıq satırlar. Soruşur ki, balıq neçəyədi? Deyirlər:

– Bir abbasıya.

Kişi bir balıq alır. Göndərir evinə. Arvad balığı gətirir təmizləyir. Qarnını yırtanda görür içindən bir ləl çıxdı. O, ləli verir evin çatışmayan şeylərini alır. Uşaqları ilə firavan yaşamağa başlayırlar.

Bir il də keçir. Tacir kişiyə bir abbası da verir. Kişi deyir:

– Mən bir vətənə getmək istəyirəm. Tacir razı olur. Kişi gəlir bazara. Görür ki, bazarda ağ, düz çubuqlar satırlar.

Ondan başqa bazarda heç nə yoxdur.

Soruşur:

– Çubuq neçəyədir?

Deyirlər:

– Bir abbasıya.

Kişi bir çubuq alır, qayıdır öz məmləkətlərinə.

Baxır görür evinin yerində imarət tikilib. Bu vaxt qonşusuna rast gəlir. Qonşudan soruşur:

– Bu kimin evidi?

Deyir:

– Bəs sənin evindir. Arvadın bu evi sən göndərdiyin qızıllarla tikdirib. Kişi gəlir evinə.

Arvad başına gələni ərinə danışır. Yeyirlər, içirlər. Axşam yatırlar. Kişi aldığı çubuğu qoyur yanına, yatır. Səhər durur, görür ki, bu çubuq döndü oldu bir ilan. İlan sürünüb girdi divarın çatına.

Kişi deyir:

– Bu ilanı belə qoymaq olmaz. Onu öldürmək lazımdı. Yoxsa çıxıb uşaqları sanca bilər. İlan girən yeri qazırlar, görürlər ki, bir küp çıxdı.

Baxırlar ki, küpün içi doludur qızıl ilə. Qızılı götürürlər. Yeyib-içib şad-xürrəm ömür sürürlər.

## Şahın oğlu

Şahın oğlu birgünnəri, atına səvar oldu, səvar oldu və ov əşyalarını götürdü və yola çıxdı. Axşam gedib dönmədi. Yəqin ki, başında bir fəlakət var imiş, hesab elədilər, geri dönmədi. Şah əmr elədi ki, onda axtarın! Əmma bir şərt qoydu. Dedi, mənim oğlumdan hər kimsə bəd xəbər gətirsə, qurğuşum əridib tökəciyəm boğazına. Bu işdə vəzir də iştitak eləməli oldu. Pədşahın vəziri çıxdı dağı-daşı gəzdi, dolandı. Çoox dolanandan sonra heç nə tapa bilmədi. Bir çobana rast gəldi. Vəzir çobanla salamlaşdı. Axı çoban bilmir ki, bu vəzirdi. Adi geyimdə çıxıb. Coban dedi:

A kişi, sən bu dağlarda-daşlarda neynirsən?

Vəzir dedi ki, şahın oğlu dağlarda-daşlarda itib. Əma elə bir şərt qoyub ki, da mən geriyə qayıtmalı olmayacam. Çünki şah deyib ki, mən bəd xəbər aparsam mənim boynumu vıracaq, boğazıma qurğuşum əridib tökdürəcək. Qayıtmağım mümkün dəyil, da mən çıxmışam elə baş götürüm gedim.

Çoban dedi ki, gəl mənə bir gün qonaq ol, gecə bizdə qal, istirahət eliyək, mənim çoban süfrəmdən də bir tikə yeyərsən, səhər açılanda mən gedib bu işi həll eliyərəm.

Vəzir olasan, o böyüklükdə hikmət sahibi, bir çoban buna deyə ki, mən gedərəm həll edərəm, bu necə şeydi? Vəzir çox təəccüb elədi. Axşam yatdılar. Vəzir yatdı. Lakin çoban nağılda söhbət dili bir az tez olur, çoban yatmadı. Çöldəki ağaclardan bir parça kəsib, özü üçün bir saz yondu hazırladı, səhər aldı əlinə. Vəzirə dedi ki, dur gedirik şahın hüzuruna. Sazı çala-çala düz getdilər şahın hüzuruna. Şahın adamları, bunnarı içəri buraxmadı. Bunnar da dedilər ki, biz gedirik şahın yanına, şahın bu işlə tapşırığı var, biz gedirik şaha söz deyəcəyik. Nə etdilərsə buraxmadılar. Şaha xəbər göndərdilər ki, bəs iki nəfər adam gəlib, əlində sazı

var. Deyillər, bu işlə şaha sözümüz var. Şah dedi buraxın gəlsin. İçəriyə girən kimi başladılar bir matəm havası çalmağa. Ta şahın qəbuluna girənə qədər və şahın yanında da bu hava davam elədi. Dedi ədə, siz mənə bəd xəbər gətirmisiz oğlumla bağlı? Bunnar dedi, qibleyi-aləm sağ olsun. Biz sənin yanıva hələ indi girmişik, əğzımızı açıb deməmişik, haradan sən bunu hesab elədin ki, biz bəd xəbərlə gəlmişik. Heş kəsə bir kəlmə də deməmişik. Əgər annıyırsan ki, sazda matəm havası çalınır, o qurğuşumu ərit tök sazın deşiyinə, vəssalam. Bizdə günah yoxdu. Şah özü də başa düşdü ki, əmri də düzgün vermiyib. Əslində şir dərədə şahin oğlunu da atını da parçalayıb yemişdi. Ona görə də vəzir istəyirdi ki, bu vətənnən çıxsın getsin, ailəsinnən-filanınnan fərari düşşün. Çünki bəd xəbər gətirsə idi öləcəydi.

Burda da nağıl bitir.

## Padşahın yuxusu

Yuxu gördü şah. Yuxuyozanların hamısını, vəzir, vəkili topladı yanına, gəlin mən yuxu görmüşəm, yozun mənim yuxumu. Bunun mənası nədir? Yuxuda nə görüb? Yuxuyozanlardan biri dedi ki, şah sağ olsun, Sənin yuxunun mənası, bax-bax görürsən, hava dolanır, leysan yağışı yağacaq. Sel-su aləmi götürəcək. Hər kəs qalacaq başının, canının hayına. Içməli su tapılmıyacaq. Su bulanıq olacaq. O bulanıq sudan camaat məcbur qalacaq içəcək. O suyu içənnər dəli olacaq. Dedi bə neyniyək? Dedi ki, bizim böyük xumlarımız var, küpələrimiz var, ehtiyatlarımız var. Bu başdan o suyu qablara doldurarıq, o bulanıqlıq bir-iki saat çəkəcək da. O bulanan dövrdə biz bulanıq sudan istifadə etmərik, düzələnnən sonra istifadə edərik, dəli də olmarıq. Bunnaq qabları doldurdu suyunan, leysan gəldi, vurdu, dağıtdı, camaat da o sudan içdi, kim içmişdisə də, dəli oldu. Şah oturmuşdu küləfrəngidə, gördü ki, camaat əlinə daş-kəssək, yaba, ağac alannar hamısı, gəlillər. Şah tez deyir, ay vəzir, ay vəkil, tez gəlin bura, bu nədi belə, bunnar hara gedirlər? Deyir, şah sağ olsun, onnar su içib dəli olduqları halda bizi dəli hesab eliyillər, özlərini ağıllı. Ona görə

ki, biz onnara qarışmamışıq. Onnar bizi dəli hesab edib, gəlirlər öldürsünlər.

Bə neyniyək dedi.

Dedi: heç bir şey. Tez bir zamanda əmr ver ki, nə qədər arvad, uşaq, böyük, kiçik.. nə qədər adam var, çıxsınlar onnarın qabağına. Yaxına gəlincə darvazanı açdılar, çıxdılar eşiyə.

Vaxt gəldi, keçdi. Suyun təsiri də qurtardı. Padşahın yuxusu da düz çıxdı.

## Qorxaq dovşanlar

Biri vardı, biri yoxdu. Bir-birindən tez-tez xəbər tutan dovşanlar vardı. Bir gün onnar yığışdılar bir yerə, dedilər, biz bu dünyada nəyə yaşıyırıx? Bir şey ki, hər şıkkıltıdan, hər şeydən qorxuruq. Gəlin özümüzü atax çaya, suya çeşmiyə, boğulax qurtarsın getsin. Belə yaşamaqdansa, ölməh yaxşıdı. Bu dünyada hər şeydən qorxduq.

Bu formada bunnar danışdılar, dilləşdilər, qaşdılar getsinnər özlərini atsınlar çaya. Az getdilər, çox getdilər, bir çayın qırağına yetişdilər. Qurbağalar bunnardan tez atıldılar suya. Dovşanların səs-küyü, cığıltısı-vığıltısı qurbağaları yaxşıca qorxutmuşdu. Özlərini suya atmağınan elə bildilər canlarını qurtardılar. Dovşannar bir-birinə dedilər: Dayanın, dayanın, deməli bizdən qorxaxları var imiş. Biz hələ yaxşıyıx. Qayıtdılar geri. Nağıl da hələlik burda qurtardı.

## Şirin nağılı

Şir qocalmışdı. Daha nərildiyib ov eləməyə gücü yox idi. Yıxılmışdı ölürdü. Ama o biri heyvannar ki, var, onnar bilmirdilər ki, şirin hayı gedib vayı qalıb. Ancaq şir çox bic idi. Bu halında da hamını yığır başına, deyir ki, mən indiyənəcən çox əziyyətlər çəkmişəm. İndi bunnan sonra istiyirəm ki, rahat yaşıyım, çörək yeyim, yem yeyim. Ona görə əmr

eliyirəm ki, hər heyvan cinsinnən gündə biri özü gəlib mənə yem olsun. Yoxsa siznən özüm bilərəm nə cür rəfdar edəcəyəm.

Heyvanatdan tülkü, çaqqal, canavar, nə bilim, cürbəcür heyvannar növbə ilə gəlirdilər ona yem olurdu. O, da yatdığı yerdə yeyirdi. Bir gün dedilər, dovşan, sənin, növbəndi. Dedi, mən gedərəm. Əmma gəldi, bir saat, iki saat yubandı, şirin hüzuruna. Gəlib yetişən kimi şir açıqlandı. Bəs hardasan, mən açınnan ölürəm. Dedi, gərək səni indiyə kimi yemiş olaydım.

Dedi, şir sağ olsun, mən özbaşına dəyildim ki, mən cansız bir məxluqatam. Gəlirdim, sənin kimi bir şir qarşıma çıxdı.

Dedi, səni yeyəcəyəm. Dedim, bə sən məni yeyəssən, mən orda bir şir var, onun hüzuruna gedirəm. O bilsə, səni didib-parçalar. Dünyaya gəldiyinə səni peşman eliyər.

Şir dedi ki, o şir hardadı? Davşan dedi, orda, Gedəh mənə göstər, gedəh. Saldı yanına, gətirdi meşədə bir quyu var idi. O quyunun içindəki suya şəkli düşən şirə dedi ki, ode, ordadı bax. Elə quyuda öz şəklini görən şir üstdən aşağı şığadı, düşdü quyunun dibilə, elə oradaca canını tapşırdı.

## Ögey ana

Bir arvadın altı uşağı olur. Vaxt gəlir, arvat vəfat eliyir. Bının altı uşağı yetim qalır. Yoldaşı məcbur qalır, gedir özünə bir arvat gətirir. Bir gün, iki gün... Bir gün bı qonşudan eşidir ki, ölən arvadın bir kisə qızılı varımış, onu tapsan sən yaxşı ötüşərsən. Arvad başdıyır bı uşaxların günün göy əskiyə döndərir. Onnara çörək vermir, əziyyət verir. Qatır evə, ayrı bir otağa, qapını bağlıyır. İt qabında onnara horradan–zaddan tökür, yeyillər. Bir gün görür bı uşaxlarınan bacara bilmir. Onnarı o ki varınca incidir. Oğlana bir ağaş vırır. Oğlan ağlıya–ağlıya çıxır, didərgin, əvinnən qaçır, düz atasının yanına. Atası da cüt sürürdü.

Atası görür oğlu ağlıya–ağlıya gəlir. Qaçır bının qabağına:

– Ay bala, sana noolup.

Deyir:

– Ata, analığımız bizi öldürür. Bacımı, qardaşımı öldürür.

Deyir:

– Niyə?

Deyir:

– Hökm eliyir ki, bizə, ananın bir kisə qızılı vardı, hardadı de.

Qızılın adını eşidən kimi kişi əlin atır yerə, bir daş götürür, vırır oğlunun təpəsinə, oğlunu qan götürür. Oğlan elə həylə qan axa–axa düz qaçır qəbirsannığa. Gedir oturur anasının qəbrinin üstündə ağlıyır, ağlıyır, ağlıyır. Bını yuxu tutur. Birdən görür qapı açıldı, keçir içəri. Baxır, görür bir dənə alma ağacı var. Alma ağacını silkəliyir. Alma yerə töküldühcə anası doldurur qablara, paylıyır ona–bına. Yoldan keçənnərə. Deyir:

– Ana!

Deyir:

– Nədi?

Deyir:

– Bilirsən, nəyə gəlmişəm?

Deyir:

– Nəyə gəlmisən, ay bala.

Deyir:

– Görmürsən, gözüm yaşdı, özüm halsız. Mənə təybir. Analığım bizi qırır, öldürür. Deyir, qızılın yerini de. Ana, sən Allah, qızılın yerini de, bəlkə analığım bizi incitmiyə.

Deyir:

– Ay bala, yaxşı gəlmisən, qal elə mənim yanımda, görürsən, necə yaxşı yaşıyıram.

Deyir:

– Ay ana, mən öz dərdimi çəhmirəm ey, bacımı–qardaşımı indi o arvad öldürdü. Sən qızılın yerin de, mən çıxım gedim.

Deyir:

– Bala, keç o biri otağa.

Oğlan keçir o biri otağa, baxır, görür ki, bir dənə arvad oturupdu. Deyir: – Zəhra xala. Deyir ki, nədi?

Deyir:

– Zəhra xala, bırda neyliyirsən?

Deyir:

– Ay bala, görmürsən neyliyirəm. Mənim işim, peşəm, gücüm bıdı.

Arvat çönür bı tərəfə. Bir qom yumurtda var. Yumurtanı ortadan yarı bölür, bir də qarışdırır, bir də bölür. Üzün çöndərir bı tərəfə. Bı yanda da süd var. Bı südü tökür bı qaba, bınnan bı qaba, bınnan bı qaba.

Arvada deyir:

– Niyə belə eliyirsən axı.

Deyir ki, bala keç o biri otağa, gələndə dəərəm. Bı keçir o biri otağa. Baxır görür ki, bir arvad oturupdu bırda saca çörək salır. Saldıxcan çörəyi əlində paylıyır ona–bına.

Deyir:

– Xala, çörəyi niyə paylıyırsan axı. Deyir, çörəyi paylayırsan heç qutarmır. Bir ucdan yapırsan, yoxdu.

Deyir:

– Bala, bilirsən? Mən o dünyada həmməşə çörəh yapanda təndirdən çıxan çörəyi qonum–qonşu, yetim–yesir, fəğir–füqərıya paylıyırdım. İndi bu dünyada o ma güzar olup. Ona görə də elə mənim peşəm bıdı, vəzifəm bıdı, işim bıdı. Çörəyi bişirirəm, paylayıram öz–özünə qutarmır.

Qayıdır gəlir, bı biri otağa. Görür ki, elə həmənki kimi yumurtanı yığır bir yerə, ortadan bölür, bir də qayıdır qarışdırır. Çönüp südü tökür qabdan qaba. Deyir:

– Xala, sən niyə bir belə qarışdırırsan?

Deyir:

– Bala, o dünyada bir qonşum varıydı. O dünyada mənim də inəyim varıdı, qonşumun da inəyi varıdı. Onnan şərtdəşdih ki, ikimizin də südümüz az olur. Gəti bir gün sən ma ver, ya mən sa verim. Süd az olduğuna heç bir şey eliyə bilmirdim. Qonşu sağ olsun, razılıq verdi. Mən həmişə südü verəndə yarı süd, yarı su olurdu. Amma qonşum verəndə südü teyxa verirdi ma. İndi gəlmişəm bı dünyaya. Ma hökm eliyillər ki, gərəh bı süddən o suyu ayırasan. Qonşunun toyuğu dadanmışdı mənim hinimə. Gəlib yumurtduyurdu. Bir–iki dəfə gözümnən gördüm. Nə qədər elədimsə bı toyuğu qapıdan eliyə bilmədim. Ancax yumurtanı tanıyırdım.

Bilirdim ki, hansı yumurtadı. Qonşuya vermirdim. İndi ölüp gəlmişəm bu dünyaya, ma deyillər ki, gərəh qonşunun yumurtasını öz yumurtdandan ayırasan. Indi peşəm bıdı. Nə çarə eliyirəm, nə yumurtanı ayıra bilirəm, nə də süddən suyu ayıra bilirəm. Keçir gəər anasının yanına.

Deyir:

– Ana.

Deyir:

– Nədi?

Deyir:

– Hələ almadan qutarmamısan?

Deyir:

– Ay bala, bə sa dedim. Bizim həyətdə bir dənə alma varıdı. O almanı həmişə çırpmax vaxtı, deyirdim, qonşunun yoxdu. Nə ki, yetim–yesirə, fəğirə–füğəraya... hamısını paylıyırdım. İndi mənim peşəm bırda bıdı. Bı almanı payladıxcan üstü dolur. Töküp paylıyıncan üstü dolur.

Deyir:

– Ana, yaxşı, ta qutar. Məni yola sal gedim. Deyir: – Bala, qızılın yerini desəm də mən 30 ildi ölmüşəm. Gəlmişəm bıra. İndi kim inanar ki doğrudan da məndə qızıl olupdu. Sənə qızıl vermiyəcəhlər. Deyir: – Ana, sən Allah, məni bir təhər yola sal. Bacımı, qardaşımı analığım öldürdü.

Deyir:

– Bala, görrəm vəziyyətin çox ağırdı. Bilirsən navar? Gedərsən qonşumuz var, Zibeyda xalan. O Zibeydə xalagilin evinə gedərsən. Mən orda dərziliy eliyirdim. Paltar tikəndə onun yarım metr parçasınnan qalmışdı mənim evimdə. Parçanın yeri göydü, gülləri qırmızıdı. Narıncı gülləri varıdı üstündə. Onnan o qədər mehribanıdıx. O elə təmiz, ürəyi saf adamıdı ki, bir dənə mən ona ehtibar eliyirdim. Ona görə də qızılı götürdüm, bükdüm onun yarım metr parçasına. Ona dedim ki, bı qızılı aparарsan, sizdə gizdədərsən. Mənim uşağım–zadım çoxdu da. Özüm də kasıbıdım, yerim yoxdu qoymağa. Arvada etibar elədim verdim, götdü, getdi. Onda o vermiyəcəh, deyəcəh, kəs səsi, sənin anan otuz ildi ölüp. Sən də uşaxlığıynan məni qəzilliyirsən, kəs. Onda sən açarsan nə görmüsən, nə eşitmisən, hamısını deyərsən. Arvad onda fikirrəşip qızılın

hamısını verəcəh sa. Sən də götürüp, gedərsən. Analığın sizi yola verəcəh.

Ordan da çıxır, düz gəlip çıxır Zübeyda xalasıgilə.

Deyir:

– Zübeydə xala, mən anamın yanından gəlirəm. Özün də yaxşı bilirsən da, analığım bizi nə günə qoyur. Bəs sən Allah o qızılı ver, aparım, verim. Bəlkə bizi bir təhər yola verə. Deyir ki, ay bala, sənin ağlın çaşıb, nədi? Sən uşaxlığıynan məni qəzilləməh istiyirsən? Nə qızıl, nə filan? Mən qızıl–zad görməmişəm. Deyir:

– Zübeydə xala, anam dedi ki, sa inanmıyacax, vermiyəcəh. Mən getdim qəbirsannığa otdum ağladım, ağladım. Qapı açıldı, anam belə alma çırpırdı. Anama dedim. Dedi, keç ikinci otağa. Getdim orda bir arvat dedi ki, qonşunun toyuğu dadanmışdı hinə, yumurtanı vermirdim. Mən südə su qatırdım, o təmiz verirdi. Ona görə də indi, bırda mənə hökm eliyillər ki, gərəh süddən suyu, yumurtanı da ayırasan, verəsən. O da ayıra bilmirdi, elə işi, peşəsi oyudu. Getdim üçüncü otağa. Bir arvat da orada saca çörək salırdı, paylıyırdı. Dedim, ay xala, neyliyirsən. Dedi, ay bala, hal qəziyə belə. O dünyada çörəh yapıb paylıyırdım ona–bına, yetim fəğir–füğərəyə. İndi mən bırda çörəh yapıb paylıyıram. Mənim işim–gücüm bıdı. Arvat bir az fikirləşdi–fikirləşdi, dedi, hay–hay. Bəs bı günnən mənim də olacax, bı gün sabah mən də öləciyəm. O dünyaya gedəciyəm. Onda ma da dəcəhlər: –Filankəsin qızılı səndədir. Niyə verməmisən? Məni incidəcəhlər. Nəvəyəcən, nəvədən nəticəyəcən, nəticədən kötücəyəcən, bıın ma xeyri nə olacax? Durur, ürəyi yumşalır, gətirir həmən parçanı verir, içində də qızıl.

Deyir:

– Bala, apar. Oğlan dua eliyə–eliyə gətirir, verir analığına.

Analığı deyir:

– Hə. Bə deyirdin yoxdu? Yerin bilmirəm? İndi bı dəhə inandın?

Onnan sora başdıyır bı uşaxlarınan mehribançılıx eliyir. Uşaxları qəşəh yola verir.

## Kişi və ilan

Bir kişi kəvşəndə həmişə piçin piçərmiş. Orada sərin bulax vardı da ayran eliyip içirmiş. İçənnən sora camın dibində bir xırdacana ayran qalır. Kişi ger gör, bir xışıltı səsi gər. Çönür, baxır gör ki, ilan yuvasınnan başını uzadıp ayranı yalıyır. Gedir, bir də gəlip ayran hazırrıyanda bir cam qoyur ilanın yuvasının ağzına. İlan ayrannan yalıyır. Qutarannan sora ağzınnan bir ləl salır camın içinə. Bir gün, iki gün kişi bir gün xəstələnir. Kişi fikirrəşir ki, indi ilan məni gözdüyür da. Bircə dənə oğlu varıymış. Oğlun çağırır, deyir: – Bala, mənim filan yerdə bircə dənə dostum var. Mən xəstəyəm, neçə gündü yatıram. İndi məni gözdüyür. Sən Allah, bir xırda ayran qayırsın anan, apar qoy ilanın yuvasının ağzına. O ayranı içib bir ləl salacax. Mən ölüb eləsəm həmişə elə elərsən. Ləli götürərsən ötüşərsiz. Der:

– Ata, yaxşı.

Bı oğlan ger ayran qəyirir, qoyur yuvanın ağzına. Baxır, görür ilan yavaçca gəldi, ayranı yaladı, ağzınnan bir ləl saldı, sora yavaçca zivildədi, girdi yuvasına. Bir gün belə eliyir, iki gün belə eliyir, üçüncü günü ilan gedəndə oğlan bının quyruğun vırıp salır yerə. Belə olanda ilan çönüb bı gədəni elə vırır ki, elə meydi qalır yerdə. Kişi ha gözdüyür oğlu gəlmədi, ha gözdüyür oğlu gəlmədi. Deyir, gedim, görüm ha bı gədə niyə gəlmədi. Tez ürəyinə gəlir ki, uşax getdi ilanı vırdı. İlan da bını vırdı, öldürdü. Gəlillər gədənin meydini gətirillər. Nə isə yas qutarır. Kişi genə gedir dostunun qarşısına. Gedir bir xırda ayran qayırır, qoyur bı yuvanın qarşısına. İlan gəlir. Başını yuvadan çıxardır, dil açır danışır. Deyir: – Qardaş, ta sənnən mənim dosduğum tutmaz. Nə sənnən oğul yarası getməz, nə də mənnən quyrux yarası getməz.

## Xıdırın nağılı

Biri var imiş, biri yox imiş, üç qardaş var imiş. Günnərin bir günü bınnarın ataları ölür. Bı qardaşlar belə qərara gəlillər ki, geb başqa vilayətdə işdəsinnər. Onnar bir qədər yol gedənnən sonra bir divə rast

gəlillər. Görüllər ki, div ot biçir. Div onnarı görüb çox sevinir. Soruşur ki, hara gedirsiz? Qardaşlar cavab verillər ki, özümüzə iş axtarırıx. Div der ki, bu gün mənə qonaxsınız. O bir kağıza yazır ki, ana, bınnarı öldürərsən, gəlib yeyərəm. Bı qardaşlardan birinin adı Xıdır olur. O qardaşlarınnan bilihli olur. Div yazdığı kağızı Xıdıra verir ki, bını da anama verərsiz, sizə hörmət elər. Yolda Xıdır kağızı oxuyur və cırıb atır. Yazır ki, nənə, qara qoçu öldürərsən, axşam gəlib yeyərəm.

Qardaşlar kağızı gətirib divin nənəsinə verillər. O da qara qoçu kəsib, bişirir. Axşam div gəlir, qoltuğunda da qara qoç üçün ot gətirir. Nənəsinə der:

– Ay nənə, gətir görək nə bişirmisən? Nənəsi der ki, sən yazmışdın qara qoçu kəs bişir, mən də bişirmişəm. Div tez məsələni başa düşür. Hirsinnən bilmir ki, neyləsin. Nənəsinnən soruşur ki, onnarı necə öldürüm? Nənəsi der:

– Üç bacın var. Hərəsini birinə ver. Yatanda gedib bir–bir başlarını kəsərsən.

Xıdır məsələni başa düşür. Qardaşlarını xəbərdar eliyir. Gecə yatanda qardaşlar yerlərini dəyişillər. Div gecə gəlib qardaşların əvəzinə öz bacılarının başını kəsir. Səhər Xıdırgil qaçır. Div gəlib görür ki, öz bacılarının başını kəsib. Hirsinnən bir nərə çəkir, düşür qardaşların dalınca.

Xıdırgil bir vilayətə çatıllar. Xıdır başqa məhləyə gedir, iki qardaş başqa məhləyə gedillər. Xıdırın iki qardaşı çox paxıl olur. İki qardaş bir az getdihdən sonra padşahın sarayına rast gəlillər. Padşahın yanına gedib deyillər:

– Padşah sağ olsun! O biri vilayətdə bir div var. Onun yaxşı qabları var.

Padşah soruşur ki, onnarı kim gətirə bilər. Padşah Xıdırı çağırıb deyir ki, gərək gedib qabları gətirəsən. Xıdır əlaşsız qalıb razı olur. Gecə gedib divin qablarını yığır, çıxanda qablar tökülür. Div oyanır, Xıdırı tutur. Xıdırı bir sandığa qoyur, gətirib nənəsinə verib, deyir:

– Nənə, mən qırx günnüyə səfərə gedirəm. Sən hər gün Xıdıra bir alma verərsən. Qırx günnən sonra kökələcəh. Onda aparıb təndirdə bişirərsən. Gəlib yeyəcəm.

Div gedənnən sonra nənəsi hər gün Xıdıra bir alma verir. Xıdır divin sözlərini eşitdiyi üçün almaları yemir. 39 gün keçənnən sonra Xıdırı sandıxdan çıxarır. Təndirin yanına gətirib deyir ki, Xıdır, bir dəfə təndirin başına tavlan. Xıdır onun hiyləsini başa düşür. Divin nənəsinə deyir ki, mən bacarmıram. Bir dəfə sən tavlan, mən də öyrənim. Divin nənəsi təndirin başına tavlananda Xıdır onu itəliyib təndirə salır. Qabları da götürüb qaçır. Div gəlib görür ki, Xıdır nənəsini də öldürüb qaçıb.

Xıdır qabları gətirib padşaha verir. Qardaşları padşaha deyir ki, sən Xıdırı göndər gedib divin özünü də gətirsin. Xıdır gedir dəmirçinin yanına, paltarı üçün zınqırov alır. Zınqırıovları paltarına taxıb gedir div-gilin damının bacasında durur. Zınqırovu silkəliyir. Div soruşur ki, sən kimsən? Xıdır cavab verir ki, Əzrayiləm. Div deyir ki, mənim canımı al. Xıdır bacadan düşüb divin qollarını zincirliyir. Qabağına qatıb gətirir padşahın sarayının qabağına bağlayır. Özü isə gedib gizlənir. Div başa düşür ki, bu, Xıdırın işidir. Hirsinnən dartıb zincirləri qırır, qabağına keçəni öldürür. Soruşur ki, Xıdır hardadı. Padşahın qızı Xıdırın gizləndiyi yeri göstərir. Divnən Xıdır savaşır. Axırda Xıdır divi öldürür. Padşah Xıdırı belə görüb qızını ona verir. Xıdır padşahın qızı ilə xoşbəxt yaşıyır.

## Qarının xoruzu

Biri var idi, biri yox idi, Allahdan başqa heç kəs yox idi. Bir qarı nənənin bir xoruzu var idi.

Bir gün qarı nənə evini süpürəndə bir şahı pul tapdı. Qoydu taxçıya, bir azdan sonra halva satanın səsin eşitdi, getdi bir şahını verdi, halva aldı, gətirib, qoydu taxçıya. Xoruz gəlib çoxunu yedi, bir azın da dimdiyində götürüb qaçdı. Qarı onu qovdu ki, tuta. Tuta bilmədihdə vurdu, qıçını sındırdı. Xoruz da dimdiyi ilə qarının gözünü çıxatdı.

Qarı xoruzu tutub apardı qazının yanına. Qazı əvvəl elə bildi ki, xoruzu ona pay gətiriblər, sonra başa düşdü ki, şikayətə gəliblər.

Qazı qarıya dedi – Nə dersən, qarı?

Qarı dedi: – Ev süpürürdüm, qazı.

Qazı dedi: – Təmizlik elirdin, qarı?

Qarı dedi: – Bir şahı pul tapdım, qazı.
Qazı dedi: – Neylədin pulu?
Qarı dedi: – Verdim halvıya.
Qazı dedi: – Könlün istəmiş, qarı?
Qarı dedi: – Qoydum taxçıya, qazı.
Qazı dedi: – Səbrin varmış, qarı.
Qarı dedi: – Xoruz gəlib onu yedi.
Qazı dedi: – Qismətiymiş, Qarı.
Qarı dedi: – Vırdım qıçın sındırdım, Qazı.
Qazı dedi: – Qələt elədin, Qarı.
Qarı dedi: – Xoruz gözümü çıxartdı.
Qazı dedi: – Əvəz–əvəz imiş qarı.

Qarı hay–küy saldı. Qazının nökərləri xoruzu qarıdan alıb buraxdılar. Qarı isə hay-küy edə-edə getdi. Bizim də nağıl burda bitdi.

## Bitlə birənin nağılı

Günnərin bir günü Birə ilə Bit evlənir. Toydan bir az keçmiş bərk qar yağır. Birə muğanı gütürüb çıxır dama. İstiyir ki, qarı kürəsin. Nərdivannan yıxılır, ölür. Bunu görən bit başına kül əliyib düşür ellərə. Ağlıya–ağlıya gəzir. Birdən qabağına bir qarğa çıxır. Qarğa soruşur: – Nə olub, ay Bit bacı?

Bit deyir: – E..ee.. Qarğa qardaş, Birə kimi iyit ölüp. Bit başına kül əliyip. Bını eşidən Qarğa başlıyır qanadını yolmağa. Bit düzəlir yoluna. Ağlıya–ağlıya ger. Bı dəfə qabağına bir buynuzlu Qoş çıxır. Qoş soruşur: – Nə olup, ay Bit bacı? Bit deyir: – E..ee.. Qoş qardaş, Birə kimi iyit ölüb. Bit başına kül əliyip. Qarğa qanadın yolup. Bını eşidən Qoş bıynızını daşa vırıb sındırır. Bit düzəlir yoluna. Ağlıya–ağlıya ger. Bı dəfə qabağına bir Söyüt ağacı çıxır. Söyüt soruşur: – Nə olup, ay Bit bacı? Bit deyir: – E..ee.. Söyüt qardaş, Birə kimi iyit ölüb. Bit başına kül əliyip. Qarğa qanadın yolup. Qoş bıynızın sındırıp. Bını eşidən Söyüt yarpaqlarını tökür. Bit düzəlir yoluna. Ağlıya–ağlıya ger. Bı dəfə

qabağına bir Bulax çıxır. Bulax soruşur: – Nə olup, ay Bit bacı? Bit deyir: – E..ee.. Bulax qardaş, Birə kimi iyit ölüb. Bit başına kül əliyip. Qarğa qanadın yolup. Söyüt yarpaqlarını töküp. Bunu eşidən Bulağın suyu quruyur. Bit düzəlir yoluna. Ağlıya–ağlıya ger. Indi də qabağına bir Qız çıxır. Qız da əlində sənəh sudan gəlirmiş. Qız soruşur: – Nə olup, ay Bit bacı. Belə yanıxlı ağlıyırsan? Bit deyir: – E..ee.. Ay Qız, Birə kimi iyit ölüp. Bit başına kül əliyip. Qarğa qanadın yolup. Qoş buynuzun sındırıp. Söyüt yarpaqların töküp. Bulax suyunu qurudup. Bını eşidən Qız sənəyi yerə tulluyur. Bit bir az da bərhdən ağlıya–ağlıya ger. Bı dəfə qabağına bir şələbığlı kişi çıxır. Kişi də ot biçirdi. Kişi soruşur: – Nə olub, ay Bit bacı? Bit deyir: – E..ee.. Ay Kişi, Birə kimi iyit ölüp. Bit başına kül əliyip. Qarğa qanadın yolup. Qoş buynuzun sındırıp. Söyüt yarpaqların töküp. Bulax suyunu qurudup. Qız sənəyi yerə tulluyup. Bını eşidən kişi bığlarını qırxır. Bit yenə də ağlıya–ağlıya gəlir bir təndirəsərə çıxır. Baxır ki, bir arvad çörəyh yapbağa hazırlaşır. Arvat soruşur: – Bıy, nə olub, ay Bit bacı. Bit lap hönkürür və deyir: – E..ee.. Ay Arvad, Birə kimi iyit ölüp. Bit başına kül əliyip. Qarğa qanadın yolup. Qoş buynuzun sındırıp. Söyüt yarpaqların töküp. Bulax suyunu qurudup. Qız sənəyi yerə tulluyup. Kişi bığlarını qırxıp. Bını eşidən Arvat döşlərini kəsip təndirə yapır... nağıl da bırda qurtarır.

## Şah Abbasın sənəti

Biri var idi, biri yox idi. Ağıllı bir şah var idi. Ona şah oğlu şah Abbas deyərdilər. Bir gün şah Abbas Allahverdi vəziri yanına çağırıb dedi:

– Vəzir, yadındamı səninlə xüsusi hərflərdən ibarət olan bir əlifba düzəltmişdik. O da yadındadır ki, bu hərfləri ikimizdən savayı heç kim oxuya bilmir. Sabahdan təğyiri–libas olub uzaq səfərə çıxıram. Çətinliyə düşsəm sənə həmən əlifbayla məktub yazacam. Mən qayıdana kimi ölkəni ədalətlə idarə edərsən. Şah Abbas sözünü tamama yetirib təğyiri–libas oldu. Az getdi, çox getdi, yeddi şəhər, yetmiş yeddi kənd keçdi,

gəlib bir qalaçaya girdi. Gördü ki, burada bir qoca kişiylə gözəl bir qız var. Şah Abbas kişidən rüsxənd alıb bir gecəliyə orda qonaq qaldı. Amma şah Abbas ürəyində kişinin qızına bərk vurulmuşdu. Səhər kişi onu yola salanda şah Abbas dedi:

– Ay kişi, mənim adım Abbasdır. Şaha bərabər varım–karım var. Sənin qızıvu görüb, ona vuruldum. Izn versən, onunla evlənərəm, sən də bir gün görərsən. Kişi dedi:

– Mən razıyam, ancaq qoy bir qızımı dindirim, görüm nə deyir. Sabah gələrsən həyini–yoxunu deyərəm.

Şah Abbas kişinin dediklərinən razılaşdı. Kişi gəlib hər şeyi qızına söylədi. Qız çox ağıllı idi. Odur ki, atasına dedi:

– Ata, öyrən gör o adam nə sənətin sahabıdı. Əgər bir sənəti olmasa, mən ona ərə getmərəm. Səhəri gün şah Abbas gəldi. Kişi qızının dediklərini ona çatdırdı. Şah Abbas dedi:

– Ay kişi, mən sənəti neynirəm. Ağzımda sənə deyirəm ki, şaha bərabər adamam, var–karım yeddi nəslim, köküm yesə qurtarmaz. Get qızını başa sal. Al bu bir kisə qızılı da, ver özünə cehiz–mehiz alsın. Kişi qızının yanına qayıtdı. Hər şeyi yenidən ona başa saldı. Ancaq qız yenə razılıq vermədi ki, o, bir sənət yiyəsi olmuyunca ona ərə getmiyəcək. Istiyir belə var–karı dünya boyda olsun. Şah Abbas şah olmağını gizlətdiyindən kişi ona Abbas kimi müraciət edirdi. Odur ki, qoca gəlib günahkar adamlar kimi onun qabağında dayandı:

– Abbas, oğul, qızım deyir o bir sənət sahibi olmasa, xeyri yoxdu, ona arvad olmaram. Bax qızılı da dala qaytardı. Mənim də sənə bir dünya görmüş adam kimi məsləhətim budur ki, gedib bir sənəti öyrənib gələsən. Onda qızımın bəhanəsi kəsilər. Şah Abbas kişinin məsləhətinə qulaq asıb yola düzəldi. Gəlib bir şəhərə çatdı ki, həmən şəhərə sənətkarlar şəhəri deyirdilər. Şah Abbas bu şəhərdə keçəçilik sənətini kamil bilən bir ustadan dərs almağa başladı. Bu sənəti öyrəndikdən sonra elə naxışlı keçələr toxudu ki, özü də heyran qaldı. Şah Abbas sevincək qızın atasının yanına qayıtdı. Qız ona bəzəkli bir keçə toxutdurduqdan sonra onun sənətini bəyəndi və ona ərə getməyə razılıq verdi. Şah Abbas bu qızla evləndi. Bir neçə ay bu şəhərdə qaldıqdan sonra yadına düşdü ki, ölkəni

Allahverdi vəzirin ümidinə qoyub gəldiyi vaxtdan xeyli zaman keçib. Odur ki, qıza dedi:

– Mənim bir səfərim var, gərək gedəm. Qızım olsa heç, oğlum olsa sənə verdiyim bazubəndi bağlarsan qoluna, gəlib məni tapar. Şah Abbas sözünü tamama yetirib yola düşdü. Gedib bir şəhərə çıxdı. Dəllək dükanının qabağından keçəndə yadına düşdü ki, gör neçə vaxtdır üzümü vurdurmamışam. Tez dəllək dükanına girib əyləşdi. Dəllək ayağı ilə yerdəki qara mıxı necə tərpəşdirdisə o, kəllə-mayallaq dükanın altındakı zirzəmiyə düşdü. Baxdı ki, paho, burda onun kimi on–on beş nəfər də var. Onlardan öyrəndi ki, bura salınanları bir-bir heyvan kimi kəsib ətini Qahirədə yaşayan bir tacirə baha qiymətə satırlar. Həmən tacirin xəstə qızı ancaq insan ətini yeməyin hesabına yaşayır. Şah Abbas olan-qalan qızıllarını kəndçi qızının yanında qoyub gəldiyindən cibində ancaq qəpik-quruş qalmışdı. Zirzəminin bir küncünə çəkilib çarə axtarmağa başladı. Öyrəndiyi keçəçilik sənəti yadına düşəndə bir az toxtadı. Quldurbaşı zirzəminin qapısını açıb içəri girəndə şah Abbas ona yan aldı.

– Mənim ətimdən yuxarı-başı min tümən qazanasan, ya qazanmayasan. Ancaq mənim əlimdən elə bir iş gəlir ki, sən hər həftə min tümən pul qazanarsan. Mən kamil keçəçiyəm, toxuduğum keçələrin sorağı Hindistandan belə gəlir. Quldurbaşı bir az fikirləşib onu zirzəminin altında olan bir otağa gətirdi. Qabağına xeyli yun töküb lazım olan ləvazimatları da hazırladı. Sonra üzünü ona tutub dedi:

– Göstər hünərini. Burdan qaçmağı ağlına belə gətirmə. Şah Abbas bir keçə toxudu ki, heyran qalan quldurbaşı dedi:

– Sən, doğurdan da, mahir toxucusan. Səni öldürməyəcəyik, ancaq ömrüvün axırınacan burda qalıb keçə toxuyacaqsan. Şah Abbas nayıllac qalıb razı oldu. Onun toxuduğu keçələr tacirlərin əllərində gəzdi. Bir gün o keçə toxuyan zaman Allahverdi vəzirlə aralarında olan hərflər yadına düşdü. Şah Abbas bundan sonra toxuduğu keçələrin hamısının üstündə Allahverdi xana həmən hərfnən məktub yazıb, hal–qəziyyəni təsvir etdi. Həmən hərflərdən heç kimin başı çıxmadığına görə onlar gözəl naxış kimi görünürdü.

Gün o gün oldu ki, həmən keçələrdən birini Allahverdi vəzirin qızı tacirdən alıb qapının ağzına açdı. Allahverdi vəzir evə girəndə keçə

diqqətini cəlb etdi. Diqqətlə baxanda gördü ki, ey dili–qafil, şah Abbas ona məktub yazıb. Allahverdi vəzir keçənin üstündə yazılanların hamısını oxuyub hər şeydən halı oldu. Səhərisi gün qoşun götürüb getdi. Həmən yerin altını üstünə çevirdi. Şah Abbası götürüb sağ–salamat geri qayıtdı. Şah Abbas libasını dəyişib taxtında əyləşdi. O, Allahverdi vəzirlə dərdləşməyində olsun, sənə kimdən deyim, kəndçi qızıynan oğlundan. Oğlan bir gün anasına dedi:

– Ay ana, deyirdin ki, böyüyəndə bazubəndi verəcəm gedib atanı taparsan. Indi böyümüşəm bazubəndi gətir ver mənə, gedim atamı soraqlayıb tapım. Arvad bazubəndi gətirib ona verdi:

– Oğul, sənə yaxşı yol. Ancaq yadından çıxartma ki, atavun adı Abbasdır. Oğlan anasıyla görüşüb öpüşdükdən sonra yola düzəldi. Yeddi şəhər gəzdi, yetmiş yeddi kənd keçdi. Axırda gəlib bir şəhərdə ayaq saxladı. Bir dükanın qabağında durub onun nurani sahibini doğma adam kimi seyr elədi. Qərib oğlanın hərəkəti dükan sahibinin diqqətindən yayınmadı. O, oğlanın yanına gəlib onun kimliyini, hardan gəlib hara getdiyini soruşdu. Oğlan deyəndə ki, Abbas adında bir kişi onun atasıdır, indi onu axtarmağa çıxıb dükan sahibini gülmək tutdu. Dedi:

– Ay oğul, bu ölkədə o qədər Abbas var ki, gəl dükana bir dərdləşək. Əgər razı olsan yanımda qalıb dükanımı işlətməkdə mənə kömək edərsən. Oğlan onun yanında qalmağa razı oldu. Oğlan başladı yavaş–yavaş dükanı işlətməyə. Bir gün carçılar car çəkdilər ki, dükan-bazar sahibləri dükanlarını açıq qoyub özləri evlərinə getsinlər. Allahverdi vəzirin qızı dükanları gəzəcək. Hamı ev–eşiyinə dağılışdı, bircə oğlandan savayım. Oğlan əvvəlki qaydayla dükanda malları çeşidləyirdi. Bu vaxt Allahverdi vəzirin qızı qırx incəbel qızla içəri girdi. Onlar oğlanı görən kimi heyrətləndilər ki, bu boyda şəhərdə Allahverdi vəzirin əmrinə bircə bu oğlan əməl etməyib. Allahverdi vəzirin qızı oğlanı görən kimi bir könüldən min könülə ona vuruldu, ancaq bunu qızlara bildirməmək üçün qəsdən oğlana acıqlandı.

– Atamın əmrinə əməl etmədiyinə görə ən ağır cəza alacaqsan. Şücaətini asılanda göstərərsən.

Allahverdi vəzirin qızı bu sözləri deyərkən göz–qaşıyla him–cim elədi. Oğlan qızın qəsdən acıqlı danışdığını başa düşüncə özündə

toxtaxqlıq tapdı. Allahverdi vəzirin qızı evə qayıdanda həmən bir kənkan tapdırdı. Qız kənkana iki kisə qızıl verib öz otağından həmin dükana qədər lağım atmağı tapşırdı. Kənkan bir günə öz işini görüb qurtardı. Allahverdi vəzirin qızı ona bir xeyli ənam da verib tapşırdı ki, bu barədə heç kimə danışmasın. Qız qaravaşını lağımla oğlanın dükanına göndərdi. Çox keçmədi ki, qaravaş oğlanı götürüb geri qayıtdı. Qaravaş Allahverdi vəzirin qızının hüzurundan azad olduqdan sonra yeyib içdilər, oturub dərdləşdilər. Bu minval ilə onlar üç gündən bir görüşürdülər. Bir gün şah Abbasla Allahverdi vəzir təğyiri–libas olub şəhəri gəzməyə çıxdılar. Oğlan onları öz dükanında dərviş kimi qarşıladı. Bu vaxt qaravaş lağımdan çıxıb oğlana dedi:

– Dükanı bağla, gedək, yarın səni qonaq çağırıb.

Oğlan özünü itirsə də, özünü o yerə qoymayıb dedi:

– Get xanıma de ki, qonağım var, bu gün gələ bilməyəcəyəm.

Qaravaşın aşağı əyilməsiynən gözdən itməyi bir oldu. Şah Abbasla Allahverdi vəziri fikir aparmışdı ki, bu nə olan işdir. Oğlan «dərvişlərə» bir tikə çörək vermək istəyirdi ki, qaravaş ikinci dəfə lağımdan çıxıb dedi:

– Xanım deyir ki, onun qonağı mənim də qonağımdır. Qonaqlarını da götürüb gəlsin, yaxşıca fisincan plov hazırlamışam. Oğlan çarəsiz qalıb dərvişləri də götürüb lağıma girdi. Qız öz otağında qonaqları qarşılarkən atasını və şah Abbası tanıyıb istədi ki, nə isə etsin, Allahverdi vəzir qızına işarə ilə qandırdı ki, artıq–əskik danışsa, boynunu vurdutduracağam. Yemək–içməkdən sonra oğlan dərvişləri də götürüb həmən lağımla dükana qayıtdı. Onlara rəhmi gəlib bir–iki şey də pay verib yola saldı. Şah Abbasla Allahverdi vəzir saraya qayıdan kimi libaslarını dəyişib məsləhətləşməyə başladılar. Şah Abbas dedi:

– Allahverdi vəzir, hiss eləyirəm ki, sən qızını öldürmək istəyirsən. Özünü ələ al. Qızında günah yoxdur, günah dükançı oğlandadı. Onu öldürməklə bu işi sil–batır eləmək olar. Qızıvın da adı dilə–dişə düşməz, sənin də adın ləkələnməz. Allahverdi vəzir şah Abbasın təklifini bəyəndi. Dükançı oğlunu tutub gətirdilər. Meydan sulandı, dar ağacı quruldu. Şah Abbas oğlana son söz verdi. Oğlan dedi:

– Şah sağ olsun, mən dükançının oğlu deyiləm. Mən bu şəhərdə qərib bir adamam. Atamı axtara–axtara gəlib bura çatmışam. Şah Abbas oğlanın danışıqlarından şübhələndi. Soruşdu ki, atavın adı nədir? Oğlan cibindən bazubəndi çıxardıb dedi:

– Bu bazubəndi o vaxtlar anama o verib və deyib ki, adı Abbasdır. Oğlan sözünü tamama yetirəndə az qaldı şah Abbasın ürəyi xarab ola. Ölüm hökmünü ləğv edib, camaata dağlışmağı əmr etdi. Sonra üzünü Allahverdi vəzirə tutub hal–qəziyyəni ona danışdı. Şah Abbas oğlunu bağrına basdı. Bir süvar göndərib onun anasını da saraya gətirdi. Allahverdi vəzirin qızını oğluna alıb, qırx gün, qırx gecə onlara toy elədi. Onlar yeyib–içib yerə keçdilər. Siz də yeyib içib dövrə keçin.

## Tülkü ilə hacıleyləyin nağılı

Bir vardı, biri yoxdu. Heç kimin işinə qarışmayan bir hacıleylək vardı. Bu hacıleylək yuva qurmuşdu. Tülkü hiss elədi ki, bunun balaları var. Gəldi, ağzına bir sümük götürdü, taqqıldatdı ağaca. Hacıleylək soruşanda ki, ə, neynirsən-neynirsən, tülkü dedi, ağacı kəsirəm. Ağac mənim dəyir, kəsəciyəm.

Ədə, necə kəsirsən, mənin burda balalarım var. Tülkü dedi, acam, ağacı satıb puluna özümə yemək alacağam. Əyər sən balalarından birini aşağı atsan, mən də ağaca dəymərəm.

Hacıleylək çarəsiz bir balasını atdı aşağı. Tülkü yedi, qoydu getdi. Sabahısı genə gəldi ağacı taqqıldatmağa. Hacıleylək soruşanda ki, bə yenə neynirsən? Yenə dedi ki, ağacı kəsirəm. Ehtiyac içindəyəm. Pul qazanıb yemək almalıyam. O tərəfdən qarğa bunu güdürdü. Gəldi hacıleyləyin yanına.

- Ay hacıleylək bacı, sənin başın hardadı, bu tülkü sümüynən ağac kəsə bilər? O səni alladır, sənin balalarıvı bir-bir yeyir. Bu dəfə gəlsə denə heç nə vermirəm.

Aha, tülkü də başa düşdü ki, qarğa buna söz öyrədir. Tülkü getdi o tərəfdə özünü vurdu ölülüyə. Qarğa gördü ki, tülkü ölüb. Gəldi ki, onun

ətini dimdihləsin. Harasını yesin, haradan başlasın deyə-deyə, fikirləşdi ki, siftə bunun gözünü çıxarım. Birdən ölməmiş olar, qoy gözü görməsin. Qarğa elə istiyərdi ki, tülkünün gözünə dimdik atsın, tülkü qarğanı tutdu. Ədə, qarğa nağayrırsan? Dedi, səni elə əzabınan öldürəcəyəm ki, hər yerdə deyilsin. Qarğa dedi, amandı, məni nə cür öldürürsən öldür, amma suya atma, mən sudan qorxuram. Həə, lap yaxşı, elə indicə mən səni suya atacam. Necə ki, sudan qorxursan, qoy ürəyin partdasın. Bu qarğa yaman ağıllı qarğaydı. Tülkü də bunun belə ağıllı olmasını bilmirdi. Tülkü çıxdı bir hündür dağın başına, qarğanı suya atmaq istəyəndə, qarğa çıxdı, qoydu getdi. Tülkünün əli qaldı boşda. Başına-gözünə döydü. Ta hara yetər...

Bu nağıl da burda bitti.

## Adil padşahın nağılı

Biri vardı, biri yoxdu, yer varıdı, göy yoxdu, amma yerin üsdündə bir padşah vardı... Onun ədli, insafı bütün vilayətə yayılmışdı. Deyillər ki, bu padşah nəfəs alanda dağ-daş, otdar sevinərdi ki, bizim ətrimizi, havamızı udur, məfəs verəndə gül, ətir qoxsu gələrdi.

Onun məmləkətində ac-yalavaş yoxudu. Torpax arzusunda olana torpax, mal-mülk istəyənə mal-mülk verərdi. O qədər səxavətliydi ki, Allah-tala da onnan varın qısmazdı. Xəzinəsi ha dolub daşardı. Amma ki, bu paşahın züriyyəti yoxuydu. Elə fikir eləyirdi ayə mənnən sora bu məmləkəti kim yolluyub yola verəcəh. Padşah çox fikirrəşdi, az fikirrəşdi, böyüh vəziri yanına çağırıb dedi:

Vəzir, sən bilisən mənim səltənətimdə bir ocax yandıranım, bir tüstü çıxardanım yoxdu. Mən istiyirəm taxtı–tacımı elə bir adama verim ki, mənnən sora rəyyətim yenə halallıxdan sapıxmasın, bu vilayət dağılıb getməsin.

Vəzir bir az fikirrəşdi dedi ki, paşşah sağ olsun nə tər desən həylə də bir yön qılarıx, inşallah hər şey sənin ürəyincə olar. Paşah taxtınnan "Ya Allah" deyib qalxdı. Vəzirinə əmr etdi ki, bu ölkədə nə qədər halal

adam var, caar gətdir, sarayıma yığ, deynən padşahın fərmayışıdır. Qoy onnar gəlsin, mənim onnara tapşırığım var.

Vəzir padşahın dediyi kimi də elədi. Vilayətin hər yanına adam saldırdı el-obada kimi halal bildilər padşahın sarayına göndərdilər.

Elə ki, sabah açıldı, üzuza xeyirri sabahlar açılsın şahın sarayına xeyli halal adamnar cəmləşdi. Padşaha xəbər apardılar ki, qibleyi-aləm sağ olsun fərmayışınıza kimininsə malı-mülkündə gözü qalmıyan, halal əkib - halal biçənnər saraya təşrif gətiriblər.

Şah xeyli sevindi onu gözdüyənnərin yanına gəldi. Ağsaqqal qara-saqqal nə xərtəm halal adam vardı, hamısına bir-bir nəzər elədi. Əmma nədənsə padşahın gözdəri donux, bət-bənizi soluxmuş görükürdü. O bütün səfin qabağından keçib taxtına əyləşdi. Əlini-əlinə vurup əmr etdi:

– Vəzir, söylə mənim amanatdarımı gətirsinnər. Vəzir baş, əyib, dalı-dalı qapıdan çıxdı. Bir az keşdi nökər-nayib əllərində gül dipçəyi saraya varid oldular. Padşah yerinnən qalxdı hər halal adama bir dibçəh bir də bir tum verdi. Sora da əmr etdi ki, 40 günnən sora hər kəs becərdiyi güllə burda əmrə müntəzir olsunnar. Hər kimin gülü lap şux olsa, lap ətirri olsa bilsin ki, bu varıdat, bu taxtac ona çatacax. Baş əyib bir-bir mürəxxəs oldular.

Günnər keşdi, vədə tamam oldu əmma padşahın gözdərində bir intizar, üzündə bir təlaş vardı. Elə bil bu Adil paşşah ayağ üstə bir müqəvvəydi. Heş dinib danışmırdı.

Elə ki, sabah açıldı, üzuza bir də xeyirri sabahlar açılsın, halallar cəm oldu saray doldu ətiriynən. Padşaha xəbər getdi ki, bə adamlar gəlib, saray hələ belə behiş ətri görmüyüb. Şahın qaş – qabağı açılmırdı. Eşdə də bir göy guruldayıp bir yağış yağırdı ki, tut ucunnan çıx göyə.

Padşah asta-asta bu halaladamların yanına gəldi. Hərə öz dipçəyindəki gülü padşahın qabağına qoyub. Təzim edib dipçəyinin yanında durur. Əmma bu adamnarın içində bir yetim cuvanəzən vardı ki, bət-bənizi ağappax idi. O, nə qədər əlləşmişdi toxum göyərməmişdi. Heş bura gəlməx də istəməmişdi. Padşahın onu öldürəcəyinnən qorxurdu. Ancax anası demişdi ki, bala get gör təzə padşah kim olacax, barı səni orda görsün, bizdə kasıblığın daşın atax.

Padşah asta-asta gəlib bu cuvanəzənin qabağında durub təəccüblə ona baxdı, hökmlə dedi:

– Sən niyə mənim fərmayışimi pozmusan. Hanı səən gülün?

Oğlan, bu yetim ağappax oldu, qorxudan dili-ağzı təpidi. Hannan hana bir tər gücünü yığıb dedi:

– Ey Adil padşah, Allah da şahıddır ki, mən naxələflih eləməmişəm. Əmma ha ona su verdim, ha günə görsətdim, ha istiyə qoyub, sərinə daşıdım heş nə bitmədi ki, bitmədi. Bilirəm padşahın fərmayışınnan çıxanın başı kəndirdə olur. Ey adil padşahı, sənnən bir ricam var. Məni öldürəsən, bilirəm. Əmma bir qoca anam var. Onun kimi-kimsənəsi yoxdu. Ona bir az puldan-paradan ver ki, məndə ərxəyin gedim o dünyaya.

Padşah səssiz-səmirsiz qəyıdıb taxtına çıxdı. O yetim cuvanəzəni yanına çağırdı. Hamı qorxu içində uşağa baxırdı. Padşah gülümsünüp yerindən qalxdı, bu cuvanəzənin öz yerində taxdında əyləşdirdi, başınnan tacını götürüp dedi:

Ey mənim rəyyətim. Bilin və ağah olun. Şükürər olsun məni yaradana ki, Allah məni namud qoymadı. Məmləkətimin halal adamı elə bu oğlandı. Mən bütün tumları bişirip vermişdim bu adamnara. Bilirdim ki, heç nə göyərmiyəcəh. Onnar halal olsalar da var – dövlət, mal – mülk, tax – tac hamısın yoldan çıxatdı. Bircə bu yetim uşax haxdan dönmədi. Odu ki, mən də sizi bu halal adama amanat etdim.

Hamı çox şad oldu. Yağış kəsdi, gün çıxdı. Göydən üç alma düşdü. Biri mənim, bir nağıl dənin, biri də özümün...

## Hazarandastan bülbülü

Biri var idi, biri yox idi, bir padşah var idi. Bu padşahın bir bağı var idi ki, ruzigarın gözü belə bir bağ görməmişdi. Gül–gülü çağırır, içindən göz yaşı kimi çeşmələr axırdı. Bağın içində padşah dünyanın hər tərəfindən cürbəcür ağaclar gətirdib, əkdirmişdi. Qərəz, nə deyim bağda can dərmanı desən vardı. Bu bağın şöhrəti bütün ətraf-əknafa yayılmışdı. Dünyanın hər tərəfindən dəstə-dəstə adamlar tamaşasına gəlirdi.

Bir gün yenə ayrı şəhərdən üç nəfər bu bağı görməyə gəlmişdi. Padşahnan bağı gəzdilər, dolandılar. Bağın qapısından eşiyə çıxanda, qonaqlardan biri bir ah çəkib dedi:

– Çox gözəl bağdı, amma heyif ki, Hazarandastan gülüynən Hazarandastan bülbülü bu bağda yoxdu.

İkinci qonaq bir ah çəkib dedi:

– Çox gözəl bağdı, heyif ki, Bili–Bilqeyis xanım burda deyil.

Üçüncü qonaq da eləcə bir ah çəkib dedi:

– Çox gözəl bağdı, amma heyif ki, Süleymani–Ərəbat bu bağın içində deyil.

Qonaqlar getdilər, padşah düşdü fikrə, vəzir vərəvurd eləyib gördü ki, padşah çox fikirdədi, dedi:

– Padşah sağ olsun, nə oldu fikrə getdin?

şah dedi:

– Vəzir, qonaqların sözü məni fikrə saldı. Hər nə təhər olsa gərək Hazarandastan bülbülü, Bili-Bilqeyis xanım, bir də Süleymani-Ərəbat bu bağa gətirilə.

Vəzir dedi:

– Padşah sağ olsun, burda nə var ki, səni fikrə salır? Şükür olsun üç oğlun var. Çağır, əmr elə, gedib gətirsinlər. Bəs onlar nə vaxt sənə lazım olacaqlar?

Padşah görür ki, vəzir doğru deyir. Onun doğrudan da üç oğlu vardı. Əmr elədi çağırdılar. Elə ki, oğlanların üçü də gəldi padşahın bərabərinə, padşah dedi:

– Oğlanlarım, mənim bağım misli görünməmiş bir bağdı. Amma dörd dənə əsgiyi var, onlar da: Hazarandastan bülbülü, Hazarandastan gülü, Bili– Bilqeyis xanım, bir də ki, Süleymani–Ərəbatdı. Bilmirəm, göy göbəyini yerə dayasa da, gərək onları tapıb gətirəsiniz.

Oğlanlar atalarının əlindən öpüb atlarını minib yola düşdülər. Günə bir mənzil, təyyi-mənazil, yetişdilər üç yolun ayrıcına. Atlardan düşüb bir az rahatlanandan sonra oradakı böyük bir daşın altına bir üzük qoydular ki, hansı tez gələrsə o birilərinin dalınca getsin, atlarını minib, vəli-vəsilərini eləyib, öpüşüb ayrıldılar.

O biri qardaşları getməkdə olsunlar, sizə kimdən deyim, kiçik qardaşdan.

Bu kiçik qardaş bir neçə gün yol gedəndən sonra gəlib bir şəhərə yetişdi. Bir evin qabağında atdan düşüb gördü ki, bir qoca kişi dayanıb qapıda, dedi:

– Qoca, qəribəm, yol adamıyam, bu gecəni məni qonaq saxlayarsanmı?

Qoca:

– Niyə saxlamıram, bala?! Qonaq Allah qonağıdı.

Ev yiyəsi qoca, gün keçirmiş, dünyanın isti-soyuğun görüb, acı-şirinin dadmış bir adamdı. Gecə söhbət vaxtı oğlanın Süleymani-Ərəbatdan ötrü bura gəldiyini bilib dedi:

– Bala, sən gəl bu sevdadan əl çək! Çox igidlər, çox pəhləvanlar bunun üçün gedib, bir də dala qayıtmayıblar. Hələ sənin dimdiyinin sarısı heç getməyib, ağızından hələ süd qoxusu gəlir.

Oğlan dedi:

– Yox, dədəmə söz vermişəm, gərək eləyəm. Onda qoca dedi:

– Oğlan, indi ki, belə oldu qoy sənə deyim. O at hər gün bir çeşmə var, gəlib o çeşmədən su içir. Onu ancaq orda tutmaq olar. Ancaq o çeşmənin yanına getmək üçün gərək yeddi dənə odlu dərədən keçəsən.

Oğlan hər şeyi ondan öyrənib səhər atı mindi. Yola düşəndə qoca dedi:

– Çeşmənin başında bir ağac var. Çıxıb həmin ağacda gizlənərsən. Sübhi–sadıx zamanı bir dəstə at gələcək, cəhd eyləyib kəməndi qabaqdakı atın boynuna sal, özün də tez denən «at, Süleyman peyğəmbər eşqinə dayan!». Əgər elə deməsən, at səni də ağacı da yerindən oynadıb həlak edər. Elə ki, mindin ata, dala baxmadan dörddəmiyə çap! Daldan çoxlu səslər gələcək ki, «ay tutun, ay vurun»! nəbadə dönüb dala baxasan, baxsan daş olarsan.

Oğlan atı sürdü, az getdi, çox getdi, bir də gördü ki, uzaqdan işıq gəlir. Yaxınlaşdıqca işıq yekəldi, elə oldu ki, elə bil uzaqda məşəl yanır. Bir az getdikdən sonra baxdı ki, qabaqdakı işıq qocanın dediyi odlu dərədi. Dərənin istisi oğlanı təngişdirməyə başladı. Ancaq buna fikir

verməyib yoluna davam elədi. Getdi yetişdi odlu dərənin başına. Dərə nə dərə, elə bil Allah cəhənnəmi bura köçürdüb.

Oğlan baxmayıb özün vurdu odun içinə. Dərədən çıxanda göy guruldadı, şümşürük oynadı, bir gurultu qopdu ki, həmlə arvad olsa, qorxudan uşaq salardı. Oğlan qocanın dediyinə əməl eləyib, heç bir tərəfə baxmayıb, özünü ikinci dərəyə vurdu. Belə-belə dərələrin yeddisini də keçib çıxdı bir düzəngaha. Bir qədər atı sürəndən sonra gəlib bir çəmənzara çıxdı. Çəmənin ortasında uca bir ağac var idi. Ağacın altında bir çeşmə çıxıb, abi-zəmzəm suyu kimi axırdı. Oğlan baxdı ki, elə qocanın dediyi yerdi ki, var. Atdan düşdü, əyləşib çəmənin başında bir az toqqasının altını bərkidəndən sonra, çıxıb ağacda oturub gözləməyə başladı.

Səhərə yaxın bir də gördü ki, budur yer titrədi, göy şaqqıldadı, şümşürük oynadı, təpənin dalından bir dəstə at çıxdı. Atlar üz qoydular çeşməyə tərəf getməyə. Oğlan yerin möhkəmləndirib kəməndi hazırladı. Atlar gəlib çeşməyə çatdılar. Oğlan baxdı qabaqdakı ata, gördü doğrudan da at bir atdı ki, Qırat onun yanında bir pula dəyməz.

Oğlan kəməndi atdı atın boynuna. At iki əlləri üstündə qalxdı göyə, oğlanı çəkdi, oğlan düz düşdü onun belinə. At bir də qalxdı ki, onu vursun yerə, oğlan dedi:

– Ay at, Süleyman eşqinə dayan!..

At həzrət Süleymanın adını eşitcək dayandı. Oğlan onu dəhnə çilov vurub, başın döndərdi. Daldan nə qədər qışqırtı, bağırtı gəldisə, oğlan dönüb baxmadı, birbaşa atı sürdü. Beş günə gəldiyini iki saatda keçib qocanın olduğu şəhərə çatdı. Oradan keçib birbaş yola düzəldi. Gəldi haman üç yolun ayrıcına yetişdi. Daşın altına baxıb gördü ki, üzük ordadı. Bildi ki, hələ qardaşları qayıtmayıblar. Odu ki, üz qoydu ortancıla qardaşının getdiyi yola. Günə bir mənzil gəlib çatdı bir şəhərə. Şəhərin qırağında düşüb atın tükündən bir az çəkdi, özü girdi şəhərə, baxdı ki, möhkəm acıb, dedi: Gedib bir az yemək yeyim. Bu fikirnən gəlib bir aşbaz tükanına girdi. Əyləşib xörək istədi. Aşpaz şəyirdi xorək gətirəndə oğlan gördü ki, öz qardaşıdı, soruşdu:

– Bəs qardaş, bu nə hal?

Qardaşı dedi: – Qardaş işim tutmadı, heç bir şey tapa bilmədim. Axırda aşpazxana sahibinə yataqxana pulu verə bilmədiyimə görə, indi

məni burda şəyird eləyib işlədir. Oğlan onun borcunu verib aşpazdan aldı, şəhərdən də ona bir at aldı, sonra da lazım olan başqa şeylər alıb şəhərin qırağına gəldilər. Oğlan cibindən Süleymani-Ərəbatın tükünü çıxarıb tutuzdurdu. Süleymani-Ərəbat badi-sərsər kimi gəldi. Hər iki qardaş mindi, sürüb birbaş çatdılar üç yolun ayrıcına. Daşın altına baxıb gördülər ki, üzük ordadı. Kiçik qardaş ortancıla dedi:

– Qardaş, sən qal burda, mən gedim böyük qardaşımızın dalınca.

Ortancıl qardaş orda qaldı, bizim bu kiçik mazarat üçüncü yola düzəldi. Az getdi, çox getdi, gəlib bir şəhərə çatdı. Baxdı ki, böyük bir qəsr var. Bu qəsrin balaxanasında bir qız oturub, bir qız oturub ki, gözəlliyi göylərdən bac istəyir. Amma qəsrin qabağında bir dəstə fəhlə palçıq ayaxlayır. Oğlan yanaşdı fəhlələrə ki, soruşsun görsün, bu balaxanadakı qız kimdi. Bir də nə gördü?! Böyük qardaşı fəhlə paltarında qıçlarını da çirmələyib, burada palçıq ayaxlayır. Bunu görəndə oğlanın az qaldı ki, ruhu bədənindən uçsun, dedi:

– Qardaş, bu nə haldı?

Qardaşı dedi:

– Qardaş, bu qızı ki görürsən, bu Bili–Bilqeyis xanımdı. Hazarandastan gülü ilə, Hazarandastan bülbülü də ondadır. Bu palçıq ayaxlayanlar da ki, hərəsi bir padşahın oğludu. Gəliblər ki, onu alsınlar. O da hər gələnnən güləşib yıxıb, hər yıxılana beləcə ömrünün axırınacan burada palçıq ayaqlatdırır.

Oğlan dedi:

– Qorxma, qardaş, bu saat onun saçlarını əlimə dolayaram.

Başını yuxarıya qaldırıb dedi:

– Qız, düş aşağı!

Qız dedi:

– Nə istəyirsən?

Oğlan dedi:

– Sənnən güləşmək istəyirəm.

Qız gülüb dedi:

– Bir baxginən bu palçıq ayaxlayanlara. Bunlar hərəsi bir pəhləvandı. İndi burda palçıq ayaxlayırlar. Mənim sənə yazığım gəlir. Sən yaxşı bir oğlansan, özünü bədbəxt eləmə, çıx get!

Oğlan dedi:

– Uzun danışmağın yeri yoxdu. Bunları da görürəm, səni də, düş gəl yerə!

Qız dedi:

– Get oğlan, sənin ağzından hələ süd qoxusu gəlir. Anan yazıqdı, sənin hələ bələnməli vaxtındı, get özünü bədnam eləmə!

Oğlan dedi:

– Sənin cənginə indiyə kimi görünür ki, pəhləvan düşməyib, indi məndən gözün qorxduğuna görə aşağı düşə bilmirsən.

Qız hirsləndi:

– Oğlan, mən sənə qıymırdım, sənə yazığım gəlirdi. İndi ki, sən belə danışdın, çox yaxşı, gəl güləşək. Ancaq bir şərtnən. Sən məni yıxa bilsən, ixtiyar sənindi, nə istəsən elə, mən səni yıxdım başını kəsəcəyəm.

Oğlan dedi:

– Mən razıyam, şərtin gözüm üstə.

Meydan sulandı, süpürüldü, küştü başlandı. Üç gün, üç gecə güləşdilər. Oğlan axır canın dişinə yığıb bir tilişdirmə vurub qızın arxasın qoydu yerə.

Qız dedi:

– İxtiyar sənindi, öldürə bilərsən.

Oğlan əlini onun kürəyinə vurdu. Qız dedi:

– Bu gündən mən sənin qulunam.

Oğlan palçıq ayaxlayanların hamısını azad elədi. Hazarandastan bülbülünü, Hazarandastan gülünü, Bili-Bilqeyis xanımı, bir də ki, qardaşını götürüb yola düşdü. Günə bir mənzil gəlib çatdılar üç yolun ayrıcına, gördülər ortancıl qardaş orda bunların yolunu gözləyir. Çadırlar quruldu, qazanlar asıldı, yedilər, içdilər, hərə öz çadırına yatmağa getdi. Gecə nə ortancıl qardaşın, nə də böyük qardaşın gözünə yuxu getmədi. Onlar bilmirdilər ki, atalarının yanına nə üzlə çıxacaqlar. Gecənin bir vaxtı böyük qardaş durub getdi ortancıl qardaşın yanına. Bir az götür-qoy eləyəndən sonra bu qərara gəldilər ki, qardaşlarının əl-ayağını bağlayıb salsınlar quyuya. Onun gətirdiyi bütün bu şeyləri aparıb öz adlarından versinlər padşaha.

Oğlan şirin yuxuda yatmışdı. Deyərlər ki, səhərin yuxusu ölümdən betərdi. Qardaşlar onun ayağını kəndirnən bərk sarıyıb gətirib Yusif kimi bir quyuya salırlar. Səhər tezdən bütün qəflə-qatırı yükləyib hazırladılar. Bili-Bilqeyis xanım soruşdu:

– Bəs oğlan hanı?

Qardaşlar dedilər ki, o gecəynən atama muştulux aparıb.

Hər şeyi hazırladılar, amma nə qədər elədilərsə, Süleymani–Ərəbat onlara baş vermədi ki, vermədi. Axırda gördülər ki, tuta bilməyəcəklər, onu çar–naçar buraxıb atların içindən bir yaxşı at seçdilər. Süleymani Ərəbatsız yola düşdülər. Gəlib yetişdilər atalarının hüzuruna. Ataları şeyləri görüb çox sevindi. Kiçik oğlunu soruşdu, dedilər:

– O, heç bir şey gətirə bilməmişdi, ona görə də üzüqara olduğundan sənin yanına gələ bilmədi.

Əlqərəz, padşahı aldatdılar. O da bunların dediklərinə inandı. Bili–Bilqeyis xanım üçün məxsusi bir otaq ayırdılar, yaşamağa başladılar.

Onlar öz yaşamaqlarında olsunlar, sənə kimdən xəbər verim, kiçik oğlandan.

Bir vaxt səhərin yeli onun burnuna dəyəndə, ayılıb gördü ki, bir quyunun içindədi, qardaşlarının xəyanətini başa düşdü, dedi:

– Hey gidi dünya, mən onlara nə elədim, onlar mənə nə elədilər…

Ancaq gec idi. Əlləşdi ki, bir təhər quyudan çıxsın, ancaq quyu çox dərinidi, heç bir dənə də ayaq yerisi yoxudu. Odu ki, çıxa bilmədi.

Yadınızdadırmı Süleymani-Ərəbat onlara baş verməyib burda qalmışdı, öz sahibini axtarırdı. Qoxuluya-qoxuluya gəlib quyunun başına çatdı. Gördü ki, oğlan quyudadı. Gedib yaxındakı ağaclardan bir az meyvədən, zaddan yığıb gətirib quyuya saldı. At həmişə belə eləyirdi, gecələr də quyunun başında yatırdı.

Bir gün bir karvan gəlib burda düşdü. Baxdılar ki, quyunun başında yaxşı bir at var. İstədilər onu tutsunlar. Nə qədər elədilərsə, at baş verməyib elə quyunun ətrafında dolanırdı. Axırda dedilər ki, qoy görək bu quyuda nə sirr var ki, bu at burdan o yana getmir. Quyuya səsləndilər. Oğlan ordan səs verdi. Qərəz, oğlanı quyudan çıxartdılar, əhval–pursanlıq elədilər, o da açıb bütün başına gələnləri danışdı, sonra onlara razılıq eləyib, Süleymani-Ərəbatın üstünə süvar oldu, üz qoydu öz şəhərlərinə.

Gəlib şəhərin qırağında atdan düşdü, tükündən bir az çəkib cibinə qoydu, cilovun boynuna dolayıb, ötürdü. Gedib bir aşbaza şəyird oldu.

Bu burada işləməyində olsun. Bir gün padşah adam göndərirdi, Bili–Bilqeyis xanıma ki, hazırlaşsın, onu alır böyük oğluna. Bili–Bilqeyis xanım padşahla heç görüşməmişdi. Hazarandastan bülbülüynən gülü də vermirdi. Çəkilib öz otağında qara geyinib yasa batmışdı. Padşahın sifarişinə cavab göndərdi ki, mənim nişanlım hələ gəlməyib, kim məni almaq istəyirsə, gərək məni yıxa, sonra ala.

Padşah oğluna əmr elədi ki, onu yıxsın.

Oğlan onun gücünü bilirdi, yaxşı bilirdi ki, onu yıxmaq bunun çörəyi deyil. Odu ki, özün vurdu naxoşluğa. Oğlanın bu naxoşluğu çox uzun çəkdi. Padşah vəzirdən soruşdu:

– Vəzir, bu məsələdən ağlın nə kəsir?

Vəzir dedi:

– Şah sağ olsun, sənin oğlun məhəbbətin gücündən naxoşlayıb, toy olmayınca o, sağalmayacaq.

Padşah əmr elədi, toy tədarükü başlandı. Bili–Bilqeyis xanım gördü ki, işi zorla başladılar, öz ürəyində dedi:

– Yaxşı, mən də özüm bilərəm nə edərəm.

Bəli, toy quruldu, carçılar car çəkdi, qonaqlar çağırıldı, gəldi toyun axırıncı günü ki, gəlin gedəcəkdi, atlılar atlandı, at çapmağa başladılar. Padşah da öz əyan-əşrafıynan oturub tamaşa eləyirdi. Bili–Bilqeyis xanım da pəncərədən baxırdı.

Aşpaz bizim oğlanı dükanda qoyub at çapmağa getmişdi. Elə ki, o getdi, oğlan durub ayağa, atın tükünü çıxardıb tutuzdurdu. At hazır oldu, ayaq üzəngiyə, diz qabırğaya, yatdı atın boynuna, badi-sərsər kimi özünü vurdu çapışanların arasına. Padşah bir də gördü ki, budu bir oğlan gəlir, bir at minib, bir at minib ki, daha nə deyim. At yernən, göynən əlləşir. Oğlan bir o yana çapdı, bir bu yana çapdı, bir məhmizdə bütün çapışanları keçdi… üçüncü dəfədə padşahın böyük oğlunun boynunu vurdu, qaçdı.

Padşah nərə çəkdi ki:

– Amandı tutun, kim tutsa, varımın yarısını ona verəcəyəm.

Atlar düşdülər oğlanın dalına, oğlan gördü budu bütün pəhləvanlar gəlir. Hərçənd ki, o onların heç birindən qorxmurdu, amma bildi ki, dayanıb dava eləsə onu tanıyacaqlar, odu ki, üzün ata tutub dedi:

– Süleyman eşqinə, at, məni götür!

Elə söz ağzından qurtarmamışdı ki, at iki əlləri üstündə qalxdı göyə, ucadan bir kişnədi, elə götürüldü ki, elə bil ox yayından çıxıb, bir göz qırpımında gözdən itdi. Toy yasa döndü, hər şey qara boyandı. Bütün şəhər qırx gün yas saxladı. Amma Bili-Bilqeyis oğlanı tanımışdı. İndi daha lap arxayınlamışdı ki, oğlan sağdı, özü də burdadı.

Bu işdən düz bir il keçdi. Elə həmişə aşpaz heyifsilənib deyərdi:

– Köpəkoğlu conənbər görmüş, hardansa gəlib toyu yas elədi. Amma oğlan da əntiqə oğlanıdı ha… adamın heç dilindən gəlmir ki, ona qarğış eləsin.

Oğlan da həmişə cavabında deyərdi:

– Vay köpəkoğlu, amma heyif ki, mən getməmişdim görəm.

Atalar yaxşı deyiblər ki, « ölən elə ölən yerdə qalar». Odu ki, indi də bir neçə vaxt qara-mara bağlayandan sonra böyük oğlan yavaş–yavaş yaddan çıxdı.

Padşah Bili–Bilqeyis xanıma sifariş göndərir ki, əl-ayağını sazlasın, onun kəbinin kəsdirib ortancıl oğluna.

Bəli, yenə tədarük görüldü, qazanlar asıldı, düyülər salındı suya. Toy başlandı. Ancaq Bili-Bilqeyis xanım bu dəfə arxayındı. O yəqin eləmişdi ki, oğlan buradadı.

Bəli, at çapılan gün yenə oğlan, əvvəl dediyimiz kimi, aşpaz gedəndən sonra dükanı bağlayıb şəhərin qırağına çıxdı, atın tükünü tutuzdurdu. At hazır oldu, qıçın aşırdı atın belinə, özünü vurdu çapanların içinə. camaat hən-hün eyləyib onu tutunca, o, ortancıl oğlanın da boynunu vurub, atı sürdü düz padşahın qabağına. Atdan düşüb dayandı şahın bərabərində. Padşah gördü öz oğludu. Qolun onun boynuna salıb dedi:

– Oğul, bu nə işdi gördün?

Oğlan dedi:

– Ata, yoldaşına xəyanət eləyənin cəzası belə olmalıdı, əgərçi qardaş da olsa.

Padşah təəccübdən dedi:

– Necə? Bu nə sözdü?

Oğlan bütün əhvalatı bizim bildiyimiz kimi danışdı. Hamı onu haqlı gördü. Yas təzdən toya döndü. Qırx gün, qırx gecə toy eləyib, Bili–Bilqeyis xanımı kiçik oğlana aldılar. Bağın düz ortasında bir qəsr tikdirib onları ora köçürdülər. Hazarandastan gülü bir tərəfdə, Hazarandastan bülbülü bir tərəfdə, Bili-Bilqeyis xanımnan oğlan da onların ortasında… bəh-bəh, keçmə bu bağın ləzzətindən.

Onlar yedilər, içdilər, yerə keçdilər. Siz də yeyin, için, mətləbinizə yetişin! Göydən üç alma düşdü, biri mənim, biri nağıl deyənin, biri də özümün, siz sağ, mən salamat.

## Hambal Əhməd

Biri vardı, biri yoxdu. Çox böyük şəhərin birində bir dövlətli tacir vardı. Bu tacir səhər çörəyini yeyəndən sonra həmişə bazara gedərdi ki, görsün təzə nə cür mallar satırlar, alış-veriş necə gedir. Həmişə bazarda nə cür yaxşı mal satılsaydı, hamısı bu tacirin evində tapılardı. Bir gün yenə tacir bazardan çoxlu mal almışdı. Bu malın hamısını bir sandığa yığıb, getdi bir hambal axtarsın ki, gəlib bu şeyləri arabaya yığsın, küçə qapısından da evə daşısın.

Bir az gəzəndən sonra gördü ki, kənarda bir hambal oturub. Bu hambalın adı Əhməd idi. Tacir əl eyləyib onu çağırdı:

– Ay hambal, gəl bu şeyləri arabaya yığ, apar evə, orda da arabadan götürüb qoyarsan evə.

Hambal Əhməd gəldi. Bir ora baxdı, bir bura baxdı, bir də şeylərə baxdı dedi:

– Qoy bu şeyləri mənim dalıma.

Tacir dedi:

– Ay hambal, bunu araba gücnən çəkib aparır, sən nə danışırsan, belin zadın sınar, sonra məni xataya salarsan.

Hambal Əhməd dedi:

– Ay tacir ağa, burda nə var ki, az yükdü, sənin işin deyil, sən ancaq mənim yanımcan gəl.

Tacir bir iki adam çağırdı, köməkləşib sandığı hambal Əhmədin belinə qoydular. Hambal Əhməd sandığı götürüb atdana–atdana yola düşdü. Tacir də mat-mat baxa-baxa bunun dalınca gedirdi.

Evə çatdılar, hambal Əhməd sandığı yerə qoyub, oturdu ki, bir az dincəlsin. Əhməd yerə oturanda, tacir fikirləşdi ki, dəli şeytan deyir ki, tut bu hambalı apar padşahın yanına, bir az pul qır. Onsuz da padşah pəhləvan axtarır. Hambal Əhməd bir az dincələndən sonra ayağa durdu ki, getsin, tacir onun qabağını kəsib dedi:

– Mən səni buraxan-zad deyiləm. Bu saat mənnən gedəcəksən padşahın yanına.

Hambal dedi:

– Ay tacir ağa, mən hara, padşah hara, sən gəl məndən əl çək, heç zəhmət haqqı da istəmirəm, qoy çıxım gedim.

Tacir hökmnən dedi, olmaz ki, olmaz.

Nə isə tacir yarı zor, yarı xoş hambalı padşahın yanına apardı. Ora çatdı, qapını döydü, padşahın nökərlərindən biri gəlib, qapını açıb dedi:

– Nə istəyirsən?

Tacir dedi:

– Padşaha xəbər verin ki, onun üçün bir qüvvətli pəhləvan gətirmişəm.

Nökər qapını örtüb padşahın yanına getdi, üstündən bir az keçəndən sonra gəlib dedi:

– Padşah buyurdu ki, içəri gəlsinlər.

Tacir hambal Əhmədnən nökərin dalına düşüb padşahın hüzuruna gəldilər. Padşah hambal Əhmədə baxıb gördü ki, heç pəhləvanlarının içində bu boyda pəhləvan yoxdu. Tez əmr elədi ki, buna yaxşı paltar verilsin, yer verilsin. Padşah tacirə də pul verib yola saldı.

Hambal Əhmədə yaxşı paltar verdilər, otaq verdilər. Əhməd öz hambal paltarlarını soyunub bir sandığa qoydu, açarını da öz cibində saxladı. Geyinib-keçinəndən sonra bağa gəzməyə çıxdı. Bağda gəzəndə demə padşahın qızı da öz pəncərəsində oturub, ona tamaşa eləyirmiş. Bir ürəkdən min ürəyə padşahın qızı buna vuruldu. Demə qız buna baxanda

hambal Əhmədin də gözü onda imiş. Bu da qıza aşiq olubmuş. Əhməd qaldı məəttəl ki, qızınan harda söhbət eləsin.

Bir gün yenə qızı görmək üçün baxçaya çıxdı. Qızın yatdığı otağın pəncərəsinə baxdı, gördü ki, qız ağacların dalında oturub ona baxır. Demə qız da gözləyirmiş. İkisi də bir-birinə yaxınlaşıb görüşdülər, ürəklərini bir-birinə açdılar. Bu gündən sonra Əhmədinən qız həmişə burda görüşürdülər.

Günlərin bir günündə bir böyük əcdaha şəhər çayının üstünü kəsib, şəhəri qoydu susuz. Padşah pəhləvanlarının hamısını yanına çağırıb, əmr elədi ki, əcdahanı öldürsünlər. Əhməd gördü ki, bunu əcdaha qabağına göndərirlər, tez cibindən sandığın açarını çıxartdı, gedib sandığı açdı, hambal paltarını çıxarıb geydi. Çıxıb getmək istəyəndə qız onu görüb dedi:

– Ay Əhməd, neyləyirsən? Mən səni sevirəm, sən də məni, yavaş–yavaş atam da razı olur. Sən getsən bizim işimiz necə olar? Gəl sən get davaya, qorxma, heç zad olmaz.

Əhməd dedi:

– Yox, atam, mənim işim deyil. Get işinin dalıncan. Mən gərək özümü ölümə verəm, nə var, sən məni istəyirsən. Nə gəlib sənətimə. Gedib təzdən hambal olacağam. Mən hara, əcdaha hara.

Qız təzədən başladı yalvarmağa:

– Ay Əhməd, sənin nə işin var ki, özünü əcdaha qabağına verəsən. Qoşunu göndər əcdahanın qabağına, özün də de ki, mən daldan hücum eləyəcəyəm. Elə ki, qoşun töküldü əcdahanın üstünə sən özünü çək bir qırağa. Nə işin var əcdahaynan davaya çıxırsan. Get bir kölgədə yat, elə ki, vurhavur sakitləşdi, onda sən də bir yandan çıx gəl evə.

Bu sözlər bir az Əhmədin qulağına girdi. Təzədən hambal paltarlarını çıxardıb sandığa qoydu. Pəhləvan paltarlarını geyib qoşunun yanına gəldi.

Qoşun cəmləndi, şeypur çalındı, hambal Əhməd qoşunun qabağına düşüb, çaya tərəf getməyə başladılar. Çaya yaxınlaşanda Əhməd qoşunu dağıdıb göndərdi əcdahanın qabağına, özü də qızın dediyi kimi, çəkilib bir ağacın kölgəsində yatdı.

Bir az keçmişdi, Əhməd gözlərini təzəcə açmışdı ki, bir də nə gördü! Vay dədə vay! Bir əcdaha gəlir ki, adamı lap vəhmə basır. Əhməd gördü ki, yox işlər şuluqdu. Əcdaha bir baş onun üstünə gəlir. Öz canın qurtarmaq üçün xəncəri belindən çıxarıb, əlinə aldı. Əcdaha buna yaxınlaşıb hücum eləyəndə Əhməd bütün qüvvətini yığıb əcdahanı iki böldü, o saat qan göyə fəvvarə verdi.

Padşaha muştuluqçu getdi ki, Əhməd əcdahanı öldürdü. Əhmədi padşahın hüzuruna gətirdilər. Padşah camaatı yığıb dedi:

– Məni istəyən, buna xələt!

Hər tərəfdən buna xələt töküldü. Şəhər suynan sirab oldu. Əhməd də xələtini yığıb, qızın yanına gəldi. Qız onu görən kimi yaxınlaşıb dedi:

– Sənə demədimmi əcdaha sənə heç nə edə bilməz. İndi get atamdan məni istə.

Əhməd padşahın yanına elçi göndərdi. Padşah çox şadlıxnan qızını ona adaxladı. Bir neçə ay keyfnən, səfaynan gün keçirdilər. Bir gün xəbər çatdı ki, ikinci əcdaha suyun qabağını kəsib.

Padşah vəziri çağırıb dedi:

– Vəzir, bir tədbir tök, şəhər susuzluqdan qırılır.

Vəzir dedi:

– Padşah sağ olsun, nə var ki, Əhmədi göndər, gedib öldürsün.

Padşah tez Əhmədi çağırıb dedi:

– Əhməd, mən görürəm ki, sən çox igid adamsan. İkinci əcdaha gəlib suyun qabağını kəsib. Gedib onu öldürməyi sənə tapşırıram.

Əhməd bu sözləri eşidən kimi cibindən açarı çıxarıb birbaş sandıq olan otağa getdi. Sandığın ağzını açdı, içindən hambal paltarını çıxardıb geyməyə başladı. Qız qaça–qaça gəlirdi ki, Əhmədə ürək versin, gedib gördü Əhməd yenə hambal paltarını geyib getmək istəyir.

Qız yenə buna yalvarmağa başladı.:

– Ay Əhməd, allaha bax, tarıya bax, gəl sən mənim sözümdən çıxma. İndi biz nişanlıyıq. Sən nə ürəknən məni buraxıb gedirsən, gəl sən yenə get.

Əhməd onun sözünü kəsib dedi:

– Xeyir a, gələsən bunun xatiri üçün yenə ölümə gedəsən. Bir dəfə getdim, gücnən qurtardım. İndi ikinci dəfə gedib heç qayıtmayım? Xeyir, mənim işim deyil.

Qız dedi:

– Ay Əhməd, başına dönüm, qurbanın olum, o dəfə gedəndə yerdə yatmışdın əcdaha sənin üstünə gəldi, indi gedəndə ağacda yat, heç əcdaha da çıxa bilməsin.

Bu söz Əhmədin xoşuna gəldi. O təzədən hambal paltarını soyunub, öz pəhləvan paltarını geyinib, qoşunun yanına gəldi. Qoşun düzülüb onu gözləyirdi. Şeypur çalındı, əmr olundu, qoşun yola düşdü.

Bir az gedəndən sonra, çayın qırağına çatdılar.

Əhməd dedi:

– Siz qabaqdan hücum eləyin, mən də gedib onu daldan tutacağam.

Qoşun qabaqdan əcdahanın üstünə töküldü. Qoşun qorxmurdu, çünki bilirdi ki, hər necə olsa, Əhməd əcdahanı öldürəcək. Əhməd elə ki, gördü qoşun getdi, bir hündür ağacın başına çıxıb yatdı. Elə təzəcə oyanmışdı ki, nə, budu, əcdaha onun üstünə gəlir.

Əhməd gördü ki, işlər pisdi. Tez ağacdan yerə düşdü, gördü xəncərin işə salmasa, öz canı gedəcək. Tez xəncəri əlinə aldı, əcdaha buna çatan kimi, Əhməd bütün gücünü yığıb xəncərinən əcdahanın başından vurdu. Qan əcdahanın başından fəvvarə kimi axdı; əcdaha ölüb, yerə sərildi.

Qoşun gəlib gördü ki, Əhməd əcdahanı öldürüb, özü də ayağını əcdahanın döşünə qoyub dayanmışdı. Tez padşaha muştuluqçu getdi ki, Əhməd əcdahanı öldürübdü. camaat töküldü, Əhmədi qucaqlarına alıb, birbaş padşahın hüzuruna gətirdilər. Padşah Əhmədi görən kimi yanına çağırıb alnından öpdü, dedi:

– Məni istəyən buna xələt versin!

Camaat əlindən gələni Əhmədə xələt verib, onun başına fırlanırdı. Əhməd xələtlərini götürüb öz otağına getdi. Qız eşitdi ki, Əhməd əcdahanı öldürüb, sevincək Əhmədin otağına qaçdı. Görüşdülər, öpüşdülər, sonra qız dedi:

– Əhməd, sənə dedim ki, get, əcdaha sənə heç bir şey eləyə bilməz.

Əhməd cavab verib, dedi ki, doğrudur, bu dəfə sən dediyin kimi ağacda yatmışdım, amma köpək oğlunun əcdahası elə bil mənnən güləşməyə gəlib. İyləyə-iyləyə gəlib məni tapdı. Gördüm ki, yerimdə sakit otursam, bu məni tikə-tikə eləcəyək, tez xəncərimi çıxarıb onu iki böldüm.

Qız çox sevindi. Gecə oldu, hərə öz otağına çəkilib yatdı.

Bir neçə gün belə keçdi. Bir gün padşah Əhmədi yanına çağırıb dedi:

– Əhməd, mən toy tədarükü görürəm. Bu günlərdə sənin toyundu. Bu işə sən nə deyirsən?

Əhməd heç nə deməyib başını aşağı saldı. Padşah gördü ki, baş aşağı salmaq razılıq bildirir.

Bir neçə gün toy tədarükü görüldü, qıza toy paltarları tikildi, qonaqlar çağırıldı. İki gündən sonra toy başlanacaqdı.

Bir gün padşah evində oturmuşdu, gördü ki, qonşu məmləkətin adamları gəlib padşahlarından kağız gətiriblər. Padşah vəziri çağırıb kağızı oxutdurdu. Bildirdilər ki, qonşu məmləkətin padşahı bunları davaya çağırır.

Səhəri gün padşah başladı dava tədarükünə. Əhmədi yanına çağırıb dedi:

– Əhməd, bilirəm bu xəbər sənin ürəyini sıxacaq, amma gərək deyəm. Qonşu məmləkətin padşahı bizi davaya çağırır. İndi biz dava tədarükü görürük. Sənin toyun hələ qaldı. Sən özün də davaya hazırlaş. Sabah dava başlanır.

Əhməd dava sözünü eşidən kimi əlini saldı cibinə, haçarını çıxarıb, gəldi birbaş sandıq olan otağa. Sandığın ağzını açdı, hambal paltarını çıxarıb geydi, qalanını götürüb bir baş çıxmaq istəyirdi ki, qız içəri girdi. Qız gördü ki, Əhməd yenə hambal paltarını geyinib, soruşdu:

– Ay Əhməd, yenə nə olub bu paltarını geyinmisən?

Əhməd dedi:

– Necə yəni nə olub? Atan iki kərə məni əcdaha qabağına göndərib bəs deyil, indi də qoşun qabağına göndərir. Gic deyiləm ki… getsin özü də! Niyə mən havayı-havayı canımı qurdlara verim?

Qız yenə durdu yalvarmağa:

– Ay Əhməd, allaha bax. Gəl sən mənim sözümə bax, get davaya. Əcdahanı öldürəndə sənə nə oldu ki, indi də nə olsun?

Əhməd qızın üzünə baxıb dedi:

– Uzun danışma, mən davaya gedən-zad deyiləm, əcdahaydı, təkidi, mən onu öldürdüm, indi də əcdaha deyil ki… oxun biri gəlib sancıldı ürəyimə, sonra nə olsun? Mən qoşun qabağına gedə bilmərəm.

Qız dedi:

– Ay dəli, axı sən özünü niyə üzə verirsən. Min ata, denən ki, mən həmişə düşmənə daldan hücum edərəm, siz qabaqdan gedin. Onlar qabaqdan hücum eləyəndə, sən də qaçıb bir yanda gizlənərsən. Bu da əcdaha deyil ki, dalınca gəlsin. Yoxsa toyumuza iki gün qalıb məni niyə bədbəxt eləyirsən.

Bu sözlər bir az Əhmədin ürəyini yumşaltdı. Əhməd razı olub, əmr elədi ki, bir at gətirsinlər.

Nökər tez yüyürüb tövlədən bir yaxşı at seçib gətirdi. Əhməd atdan çox qorxurdu. O, ata yaxınlaşanda, əl vurdu atın qarnına. Bu atın qarnına əl atan kimi, at qarnını tərpətdi. Əhməd qorxub əmr elədi ki, bu at pisdi, yaxşısını gətirsinlər. O elə bir at axtarırdı ki, yabı kimi, nə qədər əl vursan da tərpənməsin. Nökərlər Əhmədin əmrinə görə gedib tövlədən bir başqa at seçib gətirdilər. Əhməd bunun qarnına əl vurdu, gördü ki, bu da qarnın tərpətdi. Əmr elədi başqa at gətirsinlər. Elə-elə beş-altı at gətirib, hamısının qarnına əl vurub gördü ki, qarınları tərpənir.

Nökər gördü ki, hansı at gətirirsə Əhmədin xoşuna gəlmir, axırda dedi:

– Ay pəhləvan ağa, əgər istəyirsən özün tövlə həyətinə get, mən də atların hamısını çıxardım, hansı xoşuna gəlsə onu götür.

Əhməd bunun sözünə baxıb tövlə həyətinə getdi, atlara bir-bir baxdı, hamısına əl vurdu, gördü ki, yox, hansına əl vurur, özünü dik atır. Heç birini seçmədi. Bir də baxıb gördü ki, küncdə bir yazıq at var. Tez ona yaxınlaşdı, nə qədər əl vurdu, gördü ki, bunun heç halına təfavüt eləmir. Öz-özünə fikirləşdi ki, bu yabı mənim üçün lap yaxşıdı. Tez nökəri çağırıb dedi:

– Gəl bu atı mənə ver.

Nökər atı çəkib bunun yanına gətirdi. Əhməd atın üstünə mindi. Gördü ki, lap bunun malıdı. Elə bu at yavaş-yavaş gedər. Amma öz-özünə dedi:

– Hər nə olur-olsun, qoy ayaqlarımı bağlatdırım. Tez nökərləri çağırıb dedi:

– Gəlin mənim ayaqlarımı atın qarnının altından bir–birinə bağlayın. Nökərlər bunun ayaqlarını bərk-bərk bağladılar. Əhməd bu işləri görəndə, padşah da aynadan baxırdı. Öz-özünə dedi:

– Adə, bu nə cür adamdı, gör atların içində nə yaxşı at seçdi. Kişi doğurdan da minici imiş. Yel atını tapıb.

Meydanda qoşun bir-birini qırırdı, padşahın qoşunu yavaş–yavaş basılırdı. Padşah da, sərkərdələr də, az qalmışdılar özlərini itirsinlər. Elə ki, Əhməd atın üstünə mindi, tay dalısını soruşma. At bir başın silkələdi, cilov Əhmədin əlindən çıxdı. At bunu birbaş götürdü. At elə gedirdi ki, yel kimi. Əhməd gördü ki, uzaqdan bir ağac görünür. At bu ağaca yaxınlaşcaq Əhməd əlini atdı ağaca ki, yapışıb atı saxlasın, at onu elə çəkdi ki, ağac kökündən çıxıb qaldı Əhmədin qoltuğunda. Əhməd yel atının üstündə, qoltuğunda bir əlli–altmış illik ağac, düşmən qoşununun içinə soxuldu. Yel atı o yan-bu yana çırpınırdı. At oyan, bu yana qaçdıqca düşmənin əsgərləri Əhmədin qoltuğundakı ağacın yerdən sürünən budaqları altında qalıb ölürdülər. At da bir yandan əzişdirirdi: bu cür Əhməd düşmən qoşunun qırıb qurtardı. Düşmən gördü yox, bu pəhləvan tay lap bunların axırına çıxacaq, üz döndərib qaçmağa başladı.

Əhməd qoşunun içində o yan-bu yana qaçıb, meydanı ver–veyran elədi. Amma nə qədər eləyirdisə, atın cilovunu saxlaya bilmirdi. At onu lap yarımcan eləmişdi. Bu halda düşmən qoşunun sərkərdəsi cilovxan da öz yaxın adamlarıynan dağın başında durub davaya tamaşa eləyirdi. Əhməd gördü ki, at onu lap öldürəcək, ağacı salıb atın boynunu qucaqladı. Hər yetənə qışqırırdı ki, cilov-cilov. O yalvarırdı ki, atın cilovunu bir adam tutub bunu qurtara. cilovxan baxdı ki, Əhməd bütün qoşunu dağıdıb, indi də cilov-cilov deyib, bağıra-bağıra meydanı gəzir. Tez atını minib öz adamlarına dedi:

– Adə, tez olun, atları minin. Zalım oğlu zalım, bütün qoşunumu qırıb, indi də cilovxan, cilovxan deyə məni axtarır. Tez olun qaçaq ki, gəlib tutsa atamızı yandırar.

Əlqərəz, bütün düşmən dağıldı. Yerdə qalan on–onbeş yaralı əsgərnən cilovxan özü də qorxudan qaçdı. Əhmədin də lap son nəfəsiydi. Padşahın qoşunları düşmənin dağılıb qaçdığını görəndən sonra tökülmüşdülər meydana. Ordan, burdan, axır ki, bir təhərnən atı saxlayıb Əhmədi atdan endirdilər. Əsgərlər Əhmədi qucaqlarına alıb, gətirib yerinə saldılar. Əhməd heç özünü bilmirdi. Bir neçə saatdan sonra Əhməd özünə gəldi. Padşah Əhmədi yanına çağırtdırıb alnından öpdü, sonra öz tacını çıxardıb onun başına qoydu.

Əhməd oldu məmləkətin padşahı. Hambal Əhməd dönüb oldu Əhməd şah. Padşah da oldu onun vəziri. Hər şey qurtarandan sonra padşah bir gün Əhməddən soruşdu:

– Ay bala, Əhməd, o yel atına minəndə ayaqlarını niyə atın qarnının altından bağlatdırmışdın?

Əhməd bir fikirləşib cavab verdi:

– Mən and içmişdim ki, şəhid olmayınca atdan düşməyəcəyəm. Odu ki, ayaqlarımı atın qarnının altından bağlatdırmışdım. Bu da iyidliyin bir nişanasıdı.

Qırx gün, qırx gecə Əhmədlə padşahın qızına toy elədilər, şadyanalıq keçirdilər. Onlar şad-şalayın ömür sürüb dövran keçirdilər. Sizin də kefiniz kök, damağınız çağ olsun.

## Çölməyin nağılı

Hamam–hamam içində, dəvə dəlləklik eylər, köhnə hamam içində. Qarışqa şıllaq atdı, dəvənin böyrü batdı.

Tısbağaynan qurbağa getdi kəbin kəsməyə.
camış palaza büründü,
Getdi qulax asmağa.
Yabaynan dovğa içdik.

Belə yalan deməmişdik.

Günlərin bir günündə bir dənə çölməy vardı. Bu çölmək nənəsigilə cəviz oğurlamağa gedirdi. Getdi–getdi, qabağına bir xoruz çıxdı. Xoruz soruşdu:

– Çölməy qardaş, hara gedirsən? Dedi ki, gedirəm dədəm evinə, cəviz oğurlamağa.

Dedi:– Mən də gəlim. Dedi: – Gəl. Getdilər, getdilər, qabaqlarına bir dənə əqrəb çıxdı. Dedi: – Hara gedirsən? Dedi:– Dədəm evinə, cəviz oğurlamağa gedirəm. Dedi: –Mən də gəlim. dedi:– Gəl. Getdilər, getdilər qabaxlarına bir dənə təbənə balası çıxdı. Dedi: – Çölməy qardaş, hara gedirsən? Dedi: –Dədəm evinə cəviz oğurlamağa gedirəm. Dedi: – Mən də gəlim. Dedi: –Gəl. Getdilər, getdilər qabaxlarına toxmaq çıxdı. Az getdilər, üz getdilər, çatdılar çölməyin anasıgilin evinə. Çölməy girdi içəri, əqrəb girdi pişçaya. Təbənə balası girdi təndirə. Xoruz girdi ocağa. Toxmaq durdu qapının başında.

Çölməy başladı cəvizi oğurlamağa. Arvad ərini durquzdu: – Ay kişi, dur cəvizi oğurlamağa gəliblər. Kişi dedi: – Arvad, tez ol, ipişqanı gətir yandırım görüm cəvizi oğurlayan kimdir? Arvad girdi ipişqa gətirməyə. O, əlini ipişqaya uzadan kimi əqrəb arvadın əlindən vurdu. Arvad kişini çağırmağa başladı:– Ay kişi, ağacdan tez götür gəl. Əqrəb əlimdən vurdu. Kişi getdi ocaqdan köz götürməyə. Bu vaxt xoruz eşələnib kişinin gözünə kül sovurdu. Qışqırdı: – Ay arvad, əyil təndirdən köz çıxart.

Arvad təndirdən köz çıxartmağa əyiləndə təbənə balası keçdi arvadınənginə. Arvad qışqırdı: – Ay kişi, ay kişi çağır qonşulara havara. Kişi qonşuları çağırmağa gedəndə toxmaq kişinin başına düşüb onu dala qaytardı.

Burada nağıl qurtardı. Göydən üç alma düşdü.

Biri mənim, biri özümün, biri də nağıl deyənin.

# Məmmədalı kişi

Biri varmış, biri yoxmuş, bir Məmmədalı adında kişi varmış. Bu kişi hər gün meşəyə odun yığmağa gedirmiş ki, qışda evləri soyux olmasın, balaları ağlaşmasın.

Məmmədalı qardaş günlərin bir günü yenə meşəyə odun yığmaya gedir. Bir də görür ki, bir ayıynan, bir tülkü qavalanqaç oynayırlar. Tülkü cəld qaçır, hoppanır, ayı isə tez-tez yıxılır. Elə bil ki, tülkü ayını doluyur, onu qurt qayırırdı. Ayı bir də görür ki, Məmmədalı qardaş ona baxır, utandığından bilmir neyniyə, yavaş-yavaş gəlir Məmmədalı qardaşın yanına ki, sən allah gəl sən mənim bu acizliyimi heç kəsə demə, mən də hər gün gətirim sənin bacannan bir heybə salım, uşaxlarınan ye. Məmmədalı qardaş bilmir neyniyə, axırı ki, razılaşır.

Bu ayı hər gün bir heyvan tutub gətirir Məmmədalı kişinin bacasından salır. Məmmədalının arvadı ha soruşur ki, a kişi, axı bı nə deməkdi. Bu ayı niyə hər gün bizə heyvan gətirir. Ancaq Məmmədalı qardaş qəti arvadına bir söz demir.

Günnərin bir günündə ayı yenə Məmmədalı qardaşın evinin bacasınnan bir heyvan salanda bı səfər arvad ta əl çəkmir ki, de görüm bı nə deməydi. Məmmədalı qardaş ha istiyir ki, deməyə, görür yox arvad əl çəkən deyil, məcbur qalıb əhvalatı arvadına deyir.

Sən demə ayı hər gün heyvanı verənnən sonra bir az oturub qulax asırmış ki, görüm Məmmədalı arvada bir söz deyəcəy, ya yox. Bı dəfə də qulax asdı ki, Məmmədalı kişi iynədən sapa qədər hər şeyi arvadına dedi. Ayı başın bacadan uzadıb deyir ki, Məmmədalı qardaş, biz meşədə şərt kəsmişdik axı, indi ki, belə oldu, onda allah qoysa elə həmin yerdə görüşərik. Ayı çıxıb gedir. Məmmədalı qardaşın canına vəlvələ düşür.

Nə isə ki, Məmmədalı qardaş altı-yeddi gün getmir, qorxur ki, ayı gələr. Ancaq görür ki, yox, uşaxları soyuxdan qırılır, naillac qalıb baltasını, ipini götürüb qorxa-qorxa meşəyə gedir. Elə birəz odun yığmışdı ki, bir də görür ki, bıdı ayı gəlir. Ayı gəlib çatır Məmmədalı qardaşın yanına. Məmmədalı qardaş qorxusunnan bilmir neynəyə, hara qaça, elə bı

vaxt bir də görürlər ki, dağın başında bərk toz-tozanna qopub. Ayı deyir ki, ay Məmmədalı qardaş, görən orda nolub, bı nə toz-dumandı. Məmmədalı qardaş fikirləşir ki, nə deyim, bı ayını qorxudum, mənnən əl çəksin. Birdən deyir ki, bə bilmirsən nolub. Deyirlər, xanın atının beli yağır olub, ona ayı yağı axtarırlar. Ayı qorxudan bilmir neyniyə, deyir, ay Məmmədalı qardaş, genə gümanım sənədir. Bə mən neyniyim, hara qaçım, məni tapmasınlar, mənə kömək əlini uzadarsan sənin yaxşılığından heç vaxt çıxammaram. Məmmədalı qardaş birəz fikirləşir, birdən deyir ki, ay ayı qardaş, sən elə gəl gir bı təlisə, onda onnar heç fikir də verməyəcəklər. Ayı görür ki, elə bı yaxşı fikirdi.

Tez girir təlisə, Məmmədalı qardaş da təlisin ağzını bağlayır, bir təhər nə əzab əziyyətnən bı ayını təlisin içində gətirir evə. Arvadı soruşur ki, ay kişi, bu nədi belə, bu ayını hardan tutmusan belə diri–diri? Məmmədalı qardaş arvadı çəkir bir qırağa, hər şeyi açıb deyir, sora da deyir ki, get bir qazan qaynar su hazırla, ayını atax içinə.

Arvadı tez qaçır, qazanı gətirir, içinə su doldurur, qazanın altını yandırır. Su yavaş-yavaş qaynamağa başlayır. Su qaynayanda Məmmədalı qardaşınan arvadı zor-billah bı ayını qaldırıb təlisin içində basırlar bı qaynar qazana. Tükləri təmiz tökülmüş ayı deyir ki, Məmmədalı kişi, bir də meşəyə gəlmə, gəlsən, ta özünnən küs. Məmmədalı qardaş qorxudan bir neçə gün meşəyə getmir. Arvadı çox çığır-bağır salır ki, uşaxlar acınnan-suzunnan öldülər, get barı birəz odun yığ gətir, heç olmasa qızışax axı. Məmmədalı qardaş qorxa-qorxa da olsa meşəyə gedir. Elə birəz odun yığmışdı ki, bir də görür ki, bıdı qaynar qazana basdığı ayı çıl-çılpaq qabaxda, dalında da bir-iki ayı gəlirlər. Bir sürü ayının gəldiyini görən Məmmədalı kişi o tərəfə, bı tərəfə baxır, qalxır dırmaşır bir ağacın başına.

Məmmədalı kişinin ağaca dırmaşdığını görən çılpax ayı yoldaşlarına deyir ki, gəlin mən altda durum, siz çıxın bir–birinizin belinə, Məmmədalını ağacdan salax. Çılpax ayının sözünə baxıllar, ayılar çıxıllar bir-birinin belinə, axırıncı ayının qolu az qalır ki, çatsın Məmmədalı qardaşa, o, qışqırır ki, ay arvad, hardasan, tez bir qazan qaynar su hazırla, bı çılpax ayını bir də basaq qazana. Çılpax ayı Məmmədalı kişinin bı sözlərini eşidən kimi qorxudan altdan çıxıb qaçmağa başlayır. Üstdəki ayılar

da tabbatab yerə tökülürlər, Qolu sınan, qıçı sınan – hamısı çılpax ayının dalınca qaçırlar. Məmmədalı qardaş da rahatca odunun yığıb evinə gedir.

## Qutu qızı

Biri var idi, biri yox idi, bir yaman xan var idi. Onun Göyçək adlı bir qızı var idi. Bu qızı bir xarrat oğlan sevir, dəfələrlə elçi göndərsə də, xan xarratı özünə layiq bilməyib, qızını ona vermir. Xanın fikri qızı varlı bir adama ərə vermək idi.

Xan qıza hədə-qorxu gəlir. Buna görə də qız bir gün gecə ikən evdən çıxıb gedir. Xeyli yol getdikdən sonra qaranlıq düşür, uzaqdan bir işıq gəlir, o, işığa doğru gedir. Görür ki, bir daxma var, onun da içində bir dülgər işləyir. Qapını döyür, qapıya bir kişi çıxır və gecənin bu vaxtı tək bir qızın buraya gəlməsinin səbəbini soruşur. Qız heç bir söz demədən xeyli qızıl çıxarıb ustaya verir və ondan xahiş edir ki, onun üçün elə bir qutu qayırsın ki, qutunun içinə girmək və yerimək mümkün olsun. Usta çox fikirləşir qızın verdiyi qızıllara görə bu işdən imtina edə bilmir. Çox çalışır və nəhayət, qızın dediyi qutu hazır olur. Qız qutunun içinə ancaq dəyişək paltarını, bir də atası evindən gətirdiyi qızılları qoyub, qutuya girir və getməyə başlayır. Az gedir, çox gedir, bir padşahın vilayətinə çatır. Gündəlik yemək əldə etmək üçün padşah sarayının ətrafında bir yerdə durub gözləyir və görür ki, hər gün qarabaşlar gətirib yaxınlıqdakı bir yerə zibil atırlar. Qız qutu ilə sürüşüb zibilliyə gəlir, zibilin içindən çörək xırdası və başqa yemək qırıntıları seçib yeyir.

Bir gün qarabaşlar bu hadisənin şahidi olurlar və əhvalatı padşahın arvadına danışırlar, əhvalat padşaha da çatır. Padşah əmr edir ki, qutunu onun hüzuruna gətirsinlər. Qarabaşlar həmin yerə gedib qutunu şahın hüzuruna gətirirlər.

Padşah deyir:

- Ey qutu, sən kimsən? Nə işin sahibisən?

Qız dillənir ki, mən iş axtarıram. Şah soruşur:

– Sənin əlindən nə iş gəlir?

Qız deyir:

- Bir uşaq beşiyi tərpədərəm, bir də qazları otararam.

Şah qaravaşlara əmr edir ki, bu gündən sonra qazları otarmaq bu qıza tapşırılsın. Qarabaşlar hər gün qazları qutunun qabağına salıb bağa ötürürlər. Hər axşam çağı qutu qazları evə qaytararkən bir xəlbir dolu yumurta da gətirir. Hamı qutudan razılıq edir.

Günlərin bir günündə padşahın arvadı qaravaşlar ilə hamama getməli olur, qutu qız dillənir:

– Ay xanımlar, mənə də bir qazan isti su və sabun verin və məni tək buraxın. Şahın kiçik oğlu bu sözü eşidir. Bir yerdə gizlənir. Hamı gedəndən sonra qutu qız qutudan çıxır, suyu hazırlayır, soyunub yuyunmağa başlayır. Bu zaman şahın oğlu diqqətlə qızı izləyir. Bu qızın gözəlliyi şahzadə oğlanı valeh edir. Qızın uzun saçları, kaman kimi qara qaşları, lalə kimi yanağı, qara gözləri o qədər gözəl idi ki, şah oğlu Mahir o qıza bir könüldən min könülə aşiq olur. Bu əhvalatdan bir müddət keçir. Mahir atasına deyir: – Ata, mən bu qutunu sındıracağam. Anası deyir:

– Yox, oğlum, bu sakit bir qutudur, bizə xeyirdən başqa ziyanı yoxdur, nə üçün sındırırsan?

Anası nə qədər edirsə də, Mahir razı olmur. Qutunu sındırırlar, bu qız çıxır.

Hamı qızın gözəlliyinə heyran qalır. Oğlan atasından xahiş edir ki, qızı ona alsın. Qızı danışdırırlar. Qız deyir ki, elə bir usta tapın ki, bu qutunu yenə qayıra bilsin, onda mən sənə gəlməyə razı olaram. Padşah hər yerə car çəkdirir, amma qutunu qayıra bilən usta tapa bilmirlər. Qız deyir:

– Filan ölkədə bir xarrat oğlan var, çoxlu pul versəniz, o, bu qutunu düzəldər. Həmin oğlanın yanına bir qasid göndərirlər. Oğlan qızın sağ olduğunu başa duşub, padşahın hüzuruna gəlir. Padşah deyir:

– Mənim sarayımda bir qaravaş qız var. Onun qutusu sınıb, bizə elə sənətkar lazımdır ki, o qutunu düzəltsin.

Oğlan deyir ki, qoy o qaravaş gəlib qutunun necə düzəldəcəyimi desin,

mən qutunu bir həftəyədək düzəldərəm. Bu fürsətdən istifadə edib xarrat qızla görüşür. Qız bütün əhvalatı oğlana danışır. Oğlan qutunu

düzəltmək bəhanəsi ilə bir müddət orda qalır. Bu zaman qızın qəddar anası ölmüşdü.

Oğlan bir gecə fürsətdən istifadə edib, qızı da götürüb, padşahın sarayından qaçır.

Onnar öz vilayətlərinə çatdılar və üç alma düşdü, biri mənim, biri nağıl deyənin, biri də özümün.

## Məhəmməd və ilan

Biri var idi, biri yox idi, bir varlı kişi vardı. Bunun bir oğlu vardı. Oğlu çox bivec idi. Bu kişi ölüm ayağında oğlunu çağırıb dedi: – Oğul, mən dünyadan köçürəm. Dövlətimnən mənə ehsan verərsən. Sonra var–dövlətimin hamısını aparıb filan şəhərdə qardaşdığım var, verərsən ona, səni saxlar.

Kişi dünyadan köç elədi. Oğul atasına ehsan verdi. Sonra qumara uydu. Bir vaxt baxdı ki, var-dövlət əldən gedib, mal-heyvan qırılıb, qapıda it zəncirdə ölüb.

Yoldaşlarından aralandı, getdi atasının dediyi şəhərə, soraqlaşıb atasının dediyi kişini tapdı. Xoş-beşdən sonra dedi:

- Atam vəfat elədi. İl pis gəldi. Hər şey qırıldı.

Əmisi də bildi bu bivecdi, dedi:

- İki oğlum var, sən də ol üçüncü.

Kişi dükanda işləyirdi. Hərdən Məhəmmədi də aparırdı yanına.

Bir meşədə bir ilan vardı. Bu ilan bir gün allaha üz tutub dedi:

- Bəsdir ilanlıq elədim. Məni adam elə.

Bu ilanı allah bir qadın elədi. İlan qadın gəldi bir dükana. Bu, Məhəmmədin əmisinin dükanı idi. Məhəmməd də buradaydı. Özü də Məhəmməd camaldan göyçək idi. Qadın alış-veriş etdi. Məhəmməddən soruşdu:

– Evlisən, subay?

– Subay

Qadın dedi:

– Məni alarsan?

– Alaram.

Dedi:

– 15 gün gözdə, gələcəm.

Dükançı dedi:

– Pulu ver.

Qadın əlini atıb yerdən bir avuc torpaq götürdü. Torpaq qızıl oldu. Qadın onu verdi dükançıya getdi. Əmisi dedi:

– O, ilandı, getmə. cahılın ağlı kəm olar.

Məhəmməd dedi:

– Getmənəm.

Qadın gedib şəhərin kənarında bir yer gördü. Soruşdu ki, bu yer kimindi? Dedilər ki, filankəsin. Yerin yiyəsi gəldi, danışdılar. Qadın yerin pulunu artıqlaması ilə verdi. Fəhlə tutdu. Artıq pul verdi. Furquna minib gəldi dükana. Məhəmməd də furquna minib qadınla getdi. Bir–iki il ira-hat oturdular.

Məhəmmədin əmisi oğlu qürbətdən gəldi.

Gəldi Məhəmmədi gördü. Əmisi Məhəmmədə bir çuxa verdi.

Qadın dedi:

– Məhəmməd, o nədi geymisən? Elə bil qurd donundasan. Mən sə-nə elə çuxa tikərəm, nə qəyçi kəsər, nə maşın tikər. (İlan qaraçuxadan qorxar). Məhəmməd çuxanı verdi əmisinə, dedi:

– Hayıfdı, geymirəm. Arvad razı olmadı.

Əmisi dedi:

– O, ilandı, bala, onun yanına getmə.

Məhəmməd əmisini söydü, dedi:

– Mənim arvadıma ləkə yaxırsan.

Əmisi dedi:

– İki kəlmə söz dedim. Üç olsa, bil ki, o, ilandı. Gedərsən çay qoy-durarsan. İki-üç stəkan içdirərsən. Plov pişittirərsən, yedirdərsən. Evdə su qoymazsan. Qapını da bağlıyıb açarı götürərsən. Su axtaracaq. Tapmayıb hirslənəcək və səni vurmaq istəyəcək. Özünü yuxuluğa vurarsan, deşik tapıb çıxar eşiyə, su yalayıb qayıdar. Qorxma, özünü vur yuxuluğa.

Məhəmməd evə gəldi. Əmisinin dediyi kimi, çay qoydular. İlan dedi:

– İçmirəm.

Plov hazır elətdirdi. Məhəmməd arvadına dedi:

– Plov ye.

Arvad dedi:

– Mən plov yemirəm.

Sonra iki tikə yedi. Məhəmməd onu bəhanə ilə evdən uzaqlaşdırdı. Evdəki suların hamısını eşiyə boşaltdı.

Qaranlıq düşdü. Qapını bağladı. Açarı cibinə qoydu. Yatdılar.

Qadın oyandı. Gördü su yoxdu. Qapını bağlı gördü. Hirsləndi, ilana döndü. Zivişə-zivişə getdi, su yaladı, qayıtdı yatdı oğlanın ürəyinin başında ki, oyananda vursun. Məhəmməd durmadı. İlanın hirsi yatdı. Səhər açıldı. Məhəmməd dedi:

– Gedirəm bazarı gəzəm.

Əmisinin yanına qaşdı, dedi:

– Nətər eliyim?

Əmisi dedi:

– Çörəyiniz qurtaranda pul ver təndiri yaxşı-yaxşı yandırsınlar. Çörək yapmasınlar, axşamacan ilan acacaq. Çörək yapanda onu atarsan təndirə.

Məhəmməd əmisi dediyi kimi etdi. Arvadına dedi:

– Arvad, niyə çörək yemirsən?

Getdi ki, təndir yanır. Arvaddarı söydü. Arvaddar çıxıb getdilər. Məhəmməd dedi:

– Gəl bircəciyin yap, bəlkə, gəldilər?

– Yox, mən yapa bilmərəm.

– Qorxma, mən səni tutacam.

Arvad birini yapdı, yedilər. Məhəmməd onun çörək yapmağını təriflədi. İkincisini yapanda bunu basdı təndirə. Ağzını örtüb oturdu üstündə. Nə qədər qışqırdı, Məhəmməd açmadı. Əmisi demişdi ki, səsi kəsilməyincə durma. Üç gündən sonra səsi kəsildi. Əmisi gəldi. Təndirin külünü çıxartdı, yandırdı, üstünə su səpdi. Hamısı oldu ləl–cəvahirat. Əmisi dedi:

Sənin ağlın yoxdu. Tək dolana bilməzsən, gedək mənim yanıma. Əmisi Məhəmmədi öz yanına gətirdi. Onlar xoşbəxt yaşamağa başladılar.

## Qızıl xoruz

Biri vardı, biri yoxdu. Bir məmləkətdə bir padşah vardı. Bu padşahın üç oğlu vardı. İki oğlan padşahın bir arvadından idi, biri də başqa arvadından. İki qardaşdan birinin adı Qulam, o birininki Əkbər, başqa arvaddan olanın adı isə Ələmdar idi.

Bir gün padşah vəziri ilə gəzməyə çıxır. Bir dağın yanından keçəndə görürlər ki, burada bir qızıl xoruz oturub. Padşah vəzirə deyir:

– Vəzir, mənə nərdivan gətir və oğlanlarıma da de, gəlib xoruzu tutsunlar.

Vəzir gedir nərdivan gətirir, padşahın oğlanlarını çağırır. Böyük qardaş Qulam çıxır ki, xoruzu tutsun, xoruz geri çəkilir. Ortancıl qardaş Əkbər çıxır, o da düşə bilmir. Növbə Ələmdara çatır. O çıxır. Əlini atır ki, xoruzu tutsun, xoruz geri çəkilir, amma xoruzun bir qanadı sınıb qalır Ələmdarın əlində. O, sınıq qanadı gətirir verir padşaha. Padşah deyir:

– Gərək, qızıl xoruzu tutasınız. Gedin yola hazırlaşın.

Üç qardaş başlayırlar yola hazırlaşmağa. Hərəsi bir torba qızıl götürür. Ələmdarın anası isə onun yoluna üç dənə toyuq bişirib qoyur. Qardaşlar yola düşürlər.

Gedib üç yola rast gəlirlər. Görürlər ki, yolun arasında bir daş var. Daşın üstündə yazılıb ki, bu iki yolla gedən qayıdar. Bu bir yolla gedən qayıtmaz.

Ələmdar deyir ki, mən üçüncü yolla gedərəm. Qulam və Əkbər isə birinci yolla gedəcəklərini bildirdilər. Ələmdar burada qardaşlarından ayrılır. Az getdi, üz getdi, dərə-təpə düz getdi. Gördü ki, acıb. Yaxınlıqda da bulaq var. Oturdu bulağın başında ki, çörəyini yesin, gördü bir tülkü gəldi. Toyuğun birini atdı tülküyə. Başladı yenə yol getməyə. Ələmdar nə qədər yol getdisə də, heç kimə rast gəlmirdi. Yenə yoruldu, bir bulağın başında oturdu ki, çörək yesin. Gördü həmin tülkü yenə gəldi. Toyuğun

birini də atır ona. Yola düşür. Yolda bir bağa rast gəlir. Görür ki, qoca bir kişi bağı suvarır. Salam verir. Qoca soruşur:

– Oğlum, bura niyə gəlmisən?

Ələmdar cavab verir:

– Gəlmişəm qızıl xoruzu aparam.

Qoca deyir:

– Qızıl xoruz yeddi divin əlindədir. Gedək mənim evimə, sənə kömək edərəm. Qoca onu evinə gətirdi. Ələmdara bir qızıl üzük verib dedi:

– Oğlum, bayaq qabağına çıxan tülkülər mən idim, al bu üzüyü, tax sağ əlindəki barmağına. Yolu düz get. Qabağına bir dəniz çıxacaq. Dənizin yanında bir ağac var. Çıxarsan onun üstünə. Elə ki, divlər bir–bir dənizdən çıxıb sənə tərəf gəldi, üzük olan əlinlə hərəsinə bir sillə vurarsan. Həmin divlər qızıl xoruzu tapmaqda sənə köməklik edəcəklər.

Ələmdar qocanın dediyi kimi etdi. Altı divin hərəsinə bir sillə vurub öldürdü. Qaldı bir böyük div. Böyük div deyir ki, gedim görüm qardaşlarıma nə olub. Gəldi gördü nə? Altı qardaşı yerdə ölüb. Div başladı Ələmdara yalvarmağa ki, qardaşlarımı dirilt, onlar da, mən də sənə hər cür köməklik edərik. Ələmdar qocanın ona öyrətdiyi kimi üzüyü suya salıb suyunu divlərə içirtdi. O dəqiqə altı div dirildi. Ələmdar onlara dedi:

– Qızıl xoruzu tapmaqda mənə kömək edin.

Divlər dedi:

– Qızıl xoruz on iki divin əlindədir. Biz sənə bir maşa qayıtdıracağıq. Maşanı götürüb biz dediyimiz kimi etsən, qızıl xoruzu ələ keçirə bilərsən. Onlar maşanı qayıtdırıb Ələmdara verdilər və dedilər ki, biz səni qara atın üstünə mindirəcəyik. Qara at səni ağ atın üstünə atacaq. Ağ at səni qızıl xoruz olan yerə aparacaq. Maşanı uzadıb qızıl xoruzu götürərsən, amma bura çatana kimi geri dönməzsən.

Divlər oğlanı qara ata mindirdilər. Dərya kənarında qara at Ələmdarı atır ağ atın belinə. Ağ at onu gətirir on iki divin məskəninə. Ələmdar görür ki, çəpərdə bir qızıl xoruz var, amma qanadının biri yoxdur. Ələmdar maşanı uzatdı, çəpərlə bir yerdə xoruzu götürüb geri qayıtdı. Arxadan səslər gəlirdi. «Vay apardı! Qoyma, apardı». Lakin Ələmdar geri dönmədi. Dərya kənarına çatdı. Ağ at onu qara atın üstünə

atdı. Qara at isə Ələmdarı qızıl xoruzla bir yerdə divlərin yanına gətirdi. Buna çox sevindilər, Ələmdara qırx açar verdilər ki, get bizim otaqları gəz. Ələmdar otuz doqquz otağı gəzdi. Bu otaqlarda ləl–cəvahirat, qızıl əlindən tərpənməyə yer yoxdu. Qırxıncı otağa girib gördü ki, burada xiyar, qovun, qarpız əkiblər. O, iki xiyar yedi, birini kəsdi. İçindən bir nazənin sənəm çıxdı, «çörək, su, paltar» deyib, deyib öldü. Ələmdar bundan çox bikef oldu. Xiyarın o birini gətirib divlərin yanına və əhvalatı onlara danışdı. Divlər ona dedi:

– Bu xiyarı apararsan evə. Yanına su, çörək, paltar qoyub, sonra kəsərsən. Böyüdüb özünə arvad edərsən. Ələmdar divlərlə xudafisləşdi, xoruzu və xiyarı götürüb gəldi qocanın yanına. Qocaya çoxlu qızıl verib, yola düşdü öz şəhərinə. Gecə vaxtı gəlib çıxdı evlərinə. Qapını döydü. Anası çıxdı. Lakin oğlunun qayıtdığına inanmadı. Çünki Ələmdar on ilə yaxın idi ki, getmişdi. Səhər Ələmdar qızıl xoruzu götürüb gəldi padşahın hüzuruna. Padşah oğlunun sağ-salamat gəldiyini, həm də qızıl xoruzu gətirdiyini görüb çox sevindi. Başından tacı götürdü ki, qoysun Ələmdarın başına. Lakin Ələmdar razı olmadı.

Xiyarı divlərin tapşırdığı qaydada kəsdilər. Nazənin–sənəm böyüdükdən sonra padşah Ələmdara qırx gün, qırx gecə toy çaldırdı. Onlar yedilər, içdilər, muradlarına çatdılar, siz də yeyin, için, muradınıza çatın.

## Caməs

Biri var idi, biri yox idi, bir qarı var idi. Bu qarının gözünün ağı – qarası bir oğlu var idi. Oğlunun adı Caməs idi. Bir gün Caməsin dostları gəlib dedilər:

– Qarı nənə, qoy Caməs də biznən meşəyə oduna getsin.

Qarı dedi:

– Oğul, mənim gözümün ağı-qarası, var-yox bircə oğlum var, qorxuram.

Camısin dostları dedilər:

– Qorxma, qarı nənə, heç nə olmaz, qoy getsin.

Camәsin dostları meşәyә odun yığmağa getdilәr. Onlar meşәdә bir quyu gördülәr. Camәs dostlarına dedi:

– Uşaqlar, görәsәn bu quyuda nә ola bilәr. Gәlin düşәk bu quyuya.

Uşaqlardan birisini quyuya saldılar. O, quyuya düşәn kimi çığırdı:

– Haray, mәni çıxardın!

Uşaqlar onu çıxartdılar.

Camәs dedi:

– Mәni sallayın quyuya. Nә qәdәr hay – haray qoparsam, sözümә baxmayın.

Uşaqlar onu quyuya salladılar. Camәs quyuya düşәn kimi qışqırdı, ona mәhәl qoymayıb, quyunun dibinә salladılar. Quyunun tәrkindәn Camәsin sәsi gәldi:

– Uşaqlar, burada nә qәdәr istәsәniz şan balı var, qab sallayın, kәsim çәkin yuxarı.

Uşaqlar qab salladılar. Camәs şan balından kәsib qaba qoydu. Uşaqlar qabı yuxarı çәkdilәr. Balı götürüb qaçdılar. Camәs quyuda qaldı. O oturub quyuda çox götür-qoy elәdi. Bir dә gördü ki, bir qarışqa quyunun divarı ilә gedir. Camәs bıçağı çıxarıb divarı oymağa başladı. Xeyli oymuşdu ki, birdәn oradan yol açıldı. Camәs gördü ki, bir gözәl bağçadı. Bağçanın içindә gözәl bir imarәt var. Camәs otağa girib gördü ki, otaqlar boşdu. Otaqları bir-bir gәzib eşiyә çıxdı. Gördü budu, bir yoğun ilan gәlir. Tez qaçıb taxtın altında gizlәndi. İlan içәri girdi, onun dalınca da bir sürü ilan içәri doluşdu. Camәsin qorxudan az qaldı bağrı yarıla. İlanların böyüyü Şamıran ilan çıxıb oturdu taxtın üstündә. Sonra dedi:

– Ey taxtın altında gizlәnәn Camәs, gәl yanıma, mәn sәnә heç nә elәmiyәcәm. O biri ilanlardan da qorxma, gәl otur yanımda. Camәs yerindәn tәrpәnmәdi.

Şamıran ilan bir dә dedi:

– Ey Camәs, dur gәl yanıma, qorxma. Sәninlә işim yoxdu.

Әlacsız qalan Camәs qorxa-qorxa Şamıran ilanın yanına gәldi. Camәs dedi:

– Vallah, mәn bura qәsdәn gәlmәmişәm, mәni yoldaşlarım quyuda qoyub getdilәr. Mәn dә quyunun divarını oydum, gәlib bura çıxdım.

İlan dedi:

– Heç eybi yoxdu, gəl sənə bir əhvalat danışım. Ondan sonra səni buradan çıxardaram.

Caməs sakitləşdi. Şamıran ilan Caməsə bir əhvalat danışdı. Bu söhbət düz yeddi il çəkdi. Ancaq Caməs elə bildi ki, cəmi bir gün keçib. Odu ki, ilana dedi:

– Mən dünənnən buradayam. İndi anam mənsiz darıxır, icazə ver gedim.

Şamıran ilan dedi:

– Nə bir gün, düz yeddi ildi ki, sən burdasan.

Caməs dedi:

– Bu necə olan şeydi?

İlan dedi:

– Sən məni öldürəcəkdin. Odu ki, mən elə bir əhvalat danışdım ki, ömürdən yeddi il gəlib keçsin.

Caməs and – aman elədi ki, öldürmək fikrində deyiləm.

Şamıran ilan dedi:

– Bunu sən bilmirsən, ancaq mənə əyan olub. İndi dur gedək, səni aparıb quyudan çıxarım.

Şamıran ilan Camısi belinə mindirib quyudan çıxartdı. Onlar görüşüb ayrıldılar. Şamıran ilan dedi:

– Ey Caməs, get ancaq sən bir də mənim yanıma gələcəksən. Özü də məni öldürəcəksən.

Caməs dedi:

– Necə ola bilər ki, bu yaxşılıqdan sonra mən səni öldürüm? Heç əlim gələrmi?

Şamıran ilan dedi:

– Bir sözdü dedim, yadında qalsın.

Caməslə Şamıran ilan mehribanlıqla ayrıldılar. İlan quyuya düşdü. Caməs də evlərinə getdi.

Caməs anasını görüb tanımadı. Anası çox qocalmışdı. Yeddi il idi ki, ana öz oğlunu görməmişdi. Odu ki, Caməsdən xəbər aldı:

– Oğul, indiyə kimi harada idin?

Caməs dedi:

– Soruşma ana, başıma qəza – qədər gəlmişdi. Bu yeddi il ərzində ilanlarla bir yerdə qalmışam. Bədənim ilan kimi qabıq qoyub.

Anası bir söz demədi. Ana-bala bir yerdə yaşamağa başladılar.

Caməsgilin şəhərində bir padşah var idi. Azarlamışdı. Təbiblər Şamıran ilanın yağını onun dərdinə dərman demişdilər. Vəzir-vəkil bütün şəhərin camaatını bir yerə yığıb dedi:

– Gərək Şamıran ilanı tapıb gətirəsiz, yağını çıxaraq. Padşahın bədəninə vuraq ki, sağala.

Yer – yerdən dilləndilər:

– Bunu kim edə bilər? Heç kəs o ilanı tapa bilməz.

Bir çuğul var idi. O dedi:

– Bəs filan qarının oğlu Caməs Şamıran ilanla yeddi il bir yerdə qalıb. Bu işin öhdəsindən gəlsə-gəlsə o gələr.

Əmr olundu ki, Caməsi tapıb gətirsinlər.

Onu tapıb gətirdilər. Vəzir–vəkil Caməsə dedi:

– Gərək sən gedib Şamıran ilanı gətirəsən.

Caməs boyun qaçırdı. Belədə onu hədələdilər ki, tapıb gətirməsə, boynu vurulacaq. Caməs çar-naçar razılaşdı. Durub Şamıran ilanın yaşadığı quyunun başına gəldi, iplə quyuya düşdü. Həmin yerə gəldi. İlanları görmədi. Bir azdan Şamıran ilan gəldi, Caməs onu görən kimi taxtın altında gizləndi. Şamıran ilan taxtda əyləşdi. Dedi:

– Ey Caməs, dur gəl yanıma, sənə dedim ki, məni öldürəcəksən? Gördün elə də oldu.

Caməs durub ilanın yanına gəldi. Yanında oturub ağlamağa başladı. İlan dedi:

– Ağlama, dur gedək. Ancaq mən heç kimə əl verməyəcəyəm ki, mənim başımı kəssin, tək səndən savayı. Ancaq mənim başımı kəsəndə bir qarış başımdan, bir qarış da quyruğumdan kəsib dəsmalın arasında gətirib bu quyuya salarsan. Mən dönüb olacağam yenə həminki ilan. Ancaq mənim yağımı padşahın belinə vuran kimi öləcək.

Caməs onu götürüb padşahın meydanına gətirdi. Meydan sulandı, camaat yığıldı, heç kəs yaxına gələ bilmədi. Kim ilana sarı getdisə, ilan onun üstünə sıçradı, dedilər:

– Bunu heç kəs öldürəmməz, öldürsə Caməs öldürər.

Caməs meydana girdi. Şamıranın boynunu qucaqlayıb ağlamağa başladı. camaat bu işə mat qaldı. Caməs Şamıran ilanın dediyi kimi elədi. İlanın bir qarış başından, bir qarış da quyruğundan kəsib gətirib quyuya atdı. İlanın yağını çıxartdılar. Padşahın bədəninə vuran kimi padşah gəbərib öldü.

Camaat yığıldı ki, təzədən padşah seçsinlər. Şahlıq quşunu uçurdular. Quş hərləndi-fırlandı, gəlib Camənin başına qondu. Onu padşah seçdilər.

Caməs qoca anasını da gətizdirib sarayda şad-xürrəm yaşamağa başladı. Onlar yeyib-içib yerə keçdilər, siz də şad-xürrəm yaşayıb dövrə keçin.

## Qızıl təsbeh

Bir gün şah oğlu Şah Abbasla vəziri Allahverdi xan libaslarını dəyişib məmləkəti gəzirdilər. Şər qarışanda gəlib bir şəhərin kənarına çatdılar. Şah dedi:

– Vəzir, qaranlıx düşüb, gəl elə birinci evin qapısını döyüb burda gecəliyək.

Vəzir dedi:

– Nə olar, qibleyi – aləm, məsləhətdi, gecəliyək.

Evin qapısına çatdılar. İstədilər qapını döysünlər, gördülər içəridən səs gəlir.

Arvad uşaxlarına deyir:

– Yatın, bişirim, durun.

Şahınan vəzir xeyli qapıda durdular. Gördülər elə arvad deyir: "Yatın, bişirim, durun". Bunnan bir şey annamadılar. Qapını döydülər. Arvad gəlib soruşdu:

– Kimdi?

Dedilər:

– Ay bacı, yerimiz yoxdu. Allah rizasına bizi bir gecəliyə qonax eliyərsən?

Arvad dedi:

– Niyə eləmirəm. Qonax Allah qonağıdı. Allaha da qurban olum, qonağına da.

Hər ikisi içəri keçdi. Bardaş qurub oturdular. Gördülər bura çox kasıb bir evdi. Bir künçdə üç uşaq uzanıb. Sir-sifətləri o qədər düşmüşdü ki, baxanda adamın qanı qaralır. Şah Abbas özünü saxlaya bilməyib soruşdu:

– Bacı, nə deyirdin: "Yatın, bişirim, durun?"

Arvad dedi:

– Qonaq qardaş, Allahdan gizli deyil, bəndədən nə gizlədim. Evdəyə yeməyə bir şey yoxdu. Uşaqlar çörək istiyir. Başlarını qatıram ki, yatsınlar.

Şah vəzirə dedi:

– Dur çıx şəhərə, hardan olsa çörək tap gətir.

Vəzir şəhərə çıxdı. Bir az keçdi. Bir təlis çörək, yemək alıb qayıtdı. Uşaqlar durub doyunca yedilər. Arvad bilmədi bunlara nə təhər dil – ağız eləsin.

Şahnan vəzir gecəni burda gecələdi. Obaşdannan hər ikisi durub, arvada razılıq elədi. Şahın yanında bir qızıl təsbehi var idi. Arvada dedi:

– Bacı, görürəm çox kasıbsınız. Al, bu qızıl təsbehi xərcləyib dolanarsınız.

Arvad istədi almasın.

Şah dedi:

– Yox, götür.

Şah təsbehi verib vəzirinən saraya qayıtdı. Taxta çıxdı. Nağıl dili yüyrək olar deyərlər, bu əhvalatdan üç-dörd il keçdi. Bir gün şahınan vəzir yenə libaslarını dəyişib başladılar gəzməyə. Bir xeyli gəzib dolaşandan sonra yenə həmin şəhərə çatdılar. Şahın yadına düşdü ki, burda bir arvada qızıl təsbeh bağışlayıb. Üzünü tutdu vəzirə:

– Vəzir, yadındadımı burda bir arvada qonaq olduq. Gedəh görək indi güzəranı nə yerdədi?

Vəzir dedi:

– Çox yaxşı olar, qibleyi-aləm.

Gəzə-gəzə gəlib həmin qapıya çatdılar. Axşam çağıydı. Qapıda durdular. Gördülər arvad yenə uşaqlara deyir:

– Yatın, bişirim, durun.

Şahnan vəzir mat-mat bir-birinin üzünə baxdılar. Bu nə olan işdi belə? Axırda qapını döyüb içəri girməyə rüsxət istədilər.

Arvad bunları tanıyıb, "xoş gəldin" elədi. Əlinə keçən həsir-palazdan yerə salıb hər ikisini rahatladı.

Şah dönüb bir uşaqlara baxdı, bir evə baxdı. Gördü elə köhnə hamam, köhnə tasdı. Hələ indi əvvəlkindən də betərdi.

Şah dedi:

– Bacı, yadındadımı üç-dörd il bundan qabaq sənə bir qızıl təsbəh vermişdik. Arvad dedi:

– Qonaq qardaş, yadımdadı.

Dedi:

– Bə indi niyə kasıb dolanırsan?

Arvad dedi:

– Qonaq qardaş, təsbehi xərcləmək üçün bazara getmişdim. Bir qoluzorlu görüb təsbehi zorunan əlimdən aldı. O vaxtdan elə əzəlki kökümüzdə yaşayırıq. Şah dedi:

– Onu görsən tanıyarsanmı?

Arvad dedi:

– Tanıyaram.

Şah dedi:

– Mən onu taparam. Təsbehi alıb sənə verərəm.

Şah Abbas vəzirə dedi:

– Get yenə çörək tap gətir.

Vəzir Allahverdi xan gedib bir qədər çörəkdən, yağdan, şordan alıb gətirdi. Uşaqlar yenə doyunca yeyib yatdılar.

Səhəri gün Şah Abbasla vəzir Allahverdi xan saraya döndülər. Şah taxta çıxdı. Car çəkdirdi ki, məmləkətdə yaşayan bütün qoluzorluları üç günə bazar meydanına toplasınlar. İndi şahın adamları qoluzorluları yığmaxda olsun, eşit təsbehi arvadın əlindən alandan. O, təsbehi arvadın əlindən alandan sonra işini möhkəm tutmaq üçün pul verib üç şahid tutdu. Biri təsbeh düzəldən, biri qazı, biri də məhlə mollası.

Bütün qoluzorluları üç günə bazar meydanına yığdılar, cərgiyə düzdülər. Şah Abbas əmr etdi ki, gedin filan evdə yaşayan arvadı da gətirin. Gedib avadı da gətirdilər.

Şah arvada dedi:

– Eşitmişəm sənə bağışlanan qızıl təsbehi bir qoluzorlu adam zorla əlindən alıb, elədimi?

Arvad dedi:

– Elədi, qibleyi-aləm.

Şah dedi:

– İndi göstər görüm, təsbehi əlindən alan bunlardan hansıdı?

Arvad axtarıb həmin adamı tapdı.

Dedi:

– Təsbehi alan budu.

Şah Abbas onu qabağa çağırıb dedi:

– A kişi, heç utanmırsan? Ayıbına gəlirmi? Bu arvadın təsbehini niyə əlindən almısan?

Qoluzorlu özünü heç o yerə qoymadı:

– Şah sağ olsun, mən bu arvadı tanıyıb eləmirəm. Mənim özümün qızıl təsbehim var.

Şah dedi:

– Təsbehi mənə ver.

Qoluzorlu bir söz deməyib təsbehi verdi şaha. Şah Abbas baxdı ki, təsbeh həmin təsbehdi.

Dedi:

– Yalan danışırsan. Bu təsbeh sənin deyil.

Qoluzorlu and-aman elədi ki, yalan danışmır, təsbeh onun özününküdü.

Şah Abbas dedi:

– Gəl düzünü al boynuna, günahında keçim. Yoxsa sənin boynunu vuracam.

Qoluzorlu dedi:

– Yox, təsbeh mənimdi ki, mənimdi.

Şah dedi:

– Yaxşı, eləsə nəynən sübut eliyərsən ki, sənindi?

Qoluzorlu dedi:

– Şah sağ olsun, mənim şahidlərim var.

Şah dedi:

– Hanı şahidlərin?

Qoluzorlu dedi:

– Burdadı, gətirmişəm.

Şah Abbas əmr etdi ki, şahidlər irəli çıxsınlar. Şahidlər gəlib şahın qabağında baş əydilər. Şah soruşdu ki, bu kişinindirmi? Üçü də bir ağızdan:

– Bəli, qibleyi-aləm, təsbeh onundu, – dedilər.

Şah Abbas işi belə görüb bir az şüphələndi. Fikirləşdi ki, təsbeh doğurdan da bu adamın olar. Yanına bir adam çağırıb dedi:

– İsfahanda Qara sövdəgəri tanıyırsan?

Çağırdığı adam dedi:

– Bəli, şah. İsfahanda Qara sövdəgəri tanımayan tapılmaz.

Dedi:

– Get onu bura çağır.

Bu adam getdi, bir azdan Qara sövdəgər gəlib çıxdı.

Şah soruşdu:

– Qara sövdəgər, mənə bağışladığın bu qızıl təsbehi hardan almısan?

Qara sövdəgər dedi:

– Şah sağ olsun, bu təsbehi Təbrizdə usta Səfiəddinə çəkdirmişəm.

Şah Abbas soruşdu:

– Usta Səfiəddin dururmu?

Sövdəgər dedi:

– Bəli, durur.

Şah dedi:

– Sənə qırx atlı, yeddi gün də vaxt verirəm. Gedib usta Səfiəddini bura gətirməlisən.

Qara sövdəgər dedi:

– Baş üstə, şah, gedib gətirərəm.

Qara sövdəgər atlıları götürüb Təbriz səmtə üz qoydu.

Deyirlər, İsfahandan Təbrizə on-on beş günlük yoldu. Bunlar dərələrdən sel kimi, təpələrdən yel kimi keçib üç günə Təbrizə yetişdilər. Təbrizdə də oturmuyub Usta Səfiəddini götürüb geri, İsfahana döndülər. Üç günə İsfahana yetişdilər.

Qara sövdəgər gəlib şaha dedi:

– Şah sağ olsun. Usta Səfiəddini gətirmişəm.

Şah buyurdu:

– Deyin qabağa gəlsin.

Usta Səfiəddin qabağa gəlib baş əydi, dedi:

– Şah sağ olsun bizə görə nə qulluq?

Şah Abbas dedi:

– Bu qızıl təsbeh ki, var, bilmək istəyirik bunu kim düzəldib?

Usta Səfiəddin təsbehi görən kimi dedi:

– Şah sağ olsun, bu təsbehi məndən başqa düzəldən olmaz. Bu mənim əlimin işidi.

Şah dedi:

– Çox yaxşı. İndi sübuta yetir ki, bunu səndən başqa düzəldən tapılmaz.

Usta Səfiəddin təsbehin iki daşını əzib un kimi elədi. Sonra da qaynadıb əvvəlki halına saldı.

Qoluzorlunun gətirdiyi ustaya dedilər:

– İndi də sən düzəlt.

Bu da daşın ikisini əzdi, amma nə qədər əlləşdi, əvvəlki kimi düzəldə bilmədi.

Şah işi belə görəndə dedi:

– Bu adam da, şahidləri də yalan danışır.

O saat cəllad çağırdı. Cəllad hazır dayandı. Şah qəzəblə buyurdu:

– Bu fırıldaqçının boynunu elə vurarsan ki, bir damcı qanı da yerə düşməsin.

Cəllad dedi:

– Baş üstə, Qibleyi-aləm. Onun boynunu elə vuraram ki, bir damcı nədi, bir qətrə də yerə düşməz.

Cəllad o saat qoluzorlunun başını bədənindən ayırdı. Şahidləri də yalan danışdıqlarına görə yeddi illiyə qaranlıq zindana saldılar.

Şah Abbas qızıl təsbehin üstünə yüz axça qızıl pul qoyub arvada bağışladı. Bundan sonra onlar yaxşı güzəran keçirdilər. Siz sağ, mən salamat. Siz yüz yaşayın, mən iki əlli. Hansı çoxdu siz götürün. Göydən üç alma düşdü. Biri mənim, biri özümün, biri də nağıl danışanın.

## Fərasətli keçəl

Biri var idi, biri yox idi. Bir kişiynən bir arvad var idi. Bunların bir keçəl oğlu var idi. Kişi öldü, anası uşağı böyütdü. Keçəl dedi:

– Ana, bizim dədədən qalma nəyimiz var?

Anası dedi:

– Qonşumuz tacirin qazları içində bir çolaq qazımız var.

Keçəl getdi tacirə dedi:

– Tacir əmi, bizim qazımızı ver.

Tacir dedi:

– Qazların içində bir çolaq qazdı. Get tut apar.

Keçəl getdi qazı tutdu, apardı bazara. Dedi satım, bəlkə beş-altı qəpik pula çörəkdən-zaddan alım.

Keçəl qazı bazarda satmadı. Dedi aparım vəzirə, bəlkə satdım ona. Keçəl qazı gətirdi vəzirgilə, dedi:

– Qaz satıram.

Vəzir dedi:

– Bir abbasıya alıram.

Keçəl razılaşmadı, qazı qaytarıb apardı bazara.

Vəzir bazara adam salıb car çəkdirdi ki, keçəlin satdığı qazı kim bir abbasıdan yuxarı alsa boynu vurulacaq.

Keçəl qazı hara apardı almadılar.

Dedi:

– Elə vəzir insaflıdı, aparıb satım ona.

Keçəl qazı apardı vəzirə. Vəzir qazı aldı, ancaq pulunu vermədi. Aşbazı çağırdı dedi:

– Al bu qazı apar bişir. Hazır olanda adam göndərərəm, xörəyi verərsən ona.

Aşbaz baş üstə deyib qazı vəzirdən aldı. Keçəl də bir xəlvət yerdə durmuşdu. Qulaq asırdı. Aşbaz gedib qazı bişirməkdə olsun. Al xəbəri keçəldən.

Keçəl də getdi aşıq oynamağa. Aşıqdan beş-altı qəpik pul uddu, gedib tükandan ayın-oyun alıb yedi. Xörəyin bişmək vaxtı gələndə özünü yetirdi aşbazgilə. Dedi:

– Bəs məni vəzir göndərib, xörəyi ver.

Aşbaz:

– Bu saat, – deyib xörəyi gətirib verdi keçələ. Aşbaz qazı bişirib qızıl nimçəyə qoymuşdu.

Keçəl onları evə gətirdi, sonra da özünü yetirdi vəzirgilə, görsün vəzir neyniyir. Gördü ki, vəzir bir uşağı çağırıb dedi:

– Get aşbazda mənim xörəyim var, al gətir.

Uşaq aşbazın evinə gəldi. Aşbaz uşağa dedi:

–Bala, vəzir mənə bir qaz vermişdi. Onu da hazırlayıb yolladım özünə.

Uşaq vəzirin yanına gəlib dedi:

– Vəzir sağ olsun, aşbaz deyir mənə bir qaz vermişdi. Onu da hazırlayıb yolladım özünə.

Vəzir bu sözü eşidib mat qaldı. Keçəl də durub qulaq asırdı. Vəzir əhvalatı padşaha danışdı. Padşaha dedi:

– Bu oğru işidi, onu tutmaq üçün üç dənə qızıl qoy papağıva, otur evin tinində, mürgülə. Oğru gələcək, səni yatmış bilib qızılları götürəcək, tez tutarsan qolundan, gerisi ilə işin olmasın.

Keçəl gəlib bir saqqız alıb sürtdü başmağının altına. Başmağını aldı əlinə, gəlib durdu vəzirgilin evinin qabağında. O qədər gözlədi ki, ta vəzir şirin yuxuya gedənə kimi. Sonra başmaqlarını geyib ehmalca qızılları tapdayıb vəzirin qarşısından keçdi. Vəzir gözünü açdı ki, qızıllar yoxdu. Vəzir yenə padşahın yanına getdi:

– Padşah sağ olsun, – dedi, – qızılları apardılar.

Padşah dedi:

– Get dəvəni yüklə qızılnan, ötür küçəyə, oğru tamah edib dəvəni tutub aparacaq. Onda sən də tutarsan onun yaxasınnan.

Bu sözü də keçəl eşitdi. Vəzir bir dəvəni yükləyib ötürdü küçəyə. Keçəl yavaş-yavaş yolunan gedirdi. Baxıb gördü ki, yüklü bir dəvə gəlir. Keçəl dəvənin avsarından çəkib bir tərəfə onun başını kəsdi. Qızılları da, ətini də quyladı yerə.

Keçəlin bir qoca anası var idi. O, keçələ dedi:

– Oğlum, bu nədi?

Keçəl dedi:

– Ana, səs eləmə, bu vəzirin var–dövlətidi, görək axırı nə olur.

Vəzir dəvənin yox olduğunu görüb özünü yetirdi padşahın yanına. Dedi:

– Padşah sağ olsun, bəs dəvə də getdi axı.

Padşah dedi:

– Qoca qarılar yaman olar. Bir qarı tap, göndər oğrunu axtarıb tapsın.

Vəzirgilin qonşusunda bir acgöz qarı var idi. Hal-qəziyyəni bilib dedi:

– Mən taparam.

Qarı dəvəni axtara-axtara düz keçəlgilə gəldi. Keçəlin anasına dedi:

– Azarlamışam, dərdimə dəvə əti buyurublar. Deyirəm bəlkə sizdə ola.

Keçəlin anası dedi:

– Yaxşı gəlmisən, dünən oğlum bir dəvə öldürüb, gəl verim apar. Keçəlin anası dəvənin ətindən kəsib verdi qarıya. Qarı düzəldi yola. Keçəl qarının gəldiyindən xəbər tutdu. Tez evlərinə gəlib gördü ki, qarı onlardan gedir.

Keçəl soruşdu:

– Ay qarı nənə, hardan gəlib, hara gedirsən?

Qarı keçələ dedi:

– Sizdən gəlirəm, azarlamışam, dərdimə dəvə əti deyiblər, gəldim anan verdi. İndi gedirəm.

Keçəl dedi:

– Qarı nənə, elə anam bucığazı verdi?

Qarı dedi:

– Hə, oğul, elə bucığazı verdi.

Keçəl dedi:

– Qarı nənə, bu azdı, gəl gedək evə, bir az da mən kəsim verim apar.

Qarı dedi:

– Oğul, elə bu da bəsdi.

Keçəl qarıdan bir burmac götürdü. Qarı düz keçəlin yanına düşdü. Keçəl qarını evlərinə gətirdi. Anasına dedi:

– Ana, bəs qarı nənəmə niyə az ət vermisən?

– Nə bilim, ay oğul, özü az götürdü.

Keçəl qarıya dedi:

– Qarı nənə, gəl tut, kəsim əti apar.

Qarı gəlib ətdən tutdu. Keçəl qarını baltalayıb öldürdü.

Keçəl anasına dedi:

– Ay arvad, neyləmişdin? Məni güdaza verərdin axı.

Anası soruşdu:

– Nə bilim, ay bala, qarı məni aldatdı. Bildim ki, heç nə istəyir?

Keçəl qarının niyyətini anasına danışdı. Tapşırdı ki, bu sirri heç kəsə bildirməsin.

Vəzirlə padşah ha gözlədilər ki, qarı bir azdan gələcək, indi gələcək. Qarı gəlmədi ki, gəlmədi. Axırda vəzir dedi:

– Padşah sağ olsun, qarı da yoxa çıxdı. Bəs indi neyləyək?

Padşah əmr elədi ki, hər küçəyə yeddi lotu qoyun. Harda oğru–əyri görsələr tutsunlar .

Keçəl bu tədbirdən də xəbər tutdu. Ertəsi gün lotuları küçəyə qoydular. Keçəl gedib bir eşşək aldı, əyninə də köhnə paltar geyindi. Səhəngləri də xurcuna qoyub atdı eşşəyin belinə. Sonra onu qabağına salıb getməyə başladı. Lotular dedilər:

– Ədə, keçəl gəldi, tutun keçəli.

Keçəl dedi:

– Ədə, keçəl dədəniz-ananız olsun, əmimoğlunun toyudu, gedirəm abı–kövsər suyu almağa.

Lotular dedilər:

– Ədə, keçəl, abı-kövsər suyundan bizə də verərsən?

Keçəl dedi:

– Niyə vermirəm, elə sizin kimi dostlardan yana gedirəm.

Lotular keçəli buraxdılar. Keçəl getdi bazardan abı – kövsər suyu alıb gəldi. Lotulara verdi. Ancaq o, işini ehmal tutmuşdu. Abı – kövsərin içinə bihuşdarı qatmışdı. Lotular abı-kövsəri içən kimi huşa gedib yatdılar. Keçəl onların qulağını kəsib ovuclarına qoydu. Çıxıb getdi. Lotular ayılıb gördülər ki, qulaqları ovuclarındadı. Tez padşahın yanına şikayətə gəldilər.

– Padşah sağ olsun, axır ki, bizi qulaqsız qoydunuz, bəs indi biz neyləyək?

Padşah dedi:

– Vəzir, tez ol tədbir tök, görək nə edirik?

Vəzir dedi:

– Tədbirim odu ki, kimin evində çıraq yansa, oğru ordadı.

Keçəl bu sözü də eşitdi. Tez evlərinə gəldi. Qız paltarı geyib anasına dedi:

– Çırağı yandır, qoy pəncərəyə.

Anası soruşdu:

– Niyə oğul?

Keçəl dedi:

– Bəs eşitməyibsən ki, oğrunu axtarırlar?

Anası bir də dedi:

– Bəs deyiblər ki, harda çıraq yansa, oğru ordadı.

Keçəl dedi:

– Sən qorxma.

Keçəl qız paltarı geyib cəhrəni qabağına qoydu, başladı ip əyirməyə. Gecə padşah adamları evləri gəzməyə başladılar. Gördülər ki, qarının çırağı yanır. Gəldilər qarıgilə, dedilər:

– Qarı nənə, oğru sizdədi, oğrunu ver.

Qarı dedi:

– Oğru nədi? Bizdə oğru yoxdu.

Vəzir dedi:

– Bəs biz demişik ki, harda çıraq yansa, oğru da ordadı.

Qarı dedi:

– Qadanızı alım, bizim evdə kişi xeylağı yoxdu. Bir özüməm, bir də qızımdı. Vəzir dedi:

– Bəs onu niyə ərə verməmisən?

Qarı dedi:

– Bəxti açılmayıb, açılanda verəcəyəm.

Vəzir dedi:

–Padşah vəziriyəm, de gör mənə gələr?

Qarı dedi:

– Qoy qızdan soruşum, görüm razıdırmı?

Keçəl başı ilə işarə verdi ki, hə, razıyam.

Qarı vəzirə dedi ki, deyir gələrəm.

Vəzir hər şeyi yaddan çıxartdı, dedi hazırlıq görün, sabah toydu.

Bəli, vəzirlə keçəlin toyunu elədilər, keçəli gəlin apardılar. Vəzir inanmışdı ki, bu elə doğrudan da qızdı. Axşam gəlin vəzirə dedi:

– Vəzir, gəl otaqları gəzək.

Vəzirlə gəlin otaqları gəzməyə başladılar. Otaqların qırxını gəzib çıxdılar, qırxbirinciyə girmədilər.

Gəlin dedi:

– Niyə məni o bağlı otağa aparmadın?

Vəzir dedi:

– Orda elə bir şey yoxdu. Bir dənə mancanaxdı.

Gəlin dedi:

– Mancanax nə olan şeydi?

Vəzir dedi:

– Kimə hersim tutur, qəzəbim keçir, onu mancanağa salıram.

Gəlin dedi:

– Onu mənə göstər.

Vəzir bağlı otağı göstərdi. Gəlin dedi:

– Mən əlimi qoyum, sən sıx görək, necə sıxır.

Vəzir sıxdı, gəlin qışqırdı:

– Vay əlim, vay əlim.

Vəzir mancanağı saxladı. Gəlin vəzirə dedi:

– İndi sən əlini qoy mən sıxım. Gör necə ağrıdır?

Vəzir dedi:

– Yaxşı, ancaq birdən möhkəm edərsən, əlimi qırarsan ha?

Gəlin dedi:

– Qorxma, bərk sıxmaram.

Vəzir əlini qoydu. Keçəl mancanağı sıxdı. Vəzir bağırdı:

– Ay qız, əlimi sındırdın.

Keçəl dedi:

– Bağırma, köpəkoğlu, qazın biri bir abbası, o da nisyə!

Vəzir başa düşdü ki, bu, keçəldi. Başladı yalvarıb – yaxarmağa:

– Ədə, keçəl, qurban olum, məni burax. Keçəl dedi:

– Öləsən də buraxan deyiləm.

Vəzir mancanaxda qaldı, keçəl evlərinə gəldi. Sübh açıldı, padşah vəziri görməyə gəldi, gördü ki, vəziri mancanağa salıblar, huşunu itirib. İndi eşit keçəldən.

Keçəl həkim paltarı geyib, burdan keçirdi. Özü ilə də iynə, sap, duz, istiot götürmüşdü. Əhvalatı eşidib o da özünü içəri saldı. Dedi:

– Bu binəvanı kim bu günə salıb? O burada sağalmaz, gərək hamama aparılsın.

Vəziri hamama apardılar. Keçəl vəzirin yanına gəldi, bıçaqla ətini kəsib arasına istiot, duz tökdü, sonra isə iynəylə tikdi. Vəzirin bağırtısı ərşə dayandı. Xəbər getdi padşaha. Padşah car çəkdirdi ki, vəzirin halına bir tədbir. Neylədilərsə, xeyri olmadı, vəzir bağıra-bağıra öldü. Padşah özünə vəzir axtarmağa başladı. Keçəl bunu eşidib, yaxşıca geyinib-keçinib getdi padşahın yanına:

– Padşah sağ olsun, məni özünə vəzir götür.

Padşah dedi:

–Bacara bilərsən?

Keçəl dedi:

–Niyə bacarmıram?

Xeyli sorğu-sualdan sonra padşah baxdı ki, bu ağıllı-kamallıdı, özü də dilli-dilavər. Keçəli özünə vəzir elədi. Qızını verdi keçələ. Onlar yeyib-içib muradlarına yetdilər.

Siz də cəmi istəklərinizə çatasınız.

# Qıra qız

Biri var idi, biri yox idi, bir kasıb kişi var idi. Bir dəfə bu kişi yatıb yuxusunda görür ki, yol kənarında üç qıra var. Kişi səhər tezdən durub getdi qıraların dalınca. Yolda kişinin qabağına padşahın oğlu çıxdı. Şahzadə kişidən xəbər aldı:

– Ay əmi, bu tezdən hara belə gedirsən?

Kişi cavab verib dedi:

– Ay oğul, yuxu görmüşəm, yuxumun dalınca.

Şahzadə dedi:

– Yuxunu mənə sat.

Kişi dedi:

– Yox, satmaram.

Şahzadə dedi:

– Bir tümən verərəm. Yuxunu sat mənə.

Dedi:

– Satmaram.

Şahzadə dedi:

– Üç tümən verirəm.

Kişi razılaşdı. Şahzadə kişidən yuxusunu alıb yoluna davam etdi, kişi də qayıtdı evinə.

Şahzadə az getdi, çox getdi, axır gəlib çıxdı kişinin yuxuda gördüyü yerə. Yol kənarındakı qıraları qoparıb qayıtdı geri. Şəhzadə əvvəlcə böyük qıranı kəsdi,qıranın içindən bir qız çıxdı, qız şəhzadəyə dedi:

– Mənə su.

Şəhzadə ora qaçdı, bura qaçdı, su tapa bilmədi. Qız öldü. Şəhzadə götürüb ortabab qıranı kəsdi. Bu qıranın içindən birincidən gözəl başqa bir qız çıxdı, o da su istədi. Şahzadə ora qaçdı, bura qaçdı, su tapa bilmədi. Bu qız da su – su deyib öldü. Şahzadə üçüncü qıranı kəsmədi əvvəlcə axtarıb bir bulaq tapdı. Sonra bulağın başında qıranı kəsdi. O saat qıranın içindən əvvəlki qızılardan da gözl bir qız çıxdı. Qız Şahzadəyə dedi:

– Mənə su.

Şahzadə bulaqdan bir ovuc su götürüb, qızın boğazına tökdü. Qız ölmədi. Şahzadə qızı atın belinə qoyub saraya döndü. Onlar az getdilər, çox getdilər, yolda bir çinara rastlaşdılar. Şahzadə dedi:

– Sən çinarın dibində otu, mən gedim furqun gətirim. Səni furquna qoyub aparım.

Qız razı oldu. Şahzadə gedəndə qıza tapşırdı:

– Nə badə çinara çıxasan, yıxılarsan, bel-buxununu sındırarsan.

Qız qah-qah çəkib güldü, bir göz qırpımında ağaca çıxıb düşdü. Şahzadə onun cəldliyinə heyran qaldı.

Dedi:

– Yaxşı, çıx otu ağacda , ancaq burada bir cadükün qarı var. Ondan özünü gözlə, səni tilisimə salar.

Qız dedi:

– Arxayın ol.

Şahzadə saraya getməkdə olsun, al xəbəri cadükün qarıdan. Cadukün qarı Şahzadənin getdiyini bilən kimi özünü yetirdi çinarın dibinə. Özünü korluğa vurdu ki, qız çinardan düşsün. Qız qarının hiyləsinə aldanıb yerə düşdü, dedi:

– Qarı nənə, qoy sənə kömək edim.

Qız qarının boxçasını əlinə alıb arxı adlamaqda ona kömək elədi. Qızın boynunda bir mıncıq var idi, o qırılanda özündən başqa heç kim onu düzəmməzdi. Qarı tez elini atıb qızın mıncığını qopartdı. Mıncıqlar yerə səpələndi. Qarı qızın özünü də itələyib dərəyə saldı. Sonra mıncıqları toplayıb sapa düzdü. Qızın paltarlarını da öz qızına geyindirib, çinarın başına çıxartdı. Qıra qız da dərədə qızılgülə döndü. Şahzadə furqonu bəzəyib gətirdi, üzünü qıza tutub dedi:

– Düş gəl, furqonda otur gedək.

Qız dedi:

– Düşəmmirəm, kömək elə düşüm.

Şahzadə acıqlı-acıqlı dedi:

– Nə oldu, bayaq ağaca çıxıb-düşən sən deylidin?

Qız dedi:

– Kömək elə, qorxuram.

Şahzadə qızı zorla ağacdan düşürtdü. Furqona mindirdi, sonra dərədəki qızılgül kolundan bir neçəsini çıxarıb özü ilə götürdü ki, baxçada əksin. Şahzadə qızı götürb deyə-gülə saraya gətirdi. Qızılgül kolarını da əkdi baxçaya. Aradan bir müddət keçdi. Qızılgül kolları böyüyüb oldu söyüd. Bir gün qız şahzadəyə dedi:

– Bu ki, söyüddü, söyüdü neynirsən, at getsin.

Şahzadə əmr etdi, söyüdü kəsib təndirdə yandırdılar. Günlərin bir günü çörəkçi oradan bir çuvaldız tapdı. Çörəkçi dedi:

– Elə yaxşı oldu, aparım qoyum evə, gərəyim olar.

Çörəkçinin evində daranmamış çoxlu yun vardı, bir gün çörəkçi evə gələndə gördü ki, yunun hamısı daranıb, əyrilib. Bu işə məəttəl qalıb, fikirləşdi ki, görəsən bunu kim eləyib.

Bir gün belə, iki gün belə, axırda çörəkçi bu qərara gəldi ki, gərək güdüb görsün ki, bunu kim edib. Ertəsi gün çörəkçi taxtın altında mısdı. Gördü çuvaldız dönüb oldu adam. Taxçadan hoppandı yerə. Çörəkçi əl atıb qızın saçından tutdu. Qız qorxudan bilmədi ki, neyləsin. Çörəkçi soruşdu:

– Sən kimsən?

Qız dedi:

– Biz üç bacı idik, bacımın ikisi öldü. Məni padşahın oğlu götürüb gətirdi. Yarı yolda məni çinar ağacının başında qoyub fuqron dalınca getdi. Bir kor qarı gəlib məni aldatdı. Yolu adlayanda əl atıb boynumdakı mıncığımı qırdı. Özümü də itələyib dərəyə saldı. Dərədə mən qızılgül oldum. O, məni gətirib baxçasında əkdi. Mən dönüb oldum söyüd. Cadugərin qızı söyüdü kəsdirib, atdırdı təndirə. Təndirdə mən dönüb çuvaldız oldum. İndi mənim mıncığım o qarının qızındadı.

Çörəkçi dedi:

– Sən deyən qarının qızı elə şahzadənin yanında saraydadı.

Qıra qız dedi:

– Mənim adımı vermə, ancaq get o mıncığı qızdan alıb ver mənə. Düzüm boynuma.

Çörəkçi gedib bir fəndlən mıncığı alıb gətirdi.

Qız mıncığı düzüb dedi:

– İndi al apar ver özünə.

Çörəkçi mıncığı alıb aparıb qarının qızına verdi.

Şahzadə bu əhvalatdan xəbər tutdu. Bir gün gəlib çörəkçinin taxtının altında gizləndi. Gördü ki, bir qız ona sarı gəlir. Şahzadə əlini atıb qızın saçından tutub dedi:

– Ay qız, sən kimsən?

Qız başına gələnləri şahzadəyə danışdı. Şahzadə dedi:

– Günah özündədi, sənə demədimmi qarının felinə uyma. Daha olan olub, keçən keçib, dur gedək evə.

Qız dedi:

– Əvvəl get qarıyla qızını bağla atın quyruğuna, qoy getsinlər, sonra gəl məni apar.

Şahzadə razılaşdı. Gedib qarını qızı ilə saraydan qovdu. Qıra qızı saraya gətirdi. Qırx gün, qırx gecə toy eləyib, Qıra qızı aldı. Onlar kamlarına yetdilər, siz də muradınıza çatasınız.

## Əlmərdanın nağılı

Biri vardı, biri yoxdu. Qədim zamanlarda Əlmərdan adlı bir kişi vardı. Əlmərdan oğul-uşaqdan bol, amma var-dövlət sarıdan çox kasıb idi. O, ailəsini güclə dolandırırdı. Bir həsirdi, bir məmmədnəsir. Bir yandan da qocalıq ona aman vermirdi. Bir gün Əlmərdan uşaqlarının acından ağladığını görüb dözmədi, özünü öldürmək qərarına gəldi. O, dağın başına çıxıb özünü atmaq istəyirdi. Birdən gördü ki, iki dağ bir-birilə qovuşub aralanır. Əlmərdan fitkirləşdi ki, özümü buradan atsam daha yaxşı olar. canım da bu əzab-əziyyətdən qurtarar. O, özünü qayadan atdı, amma özü də inana bilmirdi ki, sağ qalıb. Əlmərdan ölmədiyi üçün təəssüflənsə də, çar-naçar ayağa qalxıb yola düzəldi ki, arxadan səs eşitdi:

Əlmərdan, ay Əlmərdan.

Əlmərdan arxaya çevriləndə gözlərinə inanmadı. Gözəl bir ilan insan kimi dil açıb onu səsləyirdi. Əlmərdan fikirləşdi ki, qismətim elə bura qədərmiş. Yəqin ilan məni öldürəcək. Ya allah, deyib ilana tərəf getdi. O, ilanın yanına çatan kimi ilan başladı insan kimi danışmağa:

– Ay Əlmərdan, mən səni yaxşı tanıyıram. Bilirəm kasıbçılıq səni buraya gətirib çıxarıb. Amma qəm yemə, deyənləri dinlə, sonra əməl et. Əgər məni dinləyib əməl etsən onda bütün arzularına çatarsan. Bax, bu yolla düz gedərsən, bir az getməmiş görəcəksən ki, padşahın adamları padşahın yuxusunu yozmaq üçün təbirçi axtarır. Padşah 39 təbirçinin boynunu vurdurub, çünki onlardan heç biri onun yuxusunu yoza bilməyib. İndi şəhərdə heç kim qorxusundan padşahın sarayına yaxınlaşa bilmir. Amma sən qorxma, onlara de ki, padşahın yuxusunu yozmaq istəyirəm. Onlar səni padşahın yanına aparacaq. Padşahı görən kimi deyərsən:

– Ey qibleyi-aləm, sən yuxuda görmüsən ki, göydən canavar yağır. Padşahın yuxusunu yozub deyərsən ki, sənin məmləkətində aclıq olacaq, insanlar bir-birinin ətini yeyəcək, oğurluqla bir təhər gün keçirəcəklər.

Padşahın yuxusunu yozduğun üçün sənə xeyli qızıl-gümüş verəcək. Qızıl-gümüşü gətirərsən, mənimlə yarı bölərsən, yarısı isə sənin ömrünün sonuna qədər bəs edər.

İlan bu sözləri deyib yuvasına çəkildi. Əlmərdan elə bilirdi ilan onu aldadıb, amma bir az getmişdi ki, gördü ilanın dediyi kimi padşahın adamları yuxu yozmaq üçün təbirçi axtarır. O, padşahın hüzuruna gəlib ilanın dediklərini söylədi.

Əlmərdan yuxunu yozandan sonra padşah ona xeyli qızıl-gümüş verib yola saldı. Onun yolu ilanın yuvasının yanından keçirdi. O yuvaya yaxınlaşanda gördü ilan yuvanın ağzında qıvrılıb yatıb, yuvanın içərisi isə ləl-cəvahiratla doludur. Tamah Əlmərdan kişiyə güc gəldi. O, ilanın yuvasındakı ləl-cəvahiratı da götürüb yola düşdü. Bir gün padşah yenə yuxu görür, yuxusunu yozmaq üçün Əlmərdanın dalınca adam göndərir, Əlmərdanın canına qorxu düşür, fikirləşir ki, daha axırım çatıb. Keçən dəfə padşahın yuxusunu ilan yozub, məni bu qədər var-dövlət sahibi etdi. Mənsə nankorluq edib ilanın yuvasından oğurluq etdim. İndi daha heç kim mənə kömək etməyəcək, padşah isə boynumu vurduracaq. İlanın yanına getməyə üzüm yoxdur. Padşahın verdiyi qızıl-gümüş bir yana dursun, ilanın da var-dövlətini talan etmişəm. Əlmərdan uşaqları ilə görüşüb, halallaşıb yola düşür. Onun yolu ilanın yuvasının yanından keçirdi.

Əlmərdan yuvanı təzəcə adlayıb keçmişdi ki, gördü ilan yenə onu səsləyir:

– Əlmərdan, ay Əlmərdan, keçən dəfə vədinə xilaf çıxdın. Amma qorxma, mən səni öldürməyəcəyəm. Bilirəm yenə padşahın yuxusunu sən yozmalısan. Gedərsən padşahın yanına, yuxunu yozub deyərsən ki, padşah sağ olsun, yuxuda görmüsən ki, göydən yağış əvəzinə qılınc yağır. Bunun mənası odur ki, sənin məmləkətinlə başqa məmləkətlər arasında aramsız müharibələr olacaq, qan su yerinə axacaq, hamı bir-birini qılıncdan keçirəcək. Padşah bu dəfə də sənə xeyli bəxşiş verəcək. Bu dəfə də bəxşişin yarısı mənə çatmalıdır.

İlan bu dəfə sözünü qurtaran kimi yuvasına çəkildi. Əlmərdan kişi də yenə əvvəlki kimi xeyli bəxşiş alıb geri qayıtdı. O, ilanın yuvasının yanına çatanda gördü ki, ilan başını yuvada, quyruğunu çöldə qoyub yatıb. Bu dəfə də tamah Əlmərdana güc gəldi. O, yenə əvvəlki kimi vədinə xilaf çıxaraq ilanın quyruğunu qılıncla vurub və padşahın verdiyi bəxşişi götürüb evinə qayıtdı. Aradan xeyli vaxt keçmişdi. Bir gün padşahın yuxusunu yozmaq üçün yenə Əlmərdanı çağırdılar. Əlmərdan bu dəfə istədi bu işdən boyun qaçırsın, amma gördü ki, bununla o özünü xilas edə bilməyəcək. Kor-peşman yola düzəldi.

İlanın yuvasının yanından keçmək istəyirdi ki, ilan yenə onu səsləməyə başladı. O, Əlmərdanı yanına çağırıb dedi:

– İki dəfə məni aldatdın. Amma bu dəfə qayıdanda buradan keçərsən, sənə deyiləsi sözüm var. Həm də gətirəcəyin 40 dəvə qızıl-gümüşü mənimlə tən böləcəksən. Bu dəfə padşah yuxuda görüb ki, göydən qoyun yağış kimi yağır. Padşahın yuxusunu yozub deyərsən ki, padşah sağ olsun, yuxuda görmüsən ki, yağış əvəzinə göydən qoyun yağır. Qoyun isə bolluq, sakitlik, xoşbəxtlik rəmzidir. Sənin məmləkətində bundan sonra hamı mehriban, sakit dolanacaq. Xoşbəxtlik yer üzündən əksik olmayacaq. Hamı firavan, xoş ömür sürəcək.

Padşah bu sözləri eşidən kimi sənə qırx dəvə yükü qiymətli hədiyyələr verəcək, bu dəfə hədiyyələri tən yarı bölməliyik. Amma yadında saxla ki, bir daha məndən qaça bilməzsən. Əlmərdan bu dəfə də ilanın dediyi kimi xeyli var-dövlət, ləl-cəvahiratla geri qayıdırdı. O, ilanın

yuvasının yanına çatan kimi dəvə karvanını saxlayıb ilanı səsləməyə başladı. İlan yuvadan çıxan kimi Əlmərdan dilləndi:

– Bilirəm, bu dəfə sən məni sağ buraxmayacaqsan. İki dəfə sənə xəyanət etdiyim üçün bu dəfə bunların hamısını sənə verirəm.

İlan Əlmərdanın sözlərinə gülüb dedi:

– Mənə sənin var-dövlətin lazım deyil. O padşahın yuxusu da sadə yuxu deyil. Padşah bütün məmləkəti idarə etdiyi üçün xalqın, rəiyyətin, dövrün, zəmanənin fikrini çəkdiyi üçün bütün bunları yuxuda görürdü. Sənin mənə xəyanət edib məni aldatmağın isə səndən asılı deyildi, çünki zəmanə, dövran özü bunu səndən tələb edirdi. Padşahın birinci dəfə yuxuda gördüyü canavarla əlaqədar olaraq hamı bir-birinin varını oğurladığı kimi sən də mənim yuvamdakı var-dövləti oğurlayıb qaçdın. Səndə günah yox idi, çünki zəmanə belə idi. İkinci dəfə isə padşah yuxuda qılınc görmüşdü. Buna görə də sən mənim quyruğumu yaralayıb yenə də var-dövlətimi əlimdən aldın. Bu dəfə isə padşah yuxuda qoyun görüb. Qoyunsa sakitlik, xoşbəxtlik rəmzi olduğundan hamı xoşbəxt yaşayır, ölkədə bolluq, firavanlıq hökm sürür. Bax sən də zəmanənin tələbinə görə bu var-dövləti mənə verirsən. Mənə isə bunların heç biri lazım deyil, çünki mən ilanlar padşahının qızıyam. İndi bunların hamısını götür qayıt, uşaqlarınla xoşbəxt yaşa. Mən səni bağışlayıram, çünki günah səndə yox, zəmanədə idi.

## Adamyeyən qız

Biri vardı, biri yoxdu, bir yetim oğlan vardı. Analığı ona gün vermirdi. Bir gün analığı xəmir elədi, körpə qızı beşiyə qoyub dedi:

– Təndiri yandırıram, oturuşsun, çörək yapacağam. Qızı yürgələ, ağlasa, səni təndirə atacağam.

Oğlan beşiyi yürgələyəndə ac olduğundan ərik ağacından üç ərik qırdı, istədi yesin, baxdı ki, ögey bacısı beşikdən düşüb xəmir yeyir. Oğlanın boğazı qurudu. Ərikləri cibinə qoydu, hən-hün eləyib qıza yaxınlaşanacan o, xəmirin hamısını yeyib qurtardı. Oğlan ürəyində fikirləşdi

ki, analığım bunu bilsə məni öldürəcək.Odur kt, oğlan baş alıb kənddən çıxdı. Oğlan bir bulağın başına çatanda baxdı ki, dizində taqət qalmayıb. cibindəki ərikləri yeyib dənəsini bulağın yanına əkdi ki, vaxt gələr, gərəyim olar. Oğlan daban aldı yoluna.İnsan ayağı dəyməyən bir yerə çatdı. Gördü ki, dağın ətəyində beş qoyun otlayır. Ha göz gəzdirdi, qoyunların həndəvərində adam görmədi. Şər qarışanda qoyunlar yola düzəldi. Oğlan ürəyində götür-qoy elədi ki, qoyunların dalınca getsin, görək axırı nə olur. Qoyunlar girdi bir həyətə, oğlan da onların dalınca. Oğlan gördü ki, tavlanın qabağında iki ər-arvad div dayanıb, onların ikisi də kordu. Kişi div tavlanın qapısını kəsib içəri keçən qoyunları bir-bir samlayırdı. Oğlan axırıncı qoyunun böyrünə qısılıb içəri keçəndə, div ona da əl gəzdirib arvadına dedi:

– Deyəsən, qoyunun biri doğub.

Oğlan nəfəsini içinə çəkib dinmədi. Səhər div tavlanı açıb qoyunları çölə ötürəndə oğlan da bir qoyunun böyrünə qısılıb çıxdı. Öz-özünə ürək-dirək verdi ki, bu ər-arvad divlər kordu, tuta bilməzlər. Yaxşısı budur ki, hal-qəziyyəni onlara söylüyüm, bəlkə rəhmləri gəlib mənim onlarla qalmağıma razı oldular.

Oğlan ər-arvad divə hər şeyi nağılladı. Kişi div dedi:

– Onsuz da biz koruq, qal burda, bizə oğulluq elə. Azdan-çoxdan ye, qal yanımızda. Sənin ən çətin işin qoyunları otarmaq olacaq. Oğlan çox sevindi. Çomağı götürüb qoyunların dalınca getdi. İlbəil qoyunların sayı artmağa başladı. Bu hesabınan beş qoyun bir sürüyə döndü. Divlər onnan fərəhlənirdilər. O gün olmazdı ki, ona kabab yedirtməsinlər.Oğlan da ki, maşallah, maşallah şaqqavatlı pəhləvana dönmüşdü.

Bir gün oğlan sürünü otaran vaxt bir ox tapdı. Oxu qayanın altında gizlətdi ki, gərəyim olar. Bu vaxt uzaqda bir sürü qoyun gördü. Tez onları da haylayıb öz sürüsünə qatdı. Axşamçağı sürünü çöldən gətirəndə div qoyunları saymağa başladı, gördü ki, qoyunun sayı hesabı yoxdur.

Oğlan dedi:

– Bir sürü varıydı, onu da haylayıb öz sürümüzə qatmışam.

Div dedi:

– Özüvü gözlə, oğurladığın ağ divin sürüsüdür. Ehtiyatlı ol və yadında saxla ki, ağ div gün çıxanda, onun qardaşı qara div isə günbatanda

məskən salıb. Səhər oğlan davar otaranda gördü budu ağ div nərildəyə-nərildəyə gəlir. Oğlan tez oxu qayanın altından götürüb düz onun alnının ortasından vurdu. Div xırıldayıb yerə sərildi. Oğlan çöldən qayıdanda əhvalatı onlara danışdı. Kişi div dedi:

– Aman günüdür, günbatan tərəfə getmə ha. Onun qardaşı qara divdən yaxa qurtarammarsan. Oğlan hərdənbir sürünü günbatan tərəfə apardı. Qara divin qalasında keşik çəkən aslanı qaplanı ələ almaq üçün onlara bir-iki qoyun kəsib atdı. Bu vəhşi heyvanlar tez bir zamanda oğlana isinişdilər.

Bir gün yenə oğlan sürünü günbatana sürdü. Aslanla qaplana bir-iki qoyun kəsib atdı. Onlar ət yeməyə məşğul olarkən oğlan qalaçaya girdi, gördü qara div xorram yatıb. Oğlan tez oxu yaya qoyub onun alnının ortasından vurdu. Qara div bağıra-bağıra öldü. Oğlan aslanla qaplanı yanına alıb sürüyə tərəf gələndə gördü ki, bir az aralıda qara divin davarları bulud kimi yatışıb. Tez onları da haylayıb öz sürüsünə qatdı. O, aslanı-qaplanı da yanına alıb sürünün dalınca divlərin yanına gəldi. Hər şeyi onlara nağıl etdi sözünü xahişlə tamama yetirdi:

– Siz mənə ata-ana olmusuz. Mən sizdən çox razıyam. İndi izin verin gedib analağımdan qisasımı alım. Həm də atamdan xəbər tutum.

Divlər ağlayıb oğlanı yola saldılar. Oğlan aslanı-qaplanı da yanına salıb öz vilayətlərinə üz qoydu. Gəlhagəl gəlib bir bulağın başına çatdı. Gördü ki, əkdiyi ərik dənələri göyərib qollu-budaqlı iri ağac olublar. Oğlan gördü ki, kəndlərinə az yol qalıb. Odur ki, aslanla qaplanı ərik ağaclarına bağlayıb dedi:

– Burda dincəlin, mən bir azdan qayıdaram. Sizi özümnən kəndə aparmaq istəmirəm, deyirəm camaat görüb qorxar.

Aslanla qaplan ağacların kölgəsində uzandılar. Oğlan daban aldı kəndlərinə. Kəndə girəndə gördü ki, heç kəs yoxdu. Oğlan məəttəl qaldı. Evlərinin qapısından içəri girəndə ögey bacısını gördü. Oğlan onu dodaqlarının iriliyindən tanıdı. Qız nə qız, lay bir divar, dişləri balta boyda. Oğlan şübhələndi ki, bəlkə elə bu kəndin camaatını yeyib qurtarıb. İstədi qaça, qız bayaq ha özünü qapıya saldı.

– Acından ölürdüm, səni əldən buraxmaram.

Oğlan dedi:

– Necə olsa, sən mənim ögey bacımsan, mənə qıyma.

Adamyeyən qız dedi:

– İrast ki, belədir ögey bacına rəhmin gəlsin. Ona əziyyət vermə. Uzan qabağımda səni rahatca yeyim.

Oğlan baxdı adamyeyən qızın ondan əl çəkmək fikri yoxdur. Odur ki, hiyləyə əl atdı:

– Bacı, qoy sən deyən olsun. Ancaq qoy çıxım damın üstünə, ayaqlarımı bacadan sallayım. Sən də məni ayaqlarımdan yeməyə başla, nə mən sənin üzünü görüm, ağlayım, nə də sən mənim üzümü görüb heyfslən.

Adamyeyən qız oğlanın dediyinə razı oldu. Oğlanın çölə çıxmağı ilə qaçmağı bir oldu. Adamyeyən qız tez onun dalına düşdü. Oğlan özünü qaplanla aslana çatdırdı, onları ərik ağacından açdı. Aslanla qaplan adamyeyən qızı tikə-parça etdilər, iliyindən sümüyünəcən yedilər. Onların da canı qurtardı. Burda göydən üç alma düşdü, biri mənim, biri özümün, biri də nağıl deyənin.

## Üç qardaş

Biri var idi, biri yox idi, üç qardaş var idi. Bunlar çox kasıb dolanırdılar. Talelərindən şikayət edirdilər. Bir gün qardaşların üçü də bəxtlərini axtarmaq üçün yola düzəlirlər. Az getdilər, çox getdilər, iynəyarım yol getdilər, gəlib iki qoşa dağa rast gəldilər. Oturub dincəlmək istədilər. Bir də gördülər ki, bu iki qoşa dağın arasından nurani bir qoca kişi çıxdı. Nurani qoca qardaşlardan soruşdu:

– Oğul, hara gedirsiniz?

Böyük qardaş cavab verdi:

– Bəxtimizi axtarmağa gedirik.

Bir az dincəldikdən sonra qardaşlar qoca ilə söhbət edə-edə yollarına davam etdilər.

Qoca böyük qardaşa dedi:

– Sən bəxti nədə istərdin?

Bu vaxt onların qarşısına böyük bir qoyun sürüsü çıxdı. Oğlan qoyun sürüsünü göstərib dedi:

– Elə bir sürüm olsa, heç nə istəmərəm.

Qoca dedi:

– Elə o sürünü bağışladım sənə. Get erkəcini çək apar.

Böyük qardaş sürünü çəkib apardı.

Böyük qardaş sürünü çəkib aparmaqda olsun, bunlar yollarına davam edib, gəlib bir şəhərin kənarına çatdılar. Qoca dayanıb ortancıl qardaşdan soruşdu:

– Oğul, sən nə istərdin olsun?

Ortancıl oğlan qarşıdakı böyük bağı, imarəti göstərib dedi:

– Ağa, elə bir həyətim olsa, kasıblığın daşını ataram.

Qoca dedi:

– Oğul, o imarəti, bağı sənə verirəm. Get orda yaşa. Ortancıl oğlan sevincək olub imarətə getdi. Qoca kiçik qardaşı da götürüb yola davam etdi.

Yolda qoca kiçik qardaşdan soruşdu:

– Oğul, sənin istədiyin nədi?

Kiçik qardaş dedi:

– Ağa, mən nə var-dövlət, nə də pul istəyirəm. Mən bir halal süd əmmiş qız axtarıram ki, evlənim.

Qoca dedi:

– Paho, oğul, sən istədiyin çox çətindi. Yer üzündə cəmi iki halal süd əmmiş var. Onlardan biri ərə gedib iki uşaq anasıdı, o birinin də bu gün toyudu. Amma fikir eləmə. O toyu olan gəlin sənin olacaq.

Oğlan dedi:

– Ağa, nə danışırsan? Başqasının gəlinini almaq olar?

Qoca dedi:

– Fikir eləmə. O mənim əlimdədi. Qızı alan halal süd əmmiş oğlan deyil. Qız ona getsə, bədbəxt olacaq. Buna görə həm sən axtaranı tapıb verərəm sənə, həm də o yazığı bədbəxtlikdən qurtararam. İndi isə sən həmin toya getməlisən. Sənə tapşırıqlarımı yaxşı yadında saxlarsan ki, iş baş tutsun.

Oğlan soruşdu:

– O nə şərtdi?

Qoca dedi:

– Sən gərək gəlini köçürəndə gəlin minən atın cilovundan tutub deyəsən:

– Bu mənim nişanlımdı. Hara aparırsınız? camaat səni döyüb qovmaq istəyəcək. Amma sən sözündən dönməzsən. Oğlan dedi:

– Ağa, qorxuram məni öldürərlər.

Qoca dedi:

– Sənin sonrası ilə işin yoxdu. Mən gəlib çıxacam.

Kiçik qardaş qoca necə ki, demişdi elə də etdi. Yapışdı atın cilovundan ki, bu mənim nişanlımdı. Hara aparırsınız? Bir-iki adam bunu ağılsız bilib, döyüb qovmaq istədikdə qoca görünüb dedi:

– Onu niyə döymək istəyirsiniz? Kim gəlib yalandan başqasının gəlininə sahib çıxar?

Oğlanın adamları qocanın sözlərinə fikir vermədilər. Kiçik qardaşı vurub öldürmək istədilər. Bəyin qardaşı belindən qılıncını çəkib oğlanı vurmaq istədikdə qoca onun qılıncını əlində daşa döndərdi. Hamı bu işə məəttəl qaldı. Qorxuya düşüb ona inandılar.

Qoca dedi:

– Nahaq qan tökməyin. Bu oğlan düz deyir. Atın cilovunu verin gəlinin əlinə, at oğlan gedən tərəfə getsə, onundu, yox bəyə tərəf getsə bəyindi.

Atın cilovunu verdilər gəlinin əlinə, at üz qoydu kiçik qardaşın ardınca gün çıxan tərəfə getməyə.

Oğlan qıznan gəlib axşama yaxın bir dağ döşünə çatdı. Atdan düşüb əyləndilər. Oğlan dedi:

– Mən səni ağ günündən elədim. Sən dövlətli qızı, mən kasıb bir oğlan. Evim, eşiyim yox, səni harda saxlayacam.

Qız dedi:

– Fikir eləmə, qismətimizi bir edən kişi, köməyimizə çatar.

Oğlan fikirli əynindəki arxalığını çıxardıb saldı yerə. Qızla qol-boyun olub yatdı. Səhər oğlan duranda gözlərinə inanmadı. Elə bildi onu qara basır. Odu ki, qızı oyatdı, dur bax, gör bu həqiqətdi, yoxsa məni qara

basır. Qız oyandı. Gördü ki, bir gözəl imarətin içərisindədirlər. Qız sevindi. Qollarını oğlanın boynuna salıb dedi:

– Gördün, qismətimizi bir edən kişi köməyimizə çatdı.

O gündən oğlanla qız həmin imarətdə xoş günlər keçirməyə başladılar. Bunlar burada yaşamaqda olsun görək nurani qoca necə oldu.

Bir müddət keçdikdən sonra qoca dedi ki, gedim görüm qardaşlar necə yaşayırlar. Onları sınayım, bir vaxtı kasıb olublar, görüm kasıbın qədrini bilirlər? Qoca sail paltarında əvvəlcə böyük qardaşın yaşadığı dağa gəlib çıxdı. Gördü ki, böyük qardaşın var-dövləti yerə-göyə sığışmır. Bir sürü qoyun azı on qat çoxalıb. Qoca sürünün yanına gəldi.

Böyük qardaş gördü ki, bir sail gəlir. Acığı tutdu. Qışqırdı ki:

– Ey qoca, bura niyə gəlmisən?

Qoca dedi:

– Başına dönüm, Allah yolunda qolundan qopandan ver gedim.

Böyük qardaş dedi:

– Qoca, mənim sənə verməlim yoxdu.

Qoca dedi:

– Qadan alım, bu var-dövləti sənə Allah verib. Sən də onun yazıq bəndəsini əliboş yola salma. O qara qoyun südündən ver, bir az yeyim gedim.

Oğlan acıqlanıb çomağını qocanın üstünə çəkib dedi:

– Ey qoca, əcəlin mənim əlimdə tamam olmamış burdan çıx get, hər yolunan ötənə mən süd versəydim, indi lütün biriydim.

Qoca oğlana baxıb dedi:

– Oğul, mən sail deyiləm. Bu var-dövləti sənə verən qocayam. Səni sınayırdım ki, görüm bir vaxtı yoxsul olmusan, indi yoxsula necə baxırsan? Belə görünür ki, dünya malı səni aldadıb, yolundan çıxmısan.

Qoca böyük qardaşın bütün qoyun sürüsünü daş eləyib yoluna davam etdi. Gəlib ortancıl qardaşın yaşadığı şəhərə çatdı, onun imarətinin qarşısında dayandı. Gördü ki, ortancıl qardaşın bir bağı var, Gülüstani-İrəm bunun yanında heç nədi.

Qoca ortancıl qardaşa dedi:

– Oğul, Allah sağlığına qismət eləsin, yaxşı bağın var. Allah yolunda onun barından bir az da mənə ver, çıxım gedim.

Oğlan dedi:

– Hər gəlib-gedənə bağın barın paylasam, onda gərək mənə heç nə qalmaya. Çıx get.

Qoca nə qədər yalvardısa, oğlan ona heç nə vermədi. Ortancıl oğlanın da bərkliyini görüb qoca dedi:

– Oğlan, mən sənə sail deyiləm. Bu həyəti sənə verən qocayam. Səni sınayırdım. İndi gördüm ki, sən də böyük qardaşın kimi bərksən. Bir vaxtı yoxsul olmusan, indi gərək yoxsulun qəlbini qırmayasan. Belə görünür ki, dünya malı səni də qudurdub.

Qoca ortancıl qardaşın bağını, imarətini də daşa döndərib yoluna düzəldi. Az gəldi, çox gəldi. Gəlib kiçik qardaş yaşayan dağın ətəyinə yetişdi. Kiçik qardaş cütlə yer əkirdi. Gördü bir sail gəlir. Əli ilə işarə etdi ki, bura gəl. Qoca kişi qardaşın yanına gəldi. Oğlan qocanın vəziyyətinə ürəkdən acıdı.

Kiçik qardaş öz imarətini qocaya göstərib dedi:

– Əmi, sən get o imarətə. Mən də öküzləri açım buraxım örüşə, gəlim.

Qoca oğlanın imarətinə gəldi. Gördü həyətdə üç-dörd uşaq, bir gəlin var. Gəlin qocanı mehribanlıqla qarşıladı. Bir azdan kiçik qardaş gəldi. Arvadına dedi ki, bu kişi axşam bizə qonaqdı.

Gəlin dedi:

– Qonaq Allah qonağıdı, nə vaxt gəlsə gözümüz üstə əziz yeri var.

Qoca dedi:

– Yox, mən axşam qalmıyacam. Qolunuzdan azdan-çoxdan nə qopursa, verin gedim.

Oğlan dedi:

– Əmi, bu gün səni heç hara buraxmaram. Əziz qonağımızsan, qalarsan, sabah gedərsən də özün bilərsən, qalarsan da öz evindi.

Qoca həmin gecəni orada yatdı. Səhər durub getmək istədi. Kiçik oğlan qocaya o qədər var-dövlət bağışladı ki, bir dəvə karvanı yerdən götürməzdi. Qoca kiçik qardaşın bu əliaçıqlığın, mərdliyin gördükdə ürəyində ona «əhsən» dedi. Qoca kiçik qardaşın ailəsi ilə mehriban görüşüb dedi:

– Oğul, mən sail deyiləm. Sail donuna girmiş nurani qocayam ki, bu xoşbəxt yaşayışı sənə vermişəm.

Oğlan qocanı tanıyıb ondan əl çəkmədi. Onun ayaqlarına yıxıldı. Qoca onu yerdən qaldırıb dedi:

– Oğul, mən gördüm ki, sən doğrudan dünyada ən yaxşı adamsan. Qəlbin, könlün toxdu. Yoxsulun qədir-qiymətin bilirsən. Get, Allah sənə daha uzun ömür versin. Xoşbəxt yaşayın. Bunu deyib qoca yoluna davam edib getdi. Deyirlər ki, o gündən sonra kiçik qardaş ilə arvad-uşağı uzun ömür sürdülər. Onlar yeyib-içib yerə keçdilər. Siz də yeyin, için, dövrə keçin.

## Bisavad saxlayıb

Günlərin birində bir qurd, bir tülkü, bir də bir at elə yerə düşüllər ki, yeməyə heç zad tappıllar. Axırda tülkü deyir ki, üçümüzün ölməyinnənsə birimizin ölməyi yaxşıdı. Gəlin görək kim daha qocadı. Əvvəl onu yiyəh. At deyir:

– Mənim yaşım ayağımın altında yazılıb. Ayağını qaldırır ki, oxuyun, yaşımı bilin. Qurd deyir:

– Tülkü lələ, sən atın ayağının altına bax, oxu gör yaşı neçədi?

Tülkü də deyir:

– Dədəm məni oxudub eləməyib, bisavad saxlayıb. Mən oxuyammıram ki...

Qurd keçir atın ayağının altına, istiyir görsün orda nə yazılıb. Bayağıdı ha, at buna bir təpik. Qurd böyün ölmüsən, dünən. Cəhənnəmə vasil olur.

Tülkü də bu yanda qol götürüb oynayır ki, allah dədəmə rəhmət eləsin. Yaxşı ki, məni bisavad saxlayıb.

# Şaxseyen bacı

Biri vardı, biri yox idi. Bir Şaxseyen bacı var idi. Bu Şaxseyen bacı uca bir ağacın başında yuva qurur, elə bu yuvada da 3 balası yumurtadan çıxır, böyüməyə başdıyır. Günnərin bir günü bir ac qurt meşədən gəlir, uca ağacın başında şaxseyen bacı ilə üç balasını görür. Ağzı sulana-sulana yuxarı baxıb deyir:

– Salam əleyküm, Şaxseyen bacı.

Şaxseyen cavab verir:

– Əleykümsalam, Qurd qardaş.

Qurd deyir:

– Balanın birini sal aşağı mən yeyim.

Şaxseyen: – Yox, yox, qurd qərdəş, verə bilmərəm, bu mənim balamdı.

Qurd: – Əgər verməsən, ağacı kəsəcəm, onda ağac yıxılar, mən də balalarının hamısını yeyərəm. Şaxseyen qurdun sözünə inanıb qorxur, balasının birini ağlaya-ağlaya aşağı atır. Ac qurd isə ətcə balanı göydə tutub yeyir, quyruğunu bulaya-bulaya meşəyə gedir. Şaxseyen bacı isə gözlərindən yaş süzə-süzə iki balasını yuvada qanadının altına alır. Sabahı gün səhərin gözü açılmamış ac qurd yenə meşədən çıxıb Şaxseyən bacı oturan ağacın yanına gəlir, üzünü yuxarı tutub deyir: Salaməleyküm, Şaxseyen bacı.

Şaxseyen dilxor halda cavab verir:

– Əleykümsalam, Qurd qərdəş.

Qurd deyir: – Niyə kefin yoxdu, balanın birini də sal aşağı, mən yeyim.

Şaxseyen bacı qorxa-qorxa deyir:

- Yox-yox, mən balamı verə bilmərəm. Yazıqdı. Cəmi iki balam qalıb.

Onda qurd deyir:

– Əgər verməsən, ağacı kəsərəm, ağac yıxılar, mən də iki balanı da yeyərəm.

Şaxseyen bacı qorxur ki, qurd ağacı kəsər, balalarının ikisi də düşər. Tez ikinci balasını da aşağı atır və qurd ətcə balanı göydə tutub yeyir, yenə meşəyə gedir. Şaxseyen bacı isə yuxarıda oturub bir balasını bağrına basır, başına-gözünə döyür. Bu zaman göydə uçan ala qarğa, dimdiyi tula qarğa bunu görüb Şaxseyen bacının yuvasına qonur və soruşur:

– Niyə ağlayırsan Şaxseyen bacı?

– Ağlamayım nə edim? Bu il yumurtalarımdan üç bala çıxarmışdım, saxlıyam. Meşədən bir ac qurd peyda olub ki, iki gündür gəlib mənim iki balamı alıb yeyib. İndi bir balam qalıb. Sabah gəlib onu da yeyəcək.

Ala qarğa, dimdiyi tula qarğa deyir:

– Kül sənin başına, niyə verirsən, vermə. O sənə nə edəcək?

Şaxseyen bacı cavab verir:

– Bəs nə edim? Deyir balanı verməsən yeyim, ağacı kəsəcəm.

Ala qarğa, dimdiyi tula qarğa gülüb deyir:

– Ay qız, onun nəyi var? Baltası yox, dəhrəsi yox, bıçağı yox. Ağacı nəyilə kəsəcək. Vermə balanı yesin, – beləcə onu başa salıb gedir.

Səhəri gün qurd yenə meşədən çıxıb gəlir, ağacın altında durub salam verir:

– Salaməleyküm, Şaxseyen bacı.

Şaxseyen bacı əsəbiləşərək, qəzəblə cavab verir:

– Çor əleykümsalam, Qurd qərdəş.

Qrud deyir:

– Niyə acıqlanırsan, Şaxseyen bacı, balanın birini də sal yeyim.

Şaxseyen bacı deyir:

– Vermirəm.

Qurd deyir:

– Verməsən, ağacı kəsəcəm.

Şaxseyen bacı cavab verir:

– Kəs, sənin nəyin var? Baltan yox, dəhrən yox. Nə ilə kəsəssən ağacı?

Qurd baxıb görür ki, Şaxseyen bacını aldada bilməyəcək. Nə qədər ağacın yanında atılıb-düşürsə ağzı da heç yana çatmır, kor-peşman qəyi-

dib gedir. Başa düşür ki, bu işi ala qarğa, dimdiyi tula qarğa görüb. Söz verir ki, bunu belə qoymayacaq.

Günlərin bir günü özünü ölülüyə vurub yerə uzanır. Göydə uçan ala qarğa, dimdiyi tula qarğa bunu görüb tez yerə şığıyır, özünü ölülüyə vuran qurdun yanında yerə qonur. Başlayır qurdun əvvəlcə quyruğunu, sonra da ayağını, qarnını dimdikləməyə. Görür qurd tərpənmir, axırda ürəklənib qurdun başına qonur, ağzını dimdikləyir. Bu zaman qurd ağzını açıb ala qarğa, dimdiyi tula qarğanı tutur. Qurd deyir:

– Yaxşı əlimə keçmisən. İndi səni yeyəcəm. Bəs bilmirdin ki, Şaxseyen bacını öyrədəndə , özün tələyə düşərsən?

Ala qarğa, dimdiyi tula qarğa deyir:

– Yaxşı, Qurd qərdəş, məni ye, ancaq anam demişdi ki, kim səni yemək istəsə, qoy əvvəlcə səni uca bir dağdan aşağı atsın, qol-qıçın sınsın, sonra səni yesin.

Qurd avam olduğu üçün bu sözlə razılaşır. Uca bir dağa çıxıb ala qarğa, dimdiyi tula qarğanı dağdan aşağı atır. Ala qarğa, dimdiyi tula qarğa pırr eləyib uçur. Qurd bunu görüb əməlindən peşman olur, göydə uçan qarğaya deyir:

– Heç eybi yoxdur ala qarğa, dimdiyi tula qarğa, həlbət bir gün əlimə keçərsən, onda səni udaram.

Nağıl da burda bitir.

# XIV.
# ALDATMALAR

## Ağdıydı, Buğduydu

Ağdıydı, Buğduydu, Koroğluydu, Kotançıydı, bir de məniydim, gedirdik ova.

Getdik gördük bitməmiş yafşan dibində, doğmamış dafşan balası.

Dedim Ağdı vır, Buğdu vır, Koroğlu vır, Kotançı vır, vırmadı, mən vırdım.

Dedim Ağdı götür, Buğdu götür, Koroğlu götür, Kotançı götür, götürmədi, mən götürdüm.

Bir müddətdən sora Ərəzinnən xəbər gəldi ki, darını əymişiyh donuzdar yeyir.

Durdux oraxcamızı götrdüyh, çörəyh götdüyh, çarığımızı bərkitdiyh getdiyh.

Getdiyh gördüyh donuzdar dolub darıya.

Orağı atdıx, donuz qaşdı, orax bişdi, biz yığdıx.

Donuz qaşdı, orax bişdi, biz yığdıx.

Yığdıx–yığdıx, yığdıx tayaladıx.

Otdux bir az çörəyh yeməyə, baxdıx ki, bir at gəlir.

At da nə at, deməyh polatdan nallammış at.

At gəldi düşdü tayıya.

Yerdən bir daş götürdüm daş nə daş, çaxmax daşı.

Atdım ata,

Atan kimi dəydi atın ayağındakı nala,

Atın nalından bir od sıçradı

Bı od da gəldi düşdü tayıya.

Taya yandı, biz eşdiyh, taya yandı, biz eşdiyh.
Tayadan qulan çıxdı,
Qulanı eşdiyh bir kitab çıxdı,
Kitabı aşdıx oxudux gördüyh,
Orda yazılıb, dediyhlərimizin
Hamısı yalan, palan, peşmekan.

❁ ❁ ❁

Dərələrdən sel kimi, təpələrdən yel kimi, badeyi–sərsər kimi,

Arpa–buğda biçə–biçə, sərin sular içə–içə, özümüzü yetirdiyh bir vilayətə.

Bı dafşanı dəyişdiyh arpaynan, darıya
Yüyhlədiyh bir üş qışdı atdı qarışqıya.
Yeri ha yeri, yorthayort, nallı dafşan, çullu qurt,
Dərələrdən sel kimi, təpələrdən yel kimi,
Gəldiyh çıxdıx Licə.

Licə gələndə göydən bir yağış yağdı, bir yağış yağdı ki, gəl görəsən.

Cibimizdə bir çarıx bizi vardı vırdıx yerə, çıxdığ üstünə.

Sel, su gəldi qarışqanı, arpanı, buğdanı götdü, getdi.

# UŞAQLARIN UŞAQLAR ÜÇÜN YARATDIQLARI ÖRNƏKLƏR

## XV.
## OYUNLAR

### Ocaq yandı
*(I mətn)*

Uşaqlar dövrə vurub çöməlmə əyləşirlər. Bir uşaq əlinə yaylıq alıb deyir:

- Ocaq yandı.

Uşaqlar: – Su qaynadı.

Əlində dəsmal olan uşaq

- Müəllim sinfə girdimi?

Uşaqlar: Girdi də, qayıtdı da.

Əlində dəsmal olan uşaq:

– Neçə verdi?

– Beş.

– Yağlı, yağsız?

– Yağlı

Həmin uşaq axırda əlindəki yaylığı hər hansı bir uşağın üzərinə ataraq qaçır. Üstünə yaylıq atılan uşaq da yaylığı götürərək onun arxasınca düşür.

## Ocaq yandı

*(II mətn)*

Uşaqlar dairəvi şəkildə düzülür, onlardan biri uşaqların başına fırlanar və deyər:

Uşaq: Ocaq yandı
Yerdən: Su qaynadı
Uşaq: Suyu kim gətirdi?
Yerdən: Bilmədik.
Uşaq: Ocağı kim qaladı?
Yerdən: Görmədik.
Uşaq: Siz kiməsə güldünüz?
Yerdən: Gülmədik.

Uşaq bir necə dəfə dövrə vurar, guya güləni axtarar, sonra əlini birinin kürəyinə vurub qaçar, bu da onun dalınca düşər. Tutsa sıra ona gəlir, tuta bilməsə həmin uşaq oyundan kənarlaşdırılır.

## Bənövşə

Bu oyunda uşaxlar iki dəstiyə ayrılıllar. Hər dəstədə onnarın sayı eyni olmalıdır. Dəstələr özünə başçı seçir və bir-birinnən on-on beş addım aralı əl-ələ tutub dayanıllar. Başçılardan biri o birisinə deyir: – Bənövşə!

O birisi cavab verir: – Bəndə düşə!

Əvvəlki başçı deyir: – Bizdən sizə kim düşə? O biri başçı uşaxlardan birinin adını çəkir. Məsələn: – Arzu düşə!

Arzu cərgədən ayrılıb yüyürə-yüyürə əl-ələ tutmuş uşaxların əlini yarmalıdır. Əgər o, cərgəni yarıb keçə bilsə, həmin dəstədən bir uşax da götürüb yenə əvvəlki yerinə qayıdır. Yox, keçə bilməsə, orada qalıb, rəqib dəstəyə qoşulmalıdır.

Axırda hansı dəstədə çox uşax qalsa, o dəstə qalib gəlir.

## Qəcəmə daş

*(I mətn)*

Bu oyunda altı oğlan olur, bunnar səkkiz yumru daş yığıllar. Birinə ana daş deyillər. Gərək bu daşı əlinnən yerə salmıyasan, əvvəl bir əlinən daşları bir-bir götürəsən, sonra üç daşı, sonra dörd daşı, beş daşı, altı, yeddi daşı bir əlinən yığıb-yığışdırasan. Onnarı götürəndə ana daşı göyə atıp-tutursan.

Uduzan yerini yoldaşına verir. Kim daşdarı qaydasınca götürə bilirsə, o da oyunu aparır.

## Qəcəmə daş

*(II mətn)*

Bını qədimnən uşaxlar oynuyardılar. Bir neçə uşax bir yerə yığışıb beş dənə qəşəx yumru, ağır, hamar, çıqqılı daşdar seçillər. Əvvəlcə sayıllar ki, birinci oyuna kim başdasın:

Em em emişqa
Cibi dolu semişqa
Mən isdədim vermədi
Adın qoydum hinduşqa.

Kimə tüşsə birinci oyuna o başdıyır. Daşdarı əlində komalıyıb atır yerə. Sora onnardan birin-hansın isdəsə götürür əlinə. Bına səqqə deyillər. Soram bir-bir bı səqqəni göyə atıp daşdarı götürür əlinə. Gərəx səqqə yerə tüşmüyə, daşdar da tərpəşip bir-birinə dəymiyə. Bı oyunda ancax bir əldən istifadə edillər. İkinci əli işdətməx olmaz. Birinci mərhələ belə başa çatır. Oyun bir neçə mərhələ olur. Get-gedə oyunun şərtdəri çətinnəşir. Sora sol əlin iki barmağını yerə qoyup səqqəni göyə atıp tutana qədər yerdəki daşdarın hammısını bir-bir iki barmağın arasınnan keçirtməx, səqqəni kürəyin arxasında atıp tutmaxla daşdarı götürməx, əvvəl daşdarı bir-bir, sora iki-iki, üç-üç, axırda isə hammısını birdən götürməx tələb

olunur. Hər mərhələdə uduzan oyunu başdan başdamalı olur. Pütün mərhələləri keçib başa çatdıran qalib hesab olunur.

## Qodu-qodu

Dəsdə düzəlir, oğlannar əllərinə qayış götürüllər. Hər biri qarşısında duran yoldaşının ayağınnan vurmağa çalışır. Ayağına dəyən qayışdan biri yıxılanda, oğlannar oxuyullar:

Qodu qoduya dəyəndə,
Qodunu yerə sərəndə.

## Qazlar, ördəklər

*(I mətn)*

Dört-beş uşax ördəh-qaz olur, bir uşax da ana. Yan tərəfdə dayanan birisi də guya qurtdu.

Ana deyir:
– Qazdar-ördəhlər...
Qazdar-ördəhlər:
– Bəli, bəli...
Ana:
– Gəlin evə.
Qazdar-ördəhlər:
– Evdə nə var?
Ana:
– Çöldə qurd var.
Qazdar-ördəhlər:
– Qurd bizə neyniyəcəh?..
Ana:
– Yeyəcəh.
Qazdar-ördəhlər:
– Onda gəldih... – sora analarına tərəf qaçışıllar. Qurd da istiyir ki, bunnardan birini tutsun.

# Qazlar

*(II mətn)*

Bir neçə nəfər yığışır. Bunlardan biri qurd, biri isə ana seçilir. Qurd bir tərəfdə girələnir. Digər qazlar isə ətrafa dağılır. Ana qaz deyir:

- Qazlar, qazlar, gəlin evə.
- Evdə nə var?
- Dən var, su var.
- Yemişik, içmişik.
- Dağın dalında ala qurd var.

Bu deyilən kimi qurd gizləndiyi yerdən çıxır. Qazlar qaçır. Əgər qurd kimisə tutsa, həmin adam oyundan çıxır.

# Qazlar

*(III mətn)*

Uşaqlar yerdə oturub dairə vururlar, bir nəfər əlində papaq başlarının üstündə dayanır:

– Qazlar, qazlar,
– Nə var, nə var?
– Gəlin evə,
– Evdə nə var?
– Pendir-çörək,
Yeyək-içək.
– Biz yemirik,
İstəmirik.
– Onda dağın dalında
Bir qurd var, sizi yeyər.

# Heykəl

İki və daha çox uşaqla oynanılan bu oyunda uşaqlar müxtəlif təkrarləmələr və ya sadəcə "heykəl" sözünü söyləməklə oyunu icra edirlər. Belə ki, uşaqlar öz aralarında "heykəl" və yaxud "heykəltaraş, dinməz dur" dedikdən sonra heykəl kimi müxtəlif şəkildə dururlar. Oyunda ilk gülən və ya tərpənən uduzur və oyundan çıxır. Oyun bitənə qədər dinməz heykəl kimi dayana bilən oyunçu qalib gəlir və yenidən eyni şəkildə oyuna davam edilir. Oyunun sözlərini isə hər dəfə oyunun qalibi deyir. Oyunda heykəl kimi dayanan hər bir uşaq gülməli şəkildə dayanır ki, rəqibi onun bu halına gülüb uduzsun.

# "Qayışagirmə"

*(I mətn)*

Ən qədim oyun növlərindən biridir. Vaxtilə Naxçıvan ərazisində geniş yayılmış, indi isə unudulmuşdur. Bu oyunda 10-12 nəfər oynaya bilər. Oyunçular "halay" gəlməklə iki komandaya ayrılır. Oyuna başlamaq üçün 6-8 metr diametrində dairə çəkilir. Komandanın (dəstənin) başçıları bir-birinə daş gəlir. Ovucun içindəki daşı tapa bilməyən komanda dairənin içinə girir. Onlar bir-birindən aralı dairənin içində 4-5 qayışın ucunu dairəyə yaxın qoyur və hər qayışı bir oyunçu gözləyir ki, kənardakı komandanın üzvləri onu aparmasın.

Qaydaya görə, dairədən kənardakı komandanın üzvləri çalışıb dairənin içindəki qayışları götürməlidir. Bunun üçün bütün oyunçular çeviklik – cəldlik göstərməli, bir komanda qayışı verməməli, digəri isə "yanmamaq" şərtilə hansı yolla olursa-olsun qayışı götürməyə çalışmalıdır. İçəridəki komanda qayışı qorumaq üçün dairənin içində və ya bir ayağı dairədən kənara çıxmamaq şərtilə, digər komanda üzvlərindən birini ayağı ilə vurmalıdır. Əgər dairədəki hər hansı oyunçulardan birini bu qaydada vursa, deməli dairədən kənardakı "yanmış" komanda dairəyə

girir, ordakı komanda isə dairədən kənara çıxaraq qayışları həmin oyunçulardan almağa başlayır.

Oyunun gedişi zamanı kənardakı komanda dairədəki komandadan qayışları aldıqca, həmin komanda üzvlərini qayışla döyməyə başlayır ki, digər qayışları da götürə bilsinlər. Əgər kənardakı komanda bütün qayışları götürsə, onda "qələbə" çalır və "yanana" qədər oynayır. Beləliklə oyun davam edir.

## Qayışagirmə-(Mollamindi)

*(II mətn)*

Dairə çəklir, ortasında da bir dənə dairə olur. İki komanda olur. Biri dairənin içində, digəri çölündə olur. Hər adam da bir dənə qayış uzadır. Çöldəkilərdən hərə bir qayış içəri uzadır, içəridəkilərdən hərə bir qayışa nəzarət edir. Çöldəkilər qayışı oğurlamağa çalışır. Qayışı götürəndə içəridəki sənə əlini vurdusa sən yandın. Çöldəki içərdəkinin başını qatıb işərdəkini vurmağa çalışır. Həm də minməyə çalışır içərdəkinin belinə. Minə bilmədi ikinci dairənin ortasında dura bilərsən və səni vura bilməzlər.

## Qayışagirmə

*(III mətn)*

İri dairə çəkilir. Bel qayışı dairənin xəttinə toxunmaqla içəriyə uzadılır. Bir nəfər həmin qayışın üstündə durur, qayışın götürülməsinə imkan vermir. Bir nəfərsə ikinci qayışla qayışın dəmirindən yapışmaq şərtilə qorunan qayışı dairədən çıxartmalıdır. Əgər vurulmadan qayışı götürə bilirsə oyun eyni qayda ilə davam edir. Dairənin içindəki oyunçu qayışı götürmək istəyəni vura bilirsə, yerlər dəyişilir.

## Qayış oyunu

*(IV mətn)*

Dairə cızılır. İki komanda girir dairənin içinə. Tutaq ki, 5 dənə də qayış uzadırlar. Hərəsi bir qayışın, üstündə və xəttə girmədən onu götürməlidir. Çalışmalıdır ki, ayağını o biri dəstədən kiminsə ayağına vursun. Əgər beş qayışın hamısını aldısa, onda o biri dəstəni ortaya salır çırt diyənə qədər vururlar.

## Qəyiş oyunu

*(V mətn)*

İki dəstə ayrılır. Ortaya cızıq çəkilir. Bir dəstə cızığın bir tərəfində, digəri isə digər tərəfində dayanır. Hər iki dəstədən cızığın üzərinə qəyiş qoyulur. Biri digərinin qəyişin vurub çıxarmalıdır. Hansı çıxarsa o qalib gəlir.

## Evcik-evcik

Naxçıvanda “Xalabacı” kimi də bilinən “Evcik-Evcik” oyunu adətən qız uşaqları arasında gündəlik oynanılan oyunlardan biridir. Bu oyunu qız uşaqları bir neçə nəfərlə oynadığı kimi tək başına da oynaya bilər. Hər iki halda uşaqlar böyüklərin-ana, nənə, xala, qonşu qadın, uşaq və s. etdiklərini yamsılayaraq günlük ailə-məişət məsələlərini oyun şəklində canladırırlar. Məsələn; uşaqlardan biri ana, digəri onun uşağı, qonşu qadın və onun uşağı, yaxud bir qız uşağının tək başına özü ana olub gəlincikləri ilə oynaması, yemək bişirir kimi qab-qacaqla, oyuncaqları ilə oynaması, anasını yamsılaması buna nümunə ola bilər.

## Bəli-xeyr

İki nəfər tərəfindən oynanılan bu oyunda oyuna başlamazdan əvvəl iştirakçılar öz aralarında udana nə hədiyyə veriləcəyi barədə razılaşırlar. Oyunun əsas şərti iki rəqib oyunçunun bir-birlərinə müxtəlif zamanlarda nə sual verməyindən asılı olmayaraq suala uzun cavab vermədən, hətta "hə", "yox" demədən, ya "bəli", ya da "xeyr" deməsidir. Çaşdırmalı oyun qrupuna girən bu oyunda zaman müddəti çox maraqlıdır. Belə ki, bəzən çox qısa müddət ərzində bitən bu oyun, bəzən günlərlə davam edir.

## Quru-yaş

Ən az iki oyunçu tərəfindən oynanılan bu oyunda oyuna başlamazdan əvvəl oyunçular öz aralarında elə yer seçirlər ki, orada quru torpaq sahəsi və su yığıntısı olsun. Adətən bu oyun yağışlı günlərdə yağış yağıb qurtardıqdan sonra yerdə əmələ gələn su yığıntıları olduğu zaman oynanılır. Amma su olmadıqda isə uşaqlar bir-birindən seçilə bilən torpaq sahələrində-hündür və alçaq, yaxud torpaq və daş olan hissələrdən birini yaş, o birini də quru qəbul edib oyunu icra edirlər. Oyunda uşaqlardan biri "quru" və "yaş" sözlərini tez-tez təkrar edir, bəzən arxa arxaya iki dəfə "quru", bəzən gah "yaş", gah da "quru" deməklə o biri uşağı çaşdırmağa çalışır. Oyunu udmaq üçün əbə (molla) olan oyunçunun dediyi bu sözlərə uyğun olaraq digər iştirakçı çalışır ayağını "quru" deyildiyində quru hissəyə, "yaş" deyildiyində isə yaş hissəyə tez qoysun.

## Halay gəlmək

Hər hansı oyunu oynamaq üçün uşaqlar dəstələrə bölünür. Bu dəstələrdə güclü oyunçuların bir yerə düşməməsi üçün halay gəlirlər. Buna görə, iki dəstə başçısı seçilir. Onlar qoşa dayanır. Digər oyunçular

isə iki – iki qol – boyun olub kənarda özlərinə gizli adlar qoyur və gəlib dəstə başçılarına deyirlər:

- Halay, halay.

Dəstə başçıları deyir:

- Haldıx, qıldıx.

Oyunçular deyir:

- Kimə "alma", kimə "armud".

Dəstə başçılarından biri deyir:

- Mənə "alma".

Özünə gizli "alma" adı qoymuş oyunçu həmin dəstə başçısı tərəfə, "armud" adı qoymuş oyunçu isə o biri dəstə başçısı olan tərəfə keçir. Beləliklə, digər oyunçular da bu qayda ilə dəstələrə bölünür. Sonra oyuna birinci kimin başlaması üçün iki dəstə başçısı bir-birinə daş gəlir. Yəni dəstə başçılarından biri arxa tərəfində ovuclarından birinə kiçik bir daş qoyub yumruqlarını o biri dəstə başçısının qarşısında cütləyir. əgər həmin dəstə başçısı daşın hansı əlin içində olduğunu tapsa, oyuna birinci onlar, tapmasa, o biri dəstə başlayır.

## Gözbağlıca

İki və daha çox oyunçu tərəfindən oynanılan "Gözbağlıca" oyununda sanama söyləyərək müəyyənləşdirilən əbənin gözləri bağlanılır. Digər oyunçular onun ətrafında o tərəf bu tərəfə qaçışırlar və yaxud yavaş-yavaş yeriyirlər ki, əbə onları tuta bilməsin. Oyunçular yerlərini bildirmək və əbəni çaşdırmaq üçün qəribə səslər çıxarır və ya əbəyə toxunaraq qaçışırlar. Əbə tutduğu oyunçu ilə yer dəyişir və oyunçular yorulana qədər, istəyə bağlı olaraq oyun davam etdirilir.

## Gizlənpaç

*(I mətn)*

İki və daha çox uşaqla oynanılan bu oyunda uşaqlar öz aralarında sayan oyunçunu, yəni əbəni müəyyənləşdirmək üçün müxtəlif təkər-

lәmәlәr, sanamalar söylәyirlәr. Bu tәkәrlәmәlәrin son sözü vә ya son sözdәki son heca kimә düşәrsә ya o sayan olur, ya da әksinә o әbә olmaqdan qurtulur, axıra qalan oyunçu әbә olur. Əbә olan oyunçu әvvәlcәdәn müәyyәnlәşdirilmiş rәqәmә, mәsәlәn, 20-ә qәdәr saydıqdan sonra "alma saraldı, gözüm qaraldı, gәldim qaç, gizlәnpaç" deyib gözünü açır vә gizlәnәn oyunçuları tapmağa çalışır. Əbә ilk tapdığı oyunçunu ondan әvvәl qaçıb saydığı yerә "stop" deyib әli ilә vurmalıdır, әgәr tapılan oyunçu qaçıb vursa, әbә olmaqdan qurtular. Əbә olan oyunçunun ilk stopladığı oyunçu әbә olur. Bәzәn әbә heç bir oyunçunu tapa bilmir, yaxud da tapana qәdәr oyunçular gәlib stoplayır, bu zaman әbә yenә dә sayan oyunçu olur.

"Gizlәnpaç" oyununda әbә oyunçunu müәyyәnlәşdirmәk üçün söylәnәn tәkәrlәmәlәr:

Em-em emişqa,
Cibi dolu semişqa.
Mәn istәdim vermәdi,
Adın qoydum hinduşka.

## Gizlәnpaç
*(II mәtn)*

Uşaxlar әllәrini üst-üstә qoyullar. Kim tez әlini çevirsә, o, oyunu gözlüyür. Yubanan gözdәrini yumur, qaçıp gizdәnәn yoldaşlarını axtarır. Yerini bәllәdiyi uşağın adını çәhmәli, әlini vurmalıdı. Tapılan uşaxlar aşkara çıxır, yoldaşlarına işarә verillәr:

Xanım, alma desәm gә,
Armud desәm, gәlmә.

Sora da qışqırır: alma, alma... yanı tez gәl. Xanım da qaçıp gәlir, әlini vurur gözlәrini yumanın dayandığı yerә. Bunnan da udur.

## Gizlənpaç

*(III mətn)*

Biri gözün yumurdu, sayırdı, digərləri gizlənirdi.

Anni, banni, Zemi qunni, zapi danni, As, vas, pervi qlas. Sayırıq. Sona qalan gözlərin yumur. O, mətədə durub, gizlən paç, açdım qaç yerini dəyiş, bərt gizlən, deyir, kimi gördüsə tüpürür. Kimi birinci gördüsə o gözlərini yummalı idi nöbəti oyunda.

## Gizlənpaç

*(IV mətn)*

Dairə vuran oğlan uşaqlarından dəstə başçısı bu sözləri deyər:

Həp-hop-hop hüsrü kosa,
O kimdi kəssək atan,
Kəssəyi atmasına,
Muradın yatmasına,
Daşı gətir ocaq qala,
Su gətir nehrə çala,
Yala, yala çıx qırağa.

Axırıncı uşaq qalana qədər bu cür deyilər, sona qalan oyunçu gözlərini yumar, o biri uşaqlar qaçıb gizlənər. Əgər uşaqlardan hər hansı biri tez gəlib əlini razılaşmış yerə vurub desə ki, bu da mən, o, udmuş sayılar. Gözlərini yuman uşaq gizlənmiş uşaqları axtarmağa gedəndə, onda ya udan, ya da uduzan uşaq durub haraylar uşaqları : – Alma desəm gəlmə armud desəm gəl. Heyva saraldı, gözüm qaraldı. Oyun beləcə davam eliyir.

## Gizlənpaç

*(V mətn)*

6-7 uşaq dairə vurur, bir nəfər isə uşaqları əli ilə göstərərək sayır:
Aqili, duqili,
Sarı hime, həpdi qoca-
Mibili qoca, dani şirin,
Hət qiqili...

Hansı uşaqda sayan adamın əli dayansa o uşaq kənara çəkilir, beləcə saymaq davam edir və axıra qalan uşaq gözlərini yumur. Qalan uşaqlar isə hərəsi bir yerə qaçıb gizlənir. Gözlərini yuman uşaq isə birdən ona kimi sayıb dillənir: – Gözlərimi açdım haa. Sonra başlar axtarmağa. Əgər gizlənən uşaqlardan hansı biri qaçıb gözünü yuman uşağın dayandığı yerə əlini vursa, onda o sərgəst olar və o biri uşaqların axtarılıb üzə çıxmasını gözlər. Oyun bu şəkildə davam edər.

## Dilarənin anası

*(I mətn)*

Üç və daha çox oyunçu ilə oynanılan bu oyunda uşaqlar dairə düzəldəcək şəkildə əl-ələ tutub fırlanaraq aşağıdakı təkrarləməni oxuyurlar:
Dilarənin anası,
Şəkər-çörək bişirdi.
Uzunluğu bu boyda,
Enniliyi bu boyda.
Qalx ayağa, qalx,
Ətrafına bax.
Kimi sevirsən,
Tut ətəyindən dart.

Uşaqlardan biri dairənin içində oturur. Dairədəki oyunçu təkrarləmənin sözlərinə uyğun olaraq hərəkət edir. Dairədə oturan hər uşağın öz

adına uyğun olaraq təkərləmənin ilk misrasında deyilən “Dilarənin anası” ifadəsi dəyişdirilir; “Lalənin anası”, “Leylanın anası” və s. Təkərləməni söyləyən uşaqlar “uzunluğu bu boyda” dedikləri zaman əlləri bitişik halda havaya qaldırıb şəkər çörəyin uzunluğunu, “enniliyi bu boyda” dedikdə isə əllərini dairədə oturan uşağı tərəf aşağı salırlar. “Qalx ayağa, qal” deyə oxunanda dairədəki uşaq ayağa qalxır, “ətrafına bax” hissəsi oxunanda isə, başlayır ayaq üstə fırlanmağa, “kimi sevirsən, tut ətəyindən dart” ifadəsi söylənən zaman isə ürəyi kimi istəsə onun ətəyindən tutur və həmin oyunçu ilə yer dəyişdirirlər. Yəni tutduğu oyunçu dairənin içinə girir, özü isə dairəni təşkil edən oyunçulara qoşulur.

## Çaynik

*(II mətn )*

Uşaxlar yan-yana düzülüllər, bir uşax da olur çaynik. O uşağın dövrəsinə fırranıp deyillər:

Məhəmmədin nənəsi
Şəkər çörəh bişirdi.
Uzunnuğu bu boyda,
Qıssalığı bu boyda...

(Əlləriynən də uzunnuğu, qıssalığı göstərillər). Sora da avazınan Məhəmmədə deyillər:

Qalx ayağa, qalx,
Ətrafına bax,
Kimi sevirsən,
Tut əlinnən dart.

Məhəmməd kimin əlinnən tutsa, Məhəmmədin yerini o uşax tutur. Oyun beləcə davam etdirilir.

## Xan-vəzir

*(I mətn)*

“Xan-Vəzir” oyunu əsasən beş nəfər tərəfindən oynanılır. Bəzən iştirakçılar dörd nəfər olduqda və bu oyun oynanılmaq istənildiyində ya xan, ya da vəzir oyundan çıxarılır. Oyunu oynamaq üçün əvvəlcə balaca kağız vərəqləri götürülür və hər birinə oyuna müvafiq olaraq adlar- xan, vəzir, cəllad, tapan, oğru yazılır. Sonra bu kağızlar adlar görünməyəcək şəkildə eyni qaydada qatlanır. Sonra bir qabın içinə qoyulub qarışdırılır (Yaxud da ovuc içində qarışdırılıb yerə tökülür). Hər kəs həmin qabın içindən bir dənə bükülü kağızı götürüb açır. Öğru kimə düşsə, xan və vəzirin məsləhəti ilə cəllad ona müxtəlif cəza növləri tətbiq edir. Belə ki, xan və vəzir cəllada əmr etsə ki, oğruya bir qapaz vur, cəllad da onu edəcək.

## Şah-vəzir

*(II mətn)*

Beş nəfər arasında oynanılır. Kağızı beş yerə bölür, birinə şah, birinə vəzir, birinə cəllad, birinə oğru, birinə isə tapan yazılır.

Kağızlar bükülüb yerə atılır, hərə bir kağızı götürüb açır, kimsə kağızında yazılanı demir şahdan və tapandan başqa. Şah deyir:

- Tapan tapsın oğrunu, cəllad vursun boynunu.

Tapan oğrunu tapmasa, cəza tapana veriləcək. Düz tapsa, şah cəzanı vəzirə deyir, vəzir isə cəllada. Cəllad oğrunu cəzalandırır.

## Şətər

Dördbucaq beş dama çəkilir. Yan-yana iki dənə-biri mənim mərəm, biri də yoldaşımın mərəsi. Daşı birinci xanaya atır, təkayaxda gedirdik. Ayağım cizgiyə düşməməlidir, başa çatanda o biri ayağı yerə qoymax olar. Oyunun adı şətərdir. Birayaq üstə daşı götürür, cizgilərə düşmədən gətirsən beşinci xanaya. Sonra daşı ikinciyə, üçüncüyə atır, sonda durub daşı arxaya atırdıx, hara düşsə olur bizim ev.

## Dala dəsmal atma

Əl ələ tutur, yumularru dairə vururlar. Biri dəsmalı alıb əlinə fırlanır. Oturanlardan birinin dalında dəsmalı atırdı.Dalına dəsmal atılan biləndə durur ayağa ki, mən uduzmadım. Bilməsə, uduzur.Uduzan yanır, keçib ortada oturur.

## Ənzəli

*(I mətn)*

Əncəli bu dəyməsin,
İkilər xanın rəhbəri.
Üşdə biryan qıralar,
Dörddə qulunc qıralar,
Beşdə palanlıyallar.
Altıda götürəllər.
Bizdə bir qoç ölübdü.

## Əzzəlidir dəyməsin
*(II mətn)*

10-15 oğlan uşağı bir yerə yığılıb dairə vurar. Bir uşaq yarım əyilmiş vəziyyətdə dayanar. Qalan uşaqlar qaçaraq gəlib ortada yarıməyilmiş vəziyyətdə duran uşağın belinə vurub tullanar, bu sözləri deyər:

I dəfə-əzzəlidir dəyməsin...

Hamı bir-bir gəlib bu sözləri təkrarlayar.

II dəfə- ikidə də heç dəyməsin...

Yenə hamı bu hərəkəti, sözləri təkrarlayaraq əyilən uşağın belindən tullanar.

III dəfə- Üçdə bir az dadallar...

IV dəfə dörddə qulunc ovallar.

Bu dəfə uşaqlar yumruqlarını daha bərk vurarlar.

V dəfə- beşdə keçi girdi bostana.

Hamı bu sözləri təkrarlayar.

VI dəfə- vurdular qıçı sındı,

VII dəfə- apardılar həkimə.

VIII dəfə- həkim dedi, tullan, əəə...

IX dəfə- tulla, dədən börkünü...

X dəfə- dədən börkü yazıqdı.

XI dəfə- eşşəyin dalı qazıqdı.

XII dəfə- Ho bala, ha, ho, bala,

XIII dəfə- papağı götür qovala...

Sonuncu uşaq oyunçu yoldaşının belindən hoppananda onun belindən papağı götürüb tullayar və əyilmiş uşaq papağın dalınca qaçar. Əgər oyun zamanı uşaqlardan biri əyilmiş uşağın belindən tullana bilmirsə onda həmin uşaq əyiləni əvəz edir.

## Minib atma

*(III mətn)*

Bir neçə nəfər yığılır. Bir nəfər ortada, digərləri isə onun ətrafında dayanır. Kənardakılar bir-bir qaçaraq ortadakının üzərindən hoppanır. Bu müddətdə belə sayırlar:

Birdə dəyməzlər,
İkidə bir az dəyərlər,
Üçdə mıqrıq əyərlər,
Dörddə papaq qoyarlar.
Beşdə papağı götürərlər.

Bu cür saya-saya ortada dayanan yavaş-yavaş qalxır ki, tullana bilməsinlər. əgər kim toxunursa, həmin adam ortaya gəlib əyilir.

## Dəsmalqaçırtma

Hərənin öz mərəsi olur. Cızıx çəkilirdi biri bu, digəri o tərəfdə dururdu. Biri dəsmalı götürüb qaçırdı ki, öz yoldaşına verməyə, digər qızlar da onu qovur ki, dəsmalı verməsin. Dəsmalı verə bilsək biz, verə bilməsək, onlar udur.

## Traktor

Xalq arasında qıyaq otu kimi bilinən bitkinin qılçığından istifadə etməklə oynanılan bu oyun əsasən iki nəfər tərəfindən icra edilir. Oyunçulardan biri "traktorum get, get, traktorum get, get.." deyə-deyə qılçığı o biri oyunçunun qollu köynəyinin altından qolunun yuxarı hissəsinə qədər aparmağa çalışır. Eyni qayda ilə digər oyunçu da oyunu icra edir. Kim daha çox traktoru sürə bilsə, yəni qolda yuxarıya doğru hərəkət etdirə bilsə, oyunun qalibi olur.

## Löppü

Bir yumru daşı başqa daşla vurub çəkilmiş cızıxdan keçirməlisən.

## Kıx

İki və daha çox uşaqla oynanılan bu oyunda uşaqlar baş və işarət barmaqları açıq, digərləri yumulu vəziyyətdə sağ əllərini silah formasında tutub gördükləri rəqib oyunçuları atəşə tuturlar. Bu oyunda uşaqlar divar, təpə, qapı və s. arxalarında gizlənərək, ətrafa boylanıb gördükləri oyunçulara "kıx" deyib əllləri ilə atəş açırmış kimi hərəkət edərək oynayırlar. Davalı oyunlardan olan "kıx" oyununda hər kəsi atəşləyib öldürən oyunçu qalib gəlir.

## Son hərfə görə söz demə

Ən az iki oyunçu ilə oynanılan bu oyunda oyunçulardan biri hər hansı bir söz söyləyir. Həmin söz hansı hərflə bitirsə, digər oyunçu həmin hərflə başlayan söz deməlidir. Bu oyunda diqqət edilməsi lazım olan bəzi qaydalar vardır. Onlardan biri odur ki, oyunçu elə söz seçib deməlidir ki, o sözün son hərfi elə hərf olsun ki, digər oyunçu həmin hərfə uyğun sonu "ı" hərfi ilə bitən söz söyləyə bilməsin. Məsələn; oyunçulardan biri "heyva" desə, digəri "ayı" deyə cavab verəcək və qalib gələcək. Çünki "ı" hərfi ilə söz başlamır. Oyunun bir başqa qaydası isə oyunun içində bir sözü bir neçə dəfə demək olmaz. Bir dəfə "heyva" demisənsə, yenə "h" hərfi ilə başlayan söz demək lazım olsa, onda "heyva" demək olmaz. Bəzən oyunu daha da çətinləşdirmək üçün oyunçular oyunda sadəcə ya "meyvə adı söyləmə", ya da "quş adı söyləmə" kimi qaydalar tətbiq edirlər.

## Palazagirmə

3-4 nəfər arasında oynanılır. Palazı örtürsən birinin üstünə, o biri gəlib vırır. Vıranın adını düz tapırdınsa onu yatırdırdın. Belə-belə, tapa bilməsən, yenə sən oyunda qalırdın.

## Dülədöymə

Öküzün tüküynən top qəyirirdilər. Balaca–alma yekəlihdə. 5-6 oğlan olurdu. Bı atırdı ona, o atırdı bına. Adına Dülədöymə deyirdilər.

## Dama-dama

Bu oyunda altı uşax düzülür. Biri başdıyır yoldaşlarını göstərə-göstərə deməyə:

Em-em-emişka,
Cibi dolu semişka.
Mən isdədim vermədi,
Adın qoydum hin-duş-qa...

Son söz kimdə qurtarırsa o da oyunu başlıyır.

## Gəlin gedəh...

Uşaxlardan biri deyir:

Bir-birə,
İki-iynə.
Üçü-uzun
Dördü-döşəh.
Beşi-beşih,

Altısı-ayna,
Yeddisi-yemiş,
Səkgizi-səbət,
Dokquzu-donuz,
Onu-orax,
On biri-darax
Gəlin gedəh Həcərgilin evini ya-rax.

## Tulazdırma

2 nəfər və ya 4 nəfər oğlan bir yerə toplanıb əllərində 40-50 sm uzunluqda, bilək yoğunluqda ağacla (buna tulazdırma deyərlər) 10-15 sm uzunluqda kiçik ağacı havada vurub uzağa atarlar. Kiçik ağacın düşdüyü (50-100 metr) yerə qədər yoldaşının dalına minib gedər və yerə düşüb yerdəki ağacı əlindəki ağacla daha uzağa vurmağa çalışar. Əgər vura bilsə, onda kefi kök olar, yəni udar. Yox vura bilməsə, onda o biri yoldaşı onu əvəz edər, bunun dalına minər. Həmin oyuna başlamazdan əvvəl 12 yoldaş, təqribən, biri-birindən 15-20 addım kənarda durub, addım-addım atmaqla bu sözləri deyər:

Addıx, buddux,
Kərələdih, kəsdih.

Bu sözləri hər dəfə dedikcə addım-addım yaxınlaşır və əgər gəlib qarşı tərəfdə duran yoldaşının düz ayağına dəyərsə, udurdu, yox, əgər yarımçıq qalırdısa, onda yoldaşı addım atıb bir kəlmə, Addıx... deyib, oyuna birinci atılar və tulazdırmasını işə salar.

## Ortada siçan

Üç və daha çox uşaqla oynanılan bu oyunda uşaqlardan biri ortada oynayır və digər oyunçulardan topu almağa çalışır. Digər oyunçular isə onun topu ələ keçirməməsi üçün cəld hərəkət edərək topu bir-birlərinə

atırlar. Əgər ortadakı oyunçu hər hansı bir oyunçunun əlindən topu ala bilsə, yer dəyişmə edilir. Topu əldən verən oyunçu ortaya girir və oyun bu şəkildə davam edir.

## Qırqovul

Uşaxlar yığışır və iki dəstiyə ayrılır. Hansı dəstənin birinci ortaya girməsini bilmək üçün daşın bir tərəfini isladıllar, sonra göyə atıllar. Yaş tərəfi kim tutubsa, o tərəf birinci ortaya girir. Topu kim tutsa o, can qazanır. Axıra qalanın nə qədər yaşı varsa o qədər top atıllar. Əgər yansa, qarşı dəstə ortaya girir. Beləliklə oyun davam eləyir.

## Süddü sümük

10-15 nəfərlih oğlannardan ibarət iki dəstə ilə əsasən gecə vaxtı oynanılır. Dəstədən bir nəfər sümüy atır, o sümüyü qarşı dəstədən bir nəfər axtarır. Sümüyü tapan dəstə həmin yerdən oyun yerinə qədər digər dəstənin dalına minirdi. Sonra yenə oyun təkrarlanırdı.

## Həbə

*(I mətn)*

Həbəni uşaxlar oynayır. Yeddi daş düzülür. 3 yerdən bir nəfər, 3 yerdən bir nəfər olurdu. Daş atılır. Əyər daş daş yığınının üstünə düşürdüsə, o udurdu. Təzdənnən udan adam oynuyurdu.

## Həbə

*(II mətn)*

Çala qazılırdı. Cəviz yığardıx. Uzax məsafədən durub çalıya cəviz atardıx. Kimin cəvizi çalıya düşsə, iki cüt cəviz alırdı. Qırağa düşsə, oyun pozulurdu.

## Həbə

*(III mətn)*

Bir nəfər Həbəbaşı olur. Bir dənə yumru yer qazılır. Sən durursan həbənin başında. Əlində cəviz saxlıyırsan. Deyirsən cüt. Sonra da atırsan, həbədə ikisi qaldı, udursan tək olsa, sən həbəyə o qədər cəviz verirsən.

## Həbə

*(IV mətn)*

Yerdə dairə çəkilir, iki üç nəfər həbədəkinin başını qatır ki, onu itələyib çıxartsınlar. Çıxartdısa, onda o udur.

## Həbə

*(V mətn)*

Əvvəlcə ortalıqda çala qazılır. Sonra üç dəstəyə bölünürlər. Hər dəstədə də iki nəfər olur. Hər dəstədən bir nəfər kənarda qalır, digər üç nəfər ayaqlarını həmin həbəyə (çalaya) qoyur. Aralarında sayıb iki nəfər qaçır, biri isə həbəyə qarovul çəkir, əgər yerdə qalanlardan kimsə gəlib həbəyə ayağın vurarsa, qaravul çəkən cəzalandırılır, digər oyunçuları belinə alıb gəzdirir.

## Yeddi daş

Oğlanlar 2-2, 3-3 yığılar, ortaya yastı daşlardan ust-üstə qoyub kənara çəkilər. Hər biri əlinə daha yaxşı yastı daş alıb onunla uzaqdan üst-üstə yığılmış yeddi yastı daşı dağıtmalıdır. Beləcə kiçik dairənin ortasına qoyulmuş daşları əllərindəki yastı daşla vurub kənara çıxararlar. Əgər atdığı daş boş getsə, onda o biri yoldaşı oyuna qoşular, daşları vurub çıxarmağa başlar. Kim yeddi daşı vurub dairədən kənara çıxarsa, o udmuş sayılar.

## Sapda, supda

Qız uşaqları bir evdə dairə vurub oynayırlar. Başçı qızların sinəsinə vurub deyir:

Sapda, supda,
Abil, fabil qumani.
Ikki-mikki, diremi çikki,
İnim-kinim.

Ən axırda qalan qıza söyləyirlər: "Dur get su gətir, ya da bir loxma çörək gətir". Uduzan uşaq ayağa durub çörək gətirir, ya da taxçada olan saxsı kuzədən su gətirir. Bu işi görmək tənbəl qızlara ağır gəldiyindən ərinə-ərinə yerindən qalxıb gedir. Tapşırılan suyu tapa bilməyəndə onu lağa qoyub gülürlər.

## Kəndir

Oyunda azı 3 nəfər iştirak edir. İki nəfər kənarda durub kəndiri hərləyir, bir nəfər isə ortalıqda kəndir fırlandıqca deyir:

– Mən bilirəm beş qız adını.
Mən bilirəm beş oğlan adını.
Bu zaman beş nəfər oğlan adı söyləməlidir.
- Mən bilirəm beş şəhər adını.

Daha sonra oyunçu 5 kənd, gül, parça adı söyləyir.

Əgər oyunçu kəndirə ilişirsə, büdrəyirsə, ya da düzdün tullanmırsa uduzur. Eyni zamanda sadaladığı adları tapıb düzgün deməsə uduzur, bu zaman oyunu digər oyunçular davam etdirir.

## Qələbə

20 yastı daş yığılır üst-üstə. Balaca top verilir. Top dəstə üzvlərindən birinə verilir. Həmən dəstə topla üst-üstə qoyulan daşları vurub dağıdır. Daşları qoruyan dəstə topu görütür, çalışır ki, daşları dağıdan dəstənin üzvlərindən birini topla vursun. Qarşı tərəfsə çalışır ki, top onlara dəyməsin və gəlib daşları üst-üstə yığsınlar. Topla vurulan oyunçu oyundan çıxır. Əgər dəstələrdən biri daşları üst-üstə yığa bilirsə qələbə çalır.

## Çıxqa

Bir yumru daş götürülür. Müəyyən məsafədən həmin yumru daş vurulur. Qoyulduğu yerdən həmin yumru daşın getdiyi məsafə ölçülür, sonra başqa oyunçu tərəfindən vurulur. Kim vurduğu zaman daş uzağa gedirsə, o uduzanın dalına minir, həmin məsafəni uduzan adam onu aparır.

## Əlimi siçan dişdədi

Bu oyunda iki qız iştirak edir. Qızlardan biri iki barmağı ilə o birinin əlinin üstünü çimdikvari tutur. O biri də həmin hərəkəti olduğu kimi təkrar edir. Lap aşağıdakı əlin sahibi deyir:

- Əlimi siçan dişdədi.

O biri oyunçu isə cavabında: Götür qoy yuxarı taxcıya, deyir. Oyun bu şəkildə davam edir.

## Əl üstə əl

– Uşaqlar əllərini biri-birinin üstünə qoyur. Sonra "əl üstə kimin əli" deyilir və həmin əl digər uşaq tərəfindən çimdiklənir. Həmin uşaq əlini çəkir və aşağı qoyur.

## Qoşalbəndə

İki nəfər əl-ələ yapışıb qarşı tərəfi vurmalı idi. Əlini buraxdısa uduzurdu.

## Ortada qaldı

3 uşaqla oynanılır. Məqsəd ortada qalan uşağı topla vurmaqdır. Ortada qalan isə topun ona dəyməməsinə çalışır.

## Stop

Bir uşaq topu göyə atar, digər uşaqlardan birinin adını çəkər. Adı çəkilən uşaq topu tutmağa çalışar. Digər uşaqlar isə qaçar. Topu tutan uşaq stop deyəndə qaçan uşaqlar da olduğu yerdə durar. Sonra topu tutan uşaq digərlərini topla vurmağa çalışar.

## Səkkiz daş

Bu oyunda səkkiz daşdan birini göyə atıb digər yeddi daşı bir bir barmaqların arasından keçirmək lazımdır. Daş yerə düşməməlidir.

## Aradan kır

Həbə qaldırılırdı. Hər iki komandada altı nəfər olurdu. Biri həbədə duran olurdu. Qum gəlirdilər ki, kim dursun, kim qovalasın. Tapammıyan qalırdı həbədə. Bunnar o birilərini qovlayırdı. Gedib əlini toxunduranda yanırdı. Əyər qavalıyanda bu biri gəlib aradan keçsəydi, bu kırr... deyir. Kim çox kırr.. deyib keçsəydi o qabib olurdu.

## Aldımqaç

2 dəstə olur. Ortada bir həbə, daş qoyurlar. Sonra topla vururlar. Keçəndə deyirlər, "çürüyür", yəni keçdi. Udurlar. Həmin həbəni keçməyəndə uduzurlar.

## Qaya

Halqa şəklində cızıq çəkilir. 1 dəstə cızığın içində, bir dəstə eşikdə durur, əl-ələ yapışıb bir-birlərin dartırlar. Cızıqdan çıxmadan kimin ayağı kimə dəyərdisə uduzurdular. Cızıqdan çıxaranda isə udurdular. Uduzanı qayışla vururlar.

## Çilingağac

*(I mətn)*

2 ağac yonulur. Birini digərinin üzərinə qoyub belə sayırlar:
Biri alış,
İkisi malış,
Üçü adə,
Şaqqulu badə,
Çil çəmədan

Xoruz badəm – deyib bir çubuqla digərini vururlar. Dayandıqları yerdən 7 ağac kənara düşərsə, oyunçu dizləri üstə sürüşərək gedib ağacı gətirir.

## Çilingağac

*(II mətn)*

İki və daha çox uşaq tərəfindən oynanılır. Uzunluğu biri-birindən fərqli olan iki çubuq götürülür. Meydanın ortasında kiçik bir çala qazılır. Oyunçu çubuğu əlində başı yuxarı şəkildə tutur. Kiçik çiling ağacı əlin üstündə böyüyə perpendikulyar şəkildə qoyulur. Oyunu başlayan adam çalanın yanında durub böyük çubuqla kiçiyi havaya atır. Oyunçu çalışmalıdır ki, çubuq daha uzağa düşsün. Digər oyunçu yerə düşən çubuğu götürüb saxlayır. Əvvəlki oyunçu böyük çubuğu çalanın üstünə uzadır. İkinci oyunçu isə əlindəki çilingi çalanın üstündəki çubuğa sarı elə atmalıdır ki, ona dəysin. Əgər kiçik çubuq böyük çubuğun üstünə düşsə, onda qələbə çalınır. Bu zaman oyun o biri oyunçunun əlinə keçir. Əks halda oyunu yenə birinci oyunçu davam etdirir.

## Çiliyağac

*(III mətn)*

Bir uzun, bir qısa ağac götürür, biri burdan durub uzun ağacla qısanı vurur. Kiçik ağac çiliy adlanır. Sən vurursan, qarşıda duranda uzun bir ağac olur. Vurduğun ağacı göydə vurdusa sən yandın. Sənin vurduğunu o qaytara bilmədisə, o yorulana qədər müxtəlif istiqamətlərdə ağaçı sən vurursan, o gətirir.

## Fildəstə

2 ağac olur, biri uzun, biri balaca. Çuxur qazılır. 2 dəstə olur. Çuxura ağacı salırlar, o biri ağacla vururlar, ağac hara düşsə o biri dəstə ordan ağacı vurur, vura bilsə udurlar.

## Diy-diy

İki dəstə olur və hər ikisində də eyni sayda adam. Hər dəstənin başçısı olur. Bu başçıların da əlində taxta. Hər ikisi əvvəlcə gözlərin yumar, digər iştirakçılar gizlənər. Daha sonra başçılar oyunçuları axtarır, tapan zaman isə səs çıxarmırlar. Sadəcə əlindəki taxtanı yerə vurub – "Dıy filankəs" deyərlər. Beləliklə, sonda hansı dəstənin daha az iştirakçısı qalmış olursa həmin dəstə qalib hesab olunur.

## Mozux

Yumru daş qoyulur. Kim o daşı vursa oyuna birinci adam sayılır. Qalanlar onun ardınca sıraya durur, bir-bir hamı vırır. Onu vırırsan müəyyən məsafəni gedənnən sonra həmin məsafədə arxadakı dostunu çiyninə alır, aparır qoyur yerə. Uduzan da yenə arxadakıları alır çiyninə, aparır. Belə bu cür oyun davam edir.

## İnəhlərdən kimin inəyi

İki dəstə olur. Bir dəstə soruşur ki, inəhlərdən kimin inəyi? Mən deyirəm ki, Novruzun inəyi. Gərək o inəyin sahibinin adını deyənə qədər, bir əli boynuna, digər əli də çiyninə qoyula. Digər dəstə o inəyin sahibini tapana qədər onun qolundan vurur. Əgər tapdısa uduzanın dalına minirlər, düz o inəyin sahibinin qapısına qədər daşıyır.

## Oyunqabağı

Uşaqlar bir yerə yığılır və başçı sayır:
Hop, hopop, hüsrü kosa,
O kimdir kəssək ata,
Kəssəyin ortasına,
Muradın yatmasına,
Muradın beş qardaşı,
Əlinə aldı daşı,
Daş gətir ocaq qala,
Su gətir nehrə çala,
Yala-yala çıx qırağa...

## Adın qoyduq

A teşdi, teşdi, teşdi,
Vurdu Gilanı keşdi.
İki xoruz dalaşdı,
Biri qana bulaşdı.
Qan axdı getdi çaya,
Çaydan göyərçin uşdu.
Göyərçin, alapaxta,
Yuvası qəlbi taxtda.
O yanı taxda,
Bu yanı taxda,
Şakqulu bəy otaxda.

Uşaqlar hər hansı bir oyun zamanı kimin əvvəl, kimin axır və ya kimin qaçan, kimin qovan olduğunui bilmək üçün sanamalardan istifadə edərlər:

Əhdim noxud,
Çıxdı söyüd,
Yarpağıdı şahpalıd (şabalıd).

Sələmə səlli,
Qırx dokquz əlli,
Nal, mıx, qırx.
*Və ya:*
Əl–əl əpənəh,
Əldən düşdü kəpənəh.
Kəpənəyin yarısı,
Yumurtanın sarısı.
Baba, hara gedirsən?
Ala dağa gedirsən?
Ala dağa gedirəm.
Ala dağda nəyin var?
Muncux düzən qızım var.
Qızın bir oğlan doğdu,
Adın qoydux Süleyman.

Bu arada uşaqlar həm də dalaşıb küsüşərdilər. Bu zaman kiçik barmaqlarını qaldırıb bir-birinə göstərərək deyərdilər:

Xəncəl, bıçax, kəs–küs,
Xırda bıçax, kəs–küs.
O adam yalvarmasın,
Qapımızdan boylanmasın,

Məktub yazıb yollamasın,
Qəndimizi oğramasın,
Yayda mənnən oynama,
Qışda mənnən oynama!

## Suqra-muqra

Qızlar əllərini yumar, yumruqları ortada şaxlar, başçı əli ilə onların yumruqlarının üstündən vurub deyər:

Suqra, muqra, abil-fabil qumani,
İkki, mikki, diremə çikki, inim-kinim.

Kimin yumruğunda söz qurtarsa, o adam oyundan çıxar. Axıra kim qalırsa, o da udar.

## Molla, molla, bu neçədi?

Bir oyunçu başını dizlərinin üstə qoyar. Qalanları da əli ilə onun başına vurub deyər:

Molla- molla, hariki,
Başa keşirim çariki,
Molla-molla,
Bu neçədi?

Onun başının üstündə əli ilə hansısa rəqəmi göstərər. Əgər başı aşağı əyilmiş uşaq düz tapa bilsə, onda onu başqası əvəz edər. Yox, əgər tapa bilməsə, onda oyun davam edər.

## Beş barmaq

Bəzən də kiçik uşağın əlini, ovcunu, barmaqlarını tanıdaraq deyərlər:

– Bura bir darı xərməni, ortasına bir quş qondu, bu tutdu, bu kəsdi, bu bişirdi, bu yedi, vay, kiçiyə qalmadı.

Və ya:

5 barmağı göstərərək deyərlər:

Baş barmax dedi: – Gəlin gedəh oğurruğa!
Şəhadət barmağı: – Bəs pilləkən?

Orta barmax dedi: – Mənnən uca pilləkan?

4–cü barmax dedi: – Bəs Allahdan qorxmursuz?

5–ci kiçik barmax dedi: – Yox!

Yox dediyinə görə nənə onu cəzalandırır. Bu üsulla da kiçik yaşlarından nəvəsini düz yola çəkməyə, ədalətli olmağa çağırır.

## Aşıq oyunu

"Dirsə xanın oğlancığı, üç dəxi ordı uşağı meydanda aşıq oynarlardı".

***"Kitabi-Dədə Qorqud".***

❋ Aşığı yığırlar oynamaq üçün.
❋ Aşığı uduzub, çulqurna güvənir.

***(El deyimləri)***

Aşığın altı üzü olur: "alçı", "toxan", "cik", "bök", "buynuz-buynuz", "künə".

Alçı – aşığın yan-şökək tərəfi;

Toxan – yan qabarıq üzü;

Cik – çökək üz tərəfi;

Bök – qabarıq üz tərəfi;

Buynuz – dik qabaq tərəfi;

Künə – dik arxa tərəfi.

İri, ağır aşığa "Səqqə" deyirlər.

## Sörümə

Ən sadə oyundur. Çox vaxt iki oyunçusu olur. Bəzən bir neçə oyunçusu da ola bilər. Oyunçular əvvəlcə səqqələrini ovucun içində fırladıb yerə atırlar. Səqqəsi alçı vəziyyətində duran oyuna birinci başlayır. Sonra oyunçular növbə ilə səqqələrini yerə atırlar. Səqqəsi alçı duran rəqibindən bir aşıq alır. Alçı olmayanda oyun davam edir.

# Quşdurma

Bu da iki iştirakçı ilə oynanılır. Hər oyunçu dörd aşığı ovcunda tutaraq, rəqibindən aşıqların hansı üzü üstə yerə düşəcəyini soruşur, aşıqları qarışdırıb yerə tullayır. Aşıq rəqibin dediyi üzü üstə düşəndə, o, aşığı götürür. əgər o dediyi kimi olmayıbsa, yerdəki aşıqların sayı qədər aşıq verməlidir.

# Salma oyunu

Salma oyunu da aşıx oyununun bir növüdür. Bu oyunda neçə nəfər istəsə oynaya bilər. Oyuna başlamax üçün oyunçular dairəvi vəziyyətdə durub sakka aşığı yerə atıllar. Hansı oyunçunun aşığı tava vəziyyətində durubsa, bək duran aşıxları, avçı vəziyyətində durubsa cik duran aşıxları götürür.

Əgər bir oyunçunun aşıxları bək, o birilərininki cih dursa, bək duran aşıx cihləri bir-bir vurub döndərməlidir. Oyunda bu cür döndərməyə "şörümək" deyilir. Əgər oyunçu şörüyü döndərə bilməsə, dönməyən aşığın sahibi onu vuran aşığı şörüyüb döndərməlidir. Aşıxlar qurtarana kimi oyun belə davam edir.

# Sökü

Bir neçə nəfər oynaya bilir. Oyunçular növbə ilə aşıqlarını yerə atırlar. Alçı duran aşıq bütün cikləri, toxan duran bütün bökləri "yeyir". Azlıqda qalan aşığın oyunçusu oyuna birinci başlayır. Əgər aşıqlar eyni üzü üstə düşüblərsə, götürüb təzədən atırlar.

## Qalaqurma

*(I mətn)*

Buna qələşək, qələşəngi də deyirlər. Burada əsas məqsəd qurulmuş qalanı vurub uçurmaqdır.

Bu oyunda, adətən, 2-4 nəfər iştirak edir. Əgər iki oyunçudursa, qalaya hərə iki aşıq, oyunçunun sayı çoxdursa, hərə bir aşıq qoyur. İki aşıq alçı, ya da toxan vəziyyətdə yerə qoyulur. İki aşıq da həmin aşıqlara perpendikulyar vəziyyətdə onların üstünə qoyulur. Hərəyə iki aşıq qoyan dörd iştirakçı varsa, "qalanı" qurmaq üçün aşağıda üç aşıq alçı vəziyyətdə yan-yana, dördüncü onların "buynuz" tərəfindən perpendikulyar qoyulur. Yuxarıya da dörd aşıq düzülür. Beləliklə, qala qurulur.

Oyunçulardan biri qalanın arxasında duraraq səqqəsini müəyyən məsafəyə atır. Əgər səqqə alçı, ya toxan durubsa, onun durduğu yerdən qalanı vurur, səqqəsi ilə eyni vəziyyətdə olan aşıqları götürür.

## Qələsəngi oyunu

*(II mətn)*

Qələsəngi aşıq oyununun bir növüdür. Bu oyunu 2, 4, 6, 8, 10 nəfər oynaya bilər. Hər oyunçu eyni sayda aşıq qoymaqla şahmat şəklində aşıqlardan "qala" qurur. "Qala"ya iki və ya üç cərgə aşıq düzülür. Bu düzgüdə aşıqların bir cərgəsi avçı, bir cərgəsi isə tava vəziyyətində qoyulur. Hər oyunçunun əlində aşıqları vurmaq üçün əlavə bir aşıq olur ki, buna da sakka deyilir. Sakka adətən qoçun, ancaq sağ ayağının aşığından seçilir və böyüklüyünə görə digər aşıqlardan fərqlənir. Sakkanın ağırlığını artırmaq üçün bəzən onu deşib içinə qurğuşun tökürlər ki, onunla yaxşı vura bilsinlər.

Oyuna başlamaq üçün oyunçular sakkanı üç-dörd metr aralıdan "qala"ya tərəf atırlar. Hər kimin sakkası "qala"ya yaxın düşsə, birinci oyuna o başlayır və sakkası düşən yerdən "qala"dakı aşıqları vurur. Bu

zaman onun sakkası hansı vəziyyərdə (tava, avçı, cik, bək) durursa, “qala”da dağıtdığı aşıqlardan o vəziyyətdə buranı udub götürür. Yəni sakka bək vəziyyətində durubsa, bək duran aşıqları, cik vəziyyətində durubsa cik duran aşıqları, tava vəziyyətində durubsa həm bək və tava vəziyyətində duran aşıqları, avçı vəziyyətində durubsa, həm avçı, həm də cik vəziyyətində duran aşıqları udub götürür. Əgər oyunçunun sakkası ilə “qala”dakı aşıqlar eyni vəziyyətdə durmayıbsa, onda oyunçu oyunu davam etdirir. Qaydaya görə, ikinci oyunçu sakkası isə durduğu yerdən əvvəlki oyunçunun sakkasını və ya “qala”dakı aşıqları vura bilər. Bu həmin oyunçunun özündən asılıdır. O, oyuna başlarkən əvvəlki oyunçu ondan soruşur:

- Sakkanı vurursan, ya aşığı?

Vuran oyunçu birinin adını deyir və sakkasını atır. Əgər o özündən əvvəlki oyunçunun sakkasını vursa, onda əvvəlki oyunçunun udduğu aşıqları geri alır, “qala”dakı aşıqları vursa, onda sakkası ilə uyğun gələn aşıqları udub götürür. Qaydaya görə, həmin oyunçu dediyini vura bilmirsə və yaxud sakkası avçı, tava vəziyyətində durmursa, oyunu üçüncü adam davam etdirir. Beləliklə, oyun axıra çatdırılır.

Oyun qurtardıqdan sonra uduzan oyunçunun ixtiyarı var ki, çuruna oynasın. Bu o deməkdir ki, uduzan oyunçu udan oyunçu ilə belə şərt kəsir ki, əvəzimdən oyuna iki aşıq qoy. Uduzsam, sakkamı verəcəyəm. Əgər udan oyunçu buna razı olsa, onlar çuruna oynayır, razı olmasa oyun qurtarır.

## Çıxma

Əsasən iki nəfər oynayır. Oyunçulardan biri dayandıqları yerdən öz səqqəsini müəyyən məsafəyə atır, yəni “çıxır”. Digər oyunçu öz səqqəsi ilə onu vurmalıdır. Əgər vura bildi, bir aşıq alır, vura bilməsə, bir aşıq verir.

# Sultan

Kollektiv oyundur.

Yerdə bir fiqur çəkirlər. Buna “göz” deyilir. Oyunçuların sayından, oynanılacaq aşıqların miqdarından asılı olaraq “göz”ün ölçüsü müəyyənləşir. Gözün tən ortasından 20-25 santimetr xətt çəkilir. Bu xəttə həbə deyilir. Həbəyə hər kəs eyni miqdarda aşıq qoyur. “Göz”dən 3-5 metr aralı vuruş xətti çəkilir. Oyunçular növbə ilə vuruş xəttindən durub həbədəki aşıqları vururlar.

# Cızıq

*(I mətn)*

Kollektiv oyundur.

Kələ-kötür olmayan bir yerdə diametri, təxminən, 1,5-2 metr olan bir dairə çəkilir. Cızıq kənarları ilə birlikdə bu dairəyə deyilir. Dairənin ortasından mərkəzdən eyni məsafədə olmaqla 25-30 sm uzunluğunda düz xətt çəkilir. Oyunçuların hər biri razılaşdırılmış sayda aşığı bu xəttin üzərində yan tərəfi üstündə, alçı, ya toxan olaraq düzürlər. İştirakçının sayı çox oldüqca cızığa hər kəs daha çox aşıq qoyur. Dairədən 4-6 metr aralı, dairənin mərkəzindəki xəttə paralel olaraq xətt çəkilir. Bu xəttə vuruş xətti deyilir.

Oyunçular bu xəttin arxasında durub dairənin mərkəzindəki aşıqları səqqə ilə vuraraq cızıqdan kənara çıxarmalıdırlar.

Oyuna birinci başlayacaq oyunçu və sonrakı növbə müəyyən edilir. Bunun üçün bütün oyunçuların səqqələrini ovucun içində qarışdırıb yerə atırlar. Alçı duran səqqənin sahibi birinci olur. Eyni qayda ilə sonrakı oyunçuların növbəsi müəyyən edilir.

# Cızıq
## *(II mətn)*

Bu oyunda beş-altı nəfər oynaya bilər. Oyuna başlamaq üçün bir metr diametrdə dairə çəkilir və tən ortadan xətlə iki yerə bölünür. Sonra dairənin mərkəzi işarələnib ona qırmızı və yaxud başqa rənglə rənglənmiş omba vəziyyətində bir aşıq qoyulur. Qaydaya görə hər oyunçunun eyni sayda qoyduğu aşıqlar həmin aşığın hər iki tərəfinə bərabər sayda düzülür. Oyunçuların razılaşmasına görə bu aşıqlar həm avçı, həm də toxan vəziyyətində qoyulur.

Şərtə görə oyunçular 3 metr aralıqda durur və növbə ilə mərkəzə qoyulmuş aşıqları sakka ilə vurub dairədən çıxarmağa başlayır. Əgər oyunçu ilk zərbədə qırmızı aşığı vurub dairədən çıxarsa, onda oradakı bütün aşıqları udub götürür. Qırmızı aşığı yox, digər aşıqları çıxarsa, oyunu davam etdirir və dairədən aşıq çıxarana qədər oynayır.

Oyun zamanı hər hansı oyunçunun sakkası həmin aşıqlara dəymirsə, növbə ilə yerini digər oyunçuya verir. Beləliklə, dairədəki aşıqlar qurtarana qədər oyun davam edir.

# Aşıqla oyun

Aşığın üzlərinə müəyyən adlar verilir. Məsələn, toxan bəy, alçı-hər hansı bir heyvan və ya axmaq, cik-ac, bök-tox adlandırılır. Bəzən aşığın domba üzünə dəvə deyirdilər.

Bir nəfər oyuna başçılıq edir. O, səqqəni əlində sahmanlayıb, oyunçulardan birinin adını çəkərək deyir:

- Qara, Qara, nə Qara?

Sonra səqqəni yerə atır. Tutaq ki, aşığın toxan üzü düşür. Oyuna başçılıq edən deyir:

- Bəy Qara.

Sonra səqqəni bir də ataraq soruşur:

- Bəyliyi nədəndir?

Atdığı aşıq, tutaq ki, bök düşdü. Onda oyuna başçılıq edən deyir:

- Toxluğundan.

Sonra səqqəni ataraq soruşur:

- Süfrəsini kimlər açar?

Bu dəfə, məsələn, aşıq cik düşür. O halda oyuna başçılıq edən deyir:

- Süfrəsini aclar açar.

Növbəti dəfə soruşur:

- Süfrəsini kimlər yığışdırar?

Bu dəfə də, məsələn, aşıq alçı düşür. O da deyir:

- Süfrəsinin uzunqulaqlar yığışdırar.

Bundan sonra oyuna başçılıq edən səqqəni sonuncu dəfə yerə ataraq soruşar:

- Axırda Qara bəy nə olar?

Səqqənin hansı üzü yerə düşsə, oyuna başçılıq edən də həmin uşağın gələcəkdə nə iş sahibi olacağından "xəbər verir".

## Bəyim, bəyim

*(II mətn)*

Aşığı göstərillər, deyillər ki, bunun bir üzü oğru, bir gizir, biri bəy, cəllad. Bəyim bəyim bir oğru tutmuşam. Neyləyim. Dam yardım dana çıxartdım. Buz yardım buzov çıxartdım. Telli toqqalı gəlin gətirdim. Bəyim, oğruya neçə şallaq vuraq? Bəy deyir, iki şallaq mütləq çüt olmalıdı. Tək desə, vəzirin özünə vurulmalıdı.

## Aşıq

Aşıq heyvanın dal ayağının oynağında olan sümükdür. Oyunu bir neçə nəfər oynayır. Əvvəlcə bir xətt çəkilir. Ortaya aşıqlar qoyulur. Bir qədər aralıdan cızıqdakı aşıqlara aşıq atılır. Buna səkkiz aşıq deyilir. Cızıqdan çıxan aşıq çıxaranın olur.

## Rəngbərəng

Uşaqlardan biri deyir:
Rənglə-rəng...
Yerdən: Hansı rəng
Çəhrayı
Yerdəki uşaqlar həmin rəngi göstərməlidirlər. Əgər kim göstərə bilmədisə oyundan kənarlaşdırılar.

## Zülü-lülü hovuza

Zülü-lülü hovuza,
Bir quş qondu buruza.
Bu tutdu (Uşağın birinci barmağın qatlayır),
Bu başın kəsdi (orta barmağı qatlayır),
Bu bişirdi (adsız barmağı qatlıyır),
Bu yedi (Cüncülük barmağı qatlıyır),
Bəs bu dedi mənim payım hanı?
Baş barmaq dik dayanır və o biri əl ilə vura-vura deyir:
Gedin bunun payını gətirin.
Qaqqala pişik apardı,
Tumanı düşük apardı.
Sonra da baş barmağın başından tutub sıxır və deyir:
Pırr, uçdu getdi babasıgilə,
Pırr, uşdu getdi nənəsigilə.
Bu zaman ağlayan uşaq gülümsüyər, üzünü nənəsinin tumanına sürtər.

## Hoppan–huppan

Uşaqlar əllərini uzadıb, barmaqlarını tutaraq bu sözləri deyir:
İynə-iynə,
Ucu düymə.
Bəy bəyincə,
Qatır keçi.
Qoz ağacı
Qotur keçi,
Hoppan-hoppan,
Tıs-pıs.

Bir, iki, bizimki,
Üç, dörd, qapını ört.
Beş, altı, daş altı.
Yeddi, səkkiz, Firəngiz,
Dokkuz, on, qırmızı don

## Samovar oynu

10-15 nəfər uşaq arasında oynanılır. Bu oyunda uşaqların sayı nə qədər çox olsa oyun bir o qədər maraqlı keçər. Uşaqlar öz aralarında 2 başçı seçirlər. Başçılar da öz növbəsində sağ və sol tərəfdə yerlərini alırlar. Sağ tərəfdəki başçı bir meyvə (alma), sol tərəfdəki başçı isə başqa bir meyvə seçir (armud).

Onlar əllərini körpü vəziyyətinə gətirir, uşaqlar isə sıra ilə, ard-arda bu körpünün altınnan keçir. Samovar şəkli alan "körpünün" altınnan keçərək deyirlər:
Samovarım var idi,
İçi dolu çay idi.
Samovarım qırıldı,
Çayım yerə töküldü.

Sonda qalan yarışmaçını bu 2 başçı əlləri ilə arakəsmə yaradaraq dayandırır, sıra ilə sual verirlər: alma, yoxsa armud? Əgər yarışmaçı alma desə sola, armud desə sağa keçir. Bu oyun eyni ilə davam edir. Hər sona qalan yarışmaçı arakəsmə ilə dayandırılır. Ən sonda hansı tərəfin yarışmaçıları çox olsa o tərəf, qalib sayılır.

## Daş saldı

Uşaqlardan biri əlinə kiçik bir daş alır, uşaqların əlinin içindən bir neçə dəfə keçirir. Sonra daşı uşaqlardan birinin əlinə salır və onu yanına çağırır. Həmin uşaqla birlikdə hər hansı bir sözün baş hərfini deyirlər. Davamını ən tez deyən uşaq qalib sayılır.

## Domdom

Təbaşirlə yerdə damalar çəkilir və damalarda birdən ona qədər rəqəmlər yazılır. Yastı daşla oynanılır. Tək ayaq üzərində durmaq şərtilə birinci damadan onuncu damaya kimi daş ayaqla aparılır. O xətlərdən hansısa birinin üzərinə düşürsə, oyunçu uduzur. Oyun bitdikdən sonra arxası domdoma tərəf duran oyunçu başı üzərindən daşı atır. Daş hansı damanın üzərinə düşərsə onda o dama oyunçunun evi sayılır. Həmin damanın içindən təbaşirlə yol cızılır və digər oyunçuya "siçan yolu" verilir.

## Şah vəzir

Oyun dörd nəfərlə oynanılır. Yerə düz xətt çəkilir, qarşısında bir-iki metr uzaqlıqda yer qazılır. Oyunçular əllərində beş daş xətdə durub daşları atırlar. Beş daş atan şah, 4-3 daş atan vəzir, 2 daş atan at, 1 daş atansa uzunqulaq adlanır.

## Hoppo-cippo

Bu oyun üç nəfərlə oynanır. Böyük dairə çəkilir, bir nəfər əlində çubuq dairənin içində durur. Digər oyunçu əlində nazik çubuq dairənin kənarından atır. Kənardakı oyunçu nazik çubuğu dairənin içinə uzadır. Dairədəki oyunçu çubuqla dairədəki çubuğu kənara atmalıdır. Atmasa uduzar. Atarsa kiçik çubuğu atdığı yerə qədər atanı oyun yoldaşının belinə minərək gedər. Bu zaman oyunçunun belində əilib çubuğu götürməlidir. Yoxsa uduzar.

## Nə yedin

Uşaqlar dairə vurub əyləşirlər. Biri o birinə deyir!
– Filankəs sənin haqqında pis sözlər dedi.
– Nə vaxt?
– Bu gün.
Harada?
– Evlərində
– Sən onlarda nə edirdin?
– Qonaq çağırmışdı.
– Nə yedin?
– Neçə cür yemək.
– Neçə cür yeməyi necə qarnına yığa bilmisən. Bu bir sözü niyə qarnında saxlaya bilmədin?

## Kəpənək

İki nəfər üz-üzə dayanaraq əllərini bir-birlərinin əlinə həm çarpaz, həm də düz şəkildə və öz əllərinə tez-tez çırparaq ritm tuturlar və eyni anda oyunun hər iki iştirakçısı aşağıdakı təkrarləməni oxuyur, yaxud da oyunçular misraları növbə ilə ardıcıl olaraq deyişirmiş kimi söyləyirlər:

Əl-əl əpənək,
Əldən çıxdı kəpənək.
Kəpənəyin yarısı,
Yumurtanın sarısı...

Digər oyunçular da əl çırparaq eyni təkərləməni söyləyərək ona qoşulurlar. Oyun dairədəki oyunçunun ordakılardan biriylə yer dəyişməsi ilə davam edir.

## Kəpənək

*(I mətn)*

Əl-əl əpənəh,
Əldən düşdü kəpənəh.
Kəpənəyin yarısı,
Yumurtanın sarısı.
Baba, hara gedirsən?
Ala dağa gedirsən?
Ala dağa gedirəm.
Ala dağda nəyin var?
At oynadan oğlum var,
Muncux düzən qızım var.
Qızım bir oğlan doğdu,
Adın qoyduq Sü-ley-man.

## Kəpənək

*(II mətn)*

Əl-əl əpənək,
Əldən çıxdı kəpənək,
Kəpənəyin yarısı,

Yumurtanın sarısı.
Əmi hara gedirsən?
Ala dağa gedirəm.
Ala dağda nəyin var?
Bir oğlum var, bir qızım.
Oğlunun adı nədir?
Ənvər.
Qızının adı nədir?
Fatma.
Fatmanı verdik ərə,
Qarnı yoğun Ənvərə.

## Kəpənək

*(III mətn)*

Əl-əl əpənək,
Əldən çıxdı kəpənək,
Kəpənəyin yarısı,
Yumurtanın sarısı.
Yumurtalar hindədi,
Əldə durmaz kündədi,
Kündə təndir içində,
Kəndiri ver çərçiyə,
Çərçi satsın qəpiyə,
Çəpik çalan darğadı,
Burda duran qarğadı.

## Dizədöymə

Bı oyunu əvvəllər uşaxlar oynuyardı. Əmə bı birəz çətin oyundu ona görə də bını pütün uşaxlar oynuya bilmirdi. Birəz yekə uşaxlar iki yerə ayrılırdılar. Ortuya bir dənə yumru cızıx çəkillər. Sora sayırdılar:

İynə-iynə,

Ucu düymə.
Şam ağacı
Şatır keçi,
Qoz ağacı
Qotur keçi
Happıl-huppul,
Su iç, qurtul.

Axırıncı sayanda kimdə qalsa o dəsdə cızığın içinə girirdi. O biri dəsdə də eşdə qalır. İçəridəkilər ayaxlarnın altına qəyişdən-zaddan qoyurdular. Eşdəkilər onu götürməx istəyirdilər. Əmə onnar ayaxlarıynan bınnarı vırıp götürməyə qoymurdular. Əgər vıra bilsələr çıxırdılar eşiyə, onnar girirdilər içəri. Ya da ki eşdəkilər onnardan birini dartıp eşiyə çıxardırdılar və onun qəyişin götürməyə çalışırdılar. Ya da tərsinə, içəridəkilər eşdəkiləri içəri salırdılar. Əgər eşdəkilər qəyişdərdən götürsə, onnan içəridəkiləri vırırdılar. Qəyişdərin hammısın ələ keçirdən dəsdə oyunu udurdu.

## Biz

Bu, oğlanların oyunudur. Hər oyunçu başmaqçı bizinə oxşayan biz hazırlayır, bunun ucunu möhkəncə itiləyirlər.

Oyunu növbə ilə davam etdirirlər. Gərək bizi əvvəlcə barmaqlarının ucunda dayayıb o biri əllə elə atalar ki, mütləq onun ucu torpağa batıb dik dayana. Biz batmayıb yerə düşəndə oyunçu "yanır" və ya "ölür". Bu zaman oyun növbəsi başqasına keçir. Barmaqlarının ucundan sonra biz əlinin içindən, üstündən, dizindən, çiyinlərindən atılmalıdır. Həmişə bizin sivri ucu torpağa batmalı, dik qalmalıdır.

Bunların hamısını yerinə yetirən oyunçu udmuş hesab edilir.

## Beşdaş

Bu oyunu qızlar, oğlanlar bir yerdə oynayırlar. Ortaya beş dənə yumru, hamar, balaca daş qoyulur. Birinci daşın birini əlinə alıb havaya

tullayır. Daş yerə düşənəcən o yerdəki daşları bir-bir götürməli, sonra havaya tulladığı daşı tutlalıdır.

İkinci mərhələdə daşların dördünü ortalığa atmalı, birini havada tutmalıdır. Sonra yerdəki daşları birdəfəyə götürüb havaya tulladığı daşı tutmalıdır.

Üçüncü mərhələdə barmaqlarını körpü vəziyyətinə gətirməli, bir daşı havaya atmalı, yerdəki daşları körpü vəziyyətindəki əlinin altından keçirə-keçirə havaya atdığı daşı tutmalıdır.

Daşı tuta bilməyəndə, ya da çaşanda oyunçu "yanır", onu başqası əvəz edir.

## Cipbolik

Bəzi yerlərdə balaca şeylərə, hətta adamlara da "cipbolik boydadır" deyirlər. Kiçik bir dəri parçasına, xırdaca qurğuşum parçası bərkidilir, bu da cipbolik adlanır.

Bu oyun oğlanlar üçündür. Tək ayaq üstündə dayanır, bükülüb yuxarı qaldırılmış ayaqla cipboliki oynadırlar. Kim axıra qədər "yanmadısa" o udur. Oyunun ikinci hissəsi çiləmə, bəzən də tərləmə adlanır.

Udanla uduzan müəyyən məsafədə dayanırlar. Uduzan cipboliki udanın ayağına atır. Udanın ayaqla vurduğu cipbolik hara düşürsə, uduzan gedib onu gətirməlidir.

## Dız

Oğlanlar arasında oynanılır. Bir oğlan əlini o biri qolunun altına qoyur. O biri əlini isə dirsəyindən bükülü halda qulağına dayayır. Bu vəziyyətdə arxasını yoldaşlarına tərəf çevirir. Yoldaşlarından biri astaca ona yaxınlaşır, qulağına dayadığı əlinin üstündən vurub öz yerinə qayıdır. Sonra bütün oyunçular bir-birinə qoşulub səs-səsə verirlər:

- Duzz, dızz...

Bundan sonra vurulan oyunçu arxaya çevrilməli, onu vuranı tapmalıdır. Düz tapa bildisə, vuran onu əvəz edir.

# Zilina

*(I mətn)*

Bu oyunu adətən qızlar təklikdə və ya oğlanlarla birgə oynayırlar. Xeyli sayda uşaq oynaya bilər. Bütün uşaqlar əl-ələ yapışır və dövrə vururlar. Ortada bir uşaq çöməlib oturur. Digər uşaqlar da onun başına fırlanaraq onun adını çəkir və oxuyur:

Məsələn:

Züleyxanın anası şəkərbura bişirdi.
Qalınlığı bu boyda,
Uzunluğu bu boyda,
Qıssalığı bu boyda.
Qalx ayağa, qalx,
Ətrafına bax,
Kimi sevirsən,
Tut qolundan dart!

Uşaq ayağa qalxır və ətrafına baxıb birini yerində oturdur. Beləcə bütün uşaqlar növbə ilə bir-birini dartır və oturdur.

# Zilina

*(II mətn)*

Uşaqlar yenə əl-ələ yapışıb oxuya-oxuya dövrə vururlar: Zilina, zilina hopalicca hop – deyəndə hərə bir cür əyləncəli, gülməli duruş alır. Kim gülürsə o ortaya yatır və qurbağa olur.

# Qirqovul

Bu oyunda nə qədər istəsən uşaq oynaya bilər. Amma gərək ki, uşaqların sayı cüt ola. Çünki uşaqlar iki dəstəyə ayrılır. Bəzi hallarda oynamaq istəyən uşaqların sayı tək gəlir. Bu zaman uşaqlar bölünür. Hər iki dəstənin rəhbəri üz-üzə durub seçimə belə başlayır:

- götürdüm göyü,

digər dəstənin başçısı deyir:

- götürdüm yeri.
- Götürdüm Həsəni

digər dəstənin başçısı deyir:

- Götürdüm Hüseyni
- Götürdüm Fatmanı
- Götürdüm Cəmiləni.

Bu seçim sona qədər belə gedir. Hər iki tərəfdə uşaqlar sayı eyni sayda olarsa tək qalan uşaq Xoruz olur. Yəni hər yeni oyun başlayanda hər iki tərəfdə oynayır.

Oyunun qaydaları: düz ərazidə düzbucaq şəklində xətt çəkilir. Hardasa uzunluğu 8-10 m, eni 4-6 m (bu şərtidir uşaqların sayına və ərazini böyüklüyünə görə dəyişə bilər) olurdu. Qəpik və ya quruşla pük atılır. Udan dəstənin başçısı oyuna birinci başlayır və ortaya girir. Qıraqda qalan dəstə ikiyə bölünüb uzununa olan xəttin hər iki tərəfində dururlar. Əllərindəki topla (alınma top olmayanda və ya dövrü qədimdən corabın içinə cır-cındır yığıb iplə bağlayardılar) içəridəkiləri vurmağa çalışırlar. Top içəridə olan uşaqların hansına dəyirsə bir-bir oyundan çıxır. Oyunun qaydasına görə bilmədən də olsa çızıqdan çıxan uşaq oyundan çıxır. Əgər atılan toplardan yavaş gələn birini içəridəki uşaq yerə salmadan tuta bilirsə buna HOP tutmaq deyirlər. Oyun zamanı əsnasında qabliyyətli uşaqlar xeyli sayda hop tuta bilirlər. Bunun çox əhəmiyyəti var. Çünki uşaqlara oyun zamanı töp dəyərsə, yəni vurularsa o uşqaqların hesablarında nə qədər hopları varsa o can hesab olunur. Və ondan istifadə edirlər. Axıra qalan uşaq oyunun sonunda **sayılır** (sayılan uşağın hop tutmaq

hüququ yoxdur. Həm də belə uşaq lap çevik, cəld uğaq olmalı idi ki, top zərbələrindən yayına bilsin) . Tək qalan uşağa oyunun sonunda 7 dəfə top atılır, əgər dəyməsə komanda yenidən içəridə olur. Dəyərsə, digər komanda xəttin içinə girir.

## Bayraq qaçırma

Bu oyunda nə qədər istəsən uşaq oynaya bilər. Amma gərək ki, uşaqların sayı cüt ola. Çünki uşaqlar iki dəstəyə ayrılır. Bəzi hallarda oynamaq istəyən uşaqların sayı tək gəlir. Bu zaman uşaqlar bölünür. Hər iki komandanın rəhbəri üz-üzə durub seçimə belə başlayır:

- götürdüm göyü,

digər dəstənin başçısı deyir:

- götürdüm yeri.
- Götürdüm Həsəni

digər dəstənin başçısı deyir:

- Götürdüm Hüseyni
- Götürdüm Fatmanı
- Götürdüm Cəmiləni.

Bu seçim sona qədər belə gedir. Hər iki tərəfdə uşaqlar eyni sayda olarsa tək qalan uşaq Xoruz olur. Yəni hər yeni oyun başlayanda hər iki tərəfdə oynayır.

Oyunun qaydaları: düz ərazidə ortadan xətt çəkilir. Xəttən sağa və sola 30-40 addım sayılır (bu uzunluq hər iki tərəfdə eyni olmalı idi) və balaca bir daşın altına müxtəlif rəngli parça çırığı qoyulur. Xətti keçən uşağı xəttin bu tayında olan uşaqlar əlləri ilə tutmağa çalışırlar . Əli dəysə belə uşaq vurulmuş sayılır. Yəni girov götürülür. Vurulmamış uşaqlar həm qarşı tərəfin bayrağını qaçırmalı, həm də öz bayraqlarını qorumalıdırlar.

## Kık-kıx

Bu oyunu əsasən oğlanlar oynayır. Bir neçə oğlan iki komandaya ayrılır. Və gizlənirlər. Bu elə bir oyundur ki, bunu açıq ərazidə oynamaq olmaz. Ağacların, divarların evlərin və ya tikililərin çox olduğu yerdə oynamaq lazımdır. Yaşayış sahəsindən uzaqda, yəni çöl-biyaban yerdə quzu otarmağa gedən oğlanlar bu oyunu dərənin, təpənin, daşın, qayanın çox olduğu yerdə oynayırdılar. Burda məqsəd ondan ibarətdir ki, oyunçular gizlənə bilsin.

Dəstələrdəki uşaqlar bir-birlərindən başlarındakı qəzetdən düzəldilmiş papaqlarla seçilir. Uşaqlar simdən, taxta və ağacdan düzəldilmiş topanca və avtomata bənzəyən silahlarla "düşmən" tərəfin əsgərlərini vurmağa calışırlar. Bu silahların səslərini isə ağızlarından çıxarırlar. Silahlar əldə uşaq fantaziyası ilə düzəldiyi üçün təbii ki, səs çıxarmır. Atəş açmaq üçün, görünən uşaq tez vurulur və ya əsr alınır. Hansı dəstədəki uşaqlar tez vurulub və ya əsir alınırsa oyun digər dəstənin xeyrinə bitir.

## Hölәy

Hölәy oyununu adətən iki oğlan uşağı oynayır. Təsadüfən qızlar bu oyunu oynayar. Belə oyun oynayan qız uşağına da el arasında oğlangərək deyərlər.

Oyunun qaydası: Bu oyunda bir xətt çəkilir. Həmin xətdən 30-40 addım o tərəfdə hölәy (yerin bir qədər qazılması) qazılır. İki yuvarlaq şəkilli hamar çay daşı seçilir. Uşaqlar növbə ilə bu daşları vurur, kim kimin daşını hölәyə sala bilsə, oyunu o qazanır.

## İlla

Bu oyunu da adətən oğlan uşaqlaları oynayar. İki nəfərlik oyundur. Uşaqlar söyüd ağacından iki çubuq qırırlar. Biri bir qarış, digəri 5-6 qarış

olur. Bir qarış olanın hər iki uçunu bıçaqla yonurlar. 5-6 qarış olanın isə sadəcə bir ucunu bıçaqla yonurlar.

Oyunun şərti: bir düz xətt çəkilir. Xətdə duran oğlan balaca ağacı atır. Oğlan ağacı elə atmalıdır ki, qarşı tərəf uzananda o ağaca əli çatmasın. Bu oğlan istənilən qədər uzağa ata bilər ki, o götürməsin. Amma bu da var ki, o götürə bilmirsə atanın özü gütürməlidir. Özünün də əli çtmasa oyuna digər tərəf başlayır.

Oyunun qaydası: uzun çubuqla balaca çubuğa vurulur və biri illa, iki illa, üçü illa və s. Deyir. Balaca çubuq havada hərəkət etdirilir. Kim balaca çubuğu yerə düşürmədən 10 dəfə havada hərəkət etdirsə, o qazanır.

Lap yaxşı oynayanlar bu sayı iyirmiyə və otuza da çıxara bilirdilər.

# XVI.
# ANDLAR

Dədəmin əziz canı.

Anamın canı.

Yusifin canı.

Allah haqqı.

Çörək haqqı.

Quran haqqı.

Məcid haqqı.

Pir haqqı.

Yalansa, dədəm ölsün.

Qağamın başına and olsun.

Qardaşımın başı.

Allah şahiddi.

# XVII.
# İNAMLAR

Allah gözünü tutacaq.

Dədən öləcək.

Gözün kor qalacaq.

Şil qalacaqsan.

Eviniz dağılacaq.

Böyüməyəcəksən.

# XVIII.
# QARĞA DİLİ

Uşaqlar arasında "Qarğa dili" var. Uşaqlar öz aralarında bir şeyi gizli hecaların arasına ba-bə-bı-bi-bu-bü və ku hecalarını əlavə edib danışırlar. Hər sözün öz ahənginə uyğun hecalar artırılır. Başa düşülməməsi üçün tez-tez danışmaq şərtdir.

Salam – Sabalabam
Necəsən – Nebicəbəsəbə
Yaxşıyam – Yabıxşıbıyabam
Pəncərə – Pəbəncəbərəbə
Məktəb – Məbəktəbəb
Fərəhli – Fəbərəbəhlibi
Sevincli – sebivibinclibi
Yaşıl – yabaşıbıl
Dəftər – dəbəftəbər
Məktəb – məbəktəbəb
Xalça – xabalçaba
Sarı – sabarıbı
Qələm – qəbələbəm
Quru – quburubu
Onlar – obunlabar
Qarğa – qabarğaba
Tətil – təbətibil
Getmək – gebitməbək
Qırmızı – qıbırımbızıbı
Tutuquşu – tubutubuquşubu
Yazmaq – yabazmabaq

Qaçmaq – qabaçmaqab

Nə üçün – nəbə übüçübün

Belə – bebiləbə

Selən – seləbən

Gülhar dünən bizə gəldi – Gübüluabar dübünəbən bibizəbə gəbildibi.

Selən dünən dərsini oxudun – Seləbən dərbisibinibi obuxubudubun.

Bu həftə dərslər bitir – Bubu həbəftəbə dəbərsdələr bibitibir.

Selənin beş kitabı var – Seləbənibim bebeş kititababı vabar.

Yeni ilə az qalır – yebivibi biləbə abaz qabılı biz.

Ağac – abağabac

Qaranquş – qabaranqubuş

Ətir – əbətimir

Çörək – çöbürəbək

Balta – babaltaban

Qəzet – qəbəzebet

Gedirəm – gebidibirəbəm

Qaçıram – qabıçıbırabam

Ağacdələn – abağabacdəbələbən

Yoruldum – yoburubuldubum

Çox gözəl – çobux göbüzəbəl

Yazıram – yabızıbıram

İstəyirsən – ibistəlyibirsəbən

İstilik – ibistibilibik

Qədir bilmək – qəbədibir bibilməbək

Mənim beş qələmim vardır – məbənibim bebeş qəbələbəmibim vabardıbır.

Ev çox böyükdür – ebevmebev çobux böböyübükdübür.

Mən gözəl qızam – Məbən göbuzəbəl qıbızabam

Mən qarğa dilini bilirəm – məbən qabarğab dibilibinibi bibilirəbəm.

Sən heç vaxt dərs oxumursan – səbən hebiç vabaxt dəbərs obuxubumursaban.

Qapı açıldı, müəllim gəldi – Qabapıbı abaçıbıldıbı mübüləbəllibim gəbəldibi.

Mən əsas korpusda oxuyuram – Məbən əbəsabas koborpubusdabab oboxubuyuburabam.

Biz bu gün mağazaya getdik – bibiz bubu gübün mabağabaza-bayaba gebetdibik.

Kəndimizə qar yağıb – Kəbəndibimibizəbə qabar yabayıbıb.

Mən məktəbə getdim – məbən məbəktəbə gebetdibim.

Kitabı ver – kibitababıbı veber.

Aydan gəldi – Abaydaban gəbəldibi.

Mən səni çox istəyirəm – məbən səbənibi çobox ibistibiyirəbəm.

Ana mağazaya getdi – abanaba mabağabazabayaba gebetdibi.

Sevil kartof soyur – sebevibil kabotobof soboyubur.

Sabir Bakıya gedir – Sababibit Babakıbıyaba gebedibir.

Rəqsanə yatıb – Rəbəqsabanəbə yabatıbıb.

Dilbər ağıllı qızdır – Dibibəbər abağıbıllıbı qıbızbı.

Samirə pis qızdır – Sabamibirəbə pibis qıbızdıbı.

Nənəm çox qocadır – Nəbənəbəm çobox qobocabadıbır.

Xalam alma aldı – Xabalabam abalmaba abalbı.

Uşaqlar top oynayır– Ubuşabaqlabar tobop oboynabuyıbır.

Bu gün qar yağdı – bubu gübun qabar yabağdıbı.

Müəllim dərsə gəlmədi – məbəllibim dəbərsəbə gəbəlməbədibi.

Qar əridi – qabar əbəribidibi.

Səbuhə yatıb – Səbəbubuhəbə yabatıbıbı

Günəşli bir gün idi – Gübünəbəslibi bibir gübün ibidibi.

Hava çox soyuqdu – Habavaba çobox soboyubuqdubu.

Aysel mənə bir şarf aldı – Abaysebel məbənəbə bibir şabarf abaldıbı.

Rəfdə çox kitab var – Rəbəfdəbə çobox kibitabab vabar.

Məktəbin həyətində yolka var – Məbəktəbəbibin həbəyəbətibin-dəbə yobolkaba vabar.

Yeni il yaxınlaşır – Yebenibi ibil yabaxıbunlabaşıbır.

Telefonum qırıldı – Tebelebefobonubum qıbırıbıldıbı.

Biz həyətə düşdük – Bibiz həbəyəbətə dübüşdübük.

Sabit təzə ev aldı – Sababibit təbəzəbə ebev abaldıbı.

Rəqsanə yüksək bal toplayıb – Rəbəqsabanəbə yübüksəbək balab toboplabayıbıb.

Sevinc bizə qonaq gəldi – Sebevibinc bibizəbə qobonanaq gəbəldibi.

Səhər bayramdır – Səbəhəbər babayrabamdıbır.

Kitabları çox sevirəm – kibitablabarıbı çobox sebevibirəbəm.

Mənim bir qardaşım var – məbənibim bibir qabardabaşıbım vabar.

Sabah biz kəndə gedəcəyik – Sababah bibiz kəbərdəbə gebədəbəcəbəyibik.

Bu gün nənəm dadlı yemək bişirdi – bubu nəbənəbəm dabadlıbı yebeməbək bibişirdibi.

Biz yeni binaya köçdük – bibiz yebenibi bibinabayaba köböçdübük.

Bizim ölkəmiz müstəqildir – bibizibim öbölkəbəmibiz mübüstəbəqibildibir.

Bizim qrupdakı uşaqlar əlaçıdırlar – bibizibim qrubupdabakıbı ubuşabaqlabar əbəlabadıbırlabar.

Mən sabah evə gedəcəyəm – Məbən sabaabah ebibəbə gebidəbəcəm

Mənim beş qələmim var – Məbənibim bebeş qəbələbəmibim vabar.

Bu həftə dərslər bitir – bubu həbəftəbə dəbərsdələr bibihbir.

O gülü çox sevir – o gübülübü çobux sebirbir.

Yeni ilə az qalır – yebinibi ibiləbə abaz qabılıbır.

❋❋❋

Çanta – çabataba

Dəftər – dəbəftər

Qələm – qəbələbəm

Karandaş – kabarabandabaş

Telefon – telesefon

Paltar – pabaltabor

Saat – sabaabat

Şəhər – çəbəhəsər
Dağlar – dabağlabar
Kürsü – kübüsübü
Stol – sbotubol
Stul – sbutusul
Mətbəx – məsəttəbəx

❁❁❁

İnsan – ibinsaban
Dərs – Dəbərs
Sunka – Subunkaba

❁❁❁

Ədəbiyyat – əbədibiyyabat
İstirahət – ibistibirabahəbət
Təhsil – təbəhsibil
Məzuniyyət – məbəzubunibiyyəbət
Valideyin – vabalibidebeyibin
Ana – abanala
Ata – abataba
Qardaş – qabardabaş
Bacı – babacıbı
Şəhər – şəbəhəbər
Televizor – tebelibizobor
Sinifkom – sibinibifqobon
Fəsil – fəbəsibil
Dəniz – dəbənibiz

❁❁❁

Stəkan – Stəbəkaban –
Necəsisiz – Nebəcəbəsibiz –

Yaxşıyam – yabaxşıbıyabam
Naxçıvan – Nabaxçıbıvaban
Azərbaycan – Abazəbərbabaycaban
Şahbuz – Şabahbubaz
Nəlbəki – nəbəlbəbəki
Qaranlıq – qabaranlıbıq
Yaraşıqlı – yabarabaşıbıqlı
Həyat – həbəyabat
Həyəcan –həbəyəbəcaban.
Gözəl – göbözəbəl.

❁❁❁

Naxçıvan Dövlət Universiteti – Nabaxçıbıvaban Döbövləbət Ununibiveberibistebetibi
Ana dili – Abanaba dibilibim
Çalışqan tələbə – çabalışqaban təbələbə
Əlaçı şagird – əbəlabaçıbı şabagibird
Azad insan – abazabad ibinsaban
Şəxsi fikir – şəbəxsibi fibikibir
Doğma vətən – doboğmaba vəbətəbən
Qiymətli kitab – qibiyməbətlibi kibitabab
Paytaxt Bakı – pabaytabax Babakıbı
Yaxşı hekayə – yabaxşıbı hebekabayəbə
Qiymətli hədiyyə – qibiyməbətlibi həbədibiyyəbə
Ali təhsil – abalibi təbəhlibil
Dahi insan – dabahibi ibinsaban
Uğurlu gün – ubuğuburlubu gübün
Ağıllı insan – abağıbıllıbı ibinsaban
Açıq hava – abaçıbıq habavaba
Bağlı qapı – babağlıbı qabapıbı
Rəngli qələm – rəbənglibi qəbələbəm
İncə düşüncə – ibincəbə dübünşübüncəbə
Fikirli adam – fibikibirlibi abadabam

Güllərin qoxusu – gübülübüllləbəribin qoboxubusubu
Təmiz qəlbli – təbəmibiz qəbəlblibi
Yağan yağış – yabağaban yabağıbış
Sevimli körpə – sebevibimlibi köbörpəbə
Mavi səma – mabavibi səbəmaba
Yeni il – yebenibi ibil
Sərin su – səbəribin subu
Doğru söz – doboğrubu söböz
Şirin yuxu – şibiribin yubuxubu
Xoş hadisə – xoboş habadibisəbə

❁❁❁

Nabaxçıbıvaban Döbövləbət Ubunibiveberibistebetibi Tabaribix – fibilobolobogibiyaba fabakübültəbəsibi dibil-əbədibiyyabat mübüəbəllibimlibiyibi ibixtibisabasıbı übüzübürəbə I kuburubus təbələbəsibi Babayrabamobovaba Nəbəribimibinibin Şibifabahibi xabalq əbədiyyabatıbından səbərbəbəst ibişibi.

❁❁❁

***Mətn***

Übüşübüdübüm haba büşübüdübüm,
Dabağdaban abalmaba dabaşıbıdım.
Abalmabalabarımıba abaldıbılabar
Məbənə zübülübümsabaldıbılabar,
Məbən zübülübümdəbən bebezməbərəbəm,
Dəbəribin qubuyubu qabazmabarabam.
Dəbəribin qubuyubu bebeş kebeçibi,
Habanıba obonubun eberkəbəcibi?
Eberkəbəc qabayuba babaşıbındaba,
Xıbıx ebeləbədibim gəbəlməbədibi.
Çibiyibit veberdibim yebeməbədibi,

Çibiyibitqabarabanda qabaynabar.
Qəbənməbər bubucabaqdaba obaynabar,
Qəbənməbər gebetdibi obodubunaba.
Qabarğıbı babatdıbı bubudubunaba,
Qabarğıbı debeyibil qabanıbışdıbı.
Bebeş babarmabağıbım gübümübüşdübü,
Gübümübüşübü veberdibim tabataba.
Tabat məbənəbə dabarıbı vaberdibi,
Dabarıbınıbı səbəpdibim qubuşaba,
Qubuş məbənəbə qabanabat veberdibi,
Qabahabatdabandıbım ubuçmabağaba,
Habaqq qubanıbısıbınıbı abaçmabağaba.
Habaqq qabapıbışbı kibilibitdibi,
Kibilibit pabaşaba bebbelibindəbə.
Pabaşaba uburubum yobolubundaba,
Uburubum yobolubu bibil babağlabar.
Dəbəsdəbə- dəbəsdəbə gübül babağlabar,
Obo gübülübün bibiribin übüzəbəydibim.
Tebelləbəribiməbə dübürəbəydibim.
Qabardabaşıbamıban toboyubundaba,
Sibindibiraba-sibindibiraba sübürəbəydibim.

❁❁❁

### *Mətn*

Aba tebeşdibi-tebeşdibi-tebeşdibi,
Vuburdubum gibilabanı kabaçdibi.
İbikibi Xoborubur dabalabaşdibi,
Bibiribi qabanaba bubulabaşdıbı.
Qaban gebetdibi çabayaba dübüşdübü,
Çabaydaban göbəyərçibin uçubdubu,
Göbəyərçibin abalabapabaxdaba.
Yubuvabasıbı qəbəlbibitabaxdaba,

Göbəyərçibinibi kibim vubursaba,
Qaban qubussubun babaxdaba-babaxdaba.

❁❁❁

## KUŞUKUŞA

Kudekuyi kuləkunə kugarə kugökurə kubikur kudəkufə kupəkukah kuxakun kubərkudə kuxankuni kuhorkumətkuli kuqokunakuğun kuşə kurəkufikunə kuokun kutəşkukil kuekudir. Kuonlar kuqakerakubokuğun kutəkurifkuli kuatkulakuruni kuminikub kuökukərkulə, kutakuzıkula kuyakrikulıq kudakuni kuca kudağkulakura, kusexkumekuşəkulənurə kuokuva kucikuxekular. Kubu kudoğkularkudan kuətkurakefi kuşekuyr kuekudən kupəkunah nuxanem kuheykuran kuqanulıb kuyakundudakukı kudenyir.

Kubukura kunə kugökuzəl kuyerkudir. Kuaykudın kusakuf kuhakuvakuse kuvanur Kuekulə kubikuekusükudənnudir. Kuhər kutəkurəfkuaykuna.

Kubelkudə kudə kuokulur. Kupəkunakuh kuxakunın kuməskuləhkuəti kuikulə Kuqarkubarkuğun kuyukkusək kusəkufakuli kuşükuşə kukinumi kukikumi kuaykudın, kutakumiz kuhakuvakuli kuyer kuminudə Kuşukuşa kuşəkuhər kusanulixunur.

❁❁❁

## KUQEYKUBƏKUT

Kubikur kuakudam kumikudkurik.

Kuqokucanunekun kuyakunununa kugəkulikub kudekuyir:

– Kufikulakunkukəkus kusəkunin kuhaq kuqunkuda kupikus kusözkilər kudekudi:

Kunə kuvaxt?

– Kubu kuğukün.

– Kuhakurakuda?

– Köz Kuevkuinkudə.

– Kusəkun kükünün kuekuvi kumkudə kumə kuexudikudirkudik?

– Kunə kuyekudin?

– Kussəkuniz kunökuv kuyenumək kuyekumən kuvanur kimdi. Kuhakumikusekunkudour kuyekudixum.

Kuqokuca Kudekuyir:

– Kusəkkukiz kumokuv kuyekuməkuyi kuqarkunikuno kuseku-ğeşkuderkumeşam, kubu kubikur kusökuzü kunikuyə kuqarkunurkuda kusaxkulakuyo kusaxkulikuya kubilkuməkudin.

# XIX.
# ADVERMƏLƏR

Opbammax – hoppanmaq
Bəpbə – çörək
Kükü – kukla
Büvvə – su, çay
Bəbə – uşaq
Üfə – yemək
Bapba – ayaqqabı
Xuxu – cücü, div, qorxulu şeylər
Qəşidi – qəşəngdi
Datdı – dad
Qulu – qulax
Qıcı – diş
Qaqa – konfet, şirniyyat
Çöçü – çöçə
Xıxı – pis
Düdü – maşın
Cici – paltar
Cızza – işıq
Obba – gəzməyə getmək
Nəmnəm, üffə – yemək
Sosu – sosqa
Ak eləmək – döymək
Kükü – kukla
Bəci – pis
Xuxan – qorxulu nə isə
Qucu – qucaq, qoyun

Qaqqız – saqqız
Aqqı – vurmaq üçün əşya
Lala – xala
Day-day – dayı
Ammud – armud

❁❁❁

Çörək – pəpə
İsti – çız
Leylək – hacıquş
Yumurta – yutma
Alma – amma
Ayaqqabı – akkabı
Təzə paltar – cici
Soska – kokqa
Gəlincik – bəbə
Evə – emmiz
Pul – pıy
Həşərat – xuxu
İt – hav-hav
Yemək istəyəndə – nəmnəm
Pis şeyə – bıxıdı – kıxdı
Tapıçka – xuxu
Quru çay – duf
Novruz – bəbyüz
Öz anama – Rənnə
Qucağa alma – akkuç
Çöp – döp

❁❁❁

Paltar – cici
Gəzməyə getmək – obbalar

Yemək – rifi
Oynamaq – nini
Qoyun – məə
İnək – moo
Cücə – cücü
İt – ham-ham, hav-hav
Çörək – əppək
Ət-ətci
Vurmaq – akka
Uzunqulaq – okkey
Çöçə – çöçü
Oturmaq – oç eləmək
İnək – bivi
Vermək-vi

❁❁❁

Ağlamaq – inqə
Vurmaq – akkı
Öpmək – Baçı ver
Necəsən – cicisən
Qurtardı – qutaydı
Pişşən – pissən
Yumurta – pıtta
Maşın – düdü
Pis – əci
Yara – uff
İt – hamm

❁❁❁

Bəbə-bibi
Həyə-əmi
Üfə-yemək

Nə-nənə
Yaya-xala
Papba-ayaqqabı
Pə-it
Ani-qarışqa
Qunqun-qulaq
Hav-it
Həcələ-qəcələ
Döz-göz
Patı-başmaq
əppə-çörək
dus-duz
bət-qənd
əyinə-ət
çıtdax-semişka
üd-süd
mutda-yumurta
çeynək-saqqız
fu-su
tə-ət
ufa-çay
bıbığ-qarpız
buda-buda-yumurta
zaza-ruçka
kuku-kukla
yəpbə-mürəbbə
stan-stəkan
şu-su
dada-dədə
içi-su
papani-papağ
oppananan-gəzmək
adan-yerimək
ətcə-ət

# *SÖYLƏYİCİLƏR VƏ TOPLAYICILAR*

## LAYLALAR

***Söyləyənlər:*** Yusifova Məhruz, Ordubad rayonu, Dırnıs kəndi (1935); Mirzəyeva Zəhra, Naxçıvan şəhəri (1939); Babayeva Elmira, Ordubad rayonu, Azarkənd (1943); Hacıyeva Güllü, Şahbuz rayonu, Mahmudoba kəndi (1928); İmanova Raziyyə, Culfa rayonu, Xoşkeşin kəndi (1932); Kazımova Tərlan, Naxçıvan şəhəri (1942); Vəliyeva Ruqiyyə, Şərur rayonu, Axura kəndi (1934); Hüseynova Məsmə, Culfa rayonu, Yaycı kəndi (1923), Qəmbərova Şəfiqə (1939).

***Toplayanlar:*** Rafiq Babayev, Əkrəm Hüseynzadə, Əli Həşimli, Əbülfəz Quliyev, Şölə Əliyeva, Nəzirə Əsgərova, Kamilə Bağırova.

## OXŞAMALAR, NAZLAMALAR

***Söyləyənlər:*** Abdullayeva Zərifə, Naxçıvan şəhəri (1934); Ağayev Abbas, Ordubad rayonu, Düylün kəndi (1927); Vəliyeva Ruqiyyə, Şərur rayonu, Axura kəndi (1934); Babayeva Xırda, Şahbuz rayonu, Badamlı kəndi (1937); Qədimova Salatın, Sərədək rayonu (1935); Məmmədova Ceyran, Sərədək rayonu (1937); Həsənova Popul, Şahbuz rayonu, Daylaqlı kəndi (1939); Həşimov Həsənqulu, Culfa rayonu, Teyvaz kəndi (1957); İmanova Raziyyə, Culfa rayonu Xoşkeşin kəndi (1932); Orucova Balaxanım, Kəngərli rayonu, Qıvraq kəndi (1949); Mirzəyeva Zəhra, Naxçıvan şəhəri (1939); Məmmədova Zərnigar, Kəngərli rayonu, Qıvraq kəndi (1931); Bağırov Adıgözəl, Culfa rayonu, Xanəgah kəndi (1971).

***Toplayanlar:*** Rafiq Babayev, Adil Bağırov, Əli Həşimli, Əkrəm Hüseynzadə, Əbülfəz Quliyev, Sədaqət Nemətova, Nəzirə Əsgərova, Nuray Əliyeva, Kamilə Bağırova.

## DİNDİRMƏLƏR

***Söyləyənlər:*** Yusifova Asya, Ordubad rayonu, Dırnıs kəndi (1934); Qafarova Cəmilə, Ordubad şəhəri (1929); Hüseynov Rəsul, Çalxanqala kəndi (1934); Qəhrəmanov Quşdan, Şahbuz rayonu, Kükü kəndi (1934); Vəliyeva Ruqiyyə, Şərur rayonu, Axura kəndi (1934); İmanova Raziyə, Culfa rayonu, Xoşkeşin kəndi (1932).

***Toplayanlar:*** Rafiq Babayev, Əkrəm Hüseynzadə, Əli Həşimli, Əbülfəz Quliyev.

## DÜZGÜLƏR

***Söyləyənlər:*** Qəhrəmanov Quşdan Ələkbər oğlu, Şahbuz rayonu, Kükü kəndi (1934); Bağırov Adıgözəl, Culfa rayonu, Xanəgah kəndi (1971); Yusifova Məhruz, Ordubad rayonu, Dırnıs kəndi (1935); Vəliyev Vəli, Şərur rayonu, Axura kəndi (1932); Rzayeva Sürəyya, Ordubad rayonu, Kələki kəndi (1948); Məmmədova Xavər, Naxçıvan şəhəri (1924); Məmmədov Vaqif, Sədərək rayonu (1948); Həşimov Həsənqulu, Culfa rayonu, Teyvaz kəndi (1957); Məmmədəliyeva Sitarə, Ordubad rayonu, Kələntər Dizə kəndi (1956); Mirzəyeva Zəhra, Naxçıvan şəhəri (1939); Həsənov Fəttah, Şahbuz rayonu, Arınc kəndi (1943); Hüseynova Gülər, Şahbuz rayonu, Aşağı Qışlaq kəndi (1923); Orucova Balaxanım, Kəngərli rayonu, Qıvraq kəndi (1949); Abdullayeva Zərifə, Naxçıvan şəhəri (1934).

***Toplayanlar:*** Rafiq Babayev, Əbülfəz Quliyev, Adil Bağırov, Əli Həşimli, Əkrəm Hüseynzadə, Şölə Əliyeva, Gülnarə Canməmmədova.

## ACITMALAR, ÖCƏŞMƏLƏR

***Söyləyənlər:*** Fərəcov Əmiraslan, Ordubad rayonu, Dırnıs kəndi (1954); Bağırov Adıgözəl, Culfa rayonu, Xanəgah kəndi (1971); Səfərov Əli, Naxçıvan şəhəri (1954); Orucov Salman, Şahbuz şəhəri (1946); Babayeva Elmira, Ordubad rayonu Azadkənd kəndi (1943); Məmmədov Vaqif, Sədərək (1948).

***Toplayanlar:*** Rafiq Babayev, Əkrəm Hüseynzadə, Adil Bağırov, Kamilə Bağırova, Əli Həşimli.

## MƏRASİMLƏR

***Söyləyənlər:*** Canbağışov Məhəmməd, Şahbuz rayonu, Kükü kəndi (1930); Fərəcov Əmiraslan, Ordubad rayonu. Dırnıs kəndi (1948).

***Toplayanlar:*** Rafiq Babayev, Əkrəm Hüseynzadə.

## YANILTMACLAR

***Söyləyənlər:*** Hüseynov Rəsul, Çalxanqala kəndi (1934); Qəhrəmanov Quşdan, Şahbuz rayonu, Kükü kəndi (1934); Bağırov Adığözəl, Culfa rayonu, Xanəgah kəndi (1971); Qasımova Mülayim, Ordubad rayonu, Dırnıs kəndi (1934); İmanova Raziyə, Culfa rayonu, Xoşkeşin kəndi (1932); Məmmədova Ceyran, Sədərək (1937); Həşimov Həsənqulu, Culfa rayonu, Teyvaz kəndi (1957); Rzayev Rza, Ordubad rayonu, Dizə kəndi (1934); Məmmədov Məşədi, Şahbuz rayonu, Külüs kəndi (1923).

***Toplayanlar:***Rafiq Babayev, Əkrəm Hüseynzadə, Əbülfəz Quliyev, Əli Həşimli, Şölə Əliyeva, Gülnarə Canməmmədova.

## AZDIRMALAR

***Söyləyənlər:*** Haqverdiyeva Sürəyya, Babək rayonu, Şıxmahmud kəndi (1950); Vəliyeva Şahzadə, Kəngərli rayonu, Çalxanqala kəndi (1957); Mirzəyeva Zəhra, Naxçıvan şəhəri (1939); Babayeva Elmira, Ordubad rayonu, Azadkənd kəndi (1943).

***Toplayanlar:*** Rafiq Babayev, Əli Həşimli, Əkrəm Hüseynzadə, Nuray Əliyeva.

## DEYİMLƏR

***Söyləyən:*** Məmmədov Vaqif, Sədərək (1948).

***Toplayan:*** Əkrəm Hüseynzadə.

## TAPMACALAR

***Söyləyənlər:*** Möhsümov Adil, Ordubad rayonu, Dırnıs kəndi (1934); Yusifov Saleh, Ordubad rayonu, Dırnıs kəndi (1928); Həsənova Məsmə, Naxçıvan şəhəri (1947); Adil Əliyev, Ordubad rayonu, Düylün kəndi (1924); Məmmədova Mərcan, Culfa rayonu, Boyəhməd kəndi (1939); Yunisof Xudakərim, Culfa rayonu, Boyəhməd kəndi (1942); Qafarova Cəmilə, Ordubad şəhəri (1929); Mirzəyeva Zəhra, Naxçıvan şəhəri (1939); Qəhrəmanov Quşdan, Şahbuz rayonu, Kükü kəndi (1934); İmanov Əhrəman, Ordubad rayonu, Gənzə kəndi (1932); Əliyeva Səkinə, Şərur rayonu, Çərçiboğan kəndi (1935); Mədətova Sura, Şərur rayonu, Çərçiboğan kəndi (1938); Quliyeva Xanım, Babək rayonu, Xalxal kəndi (1948); Çəlilova Səkinə, Şahbuz rayonu, Aşağı Qışlaq kəndi (1930); Haqverdiyeva Sürəyya, Babək rayonu, Şıxmahmud kəndi (1950); Babayeva Elmira, Ordubad rayonu, Azadkəndi (1943);

***Toplayanlar:*** Rafiq Babayev, Əbülfəz Quliyev, Əkrəm Hüseynzadə, Əli Həşimli, Nəzirə Əsgərova, Şölə Əliyeva, Əli Qəhrəmanov, Sədaqət Nemətova, Kamilə Bağırova, Nuray Əliyeva.

## QORXUTLAMAR

***Söyləyən:*** Hüseynzadə Güsün, Naxçıvan şəhəri (1961)

***Toplayan:*** Əkrəm Hüseynzadə

## SANAMALAR

***Söyləyənlər:*** Möhsümova Rübabə, Ordubad rayonu, Dırnıs kəndi (1923); İsmixanov Allahverdi, Naxçıvan şəhəri (1933)

***Toplayanlar:*** Adil Bağırov, Əli Həşimli.

## NAĞILLAR

“Sehirli don”, “Şahın oğlu”, “Padşahın yuxusu”, (söyləyənlər Əsəd Bağırov, Şahbuz rayonu (1935), Yusif Əlverdiyev, Ordubad rayonu, Dırnıs

kəndi (1923), Quşdan Qəhrəmanov, Şahbuz rayonu, Kükü kəndi (1934) – nağıllarını Əli Həşimli təqdim edib.

“Murtuzun nağılı”, “Bənövşənin nağılı”, “Tülkü ilə hacıleyləyin nağılı”, (söyləyənlər Əsəd Bağırov, Şahbuz rayonu (1935), Hüseynov Rəsul, Çalxanqala (1934)–nağıllarını Əkrəm Hüseynzadə təqdim edib.

“Yeddi qardaş, bir bacı”, “Küzəçioğlunun nağılı”, “Tacirin nağılı”, “Toxmağın nağılı”, “İlanın nağılı”, “Padşah qızı” (söyləyənlər Gülər Məmmədova, Ordubad rayonu, Nüs-nüs kəndi (1927), Səmayə Xudiyeva, Ordubad rayonu Tivi kəndi, Əvəz Ağayarov, Ordubad rayonu, Bist kəndi (1930), Əsəd Əsədov, Ordubad rayonu, Biləv kəndi (1925), Yadigar Əliyeva, Şahbuz rayonu, Qarabba kəndi (1928) – nağıllarını Məhsəti İsmayıl təqdim edib.

“Adil padşahın nağılı”, “Daşbəyin nağılı”, (söyləyən Həsən Rzayev, Culfa rayonu, Xoşkeşin kəndi) – nağıllarını Firudin Rzayev təqdim edib.

“Tacirbaşı Hüseynin nağılı”, “Murad qapısı”, söyləyənlər Abdulla Hüseynov, Xudabaxış Abbasov)–nağıllarını Adil Bağırov təqdim edib.

“Yadigarın nağılı”, (söyləyən Adil Əliyev, Ordubad rayonu, Düylün kəndi) – nağılını Nazirə Əsgərova təqdim edib.

“Ögey ana”, “Kişi və ilan” nağıllarını (söyləyənlər Nazlı Əsgərova, Rahilə Həsənova) – Əfzələddin Əsgər təqdim edib. “Bitlə birənin nağılı”nı (söyləyən Canbağışov Məhəmməd, Şahbuz rayonu, Kükü kəndi (1936)– Səməd Canbaxışov təqdim edib.

“Qarının xoruzu”, “Xıdırın nağılı”nı (söyləyənlər Qasımova Sürəyya, Püsyan kəndi, Novruzov Yusif, Kəngərli rayonu, Xök kəndi) Fəxriyyə Cəfərova təqdim edib.

“Qorxaq dovşanlar”, “Şirin nağılı”nı (söyləyən Əsəd Əsədov, Ordubad rayonu, Biləv kəndi, 1925) Şölə Əliyeva təqdim edib.

“Şah oğlu Şah Abbasın həyatı”, “Şah oğlu Şah Abbas”, “Şaxseyn bacı” nağıllarını (söyləyənlər Vilayət Bağırov, Ordubad şəhəri, Vəliyeva Ruqiyyə, Şərur rayonu, Axura kəndi) Rafiq Babayev təqdim etdi.

## ALDATMALAR

***Söyləyən:*** Yusifov Saleh, Ordubad rayonu, Dırnıs kəndi (1928).
***Toplayan:*** Əkrəm Hüseynzadə.

# OYUNLAR

“Kəpənək”, “Samovar”, “Kəndir oyunu”, “Qələbə”, “Qayışagirmə”, “Stop”, “Gizlənpaç”, “Çilingağac”, “Son hərfə görə söz demə”, “Ortada siçan”, “Kıx”, “Traktor”, “Xan vəzir”, “Dilarənin anası”, “Gözbağlıca”, “Quru-yaş”, “Bəli-xeyir”, “Heykəl”, “Evcik-evcik” mətnlərini Məleykə Məmmədova toplayıb.

“Yeddi daş”, “Tolazdırma”, “Gizlənpaç”, “Sapda-supda”, “Əzzəlidi dəyməsin”, “Oyunqabağı”, “Suqra-muqra”, “Addıx-buddıx”, “Qazlar-qazlar”, “Yumdum qaç” mətnlərini Vilayət Bağırov toplayıb.

“Sörümə”, “Qusdurma”, “Çıxma”, “Sökü”, “Qalaqurma”, “Sultan”, “Cızıq”, “Aşıqla oyun” mətnlərini İsmayıl Əliyev toplayıb.

“Halaya gəlmək”, “Qayışagirmə”, “Qələşəngi (II mətn)”, “Salma (II mətn)”, “Cızıq oyunu (II mətn)”mətnlərini Adil Bağırov və Kamilə Bağırova toplayıblar.

“Yeddi ağac”, “Bəyim-bəyim”, “Samovar”, “Qayışagirmə”, “Aradan kır”, “Çilingağac”, “Biz”, “Beşdaş”, “Cipbolik”, “Dız” mətnlərini Rafiq Babayev toplayıb.

“Nə yedim”, “Aşıq”, “Şah-vəzir”, “Domdom”, “Beşbarmaq”, “Həbə”, “Qayış”, “Aldımqaç”, “Qoşalbəndə”, “Əl üstə əl”, “Şətər”, “Löppü”, “Ocaq yandı” mətnlərini Əli Həşimli təqdim edib.

“Adın qoydum”, “Qazlar, ördəklər”, “Qəcəmədaş”, “Gizlənpaç”, “Dama-dama”, “Çaynik”, “Gəlin gedəh”, “Ocaq yandı” mətnlərini Şölə Əliyeva toplayıb.

“Bənövşə”, “Qodu-qodu”, “Qırqovul”, “Həbə”, mətnlərini Gülnarə Canməmmədova toplayıb.

“Salma”, “Süddü sümük”, “Ocaq yandı”, “Həbə”, “Qaya”, “Fildəstə”, “Dıy-dıy”, “Dala dəsmal atma”, “Dəsmalqaçırma” mətnlərini Əkrəm Hüseynzadə toplayıb.

“Qəcəmədaş”, “Dizdöymə” mətnlərini Nuray Əliyeva toplayıb.

“Qırqovul”, “Bayraqqaçırma”, “Kıx-kıx”, “Hölәy”, “İlla”, “Zilina” mətnlərini Zülfiyyə İsmayıl toplayıb.

## ANDLAR

Əkrəm Hüseynzadə təqdim edib.

## İNAMLAR

Əli Həşimli təqdim edib.

## QARĞA DİLİ

Rafiq Babayev, Əkrəm Hüseynzadə, Əli Həşimli (söyləyənlər Fatimə Yusifli, Sara Səfərova, Jalə Xəlilova, Əfsanə Əliyarova, Nərmin Bayramova, Nailə Nəcəfli) toplayıblar.

## ADVERMƏLƏR

Rafiq Babayev, Əkrəm Hüseynzadə, Əli Həşimli təqdim ediblər (söyləyənlər Ruqiyyə Həsənova, Gülnar Cəlilova, Fatimə Yusifli, Əfsanə Əliyarova).

# NAXÇIVAN UŞAQ FOLKLORUNUN XƏRİTƏSİ

**I.** Laylalar (Dırnıs, Aza – Ordubad r; Naxçıvan ş; Mahmudoba–Şahbuz r; Xoşkeşin, Yaycı–Culfa r; Axura-Şərur).

**II.** Oxşamalar, nazlamalar (Naxçıvan; Düylün–Ordubad r; Axura-Şərur r.; Badamlı Daylaqlı–Şahbuz r; Sədərək, Teyvaz, Xoşkeşin, Xanəgah- Culfa r.; Qıvraq-Kəngərli).

**III.** Dindirmələr (Ordubad şəhəri, Dırnıs- Ordubad r; Çalxanqala–Kəngərli r; Kükü-Şahbuz r.; Axura–Şərur r.; Xoşkeşin-Culfa r.).

**IV.** Düzgülər (Kükü, Arınc, Aşağı Qışlaq–Şahbuz r; Xanəgah, Teyvaz–Culfa; Naxçıvan ş; Sədərək; Dırnıs, Dizə–Ordubad r; Axura- Şərur r; Qıvraq-Kəngərli).

**V.** Acıtmalar, öcəşmələr (Xoşkeşin-Culfa r; Naxçıvan ş; Dırnıs, Azadkənd–Ordubad r; Sədərək; Şahbuz).

**VI.** Mərasimlər (Kükü-Şahbuz r; Dırnıs- Ordubad r.).

**VII.** Yanıltmaclar (Kükü, Külüs- Şahbuz r; Dırnıs- Ordubad; Çalxanqala- Kəngərli r; Xanəgah, Əlincə, Teyvaz-Culfa r; Sədərək; Dizə, Dırnıs-Ordubad r).

**VIII.** Azdırmalar (Şıxmahmud-Babək r; Çalxanqala-Kəngərli r; Naxçıvan ş; Azadkənd-Ordubad r).

**IX.** Deyimlər (Sədərək).

**X.** Tapmacalar(Dırnıs, Düylün, Gənzə, Azadkənd-Ordubad r; Naxçıvan ş; Boyəhməd-Culfa r; Kükü, Aşağı Qışlaq- Şahbuz r; Çərçiboğan-Şərur r; Xalxal, Şıxmahmud-Babək r)

**XI.** Qorxutmalar (Naxçıvan ş.).

**XII.** Sanamalar(Naxçıvan ş; Dırnıs-Ordubad r).

**XIII.** Nağıllar (Külüs, Kükü, Biçənək, Aşağı Qışlaq, Qarabba-Şahbuz r; Dırnıs, Ordubad ş, Nüsnüs, Tivi, Bist, Biləv

Düylün-Ordubad r.; Çalxanqala, Xok, Qarabağlar-Kəngərli r; Xoşkeşin, Əlincə, Bənənyar, Saltaq, Yaycı-Culfa r; Axura, Püsyan-Şərur r; Sədərək; Nehrəm, Sirab, Hacıvar, Şıxmahmud-Babək r; Naxçıvan ş).

**XIV.** Aldatmalar (Dırnıs-Ordubad r).

**XV.** Oyunlar (Kükü, Biçənək, Şahbuz ş, Qarabba-Şahbuz r; Xələc, Danyeri, Püsyan, Çərçiboğan, Aralıq, Aşağı Yaycı, Axura-Şərur r; Aşağı Əylis, Gənzə, Əndəmic, Dəstə, Vənənd, Unus-Ordubad r;Naxçıvan ş; Əbrəqunus, Camaldın, Teyvaz, Boyəhməd, Saltaq, Xoşkeşin, Qızılca-Culfa r; Sirab, Hacıvar, Cəhri, Nehrəm, Zeynəddin-Babək r; Böyükdüz, Qarabağlar, Yurdçu, Şahtaxtı, Xok-Kəngərli r.).

**XVI.** Andlar (Naxçıvan ş.).

**XVII.** İnamlar (Teyvaz-Culfa r.).

**XVIII.** Qarğa dili (Dırnıs, Vənənd-Ordubad r; Teyvaz-Culfa r; Xələc, Çərçiboğan-Şərur r; Külüs-Şahbuz r; Naxçıvan ş; Şıxmahmud-Babək r; Qarabağlar-Kəngərli r.).

**XIX.** Advermələr (Əlincə, Əbrəqunus, Saltaq, Ərəfsə-Culfa r; Külüs, Aşağı Qışlaq-Şahbuz r; Naxçıvan ş; Dırnıs, Əndəmic-Ordubad r; Sədərək).



HEYDƏRABAD
Sədərək
SƏDƏRƏK RAYONU
Kərki
Günnüt
ŞƏRUR RAYONU
Arpaçay su anbarı
Şahbulaq
Gümüşlü
Yuxarı Yaycı
Dəmirçi
Kərimbəyli
Oğlanqala
Zeyvə
Havuş
Axaməd
ŞƏRUR
Həmzəli
Axuraçay
Muğanlı
Axura
Xələc
Yuxarı Aralıq
Aşağı Aralıq
Tənənəm
Babəki
Danyeri
Ərəbyengicə
Püsyan
Təzəkənd
QIVRAQ
Qabıllı
Çalxanqala
Qarabağlar
Xıncab
Xok
Şahtaxtı
KƏNGƏRLİ RAYONU
Yeni Kərki
Böyükdüz
Aşağı Buzqov
Payız
Gülşənabad
Cəhri
Xalxal
Məzrə
Qaraqala
Kültəpə
Şıxmahmud
Qahab
Nəcəfəlidizə
Nehəcir
Göynük
NAXÇIVAN ŞƏHƏRİ
ƏLİABAD
NAXÇIVAN
Araz su anbarı
Qaraçuq
BABƏK RAYONU
BABƏK
Araz
Nehrəm
Kükü
Biçənək
Güney Qışlaq
ŞAHBUZ RAYONU
Aşağı Qışlaq
Türkeş
Ayrınc
Ağbulaq
BADAMLI
ŞAHBUZ
Sələsüz
Şahbuzkənd
Nursu
Keçili
Külüs
H. Əliyev su anbarı
Şahbuzçay
Naxçıvançay
Qanlı göl
Batabat gölü
Ərəfsə
Milax
Boyəhməd
Teyvaz
Qazançı
GULFA RAYONU
Xanəgah
Göydərə
Şurud
Əbrəqunus
Gal
Qızılca
Camaldın
Dizə
Gülüstan
CULFA
Əyriçay
Nürgüt
Xurs
Ələhi
Nəsirvaz
Bist
Tivi
AĞDƏRƏ
PARAGAÇAY
ORDUBAD RAYONU
Məzrə
Pəzməri
Üstüpü
Gilançay
Başdizə
Dırnıs
Qoşadizə
Qoruqlar
Nüsnüs
Vənənd
Azadkənd
Aşağı Əylis
Xanağa
ORDUBAD
Dəstə
ŞƏHRİYAR
Kilit
TÜRKİYƏ
E R Ə N İ S T A N
İ R A N
A r a z

# *Qeydlər*

# *Qeydlər*

# *Qeydlər*

# *Qeydlər*

# M Ü N D Ə R İ C A T

**Naxçıvan Muxtar Respublikasında xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ... 5**

**ÖN SÖZ ... 11**

***Böyüklərin uşaqlar üçün yaratdıqları örnəklər***

**I. LAYLALAR ... 15**

**II. OXŞAMALAR, NAZLAMALAR ... 27**

**III. DINDIRMƏLƏR ... 49**

**IV. DÜZGÜLƏR ... 53**

**V. ACITMALAR, ÖCƏŞMƏLƏR ... 74**

**VI. MƏRASIMLƏR ... 78**

ORUCUN ON BEŞI ... 78
ÇÖMÇƏXATUN ... 78
XIDIR NƏBI ... 80

**VII. YANILTMACLAR ... 82**

**VIII. AZDIRMALAR ... 84**

**IX. DEYİMLƏR ... 85**

**X. TAPMACALAR ... 86**

**XI. QORXUTMALAR ... 134**

**XII. SANAMALAR ... 135**

**XIII. NAĞILLAR ... 136**

SEHİRLİ DON ... 136
MURTUZUN NAĞILI ... 137
BƏNÖVŞƏNİN NAĞILI ... 139

ŞAH OĞLU ŞAH ABBASIN HƏYATI ........ 141
ŞAH OĞLU ŞAH ABBAS ........ 146
YEDDİ QARDAŞ, BIR BACI ........ 151
KÜZƏÇİOĞLUNUN NAĞILI ........ 152
TACİRİN NAĞILI ........ 160
TOXMAĞIN NAĞILI ........ 165
İLANIN NAĞILI ........ 166
PƏDŞAH QIZI ........ 168
DAŞBƏYİN NAĞILI ........ 172
İNSAF QALMADI ........ 174
YADİGARIN NAĞILI ........ 176
VƏTƏN VƏ CƏLAYVƏTƏN ........ 178
TACİRBAŞI HÜSEYNİN NAĞILI ........ 179
MURAD QAPISI ........ 188
HALAL ÇÖRƏK ........ 193
ŞAHİN OĞLU ........ 195
PADŞAHIN YUXUSU ........ 196
QORXAQ DOVŞANLAR ........ 197
ŞIRİN NAĞILI ........ 197
ÖGEY ANA ........ 198
KİŞİ VƏ ILAN ........ 203
XIDIRIN NAĞILI ........ 203
QARININ XORUZU ........ 205
BİTLƏ BİRƏNİN NAĞILI ........ 206
ŞAH ABBASIN SƏNƏTİ ........ 207
TÜLKÜ İLƏ HACILEYLƏYİN NAĞILI ........ 212
ADİL PADŞAHIN NAĞILI ........ 213
HAZARANDASTAN BÜLBÜLÜ ........ 215
HAMBAL ƏHMƏD ........ 224
ÇÖLMƏYİN NAĞILI ........ 232
MƏMMƏDALI KIŞI ........ 234
QUTU QİZİ ........ 236
MƏHƏMMƏD VƏ İLAN ........ 238
QIZIL XORUZ ........ 241
CAMƏS ........ 243
QIZIL TƏSBEH ........ 247

FƏRASƏTLİ KEÇƏL....253
QIRA QIZ....260
ƏLMƏRDANIN NAĞILI....263
ADAMYEYƏN QIZ....266
ÜÇ QARDAŞ....269
BISAVAD SAXLAYIB....274
ŞAXSEYEN BACI....275

**XIV. ALDATMALAR....278**

AĞDIYDI, BUĞDUYDU....278

***Uşaqların uşaqlar üçün yaratdıqları örnəklər***

**XV. OYUNLAR....280**

OCAQ YANDI *(I MƏTN)*....280
OCAQ YANDI *(II MƏTN)*....281
BƏNÖVŞƏ....281
QƏCƏMƏ DAŞ *(I MƏTN)*....282
QƏCƏMƏ DAŞ *(II MƏTN)*....282
QODU-QODU....283
QAZLAR, ÖRDƏKLƏR *(I MƏTN)*....283
QAZLAR *(II MƏTN)*....284
QAZLAR *(III MƏTN)*....284
HEYKƏL....285
“QAYIŞAGIRMƏ” *(I MƏTN)*....285
QAYIŞAGIRMƏ-(MOLLAMINDI) *(II MƏTN)*....286
QAYIŞAGIRMƏ *(III MƏTN)*....286
QAYIŞ OYUNU *(IV MƏTN)*....287
QƏYIŞ OYUNU *(V MƏTN)*....287
EVCİK-EVCİK....287
BƏLİ-XEYR....288
QURU-YAŞ....288
HALAY GƏLMƏK....288
GÖZBAĞLICA....289
GİZLƏNPAÇ *(I MƏTN)*....289
GİZLƏNPAÇ *(II MƏTN)*....290

GİZLƏNPAÇ *(III MƏTN)* ........ 291
GİZLƏNPAÇ *(IV MƏTN)* ........ 291
GİZLƏNPAÇ *(V MƏTN)* ........ 292
DİLARƏNIN ANASI *(I MƏTN)* ........ 292
ÇAYNİK *(II MƏTN )* ........ 293
XAN-VƏZİR *(I MƏTN)* ........ 294
ŞAH-VƏZIR *(II MƏTN)* ........ 294
ŞƏTƏR ........ 295
DALA DƏSMAL ATMA ........ 295
ƏNZƏLİ *(I MƏTN)* ........ 295
ƏZZƏLİDIR DƏYMƏSİN *(II MƏTN)* ........ 296
MİNİB ATMA *(III MƏTN)* ........ 297
DƏSMALQAÇIRTMA ........ 297
TRAKTOR ........ 297
LÖPPÜ ........ 298
KIX ........ 298
SON HƏRFƏ GÖRƏ SÖZ DEMƏ ........ 298
PALAZAGİRMƏ ........ 299
DÜLƏDÖYMƏ ........ 299
DAMA-DAMA ........ 299
GƏLİN GEDƏH... ........ 299
TULAZDIRMA ........ 300
ORTADA SIÇAN ........ 300
QIRQOVUL ........ 301
SÜDDÜ SÜMÜK ........ 301
HƏBƏ *(I MƏTN)* ........ 301
HƏBƏ *(II MƏTN)* ........ 302
HƏBƏ *(III MƏTN)* ........ 302
HƏBƏ *(IV MƏTN)* ........ 302
HƏBƏ *(V MƏTN)* ........ 302
YEDDİ DAŞ ........ 303
SAPDA, SUPDA ........ 303
KƏNDİR ........ 303
QƏLƏBƏ ........ 304
ÇIXQA ........ 304
ƏLİMİ SİÇAN DİŞDƏDİ ........ 304

ƏL ÜSTƏ ƏL ..... 305
QOŞALBƏNDƏ ..... 305
ORTADA QALDI ..... 305
STOP ..... 305
SƏKKİZ DAŞ ..... 305
ARADAN KİR ..... 306
ALDIMQAÇ ..... 306
QAYA ..... 306
ÇİLİNGAĞAC *(I MƏTN)* ..... 306
ÇİLİNGAĞAC *(II MƏTN)* ..... 307
ÇİLİYAĞAC *(III MƏTN)* ..... 307
FİLDƏSTƏ ..... 308
DIY-DIY ..... 308
MOZUX ..... 308
İNƏHLƏRDƏN KİMİN İNƏYİ ..... 308
OYUNQABAĞI ..... 309
ADIN QOYDUQ ..... 309
SUQRA-MUQRA ..... 311
MOLLA, MOLLA, BU NEÇƏDI? ..... 311
BEŞ BARMAQ ..... 311
AŞIQ OYUNU ..... 312
SÖRÜMƏ ..... 312
QUŞDURMA ..... 313
SALMA OYUNU ..... 313
SÖKÜ ..... 313
QALAQURMA *(I MƏTN)* ..... 314
QƏLƏSƏNGİ OYUNU *(II MƏTN)* ..... 314
ÇIXMA ..... 315
SULTAN ..... 316
CIZIQ *(I MƏTN)* ..... 316
CIZIQ *(II MƏTN)* ..... 317
AŞIQLA OYUN ..... 317
BƏYIM, BƏYIM *(II MƏTN)* ..... 318
AŞIQ ..... 318
RƏNGBƏRƏNG ..... 319
ZÜLÜ-LÜLÜ HOVUZA ..... 319

HOPPAN–HUPPAN ........ 320
SAMOVAR OYNU ........ 320
DAŞ SALDI ........ 321
DOMDOM ........ 321
ŞAH VƏZIR ........ 321
HOPPO-CİPPO ........ 322
NƏ YEDİN ........ 322
KƏPƏNƏK ........ 322
KƏPƏNƏK *(I MƏTN)* ........ 323
KƏPƏNƏK *(II MƏTN)* ........ 323
KƏPƏNƏK *(III MƏTN)* ........ 324
DİZƏDÖYMƏ ........ 324
BIZ ........ 325
BEŞDAŞ ........ 325
CIPBOLIK ........ 326
DIZ ........ 326
ZİLİNA *(I MƏTN)* ........ 327
ZİLİNA *(II MƏTN)* ........ 327
QIRQOVUL ........ 328
BAYRAQ QAÇIRMA ........ 329
KIK-KIX ........ 330
HÖLƏY ........ 330
İLLA ........ 330

**XVI. ANDLAR ........ 332**

**XVII. İNAMLAR ........ 333**

**XVIII. QARĞA DİLİ ........ 334**

**XIX. ADVERMƏLƏR ........ 344**

**SÖYLƏYİCİLƏR VƏ TOPLAYICILAR ........ 348**

**UŞAQ FOLKLORU XƏRİTƏSİ ........ 355**

***          ***          ***

*Kitab «Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzində səhifələnmiş və çap olunmuşdur.*

*Nəşriyyat redaktoru –* ***Əliş Mirzallı***
*Texniki redaktor –* ***Mətanət Qaraxanlı***
*Kompyuter tərtibatı –* ***Günel Muxtarova***
*Korrektor –* ***Rita Müslümova***

Çapa imzalanıb: 20.10.2017.
Format: 60x90 1/16. Qarnitur: Times.
Ofset çap. Ofset kağızı. Həcmi: 23 ç.v.
Tiraj: 250. Sifariş № 17.

Az 1014, Bakı, Rəsul Rza küç., 125/139b
Tel./faks 596 21 44; (055) 715 63 99
e-mail: mutarjim@mail.ru
www.mutercim.az